ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 29
(III HİSSƏ)

BAKI – 2022

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 29 (III hissə). Bakı, 2022, 228 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Əziz Bəşir oğlu Məmmədov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**İzzət Əşrəf oğlu Rüstəmov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Zeynəddin Camal oğlu Hacıyev**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rövşən Əli oğlu Cavadov**, psixologiya üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Hikmət Əbdul oğlu Əlizadə**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# HUMANİTAR ELMLƏR

## FƏLSƏFƏ

## MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN SOSİAL SİYASƏTİNİN NƏZƏRİ ƏSASLARI

***Zeynəddin Hacıyev,***
***BDU-nun Fəlsəfə kafedrasının professoru***
***haciyev.zeyneddin.camal.@bsu.edu.az***

***Açar sözlər*:** Azərbaycan, sosial siyasət, nəzəriyyə və praktika, müasir tələblər, qloballaşma.
***Ключевые слова***: Азербайджан, социальная политика, теория и практика, современные требования, глобализация.
***Keywords***: Azerbaijan, social policy, theory and practice, modern requirements, globalization.

Bazar iqtisadiyyatının bərqərar olması demokratiyanın hərtərəfli və ardıcıl surətdə yerinə yetirilməsi, əhalinin təhsil və şüur səviyyəsinin yüksəlməsi, hüquqi dövlət quruculuğu prosesində inamla irəliləyən Azərbaycan dövlətinə sosial siyasətin bütün əsas istiqamətləri üzrə yeni-yeni hədəflər irəli sürməyi və onları realaşdırmağı mümkün və zəruri edir. Cəmiyyətimiz inkişaf edib möhkəmləndikcə, dövlətin mahiyyəti də dəyişilir, təkmilləşir. Burada dövlətin sosial yönümlülüyünün artması başlıca istiqamət kimi özünü göstərir. Həmin istiqamət möhkəmləndikcə əhalinin sosial şəraitinin yaxşılaşdırılması, əmək və məşğulluq göstəricilərinin yüksəlməsi, vətəndaşların sosial müdafiəsinin çoxsaylı tərəflərini ehtiva edən sahələrin hər birində əsaslı irəliləyişlər özünü göstərir.

Müxtəlif və rəngarəng maraqlar bolluğu ilə səciyyələnən müasir cəmiyyətdə sosial siyasətin düzgün təşkili, azadlıq, ədalət və sosial bərabərlik kimi ümumbəşəri prinsiplərin dönmədən həyata keçirilməsi heç vaxt indi olduğu dərəcədə yüksək aktuallıq kəsb etməmişdir. Sözügedən vəziyyəti şərtləndirən amillər sırasında müasir dövrdə güclənməkdə olan qloballaşma prosesləri də öncül yerlərdən birini tutur. Qloballaşma dövlətlərin sosial siyasətinin formalaşmasına təsiri əsas etibarilə aşağıdakı iki səpkidə çıxış edir. Bir tərəfdən müxtəlif ölkələrdə sosial siyasəti ilə bağlı islahatların müqayisə olunması, onların müsbət cəhətlərinin təhlil edilib ümumiləşdirilməsi və beləliklə də sosial siyasətdə normativ ünsürlərin və tərəflərin artmasını şərtləndirir. Digər tərəfdən, müxtəlif dövlətlərin uğurlu sosial siyasət yertitməsinə mane olan amillərin aradan qaldırılması yolunda beynəlxalq əməkdaşlığı zərurətə çevirir.

Müasir şəraitdə Azərbaycanda dövlətin sosial siyasətinin mahiyyəti, vəziyyəti, həyata keçirilmə səviyyəsi və gələcək perspektivlərini səmərəli araşdırmaq üçün öncə «dövlətin sosial siyasəti» anlayışına diqqət yetirmək lazım gəlir. Belə bir zərurət həm də ona görə yaranır ki, elmi-nəzəri ədəbiyyatda sözügedən definisiya birmənalı anlaşılmır. Bu münasibətlə söylənilən ayrı-ayrı fikirlərin təfərrüatına varmadan, onların hamısanda ifadə olunan ümumi və əsas tərəfləri qeyd etməklə məhdudlaşmaq məqbul görünür.

Beləliklə sosial siyasət anlayışına aşağıdakı əsas tərəflər daxil edilir: ölkə əhalisinin əmək və məşğulluq səviyyəsinin yüksəldilməsi; əhalinin sosial müdafiəsi və təminatının yaxşılaşdırılması, ətraf mühitin qorunmasına qayğının gücləndirilməsi; səhiyyə, rabitə və nəqliyyat infrastrukturlarının inkişafı; əmək və mənzil şəraitinin təkmilləşdirilməsi, gənclərin və uşaqların tərbiyəsinə xüsusi diqqət yetirilməsi. Əhalinin asudə vaxtı və istirahətinin səmərəli təşkil edilməsi (3, s.72).

Yuxarıda sadalanan istiqamətlər ümumi xarakter daşıyır, yəni müxtəlif dövlətlərin sosial, siyasətinin əsas mahiyyətini səciyyələndirir. Bununla yanaşı, hər bir dövlətin sosial siyasətini digərlərin fərqləndirən, özünəməxsus cəhətlər də güclü təsir göstərir. Bu münasibətdə cəmiyyətin inkişaf səviyyəsi, ictimai quruluşun xarakteri, malik olduğu iqtisadi və mənəvi potensialı xüsusi yer tutur. Deyilənlərdən əlavə ölkənin geopolitik vəziyyəti beynəlxalq əhatə dairəsi, digər dövlətlərlə əməkdaşlıq göstəriciləri də az rol oynamır.

Qeyd olunan müstəvidə yanaşdıqda müasir Azərbaycan dövlətinin yeritdiyi sosial siyasətin özünəməxsusluğuna rəvac verən bir sıra amiləlrin olduğu nəzərə alınmalıdır. Hər şeydən əvvəl, ölkəmiz uzun müddət digər dövlətlərin təsir dairəsi altında fəaliyyət göstərmiş, son 70 ildə isə SSRİ-nin tərkibində mövcud olmuşdur. Sözügedən məqam burada müstəqillik dövrünə sosial siyasət sahəsində bir sıra ciddi geriliklərin və maneələrin miras qalmasını sərtləndirmişdir. Nəticədə sosial siyasəti  inkişaf etdirmək üçün nisbətən uzun dövr, çoxlu iqtisadi maliyyə vəsaiti və mədəni yüksəliş əldə etmək tələb olunmuşdur.

Digər tərəfdən, müstəqilliyin ilk illərində ölkədə siyasi sabitsizliyin mövcud olması, siyasi hakimiyyət uğrunda gedən çəkişmələr, bəzi üzdəniraq liderlərin öz şəxsi ambisiyalarını həyat keçirmək naminə etdiyin populist çıxışlar da düzgün sosial siyasət yeridilməsində xeyli çətinliklər yaratmışdır. Sonra, ölkəmizin əhalisinin çoxmillətli tərkibə malik olması da sözügedən sahədə müəyyən çəinliklər törədirdi. Belə ki, keçmiş SSRi-də guya milli məsələnin birdəfəlik həll olunduğuna dair rəsmi bəyanatlara və çağırışlara baxmayaraq, real həyatda millətlərarası mübahisələr və münagişələr qalmaqda davam edirdi. Əhalisinin tərkibində 90-dan artıq millətin və etnik qrupların yaşadığı Azərbaycanda milli münasibətlərin tənzimlənməsi ciddi çətinliklər yaradırdı.

Söhbət ölkəmizin ərazisində məskunlaşan çoxsaylı etnik birliklərin spesifik mənafelərinin nəzərə alınması və onların ümumdövlət mənafeləri ilə düzgün əlaqələndirilməsi işində özünü göstərən nöqsanlardan gedir. Sovet dövründən miras qalmış milli düşmənçilik, müxtəlif millətlərin bir-birinə qarşı ərazi iddiaları müstəqilliyin ilk dövründə daha güclü şəkildə özünü göstərməyə başladı. Bunun aydın nümunəsini Ermənistan dövlətinin və erməni millətçilərin ölkəmizin ərazi bütövlüyünü pozmaq yolunda atdığı addımlar sübut edir. Ölkəmizin o vaxtda hakimiyyətdə siyasi rəhbərliyinin zəfiliyi və təcrübəsizliyindən istifadə edərək, habelə müstəqilliyin yaratdığı çətinlərdən bəhrələnərək erməni işğalçıları qısa müddət ərzində ərazimizin 20 faizindən çoxunu ələ keçirməyə nail. Dağlıq Qarabağda və ona bitişik 7 rayonda yerli əhaliyə qarşı qəti düşmənçilik aktları, onların uzun illər ərzində yaşadıqları əzəli dədə-baba torpaqlarından qovulması ilə nəticələndi.

Beləliklə, 200 mindən çox qaçqın və bir milyondan çox məcburi köçkün ordusu yarandı. Onlar erməni işğalçılarının əlindən güc bəla ilə qaçıb canlarını qorumağa, görünməmiş əzab və əziyyətlərə düçar oldular. Azərbaycan müxtəlif şəhərlərində və ayrı-ayrı rayonlarında məskunlaşan bu insanların sosial vəziyyəti son dərəcə acınacaqlı olmuşdur. Onlar hətta elementar yaşayış göstəricilərindən məhrum idilər, ağır vəziyyətdə yaşayır, faktiki olaraq acınacaqlı ömür sürürdülər. 1990-cı ilin yanvarın 20-də rus ordusunun Bakıda törətdiyi faciəvi qırğınlar, bundan cəmi 2 il sonra – 1992-ci ilin fevralında rus ordusunun dəstəyi ilə erməni cəlladlarının törətdiyi Xocalı soyqırımı və digər qətllər ölkə əhalisinin vəziyyətində daha böyük çətinliylər törətdi.

Ölkəmizin ərazinin mühüm bir hissəsini zorla ələ keçirmiş erməni işğalçıları bu yerlərdə görünməmiş vəhşiliklər törədir, iqtisadiyyatı, təbii ehtiytları talan etməklə məşğul olurdular. İşğalın davam etdiyi 30 ilə yaxın bir müddətdə erməni vandalları evləri, şəhərləri və kəndləri darmadağın etməklə minlərlə mədəni və dini abidələri söküb dağıtmaqla məşğul olmuşlar. Bu dövrdə onlar həm də ənənəvi toponimləri zorla erməniləşdirməyə və özününküləşdirməyə

çalışırdılar. Bütün bunlar isə ölkəmizdə dövlətin sosial siyasətinin aparılmasında ciddi əngəllər törədirdi. 90-cı illərin əvvəllərində xalqımızın Ümummilli Lideri H.Əliyevin siyasi hakimiyyətə gəlişi belə bir ağır dövrə təsadüf edirdi.

Ulu Öndər öz fəaliyytinin ilk günlərindən etibarən ölkədə vəziyyəti düzgün qiymətləndirmək və onu xilas etmək strategiyası işləyib hazırladı və onu dönmədən həyata keçirməyə başladı. Bu yolda ilk uğur kimi atəşkəsin əldə olunması qeyd olunmalıdır. Eyni zamanda ölkə daxilində siyasi sabitliyin bərqərar edilməsinə yönələn tədbirlər həyata keçirildi. Ölkəmizin iqtisadi və sosial vəziyyətinin yaxşılaşdırılması işində Ulu Öndərin işləyib hazırladığı və dönmədən həyata keçirdiyi uğurlu neft strategiyası müstəsna rol oynadı. Dünyanın qabaqcıl şirkətləri tərəfindən Azərbaycan neftinin hasil edilməsi və beynəlxalq bazara çıxarılması istiqamətində birgə əməklaşlıq nümayiş etdirildi.

İllər ötdükcə neft strategiyası öz bəhrələrini verməyə başladı. Ölkəmizə sərmayə axını artdı, iqtisadi və maddi-texniki potensial tədricən gücləndi. Nəticədə dövlətin sosial siyasətinin doğru axına düşməsi və tədricən inkişafı özünü göstərdi. İqtisadiyyat möhkəmləndikcə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə diqqət və qayğı çoxaldı. Bu tamamilə təbii idi, çünki Azərbaycan öz ərazisinin qanunsuz olaraq, Beynəlxalq hüququn normalarının pozulması faktı ilə barışa bilməzdi. Sözügedən istiqamətdə atılan uğurlu addımlar nəhayət ki, gözlənilən nəticəni verdi.

2020-ci ilin sentyabrında başlanılan 44 günlük II Qarabağ müharibəsi xalqımızın qələbəsi ilə nəticələndi. Rəşadətli ordumuz Ali Baş Komandan İ.Əliyevin rəhbərliyi altında işğal olunmuş ərazilərimizi yağı düşməndən təmizlədi. Qalibiyyətli Zəfər yürüşü sayəsində minlərlə şəhər və kənddən erməni işğalçıları qovuldu, ölkəmizin pozulmuş ərazi bütövlüyü bərpa edildi. Bundan sonra dövlətimizin sosial siyasətinin adekvat həyata keçirmək üçün real imkanlar açıldı. Hazırda işğal olunmuş ərazilərimizin minalardan təmizlənməsi, orada yaşayışın bərpa olunması, dağıdılmış şəhər və kəndlərin yenidən qurulması həyata keçirilməkdədir. Bu işin uğurla başa çatması, on minlərlə qaçqın və köçkünün öz ata yurduna qayıtmasına imkan verəcəkdir. Eyni zamanda dövlətin sosial siyasətinin mühüm bir prioriteti təmin olunacaqdır.

Dövlətimizin sosial siyasətinin uğurla davam etməsində ölkəmizin əlverişli geopolitik vəziyyəti də əhəmiyyətli yer tutur. Belə ki, Azərbaycan ənənəvi olaraq Asiya ilə Avropanın qovuşuğunda yerləşən məkan kimi tanınır. Bu iki qitəni birləşdirən yollar əsrlər boyu bizim ərazimizdən keçmişdir. Hazırda isə Azərbaycanın Qərb və Şərq arasında bağlayıcı rolunu daha da gücləndirmək sahəsində böyük işlər görülməkdədir, ölkəmizin logistika imkanları durmadan genişlənməkdədir. İkinci Qarabağ müharibəsində qazanılan qələbə bu sahədə daha böyük perspektivlər açır. Bu baxımdan Zəngəzur dəhlizinin açılması, misilsiz əhəmiyyət kəsb edir.

Müharibədən yenicə çıxmış Azərbaycan dövləti öz sosial siyasətində işğal altında qalmış ərazilərin minalardan və digər zərərli maddələrdən təmizlənməsi, ekosistemdə baş vermiş pozuntuların aradan qaldırılması, insanların öz yurdlarına qayıtması üçün hazırlıq işləri aparmaqla yanaşı, erməni faşistləri üzərində qələbəni öz qanları hesabına təmin etmiş şəhidlərin ailələrinə və müharibə gedişində öz sağlamlığını itirərək, əlil olmuş qazilərə dərin diqqət və qayğı göstərilməsini daim həyata keçirməkdədir. Şəhid ailələrinə birdəfəlik 11 min manat vəsait verilmiş, onlar təkcə 2021-ci ildə 1500 həyət evi və ya binalarda mənzillərlə təmin olunmuşlar. Yüzlərlə müharibə qazisi dövlət hesabına Türkiyədə öz sağlamlığını bərpa etdirərək vətənə qayıtmışlar. Onlara mənzil və avtomobillər vreilməsi işi uğurla getməkdədir. 2021-2025-ci illər əozində bu kateqoriyadan 20 min ailənin mənzilə olan tələbatının ödənilməsi nəzərdə tutulur.

Dövlətimizin sosial sahədə apardığı dərin islahatlardan təkcə Qarabağ müharibəsi iştirakçıları deyil, ümumilikdə ölkə əhalisi geniş miqyasda yararlanmaqdadır. Bunu ondan görmək olar ki, dövlətin iqtisadi gücü və potensialı möhkəmləndikcə insanların əmək və məişət şəraitinin

yaxşılaşdırılmasına yönələn tədbirlər də ardıcıl surətdə yerinə yetirilməkdədir. Bu istiqamətdə qazanılan uğurlar sırasında bazar iqtisadiyyatının törətdiyi işsizliyin və təbəqələşmənin aradan qaldırılması, əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, minlərlə yeni iş yerlərinin açılması önəmli yer tutur. Bütün bunların nəticəsidir ki, cəmiyyətimizdə son on illər ərzində yoxsulluq səviyyəsi 5 faizə enmişdir.

Ümumilikdə götürdükdə dövlətin sosial siyasəti geniş və əhatəli, çoxistiqamətli kompleks tədbirlər sistemi kimi çıxış edir. Onun əsas məqsədi əhalinin bütün təbəqələrinin, hər bir insanın çoxtərəfli və daim artmaqda olan həyatı tələbatlarını daha dolğun ödəməkdir. Bu siyasət həm də cəmiyyətin sərəncamında olan sosial nemətlərin hər kəs üçün əlçatar olmasını təmin etməyə, bu münasibətdə özünü göstərən qeyri-bərabərliyin aradan qaldırılmasına, bütünlükdə ölkə miqyasında, o cümlədən də regionlarda yaşayan əhalini keyfiyyətli təhsil, səhiyyə və digər sosial xidmətlər şəbəkəsi ilə əhatə olunmasına xidmət edir.

Onun məzmununda ölkənin malik olduğu iqtisadi və mənəvi potensiala əsaslanmaqla insnaların həyat şəraiti və həyat tərzinin fasiləsiz olaraq təkmilləşdirilməsi, cəmiyyətin sosial sahələrinin inkişaf etdirilməsi, vətəndaşlara lazım olan sosial dəstəyin göstərilməsi, onların sosial təhlükəsizliyi və müdafiəsini əhatə edən fəaliyyət başlıca yer tutur (1, s.18).

Dövlətin sosial siyasətinin həyata keçirilməsi mexanizm vasitələri və yolları son dərəcə mürəkkəb sistemi əhatə edir. Burada çoxsaylı sosial institutların gördüyü işlər üzərində bir qədər geniş dayanmaq zəruridir. Əvvəla onu qeyd edək ki, hər bir cəmiyyətdə çoxsaylı sosial institutlar fəaliyyət göstərir. Onların əsas vəzifəsi ictimai həyatın təşkilatlanmış formaları olmaqla, insanların həyat fəaliyyətini və davranışlarını, burada zəruri, mümkün və qadağan olunan normaları tənzimləməkdir. Bu mənada onları insanların tarixən qərarlaşmış, təşkilatlanmış ictimai əlaqələr sistemi kimi səciyyələndirmək olar. Sosial institutlar daxili məzmununa görə çox müxtəlif növləri əhatə edir.

Hər bir növ özünəməxsus rol oynayır və funksiyalar həyata keçirir. Bu mənada yanaşdıqda iqtisadi institutlar insanların əmək fəaliyyətini, bazar münasibətlərini, əmək haqqı, ticarət, bank, menecment və marketinq ilə bağlı məsələləri həll edir. Siyasi institutların əsas funksiyaları ölkənin siyasi həyatını tənzim və təşkil etmək, vətəndaş cəmiyyəti üçün səciyyəvi olan seçki sistemi, hüquq mühafizə orqanları sistemini həyata keçirməkdir, sosial institutlar sisteminin təsnifatında elm və mədəniyyət fəaliyyətini həyata keçirənlər mühüm yer tutur. Burada ölkədə elmin və təhsilin inkişafının nizama salınması, çoxsaylı mədəniyyət növlərinin təkmilləşdirilməsinə yönələn institutlar əsas yer tutur. Deyilənlərlə yanaşı, cəmiyyətlə qohumluq və nigah münasibətlərini tənzimləyən, uşaqların tərbiyəsini həyata keçirən ailə institutunun da mühüm rol oynadığı qeyd edilməlidir. Nəhayət, müasir cəmiyyətdə konfessial fəaliyyəti nizamlayan din institutunun da əhəmiyyətli yer tutduğu göstərilməlidir.

Dövlətin sosial siyasətinin həyata keçirmə vasitəsi olaraq, sosial institutlar çoxtərəfli funksiyalar yerinə yetirirlər. Onların sırasında aşağıdakılar əsas yer tutur: a) şifahi və yazılı davranış qaydaları, normaları, kodekslərinin həyata keçirilməsi üzərində nəzarət; b) vətəndaşların hüquqları, vəzifələri və məsuliyyətlərini, habelə onların məqsəd və dəyərləri bölgüsünü reallaşdırmaq; c) simvolik və faydalı mədəniyyət nümunələrinin, ideoloji prinsiplərin təbliği sahəsində fasiləsiz işlər görmək (2, s.25-26).

Sosial institutlar cəmiyyətdə sosial qrupların və ayrı-ayrı insanların maddi və mənəvi tələbatlarını ödəmək məqsədilə müvafiq sosial təşkilatlar yaradır. Bundan əlavə iqtisadiyyatda və mədəni həyatda normal və səmərəli simvollar sistemi (ticarət markası, brend və s.) işləyib hazırlayır.

Sosial siyasətin həyata keçirilməsində sosial institutların rolu müstəqillik dövründə daha da artır. Bu münasibətdə postsovet dövründə Azərbaycanda geniş və əhatəli sosial institutlar

şəbəkəsinin fəaliyyət göstərdiyi xüsusi vurğulanmalıdır. Hazırda cəmiyyətimizdə insnaların fəaliyyətinin demək olar ki, bütün sahələri müvafiq sosial institutlar ilə əhatə olunmuşdur və müstəqil dövlətin sosial siyasət strategiyasını uğurla yerinə yetirməkdədir.

Bu, təsadüfi olmayıb, onların mahiyyətindən irəli gəlir. Belə ki, sözün geniş mənasında götürülən sosial institut ictimai həyatın bütün sferalarında insanların öz fəaliyyətini səmərəli yerinə yetirmələri naminə təşkilatlanması deməkdir. Bu təşkilatlar insanların iqtisadi, sosial, siyasi, mədəni və mənəvi tələbatlarını ödəməyə xidmət edir. Sözügedən prosesdə onlar müvafiq əlaqələr sistemi, dəyərlər və normalar yaradırlar, beləliklə də insanların fəaliyyətinin düzgün təşkilini təmin və tənzim edir (4, s.428).

Dövlətin sosial siyasəti bir yerdə dayanıb durmur, daim inkişaf edir və təkmilləşir. Qeyd olunan proses cəmiyyətin maddi və mənəvi potensialının möhkəmlənməsi, sosial müdafiə qabiliyyətinin artması ilə bilavasitə əlaqədə baş verir. Dəyişilmə və inkişaf, eynilə də sosial institutların fəaliyyəti üçün səciyyəvidir. Əks təqdirdə onlar dövlətin sosial siyasət hədəflərini və məqsədlərini adekvat ifadə edə bilməzdilər. Bununla əlaqədar qeyd edək ki, müasir Azərbaycan cəmiyyətində bazar iqtisadiyyatı möhkəmləndikcə, ardıcıl və hərtərəfli demokratikləşdirmə xətti reallaşdıqca, hüquqi dövlət və vətəndaş cəmiyyəti yaradılması yolunda addımlar atıldıqca, əhalinin şüurluluğu, təhsil səviyyəsi və mədəniyyəti yüksəldikcə, sosial institutların fəaliyyəti də təzələnir və yeniləşir, onların yerinə yetirdikləri ənənəvi funksiyalar tamamlanır və zənginləşir.

Bu müstəvidə yanaşdıqda müasir Azərbaycanda sosial institutların yerinə yetirdikəri funksiyalar sırasında aşağıdakılar ön plana çıxır: 1) müvafiq fəaliyyət sahələri üzrə insanlar arasındakı ənənəvi ictimai əlaqələrin və münasibətlərin bərtərəf edilməsi (yəni burada köhnəlmiş, öz vaxtını keçirmiş tərəflərin bir kənara atılması, müsbət tərəflərin təkrar istehsal edilməsi, eyni zamanda yeni reallıqların doğurduğu keyfiyyətlərin və səciyyəvi cəhətlərin dövriyyəyə cəlb olunması); 2) insanların müasir fəaliyyətini nizama salan və tənzim edən mexanizmlərin və davranış çərçivələrinin müəyyənləşdirilməsi; 3) sosiallaşmanın inkişaf etdirilməsi, yəni insanlar tərəfindən sosial praktikanın, dəyərlər və mədəniyyət nümunələrinin əxz olunması prosesinin inkişaf etdirilməsi; 4) inteqrativ və kommunikativ funksiyanın həyata keçirilməsi.

Bu sonuncu bir tərəfdən institusional normalar, qaydalar, qərarlar və rollar sisteminin təsirilə insan qruplarının mütəşəkkililiyini, qarşılıqlı əlaqələri və məsuliyyətini möhkəmləndirməyi nəzərdə tutur. Digər tərəfdən, müəyyən bir sosial institut daxilində, habelə müxtəlif sosial institutlarda əhatə olunan insanlar arasında ünsiyyət və əlaqələrin artırılması da buraya daxildir.

Sosial institutların sosial siyasəti həyata keçirməyə yönələn fəaliyyəti bir sıra vasitələrlə (həm mükafatlandırma, həm də sanksiyalaşdırma) təmin olunur. Pozitiv istiqamətli vasitələr sırasına aşağıdakılar daxildir: minnətdarlıq (təşəkkür), maddi kömək, müsbət davranış nümunələrinin dəstəklənməsi və təbliğ olunması. Eynilə də müxtəlif sanksiyaların tətbiqi sosial institutların idarəedici və nəzarətedici fəaliyyətində əsas yerlərdən birini tutur. Sözügedən təsir vasitələri insanların öz vəzifə borclarını düzgün yerinə yetirməsinin təmin olunması, onların hüquqları ilə məsuliyyətinin vəhdətini əhatə edir.

Müasir dövlətin sosial siyasətinin mühüm istiqamətlərindən olan əmək fəaliyyətinin normalaşdırılması, məşğulluğun yaxşılaşdırılması, işçilərin peşə-ixtisas göstəricilərinin yaxşılaşdırılması, əhalinin sağlamlığı, mədəni və təhsil səviyyəsinin sosial infrastrukturun inkişaf etdirilməsində sosial institutlar artmaqda olan rol oynayırlar.

Qabaqcıl dünya ölkələrinin təcrübəsi sübut edir ki, dövlətin sosial siyasətinin düzgün təşkili, onun müasir fəaliyyətində uğurlar qazanmasının və gələcək inkişafının zəruri şərtidir. Bu təsadüfi olmayıb, onunla şərtlənir ki, ümumilikdə cəmiyyətin inkişafı bir çox cəhətdən məhz onun sosial siyasətinin səviyyəsi ilə müəyyən olunur. Hər bir ölkənin inkişafı perspektivləri, əsas

prioritetləri və məqsədləri sosial siyasətdə özünün mərkəzləşmiş ifadəsini tapır. Digər tərəfdən, məhz sosial siyasət cəmiyyətin malik olduğu iqtisadi və mənəvi potensialı reallaşdırmağa stimul yaradır. Xalqın əmək və məişət şəraitinin yüksəldilməsinə xidmət edən sosial siyasət işçilərin əməkdə maraqlılıq səviyyəsini yüksəldir. Buradan aydın olur ki, dövlətin sosial siyasətində nöqsanlar labüddən öz müvafiq ifadəsini sosial gərginliyin artması, insanlarda səmərəli fəaliyyətə marağın azalması halları ilə nəticələnir.

## ƏDƏBİYYAT


1. Rəcəbli Hadi. Azərbaycan Respublikasının Sosial müdafiə sistemi. Bakı, «MBM», 2012, 408 s.
2. Агинов Г.А. , Калашников С.В. Социальная политика. Теория и практика. М., 2008, 342 с.
3. Социальная политика в пост социалистическом обществе. М. Наука, 2001, 527 с.
4. Социальная политика / под ред. Н.А.Болгина. М., «Экзамен», 2008. 943 с.


## MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN SOSİAL SİYASƏTİNİN NƏZƏRİ ƏSASLARI

*Zeynəddin Hacıyev*

## XÜLASƏ

Hər bir dövlətin sosial siyasəti, onun daxili funksiyaları sırasında aparıcı yerlərdən birini tutur. Bu, təsadüfi olmayıb onunla şərtlənir ki, ölkənin inkişafının müasir vəziyyəti və gələcək perspektivləri bir çox cəhətdən məhz dövlətin sosial siyasətinin səmərəlilik səviyyəsi ilə müəyyən edilir. Qeyd olunan müstəvidə yanaşdıqda vurğulanmalıdır ki, postsovet məkanında yaranmış digər müstəqil respublikalarda olduğu kimi, Azərbaycanda da dövlətin sosial siyasətinin tənzimlənməsi və təkmilləşdirilməsi daim diqqət mərkəzində durur. Ölkəmizin iqtisadi, siyasi, mənəvi və mədəni həyatında reallaşdırılan əsaslı transformasiyalar sosial siyasətin uğurla baş verməsi və daim inkişaf etdirilməsi üçün tələb olunan müvafiq bazanı yaradır.

## THEORETICAL BASES OF SOCIAL POLICY OF MODERN AZERBAIJAN STATE

*Zeynaddin Hajiyev*

## SUMMARY

The social policy of each state occupies one of the leading positions among its internal functions. This is not accidental, due to the fact that the current state and future prospects of the country's development are largely determined by the level of effectiveness of the state's social policy. In this regard, it should be noted that, as in other independent republics in the post-Soviet space, the regulation and improvement of social policy in Azerbaijan is always in the center of attention. The fundamental transformations carried out in the economic, political, spiritual and cultural life of our country create the necessary basis for the successful implementation and continuous development of social policy.

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

*Зейнаддин Гаджиев*

## АННОТАЦИЯ

Социальная политика каждого государства занимает одно из ведущих мест среди его внутренних функций. Это не случайно, в связи с тем, что современное состояние и дальнейшие перспективы развития страны во многом определяются уровнем эффективности социальной политики государства. В связи с этим следует отметить, что, как и в других независимых республиках на постсоветском пространстве, регулирование и совершенствование социальной политики в Азербайджане всегда находится в центре внимания. Коренные преобразования, осуществляемые в экономической, политической, духовной и культурной жизни нашей страны, создают необходимую основу для успешной реализации и постоянного развития социальной политики.

# ƏL FƏRABİ FƏLSƏFƏSİNDƏ DÖVLƏT ANLAYIŞI

***Məmiyeva Elza İlqar qızı***
***BDU-nun II kurs magistrantı***
***bayramova_elza@mail.ru***

***Açar sözlər:*** Əl Fərabi, idarəetmə, dövlət idarəçiliyi, bərabərlik, xoşbəxt cəmiyyət
***Ключевые слова:*** Аль-Фараби, управление, государственное управление, равенство, счастливое общество.
***Keywords:*** Al-Farabi, governance, public administration, equality, happy society

Fərabi türk coğrafiyasında doğulmuş bir türk alimi kimi öz ideyaları ilə bütün əsrlərə işıq salmışdır.İnsanlıq aləminin ikinci müəlliminin türk müdrik olması da türk dünyasını qürurlandırır. Onun siyasət və dövlət idarəçiliyi haqqında fikirləri bu gün də aktualdır və bəşəriyyət onun aydın fikirlərindən istifadə edir. Onun "Fəzilətli şəhər" əsəri dövləti sosial xaosdan xilas etmək və xoşbəxtlik gətirmək cəhdidir.

Fərabi siyasət elmini dövlət idarəçiliyinin balans elementi kimi görürdü. "Dövlətlər canlı orqanizmlər kimidir." Bədənin hər hansı bir hissəsində olan xəstəlik Müalicə edilməzsə, xəstəliyin bütün bədənə yayılması qaçınılmazdır. Dövlət qurumları və orqanlarını da eynilə rüşvət xəstəliyindən qorumaq lazımdır.İnsan sosial varlıq olduğu üçün bir-birinə möhtacdır. Buna görə də ictimai əmək bölgüsü vacibdir. Dövlətin ordusu bütün təhlükələrə qarşı çəkindirici qüvvədir. Məhkəmə, qanunvericilik və icra hakimiyyəti orqanları öz vəzifələrini yerinə yetirərkən, istehsal fəaliyyəti ilə məşğul olanlar da öz üzərlərinə düşən vəzifələri yerinə yetirirlər. Digər iqtisadi fəaliyyəti həyata keçirənlər də bu iş bölgüsünə əməl edib dövləti birlikdə quracaqlar.

*Elm və dövlət əlaqələri*

Fərabinin fikrincə, hər şey son nəticədə elmdən asılıdır. Cahil cəmiyyətdən biliyi sevən və dəstəkləyən dövlət olmayacaqdır. Bilmək üçün biliyi sevmək lazımdır. Farabi biliyin nəzəri və praktiki dəyərlərini izah edərkən insan və cəmiyyətin xoşbəxtliyini bu dəyərlərlə əlaqələndirir."Biliyin bu dəyərlərini əldə edə bilən insanlar əsl filosoflardır." Ona görə də xoşbəxt dövlətin qurulması ancaq filosofların idarəçiliyindən asılıdır.

Fərabinin Seyfüddövlənin sarayında məskunlaşmasının səbəblərindən biri də dövlət başçısının elmə, alimlərə göstərdiyi hörmətlə bağlı olması idi. Həmin dövrdən etibarən sarayda alimlər üçün maddi və mənəvi imkanlar tam təmin olunmuşdu.Farabi dövlət xadimi ilə siyasətçi arasında müəyyən fərqlər qoyur. Yalanlarla xalqı aldadan bəzi siyasətçilərdən fərqli olaraq, dövlət adamı danışıq və davranış qabiliyyətinə malikdir. Gözəl və düzgün danışıq eyni zamanda, onların fikir mübadiləsi, ilk növbədə öz davranışlarında hərəkətə çevrilir.

Fəzilətli şəhərdə hər bir fərd dövlət adamları kimi elm sahibidir, elmi sevir, elm əldə etməyə çalışır. Şəhəri fəzilətli edən əsas amil ayrı-ayrı şəxslərin şüurlu və fəal olmasıdır. Fərdlər fəzilətli ailələri, fəzilətli ailələr isə bütövlükdə fəzilətli şəhəri yaradırlar.Fəzilətli şəhərlərin yaranması da bütöv bir dünyanın fəzilətli quruluşuna nail olması deməkdir.

Biliyin həqiqəti dedikdə, ədalətin mülkün əsası olması kimi bir müddəanı təhlil edə bilərik.Dövlət başçısı bu təklifin düzgünlüyünü müdafiə edə və hətta yaya bilər.Lakin əgər tabeliyində olan qurumlar fərdlərin hüquqlarını qorumaq üçün bunu fəal şəkildə tətbiq etməsə, dövlət başçısı bilik və davranış ziddiyətinə düşür.Biliklərini davranışlarına da şamil etməyən bir liderin icra gücü yoxdur. Sanksiya tətbiq edən hökumətlərin ömrü çox qısa olur. Rəhbər hər vəziyyətdə nümunəvi insandır. Fərabi dövlət başçısını təsvir edərkən onun fikrini ifadə etmə

qabiliyyətinə diqqət çəkir: Ritorika və gözəl danışıq qabiliyyəti dövlət adamları üçün ən əsas ehtiyacdır. Çünki lazım olanda döyüşmədən vuruşub masada qalib gəlmək başçının zəka və kəşfiyyat qabiliyyətlərindən yaxşı istifadə etməsindən asılıdır. Analitik düşünə bilməyən və fikirlərini Açıqca bəyan edə bilməyən zəif danışan başçının dövləti də zəifləyər. "Nəfsi hisslərinin əsiri olan başçı heç vaxt uğur qazana bilməz".. Nəfsin və rüşvətin köləsi olmuş hökumətlərin və idarəçilərin qurtuluş göstərişlərinin çoxu,Farabinin dünyagörüşündə var, önəmli olan onlara çatmaq və tətbiq mərhələsinə keçməkdir.

Dövlət başçısı və onun ətrafındakılar ilk növbədə əxlaqsız davranışlardan uzaq olmalıdırlar ki, xalqa nümunə olsunlar. Gözəl və xoşbəxt yaşamaq bir sənət olduğu kimi, dövlət idarəçiliyi də özlüyündə bir sənətdir. Dövləti idarə edən siyasət adamları əgər pis sənətkardırsa, şübhəsiz, dövlətin dağılması qaçınılmazdır.Yəni hüquqi zəiflik olarsa heç bir nəticə əldə edilə bilməz. Sosial hadisələrin çoxlu səbəbləri olduğundan, həm idarə edənlərin,həm onların köməkçilərinin, eləcə də hüquq normalarının fakturaya uyğun olması vacibdir.Biz bunu Farabinin siyasət sistemində görürük. Fərabinin bir siyasət fəlsəfəsinin banisi olduğuna şübhə yoxdur.

Fərabiyə görə, hər kəs idarəçilik sənətini icra edə bilməz. İdarəetmə, anadangəlmə xüsusiyyətdir və Tanrı vergisidir. İnsan cəmiyyətləri hansı kateqoriyada olmasından asılı olmayaraq bir araya gələrək rəhbər seçmək və hüquqlarını qorumaq məcburiyyətindədirlər.Sosial varlıq olan insan tək yaşaya bilməz. İş bölgüsü və paylaşma cəmiyyətin bütün səviyyələrində olmalıdır ki, dövlət və millət davamlılığını qorusun. Dövlət idarəçiliyini kimin həyata keçirməsi məsələsi hələ qədim zamanlardan mübahisəli olmuşdur. Platonun "Dövlət" əsəri, Farabinin "fəzilətli şəhəri", Kampanellanın "Günəş dövləti", T.Morenin "utopiyasında" deyilənlər xoşbəxt hökuməti kimin və necə həyata keçirəcəyidir. "Dövlət"əsərində Platon idarəetmə üslubundan asılı olmayaraq hökmdarların filosof olmasını istəyir. İdarəçi olan insanın müəyyən xüsusiyyətləri lazımdır. Bu xüsusiyyətlərdən ən mühümü bilikdir. Elm və yalan bir yerdə getməyəcəyinə görə, dürüst olunmalıdır.

Hər kəs idarəçi ola bilməz. Bəzi insanlara bu qabiliyyət təbiət tərəfindən verilmişdir.İctimai varlıq olan insan hökmdarın idarəsi altında mövcudluğunu davam etdirir. Fərabinin fikrincə, insanlar xoşbəxt olmaq istəyirlər. Onlar bir qayda altında birlikdə yaşamalıdırlar. Fəzilətli prezidentin göstərişlərinə əməl etmək hər bir vətəndaşın borcudur.Cəmiyyətdə köməklik anlayışı həm fikir, həm də davranış baxımından olmalıdır.

Fərabinin səksən illik ömrünü bütün bəşəriyyətə həsr olunmuş səmərəli ömür kimi qiymətləndirmək olar. Onun siyasət və dövlətə dair əsərləri ilə bərabər,bütün əsərləri dünya insanlığının xoşbəxtliyi üçündür. Onun fikrincə, insanın əsas məqsədi xoşbəxtlikdir. Xoşbəxtlik başqa bir şeyə nail olmaq üçün bir vasitə kimi arzuolunmaz mənliyin arxasınca getməkdir. O, siyasət və əxlaqı bir növ, eyni problemin iki fərqli tərəfi kimi görür.Qanunlar qəbul edilərkən cəmiyyətin bütün təbəqələrinin müşahidə olunması, ədalətin mərkəzdə olması zəruridir. Ədalət mühakiməsinin icrasında naqis bir sistem etibarsızdır.

Bir sözlə, idarəetmə, düzgün idarəetmə, qanunlar çıxarmaq, xoşbəxt olmaq, yaxşı yaşamaq, ilk növbədə bilik məsələsidir. Yalnız bəzi xüsusi insanlar bu biliyə malikdirlər və ya buna qadirdirlər.Hüquq normalarının funksionallığı və əsaslılığı ilə yanaşı, dövlət başçısı müəyyən xüsusiyyətlərə malik olmalıdır ki, bu da dövlətin öhdəliyi, davamlılığı üçün çox vacib, əvəzedilməz şərtdir. Farabinin dövlət anlayışında dövlət başçıları və onların köməkçiləri aşağıdakı xüsusiyyətlərə malik olmalıdırlar.Onların orqanları mükəmməl və sağlam olmalıdır. Beləliklə, o, üzərinə düşən vəzifələri rahatlıqla yerinə yetirə biləcək. Qüvvətli anlayışa,söylənəni və danışanın məqsədini sürətli şəkildə anlaya biləcək möhkəm zehni qavrayışa sahib olmalıdır.Ayıq və güclü nitqli, təhsili sevən, səxavətli və ədalətli olmalıdır.Hökmdarların ən mühüm xüsusiyyəti olan hikmətə yiyələnmək şərti yerinə yetirilməzsə, digər şərtlər yerinə

yetirilsə belə, dövlətdə hökmranlıq baş tuta bilməz. Çünki dövlət hökmranlığı müdriklik, yəni hadisələrin pərdəarxasını görə bilmək məharətini tələb edir. Ani və düşünülmədən edilən hərəkətlərlə dövləti idarə etməyə çalışanlar çox vaxt dövlətin və millətin altında qalıb əzilirlər. Şəxsiyyətin xoşbəxtliyini təmin etmək dövlət başçısının əsas vəzifəsidir. Bəzən dövlət fərdlər üçün, bəzən də fərdlər dövlət üçün varlıqlarını davam etdirirlər. İnsan həmişə idarəçiyə ehtiyac duyur. Digər tərəfdən də, sosial hüquqların qorunması üçün dövlət olmalıdır. Hüquqları qorumaq üçün təkcə fərdlər yetərli deyil. İnsanlar fərd olaraq tək özləri haqlarının qorunmasını bacarmadıqları üçün bir araya gəlib dövləti qurmaq tələbi yaranır.Farabidə şəxsiyyət qarşısında dövlətin varlığı təbii və zəruridir.Farabi fəzilətsiz cəmiyyətləri belə təsnif edir:

a- Azğınlıq içindəki cahil cəmiyyət

b- Fəzilət prinsiplərini bilməyən pis cəmiyyət

c- Başlanğıcda yaxşı olan, lakin sonradan dəyişmiş cəmiyyət

d- Məqsədləri olmayan korrupsioner cəmiyyət.

İnsanların ədalət, bərabərlik və həqiqətə qarşı həssaslığı universal bir qavrayışdır. Tarix fəlsəfəsi yönündən baxsaq ədalətin çökdüyü, bərabərlik prinsipinin pozulduğu, yalanın həqiqətlə əvəz olunduğu cəmiyyətlərdə sosial çöküş çox sürətli baş verir. Fərabinin fikrincə, dövlət başçılarının möhkəm hüquqi strukturu yaradıldıqdan sonra qanunun cəmiyyət tərəfindən qəbul edilməsini təmin etməlidirlər”. Başçı dövləti təsadüfi və öz istəklərinə görə idarə edə bilməz. Hökmdar və ya iqtidarın subyekt olduğu yerdə qanun axtarılması lazımdır. Fərabinin dövlət fəlsəfəsində idarəçi ilə xalqı idarə edərkən tabe olmalı olduğu qanunlar yan-yanadır.Cəmiyyətlərin azğınlıqdan xilası təhsillə əldə olunacaq. Ədalətin, bərabərliyin və həqiqətin tanınması, yəni təkcə bilik kimi öyrədilməsi kifayət deyil. Bu anlayışların təhsil müəssisələrində praktiki təlim kimi keçirilməsi lazımdır. Fərabinin fikrincə, dövlət başçısı birinci dərəcəli nümunəvi maarifçidir. O, xalq maarifinə cavabdehdir. Farabi təhsil sistemini insan təbiəti üzərində qurur. İnsan təbiətinə uyğun olaraq tərbiyənin üsul və məqsədlərini müəyyən etməyə çalışır.

Beləliklə, o, təhsildə təbiətin, mühitin yerini görməkdə realist yanaşma nümayiş etdirir.Hər cəhətdən təhsil və təlimdə xoşbəxtliyə nail ola bilməyən cəmiyyətlərdə parçalanma və dağılma çox sürətlə baş verir. Dövlət başçısı cəmiyyəti əks etdirən çoxölçülü güzgüdür. Güzgünün əks etdirmə gücünə görə aydınlıq əldə edirik

## ƏDƏBİYYAT


1. Aydınlı,Yaşar,(2000),Farabi’de Tanrı İnsan İlişkisi, İz Yayıncılık, İstanbul.
2. Altıntaş, Hayranî, (2005),Farabi Sempozyum Bildirileri, Elis Yayınları, Ankara.
3. Akarsu, Bedia,(1987),Çağdaş Felsefe, İnkılap Kitabevi, İstanbul.
4. Bayraklı, Bayraktar,(1983),Farabi’de Devlet Felsefesi, Doğuş Yayınları, İstanbul.
5. Bayraktar, Mehmet,(1997),İslam Felsefesine Giriş, Diyanet Vakfı Yayınları, Ankara.
6. Berkes, Niyazi (1998), Sokrates’in Müdafaası, MEB Yayınları, İstanbul.

Bolay, M. Nanci, Farabi ve İbni Sina’da Kavram Anlayışı, M.E.B. Yayınları, İstanbul.

7. Çubukçu,İbrahim Agâh, (1986),Türk Düşünce Tarihinde Felsefe Hareketleri, İlahiyat Fakültesi Yayınları, Ankara.
8. Dindar, Bilal,(1998),Emmanuel Mounıer’de Personalizm, Kültür ve Turizm BakanlığıYayınları Ankara.
9. Ebu Nasr el Farabi,(1956),El Medinetü’l fazıla, çev. Nafiz Danışman, Maarif Basımevi, İstanbul.

10. Ebu Nasr el Farabi,(2012),Mutluluğun Kazanılması, çev. AhmetArslan, divan Yayınları, Ankara.
11. Ebu Nasr el Farabi,(1987),Tenbih, Amman, Ürdün.
12. Ülken Ziya Hilmi,(1967),İslam Felsefesi Kaynakları ve Tesirleri, İş Bankası Yayınları, İstanbul.

## ƏL FƏRABİ FƏLSƏFƏSİNDƏ DÖVLƏT ANLAYIŞI

***Məmiyeva Elza***

### XÜLASƏ

"Fəzilətli şəhər" əsərini yazmaqda Fərabinin məqsədi siyasi çəkişmələrdən uzaq xoşbəxt ictimai quruluş qurmaq idi. "Bir dünyanı xoşbəxt etmək üçün necə bir sistem qurmalıyıq" ideyasını ortaya qoyurdu. Farabi bu mənada sistem qurmaq özəlliyinə sahib filosofdur.

Fərabi yunan fəlsəfi-elmi irsi haqqında təkcə giriş məlumat və izahlar vermir,eyni zamanda, böyük filosofların üslubunda fəlsəfi bir sistem qurur. Bu sahədəki özəlliyi ilə bir ilahiyyat, metafizika psixologiya, əxlaq, siyasət qurumu həyata keçirir.

## КОНЦЕПЦИЯ ГОСУДАРСТВА В ФИЛОСОФИИ АЛЬ-ФАРАБИ

***Мамиева Эльза***

### АННОТАЦИЯ

При написании «Добродетельного города» Фараби стремился построить счастливую социальную структуру, свободную от политических раздоров. Он выдвинул идею «как построить систему, чтобы сделать мир счастливым». В этом смысле Фараби — философ, обладающий способностью строить систему.

Фараби не только дает вводные сведения и разъяснения о греческом философском и научном наследии, но и выстраивает философскую систему в стиле великих философов. Благодаря своей специфике в этой области он создает теологическую, метафизическую, психологическую и нравственную политическую систему.

## THE CONCEPT OF THE STATE IN THE PHILOSOPHY OF AL-FARABI

***Mamiyeva Elza***

### SUMMARY

In the work The Virtuous City, Farabi's goal was to build a happy social structure free from political strife. He put forward the idea of "how to build a system to make a world happy." In this sense, Farabi is a philosopher who has the ability to build a system.

Farabi not only provides introductory information and explanations about the Greek philosophical and scientific heritage, but also builds a philosophical system in the style of great philosophers. Due to its specificity in this field, he creates a theological, metaphysical, psychological and moral political system.

# ƏLİ BƏY HÜSEYNZADƏNİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASININ MÜQƏDDƏM ŞƏRTLƏRİ

***İsazadə Leyla İsmayıl qızı***
***BDU-nun II kurs magistrantı***
***leilaisazadeh@mail.ru***

***Açar sözlər:*** türk, turan, Əli bəy Hüseynzadə, maarif, tərəqqi, təkamül, milli oyanış, maariflənmək
***Ключевые слова:*** турецкий, туран, Али бек Гусейнзаде, образование, прогресс, эволюция, национальное пробуждение, быть просветленным
***Keywords:*** Turkish, turan, Ali bey Huseynzade, education, progress, evolution, national awakening, be enlightened

Başda Azərbaycan və Türkiyə olmaqla, bütün İslam Şərqinin və türk dünyasının təməl ideoloji, siyasi, mənəvi yönünün müəyyənləşməsində müstəsna rolu olan, "Türk dünyası"nın yetişdirdiyi dahi mütəfəkkir, ustad şair, mahir rəssam, musiqiçi, həkim, kamil natiq, publisist, orjinal tərcüməçi, pedaqoq, "Azərbaycan bayrağını mənalandıran üç ümdə amilin ideoloqu" Əli bəy Hüseynzadə (1864-1940) "Türkçülük hərəkatı"nın öndərlərindən biri olmuşdur. "Türkçülük hərəkatı"nın təşkilatlanması və siyasi güc qazanmasında, Azərbaycan Xalq Cümhuriyyətinin ideologiyasının fəlsəfi əsaslarının yaranmasında Əli bəy Hüseynzadə misilsiz xidmətlər göstərmişdir. Bütün həyatı Azərbaycan, Türk düşüncəsi ilə bağlı olan azadlıq carçısı, milli özünüdərk və milli azadlıq mübarizi kimi tanınan Əli bəy Hüseynzadə tarixin ən böyük mütəfəkkirlərindən birinə çevrilmişdir. Qərbin H.Heyne, Şopenhauer, Spenser, Hartman, Volter, Ş.Monteskyö kimi filosof və alimləri ilə, Şərqin Firdovsi, Nizami, Rumi, Nəvai, Füzuli kimi böyük şəxsiyyətlərini düşüncə və təsəvvürdə bir araya gətirən, onların dünyagörüşünü, düşüncələrini mənimsəyən və bunların hər birini süzgəcdən keçirən Əli bəy Hüseynzadə yeni dövrün yeni fikir adamı, mühim mütəfəkkiri idi.

Əli bəy Hüseynzadənin dünyagörüşünün formalaşmasında onun dünyaya gəldiyi ailə, aldığı təhsil, əhatələndiyi insanlar, bir sözlə yaşadığı mühit mühim rol oynamışdır. Bu səbəbdən ilk öncə Əli bəyin həyatı haqqında bir sıra məlumatları qeyd etmək lazımdır.

Əli bəy Hüseynzadə Salyan rayonunda dindar bir ailədə dünyaya gəlmişdir. Atası Molla Hüseyn Qafqaz müsəlman ruhani məclisinin Tiflisdəki altısinifli məktəbinə müəllim təyin olunduğundan Əli bəy də bu şəhərdə yaşamış və ilk təhsilini də bu məktəbdə almışdı [4, s.178]. O, "Müsəlman məktəbi"ndə aldığı təhsildən bəhs edərkən 4 ilini bu məktəbdə boşuna keçirtdiyini, bu illər ərzində şagirdlərin keyfiyyətli təhsil ala bilmədiyini vurğulamışdı. Özü də daxil olmaqla şagirdlərin öyrənə biləcəyi tək şey məhdud şəkildə fars dilində "Farisül-ibarə", "Tarixi-Nadir" və "Gülüstani-Sədi" əsərləri olduğunu qeyd etmişdi. Lakin maraqlı olan bir məqam da o idi ki, adı çəkilən məktəbin dini məktəb olmasına baxmayaraq, buradakı şagirdlər İslamdan belə bixəbər idilər. Əli bəy Hüseynzadə vəziyyətin belə olmasında əsas günahı müəllimlərdə görürdü [bax:6].

Atasını çox erkən yaşda itirdikdən sonra o, ana babası Qafqaz şeyxülislamı Axund Əhməd Səlyaninin himayəsində böyüyür. 1875-1885-ci illər ərzində Tiflis gimnaziyasında təhsilini davam etdirir. Ədəbiyyatşünas Əmin Abdinin yazdığına görə Gimnaziyanı bitirdikdən sonra M.F.Axundzadənin məsləhəti ilə Şeyxülislam Əli bəyin Peterburqda təhsil almasına istiqamət vermişdir. Əli bəy Hüseynzadə Peterburq İmperatorluq Universitetinin fizika-riyaziyyat fakültəsində oxumaqla yanaşı (1885-1889), Şərq fakültəsinin məşğələlərində də iştirak etmiş,

Şərq ədəbiyyatını mükəmməl öyrənmişdir. Ümumiyyətlə, bu universitet siyasi cəhətdən Rusiyanın ən öndə gedən universitetlərindən biri idi. Bu səbəbdən Əli bəy Hüseynzadənin siyasi təfəkkürü də formalaşmış və siyasi həyata atılmışdır. Hətta o, qeyd edirdi ki, bu universitet onun gəncliyinin "ən hummalı ve üsyankar" zamanına təsadüf etmişdir [bax: 2].

Onu siyasi proseslərə yaxınlaşdıran əsas səbəblərdən biri V.İ.Leninin böyük qardaşı Saşa Ulyanovun hazırladığı sui-qəsddə iştirak etməsi olmuşdu. Lakin bu sui-qəsd bir nəticə verməmiş, Aleksandr Ulyanov tutulub edam olunmuşdu. Bu hadisədən sonra polislər tələbələrin yaşadığı yerlərdə axtarışlar etmiş, bu axtarışlar Hüseynzadə və dostlarından da yan keçməmişdi. Üniversitetdə baş verən bu hadisələrdən sonra Rusiyanın Təhsil naziri İvan Delyanov universitetə gəlib burada tələbələrlə görüşərək onlara "Dövlətin 3-4 milyon ordusu var! Siz bir ovuc tələbə nə edə bilərsiniz?" söyləyərək, hər birini məntiqli düşünməyə çağırmışdı. Bu hadisələrdən sonra isə Əli bəy Hüseynzadə ehtiyatlı olmağa çalışmış, siyasi fəaliyyətlərdən uzaq duraraq imzaladığı iltizamda heç bir gizli təşkilatda iştirak etməyəcəyinə söz verərək bundan sonra daha çox elmi fəaliyyətlə məşğul olmağa başlamışdı.

Elm və təhsillə məşğul olduğu bu zamanlarda Əli bəy Homer, U.Şekspir, C.Bayron, F.Şiller, İ.V.Höte kimi şair və filosafların fikirlərini dərindən öyrənməyə çalışmışdır. Hətta "Universitetin əlsinei-şərqiyyə (Şərqiyyat) fakültəsinin bəzi dərslərinə də davam" edib, Jukovskinin mühazirələrini dinləmişdi [3, s. 15]. "Bir tərəfdən ülumi-tibbiyyə təhsil etdiyim halda digər tərəfdən də vaxt bulduqca əlsineyi-Şərq şöbəsinə gedib amalıma müvafiq olan dərslərə qulaq asardım" – deyə, Əli bəy söyləmişdir. Həmçinin Əli bəy bu illərdə "Peterburq Rəssamlıq Akademiyasının da məşğələlərində iştirak etmişdir". Hətta əvvəllər Hüseynzadənin Peterburqa gəlişində əsl məqsədlərdən biri Rəssamlıq Akademiyasına daxil olmaq arzusuydu: "Bir vaxtlar rəssamlığa çox həvəsim var idi, hətta az qaldı Peterburqun sənayei-nəfisə akademiyasına giriyordum. Ancaq ülum və fünun təhsilinə meylim qalib gəlib məni ayrı yollara sövq etdi..." [3, s.15].

Bir sıra araşdırmacılar, bu terror hadisəsindən sonra Əli bəyin Peterburq Unversitetində təhsilini yarımçıq qoyub qaçdığını qeyd ediblər. Bununla da onun guya Peterburq Universitetini bitirməməsi qənaəti meydana çıxıb [3, s.13]. Lakin Əli bəy bu məlumatı təkzib etmişdi: "Mən qaçmamışam. Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsi tərəfindən mənə verilən "Şəhadətnamə"ni Peterburqda aldığım xarici pasportla birlikdə, keçmiş günlərin xatirəsi kimi indiyə qədər sənədlərimin arasında saxlayıram" [bax: 5]. Bu illər ərzində Əli bəy Türk Dünyasının fərqli bölgələrindən universitetə təhsil almaq məqsədilə gələn bir çox tələbə ilə tanış olub onlarla sıx əlaqə saxlamışdır. Bundan əlavə universitetdə bir gürcü dostu vasitəsiylə Max Müller adlı yazıçının kitabında Osmanlı Türkcəsinin həm qrammatik cəhətdən, həm də ahəngcə necə mükəmməl bir dil olduğunu oxuduqdan sonra Osmanlı Türkcəsinə qarşı diqqəti artmağa başlamışdı. Bundan sonra Əli bəyin qəlbində İstanbula getmək istəyi yaranır. Daha sonra İstanbulda II Mahmudun dövründə fransızların köməyi vasitəsilə açılmış tibb məktəbinin fəaliyyətindən xəbər tutduqdan sonra oraya gedib təhsil almaq istəyi daha da güclənmişdi. Özü də bu hadisədən belə bəhs edirdi: "Peterburq darülfünunda ikmali-təhsil etdiyim zaman xatirimə yeni bir fikir sünuh elədi... İstanbulda nov üsul bir darülfünuni-tibbi açılmışdı ki, getdikcə tərəqqi ediyordu, həm ümumi-islamiyyə və şəriqyyədən məhrum olmamaq, həm də təmini-məişətlə bir məslək sahibi bulunmaq üçün gedib o məktəbə daxil olmaqdan gözəl çarəmi olurdu?.. Bir çox tərəddüddən sonra nəhayət, İstanbula getməyə qərar verdim..." [bax: 6].

Nəhayət, Əli bəy İstanbula tərəf yola çıxır və 1889-cu ildə İstanbula gəlib çatır. Bura gəldikdən sonra o, Mülki Tibbiyyə Məktəbinə daxil olmaq istəyir. Lakin buranı vəsait cəhətdən pis halda gördüyü üçün fikrindən vazkeçib İstanbul Əskəri-Tibbiyyə məktəbinə daxil olmaq üçün çalışır. Bu zamanadək aldığı təhsillərin, bildiyi dillərin onun üçün rahat yol açacağına

inansa da əslində bu hal belə baş vermədi. Onun buraya qəbuluna etiraz edən olmasa da bir şərt qoyuldu ki, "qəbul olunursunuz, sadəcə əlinizdəki diplomların isbatı üçün kiçik bir imtahandan keçməlisiniz" [bax: 6]. Sonunda Əli bəy imtahana girir, müvəffəqiyyətlə imtahandan keçir. Sonralar xırda problemlər yaransa da Əli bəy yolundan dönmədi. Onun yüksək intellekti, ensiklopedik bilikləri, yazdığı şeirləri, Şərq-Qərb ədəbiyyatına aid söhbətləri ilə hər kəsi ətrafına toplaması çox da çətin olmadı. Yusif Akçuranın da dediyi kimi "Əli bəy, İstanbul Tibbiyyə məktəbində Batı fikirlərini, Batı ədəbiyyatını, Batı irfan və mədəniyyətini, qısası Batını tanıtmaqda professorlardan çox xidmət etdi" [1, s. 233]. Əli bəy İstanbul universitetinin tələbəsi olanda – 1891-ci ildə Bodenştedtin "Ömər Xəyyam" məqaləsini almancadan tərcümə edib Abdullah Cövdətin "Ramazan bağçası" dərgisində, Henrix Heynedən "Gecələyin vapur kamarasında" şerini, Hötenin "Faust"undan bir parçanı yenə də alman dilindən türkcəyə tərcümə edib "Məlumat" məcmuəsində dərc etdirmişdi. Farscadan müəllifi bizə bəlli olmayan bir parçaya, yunancadan Esxilin "Zəncirlənmiş Prometey"indən qismən tərcümələrinə də Əli bəy tələbəlik illərində imza atmışdı [3, s.39].

Əli bəy Hüseynzadə bu illər ərzində də siyasi fəaliyyətlə məşğul olmaqdan imtina etmir. "İttihad və Tərəqqi" partiyasının qurucularından və ictimai-siyasi mühitin ideolojisini yönləndirən fiqurlardan biri yenə də Əli bəy Hüseynzadə olur. O, ilk günlərdən özünü türkçülük, turançılıq ideolojisinin genişlənməsinə həsr etmiş və bunu nəzəri-praktik cəhətdən irəliyə aparmağa çalışmışdır [4, s.181].

1903-cü ildə isə Əli bəy İstanbulu tərk edərək Bakıya gəlir. Bu gəliş onun həyatında yeni bir mərhələnin başlanğıcı olur. Rusiyadan kənarda təhsil aldığı üçün Bakıda həkimlik işinə qəbul olunmayan Əli bəy publisistik fəaliyyətlə məşğul olmağa başlayır. Bu illərdə Bakıda yaşayıb – yaradan Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu kimi tanınmış ziyalılarla sıx təmaslar qurur, böyük mesenat, maarifçi-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə millətin oyanışında, insan hüquqlarının qorunmasında, xalqın maariflənməsində əvəzsiz vasitə olan mətbuat vasitəsilə milli mücadiləyə başlayır. Çünki o dövrün ziyalıları hesab edirdilər ki, "mətbuat bir millətin lisanı (dili), samiəsi (qulağı), nəzəri (gözü), beyni deməkdir. Mətbuatsız millət söyləyəməz, eşidəməz, görəməz…" [7, s.223]. Əli bəy ilk öncə "Kaspi" qəzeti ilə əməkdaşlığa başlayır, publisistik yazılarını burada dərc etdirir. "Gənc türkçülük" nədir?" adlı məqaləsi ilə Türk tənzimat hərəkatının mahiyyətini şərh edir. Ə.Hüseynzadə bu zaman artıq yeni ampluada çıxış edir, islahatçı-reformist ideya adamı kimi tanınmağa başlayırdı. Az sonra o, dövrünün məşhur ilahiyyatçı-alimi, ictimai xadim və publisist Əhməd bəy Ağaoğlu ilə birlikdə və milyonçu Hacı Zeynalabdin Tağıyevin maliyyəsi ilə "Həyat" qəzetinin nəşrinə başlayır. Əli bəy Hüseynzadə "Həyat" qəzetində belə yazır: **"Bundan sonra meydan ancaq maarifin, tərəqqi və təkamülün, maddi və mənəvi təkamülündür"**. Bu qəzet Əli bəyi Azərbaycana "ağır başlı" filosof, "sədrə şəfa verən" (ağla qida verən) sözlər söyləyən mütəfəkkir kimi tanıdır və əsərlərini burada dərc etdirməklə ictimai-mədəni mühitə yeni ab-hava gətirir, dünyagörüşünün məntiqi əsaslarını yeni prinsiplərlə zənginləşdirməyə çalışır. Əli bəy "Həyat" qəzetində dərc etdirdiyi məqalələrini Osmanlı türkcəsində yazırdı. Onun əsas məqsədi isə ortaq ədəbi dil yaratmaq idi. Həmçinin o, Azərbaycan və Türk millətinin tarixinin, dininin, adət-ənənəsinin tanıdılması yolunda misilsiz xidmətlər göstərmiş, xalqın mədəni və siyasi cəhətdən aydınlanmağı, tərəqqisi, təkamülü, ittihadı üçün çox işlər görmüşdür.

## ƏDƏBİYYAT

1. Akçura Yusuf "Türkçülüyün tarihi" s. 232-233, Bakı-2006
2. A.Hüseyinzade "Biyografik Muhtasar malumat" HÖA

3. Azər Turan "Əli bəy Hüseynzadə" Moskva, "Salam press" 2008
4. Bədirxan Əhmədli "Azərbaycan mühacirət ədəbiyyatı: Təşəkkülü, problemləri, şəxsiyyətləri" , Elm və təhsil, Bakı-2017
5. Əli bəy Hüseynzadə "Bakines" qəzetinin redaksiyasına məktub. 1907
6. Əli bəy Hüseynzadə "Nümunə məktəbi"
7. Əsgər Quliyev "Əli bəy Hüseynzadə türkçülüyün atası və böyük maarifçi" məqalə

## ƏLİ BƏY HÜSEYNZADƏNIN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASININ MÜQƏDDƏM ŞƏRTLƏRİ

***İsazadə Leyla***

## XÜLASƏ

Əli bəy Hüseynzadə görkəmli elm xadimi, böyük mütəfəkkir olmuşdur. Bu məqalədə Əli bəy Hüseynzadənin düşüncə tərzinin formalaşmasına təsir edən amillərdən bəhs olunmuşdur.

## ПРЕДВАРИТЕЛЬНЫЕ УСЛОВИЯ ФОРМИРОВАНИЯ МИРОВИДЕНИЯ АЛИ БЕЯ ГУСЕЙНЗАДЕ

***Исазаде Лейла***

## АННОТАЦИЯ

Али бек Гусейнзаде был выдающимся ученым и мыслителем. В данной статье рассматриваются факторы, повлиявшие на формирование мировоззрения Али бека Гусейнзаде.

## PRELIMINARY CONDITIONS FOR THE FORMATION OF ALI BEY HUSEYNZADE'S WORLD VIEW

***Isazade Leyla***

## SUMMARY

Ali bey Huseynzadeh was a prominent scientist and great thinker. This article discusses the factors influencing the formation of Ali Bey Huseynzadeh's way of thinking.

# HƏRƏKƏT-İMİC VƏ ZAMAN-İMİC

***Əhməd Əhmədov***
***BDU-nun II kurs magistrantı***
***ehmedehmed98@gmail.com***

***Açar sözlər:*** imic, hərəkət-imic, fəlsəfə, kino, zaman-imic.
***Ключевые слова:*** образ, образ-движение, философия, кино, образ-время.
***Keywords:*** image, movement-image, philosophy, cinema, time-image.

Kino şübhəsiz XX əsrin ciddi hadisələrindən biridir. Bu dövrdə yei kino nəzəriyyələtinin meydana gəlməsi, kameranın hərəkəti və s. kimi dəyişimlər və hadiəsələr nəticəsində kino yeni bir disiplin olaraq özünü göstərdi. Jil Delöz isə ilk dəfə olaraq kino ilə fəlsəfənin bağlantıları üzərində fəlsəfi kino analizi ortaya atdı.

Bu hissədə Delözün 1983 və 1985-ci illərdə nəşr olunan iki kino kitabını nəzərə alacağıq. Kino 1: Hərəkət-imic(cinema 1: L'image-mouvement) və Kino 2: Zaman-imic(cinema 2:L'image-Temps). Delöz hər sənət tərzinin və insan düşüncəsinin spesifikliyini qavramağa çalışdığı üçün bu kitablar açıq bir şəkildə kinoya fokuslanmaqdadır. Delöz kinonu bəsitcə bir hekayə və informasiya vermə yolu kimi görmür. Delöz burada Fransız filosof Henri Berqsonu təməl alır və zamanı, hərətəkəti və bütün həyatı nəzəriyyələşdirmək üçün kinodan istifadə edir. Delözün kinoya fokuslanmasının əlbəttə ki, bir səbəbi vardır. Delözə görə fəlsəfə həyata açılmalıdır. Kino isə müasir dünyanın demək olar ki, ən vacib hadisələrindən biridir. Sadəcə kino vasitəsilə insan gözü ilə sərhədlənməmiş bir "görmə" üslubunu düşünə bilərik. Delöz isə kinonun verdiyi potensialları daha da irəliyə götürür. Kino ilə qarşılaşmaq yeni bir fəlsəfə potensialı açacaqdır. Amma bunu filmlərə fəlsəfəni tətbiq etdiyimiz üçün deyil, filmlərin yaradılmasının fəlsəfəni inkişaf etdirməsinə izn verdiyimiz üçün edəcəkdir. Delöz kinonu iki böyük anlayış əsasında ələ alır.

1) Hərəkət-imic
2) Zaman imic

Delözün yanaşması görüntü və səsləri siniflәndirmək cəhdində özünü elan edən bir şəkildə təsnifləndirmişdir. Klassikdən(hərəkət-imic) nüasir filmə(zaman-imic) keçişi nəzəriləşdirmişdir [1].

Kino Jil Delözə görə bir düşüncə istehsal etmə formasıdır. Eynilə filosofların anlayışlarla düşüncə istehsal etməsi kimi, rejissorlar da hərəkət-imiclərlə və zaman-imiclərlə düşüncə istehsal etməkdədirlər. Delözə görə ikinci dünya müharibəsindən əvvəl klassik periodda hərəkət-imic kinonun mərkəzi idi. Müharibədən sonraki dövr isə zaman-imicin istifadə olunmağa başlanıldığı, kinoda alternativ düşüncə formalarının ortaya çıxdığı dövr olur [2]. İkinci dünya müharibəsinə qədər hakim olan kino anlayışı müharibə sonrası dövrdə yetərsiz və əskik görünməyə başlamışdır. Müharibədə yaşanılan fəlakətlər klassik dövrdə kinonun dünyanı dəyişdirmə haqqında ümid dolu münasibətinin saxtalığını ortaya çıxarmış, rejissorların yeni düşüncə axtarışlarına girməsinə səbəb olmuşdur. İlk olaraq Vittorio de Sica, Federiko Fellini və Luchino Visconti kimi adamlar təmsilçisi olduğu İtalyan Realizmi ilə başlayan dəyişim daha sonra Jean Luc Godard, François Truffaut, Alain Resnais, Jacques Rivette kimi adamların təmsilçisi olduğu Yeni dalğa tərəfindən davam etdiriləcək və oradan da günümüz kinolarına qədər gələcəkdir [3, s.28,29].

Kinonun nə olduğunu və gücünün sərhədlərini axtaran müxtəlif nəzəriyyəçilər kino haqqında müxtəlif nəzəriyyələr ortaya atmışdır. Onlardan biri də Dziga Vertovun intervallar

nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə kino hərəkəti deyil, iki hərəkət arasında olan əlaqəni ehtiva edir. Bir interval, yəni aralıq iki şeyi bir-birindən uzaq tutan məsafə deyildir. Bir-birindən çox uzaq da olsalar iki hadisə ya da hərəkət arasındaki "yaxınlığı" ölçən şeyə "aralıq" deyilir [4, s.31]. Delözün hərəkət-imic adını verdiyi anlayış da tam bu yerdə vacib olur. Kino saf hərəkət haqqında olmasa da, hərəkət sayəsində öz varlığına qovuşur. Kino tarixin hərəkəti əldə edə bilmək üçün bir çox fərqli metod istifadə edilmişdir. "Kinonun başlanğıcında hərəkət, kadr içindəki adamların hərəkəti vasitəsi ilə göstərilməkdə idi. İmicin içində mövcud olan hər şeyi, adamları, aksesuarları ehtiva edən qapalı bir sistemin müəyyənləşməsinə kadr deyilməkdədir" [2, s.25].

Hərəkət-imici ilkin kino illərindəki hərəkət, sürətli kəsmələr, montaj, həmçinin zamanın hərəkətə bağlı olduğu Aristotelçi (Qədim Yunan fəlsəfəsində zaman anlayışı) anlayış ortaya çıxartmışdı. Aristotelçi zaman anlayışında zaman hərəkətin bir miqdarıdır, hərəkətə tabedir, hərəkət nəticəsində var olmaqdadır. Hər bir nəsnənin dəyişməsi və hərəkəti ya o nəsnənin içindədir, ya da dəyişən-hərəkət edən nəsnənin olduğu yerdədir. Zamanın keçməsi (dəyişmə) nəsnənin hərəkətinə görə müəyyən edilir. Zaman bu mənada hərəkət deyil, hərəkətin kəmiyyətini müəyyən edəndir. Qısacası, Aristotelə görə hərəkətin olmadığı yerdə zamandan danışa bilmərik. Hərəkət-imicin hakim olduğu kinolar bu köhnə anlayışın bir növ məhsullarıdır.

Delözə görə, klassik kinoda axışı, davamlılığı, səbəb-nəticəni yaradan şey montajdır. Çünki o illər üçün kino demək montaj demək idi. Montaj isə həm hərəkəti, həm də kinodakı axışı yaradırdı. Montajla birlikdə kadrlar ya birləşdirilir, ya da bir-birilə toqquşdurularaq saxta hərəkətlər (movements of false) və məna yaradılırdı. Bunun ən yaxşı nümunələrindən birini Sovet kinematoqrafı Eyzenşteynin "Potyomkin Zirehli Gəmisi" (Battleship Potemkin/Броненосец Потёмкин-1925) filmində görmək olar. Eyzenşteyn montajla o filmdə yatan, oyanan və kükrəyən vəziyyətdə göstərilən hərəkətsiz üç şir heykəlini arxa-arxaya göstərməklə saxta hərəkət yaratmışdı. Demək ki, montaj ortaya hərəkət və axış çıxardır, bu hərəkət və axış isə bizə kino haqqında bir fikir verir. Bu səbəblə də Delözdən əvvəl kinoya olan yanaşmalarda semiotiklər kinonun özünü bir dil, montajı isə bir "dil forması" olaraq ələ alırdılar

Hərəkət-imiclərin qeyri-müəyyənlik mərkəzi ilə qarşılaşmaları nəticəsində 3 növ imicə bölünür. 1) Qavrayış-imic, 2) Fəaliyyət-imic, 3) Təsirlənmə-imic. Anlayışların immanent müstəvidə yer almaları kimi hərəkət-imiclər də bir çoxluq içərisində, zaman-məkan blokları içində yer almaqdadır. Bu müstəvidə olan iki hərəkət arasında gerçəkləşən bir aralıq, yəni təsir və reaksiya arasında gerçəkləşən bir məsafə vardır. Beləliklə qavranılan bir hərəkət ilə icra edilən bir hərəkət arasında yaranan məsafə qavrayışımızın ilk vəziyyətdən ikinci vəziyyətə doğru keçməsi ilə ya da obyektiv olaraq ortaya qoyulan qavrayışddan subyektiv qavrayışa doğru gedişi və fəaliyyətə keçməsi ilə tamamlanır. Əslində qavrayış olaraq adlandırılan bu tək mərkəzli subyektiv qavrayışdır. Bu da hərəkət-imicin ilk böyük dəyişimidir.

Bir qeyri-müəyyənlik mərkəzi ilə əlaqələndirildiyi zaman qavrayış-imicə çevrilməkdədir [2, s.93]. Qavrayış kadrlarla yaradılır. Kadrın içində yer alacaq obyektlərin seçilməsi və tənzimlənməsi qavrayışın yaradılmasına gətirir. Bir tərəfi qavrayış, digər tərəfi fəaliyyət olan bu müstəvi üstündə yaranan şey aralıqdır və ya məsafədir. Fəaliyyət qavrayışın nəticəsində əldə olunan təsirlərin gecikmiş reaksiyalarıdır. Bu halda hərəkət-imicin ikinci bpyük çevrilməsi də fəaliyyət-imic olacaqdır. Qavrayışdan fəaliyyətə hiss olunmaz bir tərzdə keçilir [2, s.93]. Bir aralıq sadəcə iki üzü ilə, yəni qavrayış-imic və fəaliyyət-imic ilə formalaşmır.

Bunların arasında bir də təsirlənmə-imic vardır. Təsirlənmə qeyri-müəyyənlik mərkəzində, yəni subyektdə bəzi tərəflərdən narahat edici bir qavrayış və tərəddüt edən bir fəaliyyət arasından birdən-birə ortaya çıxır [2, s.94]. Subyektin və obyektin qarşılaşması nəticəsində formalaşan bir keyfiyyət dəyişimi olaraq meydana gəlməkdədir. Qavranılan hərəkət ilə icra edilən hərəkət

arasındaki əlaqəni quran təsirlənmə-imicdir. Hərəkət-imicin son çevrilməsi təsirlənmə-imiclə tamamlanmış oluir. Montaj bir hərəkət-imic mexanizmidir. Deməli qavrayış-imiclərin, təsirlənmə-imiclərin və fəaliyyət-imiclərin öz aralarında tənzimlənməsidir [2, s.100]. Bir kino heç vaxt tək bir imic növü ilə yaradılmır. İçində digər imic növlərini də ehtiva etməyinə baxmayaraq, tək hegemon imici önə çıxır. Bu mənada Qriffitin yanaşmasını qəbul edən Amerikan məktəbi kommersiya və hakim kino axını əsasən fəaliyyət-imicin hegemon olaraq istifadə edildiyi kinematoqrafik bir yanaşmaya sahib olacaqdır. Hərəkət-imiclərin bu üç növünə məkan olaraq müəyyənləşmiş üç növ plan qarşılıq gələ bilər. Uzaq plan xüsusilə qavrayış-imic, orta-plan bir fəaliyyət-imic, yaxın plan isə bir təsirlənmə-imic formalaşdıracaqdır [2, s.101].

Kinonun əsasını yaradan digər ikinci bir imic, xüsusilə Delözcü prizmadan müasir filmi başladan imic kimi təqdim olunan "zaman-imicdir." Delözə görə zaman-imicin kinoya daxil olması, dolaysilə post-klassik/müasir film, ikinci dünya müharibəsindən sonra Roberto Rosselinin "Müharibə Trilogiyası"nın ilk filmi olan *Roma, Açıq Şəhər* (*Rome, Open City*/*Roma, Città Apertaa* – 1945) filmi ilə başlamışdır. Beləliklə, Delözün kino fəlsəfəsinə qatdığı ikinci təməl məfhum zaman-imicdir. Neorealizmlə başlayan müasir kinolarda artıq zaman anlayışı, zamana yanaşma köklü surətdə dəyişmişdir.

Antik dövr fəlsəfəsində zaman şeylərin hərəkəti ilə açıqlanırdı. Hərəkət və yer dəyişdirmələrin yaratdığı bir anlayış idi. Berqsondaki zaman anlayışı isə keçmiş, indi və gələcəyi ehtiva edən zaman deyildir, zaman dəyişim mənasına gəlir. Zaman keçmişdən gələcəyə doğru gedərkər biz indiki anda bu dəyişimi qavrayırıq. "Zaman içində hərəkət etdiyimiz, yaşadığımız və dəyişdiyimiz yerdir" [5, s.82].

Delöz içimizdəki zamanın subyektiv olduğunu və xaricimizdəki zamanın da məkanın ölçülərinə sığmayan zaman olduğunu ifadə etmişdir [5, s.108]. Zaman məkan ilə düşünüldüyündə zaman qavrayışında xrolonoljik bir davamlılıq meydana gəlir, ancaq zaman parçalana bilməyən bir şey olduğu üçün bundan danışılmız. Zaman və davamlılıq əlaqəsi zehində məkanların xatırlanmasına gətirir çıxarır. Keçmiş indi içində var olmağı davam etdirir [6, s.11]. İnsan yaddaşı vasitəsi ilə indi və gələcəyi birlikdə yaşaya bilər. Keçmiş yoxa çıxmamışdır. Yaddaşda qorunmaqdadır [7, s.11]. Delöz müasir sinema üçün inkişaf etdirdiyi zaman-imic anlayışını ortaya qoyarkən Berqsonun bu zaman anlayışından istifadə edir.

Delöz xronolojik olmayan "xarici zaman" ilə filmi hissələrə ayırır. Bu hissələrin də zehni xəritələri olduğuğunu, hərəkət-imici və zaman-imicinin zamanı xəritələndirən kinematoqrafiya imiclərinin özü olduğunu ifadə edir. Kinematoqrafiya imicinin zamanla əlaqəli perspektiv qazanması, hərəkəti xarici dünyadaki gerçəklərdən əks olunan düçüncədən qopardır və fərdə aid olanın ortaya çıxmasına səbəb olur. Zaman-imic burada zehində düşünülməyəni meydana gətiri və zehində əvvəldən var olmayan düşüncəni ortaya çıxardır. Bu yeni düşüncə qavrayış olaraq keçmiş, gələcək və indi olaraq məna qazanır. Digər bir ifadə ilə hərəkət-imicdə olan emprik dünyanın əksinə zaman-imic zehni bir tərzdə davam edən, düşüncənin birbaşa olaraq özünə fokuslanan bir imicdir. Zaman-imicdəki zaman anlayışı öz içində parçlanadığı, başı və sonu olmayan, bir birinin ardı ilə gəlməyən, davamlılığı olmayan bir tərzə çevrildiyi üçün bilinən zaman anlayışını dağıtmışdır. Zaman-imic empirik ya da metafizik deyildirşş Zaman özünü saf bir vəziyyət olaraq göstərir [5, s.271].

Zaman-imic "saf optik və səs vəziyyəti"dir. Özünü artıq hərəkət terminləri ilə ifadə edilməsinə razı olmayıb birbaşa olaraq zamana fokuslanan, saf optik-səs imicidir [5, s.272]. Saf optik və səs vəziyəti kinoda personajların necə reaksiya verəcəklərini bilə bilməməsi, tərk edilmiş yerləri təcrübə edən və sonra yeni məkanlara gedən, ancaq bu mıkanların da demək olar ki, eyni olması və ne edəcəyinə qərar verə bilməmə vəziyyətinə uyğun gəlir. Personaj sadəcə təsir-reaksiya halında itirdiyi şeyi "görə bildiyi" bir vəziyyət içindədir. Hərəkət-imic izləyiciyə

"bir sonraki imicdə nə görəcəyik?" sualını verdirir. Zaman- imic isə "bu imicdə görüləcək nə var?" deyə düşündürür. Hərəkət-imicdən fərqli olaraq zaman-imicdə vəziyyət duyğuların vasitəsi ilə faəliyyətə keçmir.

Zaman-imic səbəb-nəticə baölantılarından kənarda ortaya çıxır. Səbəb-nəticə əlaqəsi ilə açıqlana bilinməməsinə görə zehində görünən şeyin nə olduğu dəqiq şəkildə anlaşılmır. Bu periodda zehində görünən şeyi mənalandıra bilmək üçün əvvəlcədən var olan "xatirələrdəki imicləri" xatırlamağa başlanılır. İmiclər zehində spiral bir yolla assosiasiyalar meydana çıxarır və düşünmə periodu başlayır [5, s.46,47]. Xəyali bir bağlantıdır bu. İmiclərin bu assosiasiyaları zehində xatirə və xəyal kimi qavranılır. Başqa cür desək zaman-imic hərəkət-imicdəki kimi görünən şeyə qarşı fəaliyyət yaratmır və bir duyğu ortaya çıxartmır. Funksional deyildir. Artıq muxtar bir "gerçəklik" qazanmışdır.

## ƏDƏBİYYAT

1. Robert Stam- Sinema teorisine giriş, Ayrıntı, 2014
2. Gilles Deleuze- Sinema I: Hareket-İmge, Norgunk, 2014
3. Ozan Yıldırım- Gilles Deleuze'üz sinematografik yaklaşımları bağlamında Nuri Bilge Ceylan sineması hakkında bir değerlendirme, Başkent Üniversitesi, 2019
4. Ulus Baker- Beyin Ekran, Birikim, 2017
5. Gilles Deleuze- Cinema 2: The Time-Image, Minneapolis: University of Minnesota Press, 1997
6. Henri Berqson- Metafiziğe Giriş, Bilim ve Sanat, 1998
7. Henri Bergson- Zaman ve Özgür İstenç, Cogito, 1997

## HƏRƏKƏT-İMİC VƏ ZAMAN-İMİC

***Əhmədov Əhməd***

## XÜLASƏ

Kino yarandığı gündən etibarən onun haqqında müxtəlif düşüncələr və nəzəriyyələr yaradılmışdır. Bir çox tədqiqatçı bunu sadəcə olaraq kino sahəsinin daxilində qalaraq tədqiq etmişdir. Jil Delöz isə kinematoqrafiyanın içindən anlayışlar yaratmaq üçün istifadə edərək fəlsəfə və kino arası sahədə tədqiqatın mümkünlüyünü ortaya atır. Bu məqalədə isə onun sahələr arası fəaliyyətinin nəticəsi olaraq ortaya çıxmış hərəkət-imic və zaman-imic anlayışları analiz edilərək şərh olunacaqdır.

## ДВИЖЕНИЕ-ОБРАЗ И ВРЕМЯ-ОБРАЗ

***Ахмедов Ахмад***

## АННОТАЦИЯ

С момента возникновения кинематографа о нем создавались различные мысли и теории. Многие исследователи изучали его просто в рамках кино. Джилл Делоз, с другой стороны, использует кино, чтобы понять возможности исследований между философией и кино. В данной статье будут проанализированы и интерпретированы понятия образ-движение и образ-время, возникшие в результате его междисциплинарной деятельности.

## MOVEMENT-İMAGE AND TİME-İMAGE

***Ahmadov Ahmad***

## SUMMARY

Since the beginning of cinema, various thoughts and theories have been created about it. Many researchers have studied it simply within the field of cinema. Jill Deloz, on the other hand, uses cinema to create insights into the possibilities of research between philosophy and cinema. This article will analyze and interpret the concepts of movement-image and time-image that emerged as a result of his interdisciplinary activities.

# İNFORMASİYA CƏMİYYƏTİNİN TƏRƏQQİ MEYARLARI

***Hüseynli Yetər***
***BDU- nun II kurs magistrantı***
*ytrhuseynli@gmail.com*

***Açar sözləri:*** informasiya cəmiyyəti, tərəqqi, meyar
***Ключевые слова:*** информационное общество, прогресс, критерий
***Keywords:*** information society, progress, criterion.

İnformasiya cəmiyyətinin statusunu müəyyən etmək, onun başlanğıc və müasir konseptual quruluşlardakı mütərəqqi potensialının əlamətlərini dərk etmək əsasında yeni tip cəmiyyətin inkişafı üçün bir neçə meyar ayırmaq olar: texonoloji meyar, iqtisadi meyar, bilik meyarı, humanist meyar, mədəni inkişaf meyarı.

Texnoloji meyara görə, yeni sosial quruluşun mütərəqqi olması kommunikasiya texnologiyasının effektivliyindən asılıdır. Daha effektiv informasiya mübadiləsi üsulu bütövlükdə cəmiyyətin tərəqqisinə səbəb olur.

Müasir informasiya inqilabı informasiyanın həcminin sürətli artması, həmçinin, informasiya və kommunikasiya texnologiyasının geniş yayılması ilə xarakterizə olunan ETT(elmi texniki tərəqqi) mərhələsidir. İnformasiya əsri texnologiyaları dünya miqyasında böyük həcmdə informasiyanı ani ötürməyə imkan verdiyinə görə mütərəqqi inkişaf üçün çox böyük potensiala malikdir. Faydalı informasiyanın həcminin artması, vahid zaman kəsiyində emalının sürətlənməsi qərarların daha tez qəbul edilməsinə, yeniliklərin tətbiqinə səbəb olur.

A.Norman formalaşmaqda olan cəmiyyətin mütərəqqi sosial və iqtisadi strukturlarının səmərəli qarşılıqlı əlaqəsini təmin edən, cəmiyyətin "əsəb sistemi" kimi baxılan inkişaf etmiş komputer şəbəkələrinin varlığı ilə əlaqələndirir [8, 198 s.]. Y.Masuda informasiyaya ictimai sərvət kimi yanaşır, lakin texnologiyaya diqqət yetirərək onun cəmiyyətə faydalı təsirləri üçün istiqamətlər yaratmır.

Tunisin 2005-ci il informasiya cəmiyyəti üçün proqramında İKT-nin yalnız ünsiyyət vasitəsi deyil, həm də inkişaf amili kimi artan rolu qeyd olunur [1]. İnformasiya cəmiyyətinin infrastrukturunun əsas elementi olan internet texnologiyası elmi tədqiqat və tədris vasitəsindən qlobal ictimai vasitəyə çevrildi. Texnoloji determinizm kimi cəmiyyətin bu meyarlara görə tərəqqisinin məzmunu da bir çox cəhətdən tənqid olunur.

Birincisi, texnogen inkişafın ziddiyyətlərinin və problemlərinin müəyyən edilməsi, hıəmçinin, sosial tərəqqinin alternativ yollarının axtarışı fəlsəfi ədəbiyyatda ənənəvi hal almışdır.

İkincisi, informasiya cəmiyyəti anlayışında diqqət daha çox insan maraqlarına və tələbatına yönləndirilmiş informasiya axınlarının texnoloji komponentlərindən faydalılığa, keyfiyyətə, informasiyanın dəyərinə yönəlmişdir. Texnoloji inqilab nəticəsində informasiya cəmiyyətinin təsviri bu inkişafın sosial şərtləri və nəticələri haqqında çox şey deyə bilməz. Çünki o, cəmiyyətdə meydana gələn fenomenlərin məğzini informasiya texnologiyalarının tətbiqinin nəticələri vasitəsi ilə izah etməyə çalışır.

Üçüncüsü, İKT-nin köməyi ilə total informasiya nəzarətinin formalaşdırılmasının mümkünlüyü ilə bağlı kəskin sual var. Xüsusilə, informasiya cəmiyyətində bərabərliyin aradan qalxması, nəzarət edən təbəqənin güclənməsi, ilk növbədə siyasi əhəmiyyət kəsb etdiyi iddia edilir. Texnokratik meyllər qabaqcıl texnologiyaların əhəmiyyətini xeyli dərəcədə sarsıdır. Sosial-psixoloji yöndən texnogen sivilizasiyada həyat vasitələrinin cazibəsinə aldanıb məqsədlərdən yayınma təhlükəsi var. Tez-tez kommunikasiya texnologiyalarının özünütəmin

əhəmiyyəti haqqında danışılır. Kommunikasiya aktının məzmununa İKT-nın funksional xüsusiyyətlərinin təsiri getdikcə daha aydın görünür. Beləliklə, geniş mənada texnologiyanın özü uyğun regionun sosial quruluşu, siyasəti və mədəniyyəti ilə müəyyən olunur. Texnologiya idarəetmə sisteminə, təbiətə, informasiyaya, sosial-iqtisadi qaynaqlara "həssas reaksiya" verir. Ona görə də, sosial tərəqqinin texnoloji meyarının məzmunu texniki vasitələrin və texnoloji üsulların məcmusu kimi yalnız səthi görünür. Dərinlikdə isə insanın həyati tələbatı və fəaliyyət motivlərini gizlədir.

Biz informasiya cəmiyyətinin tərəqqisinin növbəti meyarı olan iqtisadi meyara obyektiv sosial tərəqqiyə iqtisadi amillər prizmasından baxmağa imkan verən, sabit, dəyişməz göstərici kimi baxırıq. Bu yanaşmanın əhəmiyyəti onunla müəyyən olunur ki, bir çox tədqiqatçılara görə informasiya cəmiyyəti konsepsiyası İKT-nin iqtisadiyyatın müxtəlif sahələrinin məhsuldarlığını artırdığı informasiya iqtisadiyyatı konsepsiyası kimi görünür. Həmçinin, informasiya cəmiyyəti cəmiyyətin tərəqqisini, ilk növbədə isə onun iqtisadi və texnoloji alt sistemlərinin inkişafı hesab edən postindustrial nəzəriyyə çərçivəsində özünün kateqoriya statusunu möhkəmləndirir.

"İnformasiya cəmiyyəti-informasiya iqtisadiyyatının" tabeliyində qalır [2, 28 s.; 178s.] Tədqiqatçı apriori informasiya iqtisadiyyatından cəmiyyətin bütün başqa alt sistemlərinin az və ya çox dərəcədə inteqrasiya olunduğu müasir inkişafın obyektiv reallığı kimi başlayır. Mənəvi istehsal maddi istehsal prinsiplərinə tabe olur.

Biz cəmiyyətin tərəqqisini onun üzvlərinin intellektinin inkişaf səviyyəsi və ictimai həyatın rasional əsasları ilə, ümumilikdə bəşəriyyətin biliyinin həcmi ilə ölçülməsini biliyin meyarı kimi müəyyən edirik. Onun tarixi demək olar ki, sosial-fəlsəfi düşüncə tarixi ilə eynidir. "Bilik cəmiyyəti" haqqında təsəvvürləri, sonuncunun geniş şərhi ilə Platonun ideal dövlətinə, Bekonun "Yeni Atlantida"sına, noosferaya, utopik sosialistlərin fikirlərinə və s. aid etmək olar.

Belə ehtimal olunur ki, bilik cəmiyyətində rasionallıq yüksəlir və o, fəaliyyət və ünsiyyəti optimallaşdırır. İnstrumental rasionallıq məqsədə çatmanın daha effektiv üsullarını seçmək qabiliyyəti kimi təqdim oluna bilər. Kommunikativ rasionallıq isə maraqlı və bacarıqlı sosial subyektlərin dialoqu əsasında bu məqsədlər haqqında anlaşma və razılığa gəlməyi nəzərdə tutur.

İnformasiya cəmiyyətində əqli əmək daha çevik və arzuolunan olur, daha çox asudə vaxt qazanır, koqnitiv işçi isə öz işci qüvvəsinə münasibətdə sahibkara çevrilir. İşçinin bilik və bacarığı qeyri-maddi kapitala çevrilir və bilik cəmiyyətində yeni ideyalar, yaradıcı fəaliyyət, intellektual təşəbbüs iqtisadi effektivliyin artırılması amillərinə çevrilir. Koqnitiv kapitalizm şəraitində məhsulun və ya xidmətin qeyri-maddi tərkib hissəsi (tədqiqat və inkişaf, marketinq, dizayn) gəlirin əsas mənbəyinə çevrilir.

İnfomasiya cəmiyyətinin tərəqqisində növbəti meyar kimi humanist meyarı göstərmək olar. Sosial sistemlərin tərəqqisinin humanist meyarı kompleks şəkildə tərtib edilə bilər. Ən ümumi mənada ona aşağıdakılar daxildir:

-insanların fiziki və psixi sağlamlığı;

-insanların mənəvi zənginliyi;

-yaradıcı əməyə tələbat.

Çox vaxt humanitar meyara cəmiyyətin bütün alt sistemlərində mütərəqqi meyllər daxil edilir: - informasiyalaşdırma, avtomatlaşdırma, komputerləşdirmə dərəcəsi; -əmək məhsuldarlığının artım sürəti; - cəmiyyətin demokratikləşdirmə səviyyəsi; -şəxsin özünüifadə imkanlarının səviyyəsi; - fərdlərin azadlıq dərəcəsi. Lakin humanitar meyar təkcə kompleks kimi deyil, həm də məzmunu ictimai münasibətlərin humanistləşdirilməsi və şəxsiyyətin azad inkişafı olan vahid meyar kimi meydana çıxır. Bu iki tərəf bir-biri ilə bağlıdır, çünki hər bir insanın azad inkişafı ictimai münasibətlərin humanistləşdirilməsinin şərtidir.

Humanitar kimi mədəni yanaşma da informasiya cəmiyyətinin inkişafını başa düşməyə mürəkkəb və qeyri müəyyən yanaşır. Ən geniş mənada mədəniyyət meyarı dünya xalqlarının maddi, mənəvi dəyərlərinin qorunması və çoxaldılması deməkdir. Müvafiq olaraq, mədəni meyardan yola çıxsaq bilik cəmiyyətinin inkişafının məzmunu dünya mədəni irsinin qorunub saxlanmasının artırılması və müasir mədəniyyətin çiçəklənməsidir. Mədəniyyət və sivilizasiyanın qarşılıqlı təsirinin təhlili sosial-fəlsəfi fikir üçün ənənəvi hal almışdır. O.C.Volqinin fikrincə, "gələcək postsənaye cəmiyyətində həll etməli olacağımız müasir zamanın əsas ziddiyyəti ictimai həyatın təkrar istehsalının texnogen məntiqinin heç bir məntiqi-texnoloji formalara sığmayan həyatın özü ilə qarşıdurmasıdır" [3, 20 s. ; 31 s.].

Biz tədqiqatçı ilə razıyıq ki, texnogen sivilizasiyanın inkişaf məntiqi informasiya cəmiyyətində baş verən çoxşaxəli sosiomədəni prosesləri təsvir edə bilmir.

Tez-tez səslənir ki, texnogen sivilizasiyada tarazlıq universal texnoloji amillər istiqamətində pozulur, unikal mədəniyyət xüsusiyyətlərinə zərər verilir. Bu baxımdan mədəniyyətin texnologiyaya çevrilməsi fikri tez-tez eşidilir, yəni dəyərlər istehsal və istehlak edilir. Bu, o deməkdir ki, dəyərlər xalqların mentalitetində təbii şəkildə formalaşmır və mədəni mühitdə ahəngdar şəkildə mənimsənmir. Bir sözlə, sivilizasiyalı və mədəni inkişaf tempi kəskin şəkildə fərqlənir.

İnformasiya cəmiyyəti konsepsiyası texnoloji inkişafın maddi və mənəvi mədəniyyətin azad yaradıcısı kimi fərdin ehtiyaclarına uyğunlaşacağı zaman bu ziddiyyətin mümkün həlli ideyasını ifadə edir. Geniş mənada mədəni meyar siviliasiya və mədəni inkişaf arasındakı ziddiyyətin aradan qaldırmasında ifadə olunur. A.A. Miqolatyevin ifade etdiyi kimi, elm bu gün sivilizasiya və mədəniyyəti bir-birinə bağlayır [4, 108-126 s.].

Əgər sivilizasiya ölçüsündə informasiya cəmiyyətinin mövzuları proqnozlaşdırılırsa, sosial prosesləri proqnozlaşdırlmaq və onları səmərəli idarə etmək üçün xarakterik tendensiyaları aşkar etməyə yönəlibsə, o zaman mədəniyyət meyarı, əksinə, informasiyalaşdırmanın dəyər-məna məzmununu müəyyən etməyə imkan verir.

İlk növbədə qeyd etmək lazımdır ki, informasiya cəmiyyəti fikrinin uyğun gəldiyi Qərb ictimai quruluşunun idealları universal deyil. Bu, müasir dünyanın çox saylı mədəniyyətlərindən birinin mənəviyyatının xüsusi halıdır. Eyni zamanda, tarixi tərəqqinin avrosentrik xətti yüksəliş sxeminə öncədən yazılmış bilik cəmiyyəti konsepsiyası hazırda dünya miqyasında sosiomədəni dəyişiklikləri izah etmək üçün alimlər və siyasətçilər tərəfindən istifadə olunur.

Qlobal informasiya cəmiyyəti mədəniyyətlərin və sivilizasiyaların dialoqunun həyata keçdiyi, etnik və dini xüsusiyyətlərin çarpışdığı ünsiyyət məkanı kimi görünür. Müasir informasiya məkanında Qərb sivilizasiya dəyərlərinin, roman-german mentalitetinin hökmranlığı informasiya mədəniyyətinin mahiyyətini tükətmir. Əksinə mədəniyyətlərdə qeyri-bərabərlik sahəsini daraldaraq, süni supermədəniyyətə tabe edən inteqrativ amil kimi çıxış edir. O.S.Volginin fikrincə, postsənaye ideyalar, Şərq mədəniyyətlərinə məftunluq Qərbin özünün insan cəmiyyətinin universal təbiətinə uyğunluğu kimi qiymətləndirilir, buna baxmayaraq, hökmranlıq və tabeçilik məntiqi, öz maraqlarına istiqamətlənməsi qərb mədəniyyətində əvvəlki kimi güclüdür [3, 20 s.; 31 s.].

Daha dar mənada mədəni meyar informasiya cəmiyyətində tərəqqini təhsilin əlçatanlığı və keyfiyyəti, mədəni dəyərlərin qorunması, mədəni sahədə xidmətlərin əlçatanlığı nöqteyi nəzərindən qiymətləndirilir. Məsələn, ədəbiyyat və incəsənət əsərləri rəqəmsallaşdırılır və internet vasitəsi ilə onlara giriş imkanı yaradılır.

Digər tərəfdən, informasiya partlayışı kontekstində bazar meyarlarına istiqamətlənmək, muzeylərin, kitabxanaların, təhsil sisteminin büdcələrinin azalmasına gətirib çıxardı. İnformasiya xidmətinin biznesə çevrilməsi bu müəsisələrdə fəaliyyətə kommersiya yanaşmasının tətbiqinə

səbəb oldu. İnformasiyaya kommersiya yanaşması bütün sosial sahəyə yayıldı. Q.Şiller "sosial sferanın və ictimai xidmətlərin tədricən tənəzzülü" haqqında danışır [5, 163s.; 195 s.].

İnformasiya cəmiyyətinin mədəniyyəti postsənaye paradiqması çərçivəsində ekran, kütləvi, audiovizual mədəniyyət kimi şərh olunur. Bədii yaradıcılıq, incəsənət, kommunikasiyanın üstunlük təşkil edən elektron, komputer kommunikasiyası forması ilə müəyyən olunur. Ötürmə üsulları əsərlərin məzmunundan üstün sayılır. Mədəniyyətin informasiyalaşdırılması ona gətirib çıxarır ki, mədəni dəyərlərə çıxış artıq məkan və zaman vasitəsi ilə həyata keçirilmir. Televiziya və ya komputer vasitəsi ilə izlənən mədəni hadisə öz "unikallığını", yəni praktik-həyati əhəmiyyətini itirir. İncəsənət əsərləri ayrı-ayrı subyektlər üçün passiv izlənən obyektdən başqa bir şey deyil, mədəni fəaliyyət isə öz kommuvikativ ölçüsünü itirərək xarici aləmin ikinci dərəcəli reproduksiyasına çevrilir. Eklektizm, sosial-tarixi mədəniyyət formalarından qoparılma mozaik mədəniyyətdən danışmağa imkan verir. Mədəni normaların qavranılması və mənimsənilməsi kortəbii, səthi və parçalanmış şəkildə baş verir.

S.Lenkə görə, texniki sivilizasiya xəyali dəyərləri yeniləri əvəz edir və bu mənada öncəki mədəniyyəti məhv edir, "bütün bu lazımsız, köhnə şeyləri keçmişin muzeyinə aparır". Həyat mədəniyyətin öz ənənəvi anlamında rədd edilməsini, bilik və texnikanın himayəsinə verilən bəşəriyyətin isə mükəmməlliyə çatmasını tələb edir [6, 84 s.].

Biz bu nəticənin radikal olduğunu qəbul etməliyik, çünki bu, ölməz, unikal mədəni sərvətlərin birdəfəlik itirilməsi, onların texnoloji inkişafın universal və keçici dəyərləri ilə sıxışdırılması deməkdir. Buna baxmayaraq, qeyd etmək lazımdır ki, informasiyalaşdırma insanların ənənəvi həyat fəaliyyətinin dövrünü və onların həyat ritmini məhv edir, unikal dil və fərdlərarası ünsiyyətin dəyərini sıxışdırır. Bu mənada insanın spesifik həyat fəaliyyəti üsulunu məhv edir.

Texnika və incəsənət arasında fərq daha az aydın olmağa başlayır. İnformasiya texnologiyalarından istifadə edərək əsərlərin texniki təkrarolunması zamanı reallığın əks olunması deyil, insanın və mexanikanın, realın və virtualın inteqrasiyasına yönəlmiş "texniki incəsənət" meydana çıxır.

Nəhayət, mədəniyyətin texnolojiliyi ənənəvi dəyərlərin zərərinə olan yeniliklərə heyranlıqda da özünü göstərdi. Zamanların əlaqəsini pozaraq, informasiya mədəniyyəti keçmişlə bağlı olmayan təcrübə nöqtəsinə çevirir. Yenilik texnoloji tərəqqi ilə yanaşı, mədəni tərəqqinin də qiymətləndirilməsi üsuluna çevrilir.

Biz hesab edirik ki, informasiya cəmiyyətinin bu meyar üzrə tərəqqisinin əsl mahiyyəti bütün dəyərlərin sosiomədəni davamlılığında və bu zəngin özülün üzərində insanın bu günki inkişaf səviyyəsinə uyğun gələn bilik cəmiyyəti mədəniyyəti qurmaqdan ibarətdir. Bununla yanaşı, müasir insanın həyatının, məişətinin, adətlərinin, hisslərinin və əhval ruhiyyəsinin ayrılmaz elementi olan texnikanın vacib mədəni əhəmiyyətini qəbul etmək lazımdır.

İnformasiya cəmiyyətinin mədəniyyəti istehsalın sənaye-kommersiya forması və onun məhsullarının yayılması ilə xarakterizə edilən kütləvi mədəniyyətə çevrilir. Şüur sənayesi ən yeni mədəniyyət fenomenidir. "Kütləvi kommunikasiya dövründə ideologiya, sosial münasibətlər, ilk növbədə sosial reallığın interpretasiyasının gizli proqramlaşdırılması funksiyasını yerinə yetirir, bu zaman hadisələrin qavrayışı, onların qiymətləndirilməsi kənardan verilir, buna baxmayaraq sosial münasibətlər subyektinin özü tərəfindən həyata keçirilir" [7, 211-228s.].

İnformasiya cəmiyyəti mədəniyyətinin intellektual ölçüsü media təhsil fenomeni ilə təmsil olunur. Çap edilmiş sözlərə və canlı ünsiyyətə əsaslanan ənənəvi təhsil yerini internet şəbəkəsinin multimedia vasitələrinin mərkəzi yer aldığı təhsil təcrübəsinə verir. Fərdi biliyin məhdudiyyətləri və sürətlə köhnəlməsi internetdə qorunan kollektiv biliklər sayəsində aydın olur.

Belə təhsil şəraitində assosiativ əlaqə, müstəqil qiymətləndirmə və fərdi və kollektiv maraqlara uyğun praqmatik seçim bacarıqları əsas olur.

Beləliklə, informsiyanın bolluğu hələ ümumbəşəri mədəni inkişaf demək deyil. Cəmiyyətdə hər hansı informasiyanın fayda, öyrətmə, maarifləndirmə olduğu rəyi geniş yayılmışdır. Lakin çox vaxt informasiya bolluğunun arxasında geriləmə, cəhalətə dönüş gizlənir. Müasir cəmiyyətdə geniş yayılan əyləncəli informasiya reallığı əks etdirmir, ancaq ondan qaçışı təmsil edir. İnformasiyanın əsas artımı onun tirajlanması, sonsuz şərhlər, faydasız təkrarlar hesabınadır. Faydalı və əhəmiyyətli informasiya isə cəmiyyətdə çətin ki, çoxalsın. Bütün bu geriləmə hadisələr informasiya cəmiyyətinin mədəni ölçüdə təkmilləşdiyini deməyə imkan vermir.

## ƏDƏBİYYAT


1. Тунисская программа для информационного общества от 18.11. 2005. [Электронный ресурс]. - Режим доступа: http://emag.iis.ru/arc/infosoc/emag.nsf/BPA/bc05dl7935b393aac32575a8004cd7 60
2. Шайхитдинова, С.К. Информационное общество и «ситуация человека»: эволюция феномена отчуждения / С. К. Шайхитдинова. — Казань: Изд-во Казан, ун-та, 2004. – 306 с.
3. Волгин, О.С. Оправдание прогресса: идея прогресса в русской религиозной философии и современность / О.С. Волгин. - М.: Изд-во Рос. ун-та дружбы народов, 2004. – 379 с.
4. Миголатьев, А. А. Философия цивилизации // Социальногуманитарные знания. - 2004. - № 1.
5. Уэбстер, Ф. Теории информационного общества / Ф. Уэбстер; Пер. с англ. М. В. Арапова и Н. В. Малыхиной; Под ред. Е. Л. Вартановой. - М.: Аспект Пресс, 2004. – 398 с.
6. Ленк, Х. Размышления о современной технике / Х. Ленк; Пер. с нем. под ред. В.В. Степина. -М. : Аспект-пресс. 1996. – 181 с.
7. 156; с. 225 АСТ, 2008. - 558 с. 156. Тузиков, А.Р. Идеология и медиа-конструирование социальной реальности в современных западных обществах // Социальногуманитарные знания. - 2003. - № 1. - С. 211-228
8. Norman,A. Information Society: An Economic Theory of Discovery, Invention and Innovation. - Boston: Kluwer Academic Publishers, 1993. – 342 p.


# İNFORMASİYA CƏMİYYƏTİNİN TƏRƏQQİ MEYARLARI

***Hüseynli Yetər***

## XÜLASƏ


XX əsrin sonlarından etibarən mikroproseslərin ixtirası və fərdi komputerlərin yaranması informasiya texnologiyalarının hakim kəsildiyi inqilaba səbəb olmuşdur. Bu inqilabi proses bir çox texnoloji yüksəliş mərhələsini keçərək müasir zamanda çoxluğun informasiyanın istehsalı, saxlanılması, emalı, xüsusilə də, onun yüksək forması olan biliklə bağlı məşğul olduğu bir cəmiyyətin inkişafına təkan vermişdir.

Bu məqalədə informasiya cəmiyyətinin bir sıra tərəqqi meyarları müəyyənləşdirilir. İnformasiya cəmiyyətinin tərəqqisində aşağıdakı meyarları ayırmaq olar: texnoloji meyar, bilik meyarı,iqtisadi meyar, humanist meyar, mədəni inkişaf meyarı.

## КРИТЕРИИ ПРОГРЕССА ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА

***Гусейнли Йетер***

### АННОТАЦИЯ

С конца двадцатого века изобретение микропроцессоров и появление персональных компьютеров привели к революции в информационных технологиях. Этот революционный процесс прошел много этапов технического прогресса и дал толчок к развитию общества, в котором большинство занимается производством, хранением и обработкой информации в новейшее время, особенно в высшей форме знания.

В данной статье определяется ряд критериев прогресса информационного общества. В развитии информационного общества можно выделить следующие критерии: технологический критерий, критерий знаний, экономический критерий, гуманистический критерий, критерий культурного развития.

## CRITERIA FOR PROGRESS OF THE INFORMATION SOCIETY

***Huseynli Yetar***

### SUMMARY

The invention of microprocesses in the late 20th century and the dominance of information technology in personal computers led to a revolution. When this revolutionary multi-technological growth rate passes, the information of the modern height creates an impetus for the knowledge of an organization, which is also associated with its high level of development, in its high form during the process of information production, production, processing.

This article identifies a number of criteria for the progress of the information society. Certain criteria can be distinguished in the development of the information society: technological criteria, knowledge criteria, economic criteria, humanistic criteria, cultural development criteria.

# RENE DEKART FƏLSƏFƏSİNDƏ TANRI -VARLIQ ƏLAQƏSİ

***Ağayeva Arzu Şahmar qızı***
***BDU-nun II kurs magistrantı***
**arzuagayevaa228@gmail.com,**

***Açar sözlər:*** Tanrı, varlıq, insan, kainat, mahiyyət, iradə azadlığı.
***Ключевые слова*:** Бог, бытие, человек, мироздание, сущность, свобода воли.
***Keywords*:** God, being, human, universe, essence, free will.

Şüurda Allah ideyasının bir məfhum kimi olması bu məfhumun mövcudluğunun əslində mövcud olması demək deyil. Dekarta görə, bu varlığın mövcud olması üçün zəruri varlıq olmalıdır, çünki o, belə bir düşüncənin Allah tərəfindən daxil edilmədikcə, zehnin içində olmayacağını deyir: "Madam ki, belə bir düşüncə Allah tərəfindən zehnə daxil edilmişdir, onda Allahın varlığı zəruri olmalıdır." [4, s.125] Tanrının varlığı zəruri olduqdan sonra onun mahiyyəti haqqında bir qədər məlumat verən Dekart bu zərurəti Tanrının zatına aid edir: "Necə ki, üç bucaq cəmidir, düzbucaqlı üçbucaq iki düz bucağa bərabərdir və ya dağ və dərə fikrini bir-birindən ayırmaq mümkün deyilsə, mən açıq şəkildə görürəm ki, varlıq Allahın zatından ayrılmazdır" [5, s.89].

Beləliklə, Dekart zəruri və mümkün olanı ayırır. Beləliklə, zəruri və sonsuz məfhumun faktiki mövcudluğu sübuta yetirilir. Allahdan başqa varlıqların varlıq öhdəliyi yoxdur, yalnız var olmaq gücü var. Bu güc mümkün olana zəruri varlıq tərəfindən verilir, çünki bu düşüncə yalnız zəruri varlığın həyata keçirilməsi ilə mümkündür. Nəfs təəssübdən qurtulduğu zaman bu həqiqəti9 asanlıqla qavrayır və varlığını bu dərkəyə borcludur. Bu dərketmə prosesi isə Allahın varlığına görə əvvəlcə öz varlığını, sonra isə özünü dərk etmə imkanından xəbər verir. Burada qurulan müddəa intuitiv və birdən-birə ortaya çıxır və hər hansı digər nəticədən daha aydın və seçkin şəkildə bütün biliklərimizin mənbəyidir. Dekartın heç bir nəticə çıxarmadan ortaya çıxan əsas müddəası belədir: "Mən düşünürəm, deməli, varam" [2, s.25].

Dekart bildirir ki, Allahdan başqa bütün varlıqlarda varlıq-mahiyyət ayrılığı var. Çünki əgər Allahda varlıq-mahiyyət ayrılığı olsaydı, o, Allah olmaqdan uzaq olardı.11 Bu fikirdən başa düşürük ki, Allahın varlığı və mahiyyəti birdir və eynidir, ayrı olsaydılar, başqa varlıqlar kimi qavranılardı və Allah kimi başa düşülməzdi. Tanrının zəruriliyi həm onun varlığının və təbiətinin ayrılmazlığı, həm də insanda Tanrı ideyasının fitriliyi ilə bağlıdır. Üstəlik, hər cür kamilliyə malik olmayan bir varlığın mütləq mövcud olması qeyri-mümkün olduğu üçün Allah da fitrətən kamil olmalıdır. Dekart bu bacarığın Tanrının zatında olduğunu və bütün bunların təkcə potensial olaraq deyil, həm də Tanrıda faktiki olaraq mövcud olduğunu söyləyir.

Tanrı-kainat əlaqəsi sifət probleminin uzantısıdır. Teizmin əsas baxışlarından biri budur ki, Allahın kainatla əlaqəsi sifətlər vasitəsilədir. Digər Tanrı anlayışları sifətlərdən istifadə etsələr də, Tanrıya verdikləri transsendental və immanent keyfiyyətlərə görə teizmdən fərqlənirlər. Teizmin ümumi tərifinə nəzər salsaq, onu transsendent və eyni zamanda qüdrətli, yaradıcı, həqiqi və mükafatlandıran Tanrı kimi görürük. İlahiyyatın Tanrısı kainata müdaxilə edən və onu idarə edərək nizamını qoruyandır və kainatdakı hər şey Allah tərəfindən yaradılmışdır, hər şey əzəldən nizamlanmışdır. Burada nəzərdə tutulan təbiət qanunlarıdır, Allah bu qanunları əzəldən nizamlamışdır və O, dünyanı və başqa varlıqları bu qanunlarla idarə edir: Biz Allahın elminə çata bilərik." Allahın dəyişməzliyindən çıxış edərək, dünyada materiyanın hərəkətinin qorunub saxlanması təmin edilir. Dekartın təbiət qanunları adlandırdığı, dəyişməyən taleyin bir parçası

olan Tanrının sonsuzluqda təyin etdiyi qanunlardır. Mexaniki fəaliyyət göstərən təbiət əslində öz mexanizmlərini Allahdan almışdır. Dekart təbiət qanunlarını belə ümumiləşdirir:

1.Başqa bir şey onu dəyişdirmədikcə hər şey olduğu kimi qalır.

2.Hərəkətdə olan hər bir cisim hərəkətini düzgün xətt istiqamətində davam etdirməyə çalışır.

3.Hərəkətdə olan cisim özündən güclü biri ilə qarşılaşdıqda hərəkətindən heç nə itirmir. Amma özündən zəif, hərəkət edə bildiyi bir cisimlə qarşılaşdıqda, ona verdiyi qədər öz hərəkətini itirir.

Bir şey başqa bir şeyə təsir etmədikcə, o şeyin yeri dəyişmir. Cisimlər heç vaxt təsirə məruz qalmadan dəyişmir, lakin bir dəfə hərəkətə keçəndən sonra onların hərəkətini dayandıracaq bir amil olmadıqda dayanmazlar. Təbiətdə hər şey əyri xətt üzrə deyil, düz bir xətt üzrə hərəkət edir, başqa bir şey onların yoluna mane olmadıqda və onlar yollarını dəyişmədikcə. Bütün obyektlər xətti və eyni zamanda dairələr çəkərək hərəkət edirlər. Bu qanun Tanrının dəyişməzliyindən asılıdır, təcrübə bizə düz hərəkət göstərsə də, bu hərəkətdə dairəvi hərəkət var. Bunu başa düşmək o halda mümkündür ki, Allah öz hərəkət tərzini və dünyanı yaratmaqda istifadə etdiyi təsiri qoruyub saxlasın. Allah cisimlərə hərəkəti yaradaraq, hərəkət verərkən bir-birini itələmə və çəkmə vəziyyətlərini də yaratmışdır. Məxluqlardakı bu dəyişiklik heç vaxt Allahın dəyişməzliyinə zidd deyil və Dekarta görə bu vəziyyət həm də Allahın dəyişməzliyinə dəlil gətirir [2, s.74].

Dekarta görə, kainatı təşkil edən atomlar sonsuz bölünür və bunu məhdudlaşdırmaq mümkün deyil. Allahın qüdrətini təsəvvür etmək mümkün olmadığı üçün Allah da özünü bu atomları parçalamaq gücündən məhrum edə bilməz. Bundan başqa, dünyanın məkanı Dekarta görə qeyri-məhduddur, çünki insan təxəyyülü məkanı məhdudlaşdıra bilməz, nə qədər təsəvvür edilsə də, boş yer düşünülə bilməz. Maddə kosmosdan ibarət olduğu üçün yerlə göyün eyni maddədən əmələ gəldiyinə və bir çox dünya olmadığına inanılır.[6, s.137]

Dekart deyir ki, Allah kainatı yaratmaqda qoyduğu qanunların məfhumlarını insanların ruhuna yerləşdirib və buna görə də bu qanunları aydın və seçkin olaraq başa düşmək olar. Bununla belə, Dekart bunu şərh etməkdən çəkinmədi. O, Allahın dünyanı əvvəlcə xaos şəklində yaratdığını, sonra isə onu formalaşdırmaqla nizama saldığını bildirir.“Allah hər şeyi əzəldən əvvəl nizama salmışdır və insan bütün bunları dərk edə bilməz.”Bu fikir Tövratın yaradılış bölməsindəki izahlarla oxşarlıqları göstərir. Tövratın Yaradılış fəslindəki ayələrdə deyilir: “Əvvəlcə Allah göyləri və yeri yaratdı. Torpaq xaraba və boş idi; göylərə zülmət çökmüşdü; Allahın Ruhu suların üzündə hərəkət edirdi”.

Dekarta görə, Allah xaosu yaradandan sonra onu kosmosa çevirib müəyyən qanunlara uyğun hərəkət etdirmiş, sonra onları bir məfhum olaraq ruhda yerləşdirmiş və insanlara öz bacarıqlarını nümayiş etdirmişdir. Tanrının əvvəlcə dünyanı olması lazım olduğu kimi yaratdığını düşünmək ehtimalı daha yüksəkdir, lakin indi dünyanı qorumaq üçün istifadə etdiyi güc və təsir onu yaratdığı zamanki kimidir. Dekart da dolayısı ilə təkamüldən danışır. Onun fikrincə, tədriclə öz təbiətini bərpa edən məxluqları başa düşmək, yoxdan yarananları anlamaqdan daha asandır. Zamanla inkişaf edən varlıqlar indiki vəziyyətinə gəliblər və bunu yaradılış möcüzəsinə toxunmadan, yəni teologiyanı pozmadan izah etmək mümkündür.

Allah yaratdığını məhv etmək istəmədikcə və kainatdan gündəlik köməyini geri çəkmədikcə, heç bir şey məhv olmaz; Cismlər yox olsa belə, onların mahiyyəti varlığını davam etdirir. Dekart kainatdakı bir mexanizmi qəbul edərək qanunların bu mexaniki nizam daxilində işlədiyini bildirir. Əvvəlcə Yerin hərəkətini qəbul etməmiş kimi görünən Dekart Mersennə yazdığı məktubunda yerin döndüyünü etiraf etdiyini bildirir: “Etiraf etməliyəm ki, əgər yerin hərəkətinə baxış yanlışdırsa, bütün mənim fəlsəfəmin əsası da yanlışdır.” Dekarta görə, Kartezyen

fəlsəfənin irəli sürdüyü sistem bu fikirlə uyğun olmadığından, statik bir dünya qəbul etmək mənasızdır.

Dekart Allahın kainatı hansı məqsədlə yaratdığının üzərində dayanmır, hətta bu məsələnin araşdırılmasını gərəksiz hesab edir. Önəmli olan Allahın kainatı necə yaratdığı deyil, onu hansı vasitələrlə yaratdığıdır. Ağıl Allahın işlərini necə etdiyini dərk edə bilmədiyi üçün Allahın bu mövzuda hər şeyə qadir olduğunu başa düşmək kifayətdir. Allah insanlara yaradılış məqsədlərini bildirmədiyi üçün kainatdakı məqsədləri araşdırmaqda israr etməmək lazımdır. Kainatda yaradılışda hikmət var, yada yoxdur, lakin Dekarta görə bunu əzmlə öyrənmək lazım deyil. Allah istədiyi zaman yaradır, ona vaxt lazım deyil. Elə ki, Allahın istədiyi və dünyanı yarada bilməyəcəyi elə bir an yoxdur.

Dekarta görə, maddə əbədidir. Çünki yer və göy məhv olsa da, yəni öz surətlərini dəyişsələr də, yeri və göyü təşkil edən maddə heç vaxt yox olmayacaq. Əslində, qiyamətdən sonra bədənlərimizə və dolayısı ilə də içində olacaqları dünyaya sonsuz həyat vəd edilmişdir. [2, s.89] Allahın yaratdığı kainat onun vasitəsi ilə mövcud olmağa davam edəcək; maddi cövhər yox olmayacaq, Allahın köməyi ilə əbədiyyət qazanacaq. Kainatın Tanrı tərəfindən yaradılması ilə mexaniki nizam arasındakı dilemma beləcə həll edilir. Mexanik nizam kainata Allah tərəfindən qoyulmuş və kainat bu nizamla işləməyə və mövcud olmağa davam etmişdir. Hər şeyin səbəbi Allah olduğu üçün mexanizmi quran da Odur və Allah heç kimə onu dəyişdirmə icazəsi verməmişdir.

Dekartın ontologiyasının xüsusi hissəsi olmayan şər problemini həll etməyi məqsədəuyğun hesab etdik. Əslində şər problemi qədim zamanlardan mövcud olan və fəlsəfə tarixində Avqustin və Leybniz tərəfindən sistemli şəkildə təsvir edilən bir mövzudur. Dekartın şər problemi ilə bağlı fikri Tanrının doğruluğu, yəni ədalətidir. Dekart da bəzi filosoflar kimi “mümkün dünyaların ən yaxşısı” haqqında fikir bildirməmişdir.

Allah hiyləgər deyil, bunu anlamaq üçün təkcə Allahın varlığı kifayətdir. Allahın şəxsiyyətində kamillik və tamlıq olduğu üçün, aldatmada isə bacarıqsızlıq və qüsur olduğu halda, pisliyə gedən bu cür davranışların Allahda olması qətiyyən ağlasığmazdır. Əgər pislik Allahdan deyilsə, haradan gəldiyini tapmaq lazımdır. Dekart bu problemi həll edərkən insanın doğrunu batildən ayırma qabiliyyətinə malik olduğunu bildirir və bu qabiliyyəti hər şeyi Tanrının verdiyini deyir.

Dekarta görə, bizim səhvlərimizin səbəbi Allah deyil, Allah bütün işığın mənbəyi kimi insanları heç vaxt aldatmır. Hiylə şərdən və ya qorxudan, hiylədən və zəiflikdən yaranır və buna görə də bu sifət Allaha aid edilə bilməz. Tanrının insanlara bəxş etdiyi təbiətin nuru adlanan bilmə qüdrəti, doğru ilə batili ayırd edən quruluşa malikdir. Bizim üçün çatışmayan şey Allaha görə yoxluqdur, çünki Allah öz səlahiyyətində olan hər şeyi bizə verməmişdir və vermək məcburiyyətində də deyil. Allah da haqsızlıqların yaradıcısı deyil; O, bizə hər şeyi bilən bir idrak verməsə də, səhvi O yaratmadığını bilməliyik [ 5, s.72]. Səhv Allahdan asılı olan həqiqi bir şey deyil, sadəcə bir çatışmazlıqdır və Allah insana səhv üçün xüsusi bir qabiliyyət verməmişdir. Səhv səbəbi insanların doğru ilə batili ayırd etmək üçün sonsuz gücə malik olmamasıdır. “Allahın mənə öz şəxsiyyətində olmayan, özü üçün lazım olan bacarıqları olmayan bir istedad bəxş etməsi mümkün deyil”. Ustad nə qədər mütəxəssis olsa, işi bir o qədər mükəmməl olar. Deməli, Allah kamil və natamam olanı etməz və yaratmaz. Allah insanı aldanmayacaq şəkildə yarada bilər, çünki Allah ən yaxşısını istəyir [6, s.82].

Dekart deyir ki, Allah insanı aldatmaq üçün yaratsa belə, bu, həm də yetkinlikdir. Əgər Allah insanı heç vaxt aldanmayacaq şəkildə yaratsaydı, o, indi olduğundan daha kamil olardı və bütün varlıqlar yetkinləşdikdə bir-birinə bənzəyərdi. Ancaq bəzilərinin digərlərindən əksik olması daha böyük səriştədən xəbər verir. Səhvlərin qarşısını almaq üçün bir qabiliyyət verən Allah, səhv

etmək üçün bir qabiliyyət vermədi; Həqiqətən, xəta yeri hisslərdir. Allah bütün müsbət şeylərin yaradıcısı olduğu halda, mənfi olanların yaradıcısı deyil. Mənfilik heçlik olduğu üçün Allahın kamilliyi ilə uyğun gəlmir.

Göründüyü kimi, Dekartın müdafiə etdiyi teodisiyanın əsasını yalnız Allahın kamilliyi və qüsursuzluğu təşkil edir. Onun fikrincə, Allah Ali Xeyirdir, tam və kamildir, bütün yaxşılıqlar Allahdandır və şəri Allaha aid etmək olmaz. Səhvlər insanın öz iradəsindən yaxşı istifadə etməməsi nəticəsində yaranan çatışmazlıqlardır. Bu nöqsanları təsadüfən Allaha aid etmək insanlığı Allahın ədalətinə qarşı qərəzli düşünməyə və hərəkət etməyə sövq edər. Halbuki Allah öz anlayışı baxımından ədalətli olmalıdır.

## ƏDƏBİYYAT

1. Descartes, René, Oeuvres de Descartes, eds. Charles Adam & Paul Tannery, 12 tomes, Paris, Léopold Cerf, 1897-1913.
2. Descartes, René, Rules for the Direction of the Mind, trans. John Cottingham & Robert Stoothoff & Dugold Murdoch, The Philosophical Writings of Descartes, vol. I, Cambridge: Cambridge University Press, 1999.
3. Descartes, René, The World or Treatise on Light, trans. John Cottingham & Robert Stoothoff & Dugold Murdoch, The Philosophical Writings of Descartes, vol. I, Cambridge: Cambridge University Press, 1999.
4. Descartes, René, Discourse on the Method, trans. John Cottingham & Robert Stoothoff & Dugold Murdoch, The Philosophical Writings of Descartes, vol. I, Cambridge: Cambridge University Press, 1991.
5. Descartes, René, Principles of Philosophy, trans. John Cottingham & Robert Stoothoff & Dugold Murdoch, The Philosophical Writings of Descartes, vol. I, Cambridge: Cambridge University Press, 1991.
6. Descartes, René, Letters, trans. John Cottingham & Robert Stoothoff & Dugold Murdoch & Anthony Kenny, The Philosophical Writings of Descartes, vol. III, Cambridge: Cambridge University Press, 1991.
7. Descartes, René, Conversation with Burman, trans. John Cottingham & Robert Stoothoff & Dugold Murdoch & Anthony Kenny, The Philosophical Writings of Descartes, vol. III, Cambridge: Cambridge University Press, 1991.

## RENE DEKART FƏLSƏFƏSİNDƏ TANRI -VARLIQ ƏLAQƏSİ

***Ağayeva Arzu***

## XÜLASƏ

Tanrının varlığı və onun kainat və insanla əlaqəsi problemi fəlsəfənin ən qədim və əsas problemlərindən biri kimi görünür. Allahın biliyin subyekti kimi mövcudluğu və Onun mahiyyəti bu kainatın üstündəki transsendental varlıqla bağlı olsa da, insan Onun qoyduğu qanunları içində olduğu fiziki kainatda tapa bilər. Tanrı anlayışı Dekart fəlsəfəsinin ən mürəkkəb məqamlarından birini təşkil edir. Əslində fəlsəfəsini fiziki əsaslar, yəni mexaniki dünyagörüşü üzərində quran Dekart, Allahsız varlığın ola bilməyəcəyi fikrindən irəli gələrək, metafizikasında Allahı şərt kimi qoymuşdur. Bu yazıda Dekartın fəlsəfəsində Tanrının insan və kainatla əlaqəsini izah etməyə çalışacağıq.

# ОТНОШЕНИЕ МЕЖДУ БОГОМ И РЕЛИГИЕЙ В ФИЛОСОФИИ РЕНЕ ДЕКАРТА

***Агаева Арзу***

## АННОТАЦИЯ

Проблема существования Бога и его связи с мирозданием и человеком представляется одной из самых древних и фундаментальных проблем философии. Хотя существование Бога как субъекта познания и Его сущность связаны с трансцендентным бытием над этой вселенной, человек может найти их в физической вселенной, в которой находятся Его законы. Концепция Бога — один из самых сложных аспектов философии Декарта. В самом деле, Декарт, основывавший свою философию на физических основаниях, т. е. на механическом мировоззрении, основывал свою идею на том, что не может быть бытия без Бога, и ставил Бога в качестве условия своей метафизики. В этой статье мы попытаемся объяснить отношения Бога с человеком и мирозданием в философии Декарта.

## RELATIONSHIP BETWEEN GOD AND RELIGION IN THE PHILOSOPHY OF THE DECART OF RENE

***Agayeva Arzu***

## SUMMARY

Problem of the existence of God and His relation to the world and human being is seen as one of quite old and main problems of philosophy. Though the existence of God and His essence as a knowledge subject is related to a transcendent being over this universe, human being can find rules made by Him in physical world in which stands. The concept of God constitutes one of the most involved points of Descartes' philosophy. In fact, for Descartes, who built his philosophy on physical bases or mechanical world, to place God as condition to his metaphysics originates from the conception that if God does not exist a being does not. In this paper, we will try to explain the relation of God and human and the world in Descartes' philosophy.

# ƏLİ BƏY HÜSEYNZADƏNİN QƏRB MƏDƏNİYYƏTİNƏ MÜNASİBƏTİ

***İsazadə Leyla İsmayıl qızı***
***BDU-nun II kurs magistrantı***
***Leilaisazadeh@mail.ru***

***Açar sözlər:*** qərb, Əli bəy Hüseynzadə, türk, turan maarif, milli oyanış, maariflənmək
***Ключевые слова:*** запад, восток Али бек Гусейнзаде, турецкий, туран, образование, национальное пробуждение, быть просветленным
***Keywords:*** west, east, Ali bey Huseynzade, Turkish, turan, education, progress, evolution, national awakening, be enlightened.

XIX əsrdə M.F.Axundov tərəfindən əsası qoyulan, sonralar isə digər ziyalılar tərəfindən təkmilləşdirilərək təbliğ edilən Qərbləşmə ideyasının XX əsrdə ən böyük nümayəndəsi Əli bəy Hüseynzadə oldu. Ə.Hüseynzadənin bu dövrdə irəli sürdüyü qısa və dərin mənalı düstur - "Türkləşmək, İslamlaşmaq, Avropalılaşmaq", Qərb düşüncəsinin formalaşmasında əsaslı rol oynamışdır. Ziya Gökalp "Əli bəy Hüseynzadənin üçlü düsturu bütün türk dünyasında yeni üfüqlər açdı" deyərək onu yüksək qiymətləndirməsi, "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" çağırışını "Peyğəmbər düsturu" hesab etməsi mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, Əli bəy Hüseynzadə Avropalaşmaq anlayışını zahirən Qərb mədəniyyəti, mahiyyət baxımından İslam – Türk dəyərləri çərçivəsində görürdü. Onun Avropalaşmağa dair fərqli baxışları var idi. "Kasablanka faciəsi və Osmanlı-İran komediyası" adlı məqaləsində yazırdı ki, "Biz istəyirik ki, İslam ölkəsinə onların (avropalıların) beyinləri, dimağları girsin, boğazları mədələri girməsin. Biz istəyirik ki, ölkəmiz onların beyinlərini həzm etsin. Yoxsa mədələrində həzm olunmasın". Həmçinin Əli bəy qəti şəkildə firəngləşməyin əleyhinə idi. Bu düşüncəsini belə izah edirdi: "Türkün firəngləşməsi, firəngin tərəqqisi deməkdir, müsəlman tərəqqisi demək deyildir".

XIX-XX əsr yaradıcı ziyalıları, yazıçı, şair, tənqidçiləri Qərb mədəniyyətinin və ədəbiyyatının öyrənilməsində, Azərbaycan xalqının dünya mədəniyyətinə inteqrasiya edilməsində təbliğ etdikləri fikirlərin, bədii tərcümələrin əsaslı rolu olduğunu bilirdilər. Bu səbəbdən rus və Qərb dillərini öyrənməklə yanaşı, bu dillərdən tərcümələr də edirdilər. Hələ Əli bəy İstanbul universitetinin tələbəsi olanda – 1891-ci ildə Bodenştedtin "Ömər Xəyyam" məqaləsini almancadan tərcümə edib Abdullah Cövdətin "Ramazan bağçası" dərgisində, Henrix Heynedən "Gecələyin vapur kamarasında" şerini, Hötenin "Faust"undan bir parçanı yenə də alman dilindən türkcəyə tərcümə edib "Məlumat" məcmuəsində dərc etdirmişdi. Farscadan müəllifi bizə bəlli olmayan bir parçaya, yunancadan Esxilin "Zəncirlənmiş Prometey"indən qismən tərcümələrinə də Əli bəy tələbəlik illərində imza atmışdı [1, s. 39]. Abdulla Şaiq Əlibəy Hüseynzadə haqqında yazırdı ki, "o, ... çox yenilik gətirmək, ədəbiyyatı məhdud bir çərçivədən kənara çıxarmaq istəyirdi. Bizi, gənc yazıçı və ziyalıları Qərb klassiklərinin sənət və yaradıcılıqları ilə tanış etməyə çalışırdı. Onun ədəbi, ictimai-siyasi fəaliyyəti gəncliyə müəyyən təsir göstərirdi... Əskidən bəri könlünün yeganə munisi olan alman şairi Hötenin "Faust" pyesindən tərcümələr edərək "İblis" mövzusu ilə gəncliyi maraqlandırırdı. Xüsusən, o vaxta qədər bir beyt belə yazmamış olan Hadini dilləndirirdi" (3, s.314).

Əli bəy Hüseynzadə İstanbul universitetində təhsil alarkən yüksək intellekti, ensiklopedik bilikləri, yazdığı şeirləri, Peterburqda təhsil aldığı zamanlarda Qərb ədəbiyyatı, mədəniyyəti ilə bağlı olan biliklərini bölüşməsi, Şərq-Qərb ədəbiyyatına dair söhbətləri ilə hər kəsi ətrafına toplaması çox da çətin olmadı. Yusif Akçuranın da dediyi kimi "Əli bəy, İstanbul Tibbiyyə məktəbində Batı fikirlərini, Batı ədəbiyyatını, Batı irfan və mədəniyyətini, qısası Batını

tanıtmaqda professorlardan çox xidmət etdi" [4, s. 233]. Beləliklə, Əli bəy Hüseynzadənin Tiflisdə təşəkkül tapan, Peterburqda təkmilləşən, İstanbulda təfəkkür formulu halına gələn Qərbçilik konsepsiyası 1904-cü ildə o, Bakıya qayıdanda öz elmi-nəzəri bəhrəsini verməyə tam hazır idi.

1905-ci il 7 iyunda milli, dini dəyərləri Şərq-Qərb konteksində təsbit və müdafiə edən, Qərb qarşısında sınmayan, şərəfli tarixi ilə dayanan Azərbaycan həqiqətini ortaya qoyan, həmçinin milli sərvətimiz olan "Həyat" qəzeti fəaliyyətə başlayır. Cəmi 325 nömrəsi çap olunsa da "Həyat" qəzeti Azərbaycan mətbuatının ən şərəfli səhifələrindən biri olmuşdur. Qəzetin imtiyaz sahibi H.Z.Tağıyev, redaktoru Ə.Hüseynzadə və Ə.Ağaoğlu idi. "Həyat"ın ilk sayında "Qəzetimizin məsləki" adlı məqalə dərc olunmuşdu. Burada bir məqama toxunulurdu: "... Avropa ülumuna, maarifinə, ədəbiyyatına, sənaət və sənayesinə kəsbi-vüquf etməyə və millətimiz beynində nəşrə çalışmalıyız. Biz belə yapmağa qeyrət edəcəyiz. Məsləkimiz bunu iqtiza etdirir" (5, s.70).

Əli bəy Hüseynzadənin "Molla Nəsrəddin" və "Dəbistan" adlı məqaləsində "ürəyi yas və ələmlə dolu" "Molla Nəsrəddin"i Qoqolun, Sviftin, Dikkensin əsərləri ilə müqayisə edirdi (5, s.163). Bundan əlavə, Qərbə olan münasibəti baxımından tanınmış alman idealist filosofu E.Hartmanın 1906-cı ildə vəfatı münasibətilə "Ziştbin bir filosofun vəfatı" adlı məqaləsi də diqqətəlayiqdir. Bu məqalədə "Ələlxüsus, içimizdən bəzi zəvatın eşitdiyinə görə Şopenhauer məsləkində olan bu filosofun kitablarını intihar ediyorlar" yazır (5, s. 181-182). Buradan məlum olur ki, Əli bəy Hüseynzadə A.Şopenhauer, F.Nitşe, O.Şpenqler kimi filosofların elmi-nəzəri irsini, fəlsəfi, sosioloji konsepsiyalarını araşdırıb öyrənmişdir.

"Kuhi-Qaf və Simurğ" məqaləsində Əli bəy "Qafqaziya Asiya ilə Avropa arasında əzim bir bərzəx, cəsim bir körpüdür" (5, s.149) fikrini söylədikdən sonra "Bakı bütün Avropanın Asiyaya olan qapılarıdır" (5, s. 196) deyərək mədəniyyət strategiyası üçün yeni üfüqlər açmışdır.

1906-1907-ci illər ərzində 32 nömrəsi çapdan çıxan "Füyuzat" dərgisi Şərq-Qərb mədəniyyəti sintezinin əsas məktəbi olmuşdur. Bu dərgi avropalaşma prosesinin əsl ədəbi-estetik məktəbi sayıla bilər. "Füyuzat" dövrün başqa qəzet və məcmuələri ilə müqayisədə daha geniş, zəngin fikir orbitinə, ideya istinadlarına, mənbələrinə malik idi. "Füyuzat" kəlməsi mənşəcə ərəb sözu olub lüğəvi mənası həyat gerçəklərini duymaq, dərk etmək, onlardan həzz almaq, zövq almaq, feyz almaq, feyziyab olmaqdır. "Füyuzat" mətbu orqanının ən böyük tarixi xidmətlərindən biri Qərbə mədəni inteqrasiya, dünya elmi və texnikası ilə silahlanmaya ən davamlı çağırış – M.F.Axundzadənin və onun ardıcılı Həsən bəy Zərdabidən sonra məhz bu səhifələrdə öz əksini tapırdı. Qərbin və Rusiyanın Şekspir, Volter, Bayron, Höte, Darvin, Şiller, Fixte, Şopenhauer, Meçnikov, Tolstoy, Hüqo, Mendeleyev və görkəmli elm, sənət adamları barədə ilkin geniş informasiya, onların əsərlərindən nümunələr, fikirlərindən sitatlara bu jurnalın səhifələrində geniş yer verilirdi. "Füyuzat" məktəbini araşdıran Ş.Vəliyev yazırdı ki, "Ensiklopedik zəka sahibləri kimi təbliğ olunan antik yunan filosofları, qədim Şərqin poeziya nümayəndələri, XVIII əsr fransız maarifçi-materialist mütəfəkkirləri, Almaniyada "fırtına və təzyiq" hərəkatını doğuran ədəbiyyat xadimləri, ingilis romantikləri, Rusiyanın inqilabçı-demokrat yazıçıları, Avropanın macəra romançıları və s. Füyuzatçıların ədəbi-estetik ehtiyaclarını daha çox təmin etdiyinə görə onların özü və əsərləri haqqında tez-tez müxtəlif istiqamətli ədəbi-elmi açıqlamalara rast gəlmək mümkündür" (8, s. 178).

"Füyuzat" dərgisinin 5-ci sayında Ə.Hüseynzadənin "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı uzun bir məqaləsi nəşr olunur. Bu məqalə dövrün cəhalətinə qarşı açılan savaş idi. Məqalədə mədəniyyət və siyasi zəmində cəmiyyətin inkişafı istiqamətində fəaliyyət göstərmək üçün iş mühitində təcəssüm tapmış və ya həyatda qalmağa çalışan teatr, mətbuat orqanları, ədəbiyyatçı və siyasətçilər "Yaşıl işıqlar" adlanır. Həmçinin qızların elm və təhsilə istiqamətlənməsi,

qadınların xeyriyyə işlərində iştirakı da buraya aiddir. Məqalənin adı dekadent poetikasını ifadə edir (7).

Əli bəy Hüseynzadənin zirvə nöqtəsi, ən samballı əsəri "Siyasəti-fürusət"dir. Şərq istibdadına, İran mütləqiyyətinə qarşı yönələn bu əsər qeyri-adi tarix salnaməsidir. "Siyasəti-fürusət" çilik-çilik edilmiş billur kimliyimizin tarix, sənət, fəlsəfə və ədəbiyyat üsulu ilə yenidən bərpasıdır (1, s.148).

Ədəbiyyatşünas Y.Qarayev "Siyasəti-fürusət"i "Qutaqdu-bilik"lə müqayisə edərək yazırdı: "M.F.Axundovdan sonra Azərbaycan (türk) mədəniyyəti tarixində "Qərb-Şərq" sintezinin böyük nümayəndəsi Ə.Huseynzadə olub. Bu sintezdə türklük "Qərbdən və Şərqdən nə alıb?" – sualı ilə yanaşı, "dünyaya nə verib?" – sualı öz əyani ifadəsini tapmışdır (8).

Ədibin bu əsəri Qərb və Şərq qarşıdurmasının elmi şərhində mühüm rol oynayır, günümüz üçün də maraqlı və orjinal mülahizələri özündə əks etdirir.

Əli bəy Hüseynzadənin Azərbaycan ədəbiyyatı tarixində siyasi-fəlsəfi əsər kimi qiymətləndirilən, Azərbaycanın mənəvi hüdudlarını genişləndirən, Avropa ictimai-siyasi fikrinə, mədəniyyətinə nəzər yetirilən, Qərb mədəni fikrində türk amilinə yanaşmanın üsullarını tədqiq edən, siyasi vəsiyyət kimi dəyərləndirilən və yaradıcılığının ən yüksək pilləsi olan "Qərbin iki dastanında türk" əsəridir. Əslində bu bir elmi məruzə mətnidir. Əli bəy Hüseynzadə bu mətni 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda səsləndirmişdir.

"Qərbin iki dastanında türk" Avropa müstəmləkəçilərinin müsəlman dövlətlərinə təcavüzünə qarşı yazılmış əsər idi. Əsər Portuqaliya şairi Kamoensin "Luziada" və İtaliya şairi Torkvato Tassonun "Qurtarılmış Qüds" əsərlərində türkə münasibət məsələlərindən bəhs edir. "Luziada"nın təhlilini verərək 500 il bundan əvvəl Hindistan və Afrika xalqlarına zülm edən, əsarətə məruz qoyan müstəmləkəçi obraz kimi Vasqo da Qamanın Hindistana səfəri və burada Hind hökmdarı ilə olan söhbətləri, portuqaliyalılara qarşı göstərdikləri azadlıq mübarizəsini sanki 1920-ci ildə Sovet Rusiyası tərəfindən işğal olunan Azərbaycanla uzlaşdırmışdır.

Ədib əsərdə sadəcə müstəmləkəçiliyin törətdiyi zülm və əsarətdən bəhs etməklə kifayətlənməmiş, insanları azadlıq uğrunda mübarizəyə səsləmişdir: "Huzur və rahatı başqa günlərə, başqa məsud zamanlara burax. Şimdi əziz vətəninin sevgili təbanı əcnəbi boyunduğu altında inləyib duruyor. Uyğun zamanı deyildir!" (3).

Bu məruzə çox böyük hər kəsdə çox böyük maraq doğurmuş və elə həmin ildə də 45 səhifəlik kitab halında Bakıda Üçüncü İnternasional Mətbəəsində latın qrafikası ilə nəşr edilmişdir.

Əsas etibarilə bunu qeyd etmək lazımdır ki, Əli bəy Hüseynzadənin fərqi ondan ibarət idi ki, o, Qərb-Şərq mədəniyyətlərini düşmənçilik mövqeyindən təsvir etməmiş, əksinə Qərblə Şərqi birləşdirən humanist prinsiplərdən, insani dəyərlərdən çıxış etmişdir. Onun Qərbə baxışında Şərq dünyagörüşü, Şərq müdrikliyi dayanırdı. Qərbdə Şərqin ehtiyac duyduğu və ehtiyac duymadığı dəyərlərə eyni dərəcədə münasibət bəsləyir, Şərq dünyagörüşünə, milli kökünə, mədəniyyətinə, əxlaqına sadiq qalaraq, onun Qərb maarifçiliyinə, elmi-texniki yüksəlişinə ehtiyac olduğunu göstərirdi. O, Avropalaşmağı, yəni müasirləşməyin Türkçülük və İslamın ortaq məxrəcə gəldiyi vaxt güc qazanacağına inanırdı. "Türk hissiyatı ile mütehassıs, İslam diniyle mütedeyyin ve Avrupa medeniyeti hazırasıyla mütemeddin" olmaq deyirdi.

## ƏDƏBİYYAT


1. Azər Turan "Əli bəy Hüseynzadə" Bakı 2008
2. Azər Turan Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 480 s
3. A.Şaiq Xatirələrim. Bakı: Gənclik, 1973
4. Akçura Yusuf "Türkçülüyün tarixi" Bakı 2006, s. 232-233

5. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir. Bakı: Mütərcim, 1997, 292 s.
6. Hüseynzadə Ə. “Qırmızı qaranlıqlar içində yaşıl işıqlar” Bakı: Azərnəşr, 1996, 253 s.
7. Hüseynzadə Ə. Siyasəti – fürusət. Bakı: Elm, 1994, 236 s.
8. Vəliyev Ş. “Füyuzat” ədəbi məktəbi. Bakı: Elm. 1999, 444 s.

## ƏLİ BƏY HÜSEYNZADƏNİN QƏRB MƏDƏNİYYƏTİNƏ MÜNASİBƏTİ

***İsazadə Leyla***

## XÜLASƏ

Əli bəy Hüseynzadə görkəmli elm xadimi, böyük mütəfəkkir olmuşdur. Bu məqalədə Əli bəy Hüseynzadənin Qərb mədəniyyətinə münasibəti və əsərləri qeyd olunmuşdur.

## ОТНОШЕНИЕ АЛИ БЕЯ ГУСЕЙНЗАДЕ К ЗАПАДНОЙ КУЛЬТУРЕ

***Исазаде Лейла***

## АННОТАЦИЯ

Али бек Гусейнзаде был выдающимся ученым и мыслителем. В этой статье упоминается отношение Али бека Гусейнзаде к западной культуре и его произведениям.

## ALI BEY HUSEYNZADE'S ATTITUDE TO WESTERN CULTURE

***Isazade Leyla***

## SUMMARY

Ali bey Huseynzadeh was a prominent scientist and great thinker. This article mentions Ali bey Huseynzadeh's attitude to Western culture and his works.

# AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT İDEYASININ REALLAŞMASININ SOSİAL ƏSASLARI

***İbadov Orxanpaşa Haqverdi oğlu***
***BDU-nun II kurs magistrantı***
***ibadovorxan6@gmail.com***

***Açar sözlər:*** hüquq , legitimlik , qanunun aliliyi , Azərbaycanda humanizm
***Ключевые слова:*** право, легитимность, верховенство закона, гуманизм в Азербайджане.
***Keywords:*** law, legitimacy, rule of law, humanism in Azerbaijan

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra cəmiyyət tam fərqli, həm də çətin bir inkişaf mərhələsinə qədəm qoydu. Bu mərhələdə qarşıda duran ən böyük vəzifə demokratik, hüquqi və dünyəvi dövlət qurmaq məqsədilə ciddi islahatlara başlamaq və güclü vətəndaş cəmiyyəti yaratmaqdan ibarət idi.

Hüquqi dövlət quruculuğu Azərbaycan dövlətçiliyinin əsas hədəfidir. Təbii ki, bu çox çətin yoldur, xüsusilə mövcud regional şərtlər, qonşu dövlətlərin maraq və təzyiqlərinin davamlı mövcud olduğu, ərazi bütövlüyü ilə bağlı ciddi problemlər yaşadığı, yəni işğal və təcavüzə məruz qaldığı bir şəraitdə qarşıya qoyulan bu hədəfin gerçəkləşməsi başqa postsovet dövlətlərindən daha ağır çətinliklərlərlə rastlaşdığını göstərir. Lakin Azərbaycan şəraiti sadəcə çətinliklərə yol açan obyektiv və subyektiv amillərlə çərçivələnmir, həm də bir sıra üstünlükləri ehtiva edir.

Qeyd etmək istərdim ki, Azərbaycan cəmiyyətinin mədəni-mənəvi dəyərləri, milli keyfiyyətləri, xüsusən də humanist təbiəti hüquqi dövlət ideyasının dəyərlər sisteminə heç bir xalqda olmadığı qədər uyğundur. Məsələn, Azərbaycan xalqının tayı-bərabəri olmayan həddə tolerantlıq kimi keyfiyyəti bunu sübut edir. Bu gün hüquqi dövlət ideyasının beşiyi olan, dünyanın ən demokratik, liberal dövlətləri kimi status qazanmış və hüquqi dövlətçiliyin flaqmanı iddiası daşıyan dövlətlər beynəlxalq siyasətdə açıq-aşkar dini hisslərdən çıxış edərək humanizmə, qanunun aliliyinə, ədalətə zidd mövqelər tuta bilirlər. Ermənistan-Azərbaycan münaqişəsində bəzi dövlətlərin illərdir məhz xristian dövləti olduğu üçün işğalçıya tərəfdar çıxması, onu qorumaq üçün çalışmasını inkar edə bilmərik.

Qeyd etmək lazımdır ki, bütövlükdə Azərbaycanın regional vəziyyəti çox mürəkkəbdir və nəinki, arzulanan mütərəqqi dövlətçilik ideyalarını, hətta ərazi bütövlüyü, təhlükəsizliyi, dövlət suverenliyini qorumaq son dərəcə mürəkkəb və çətindir. Bununla belə Azərbaycan hakimiyyəti hüquqi dövlət quruculuğu istiqamətində təmkinli və ağıllı, ölçülüb-biçilmiş, ciddi ziyanlar gətirməkdən sığortalanmış islahatlar aparır, konstitusion hədəflərə çatmaqla bağlı iddialarından imtina etmir [3,282 s].

Qeyd edək ki, istənilən dövlətdə hüquqi dövləti formalaşdırma yolu bütün imkanların yol verdiyi halda da uzun bir tarixi prosesdir və bütün ictimai sistemlərdə-hüquqi, iqtisadi, mədəni, sosial sistemlərdə uzunmüddətli proqramlar həyata keçirərək onları hüquqi dövlətin tələbləri səviyyəsinə çatdırmaq lazımdır.

Azərbaycanın iqtisadi sistemi əmək və istehsal münasibətlərini hüquqi dövlət prinsiplərinə uyğun şəkildə qurmaq imkanı bəllidir. Lakin iqtisadi sistem cəmiyyətin bütün təbəqələrinin iqtisadi qurumlar və təşkilatlar çərçivəsində fəaliyyət göstərdiyi, sosial münasibətlərin tarixi ənənələr qazanmış, böyük təcrübələrə malik vərdişlərlə yürüdülməsi halında hüquqi dövlət standartlarına malik ola bilər. Digər tərəfdən, cəmiyyətdə orta təbəqənin, milli burjuaziyanın formalaşması və əlaqələri yüksək humanistlik, mədəniyyət və xeyriyyəçiliklə qurmaq

səviyyəsinə çatmasını zəruri edir.Bu isə kiçik tarixi müddət çərçivəsində gedəcək bir proses deyil [2, 28 s].

Digər bir vacib məsələ ölkənin uzun müddət totalitar bir sistemdə yaşaması və cəmiyyətin həmin sistemin qoyduğu hüquqi prosedurlara vərdiş etməsidir. Bu durumda əhalinin yeni hüquqi prinsiplərlə yaşamağa öyrənməsi, bir sözlə, hüquq mədəniyyətinin tələbləri ilə hərəkət etməsi daha uzun bir zaman kəsiyi tələb edir.

Vətəndaşların hüquqi mədəniyyətinin formalaşmasındakı maneələrlə yanaşı və eyni müstəvidə çox vacib hal onların totalitar birpartiyalı sistemin yaratdığı tarixi siyasi təcrübəsi ilə bağlıdır.Bu hal hüquqi dövlətin əsasları olan siyasi hüquqların gerçəkləşməsi baxımından ciddi problemlər yaradır. Həm sıravi vətəndaş olaraq öhdəsinə düşən siyasətdə iştirak kimi məsuliyyətini, həm də çoxpartiyalı bir sistemdə siyasi təşkilatlanaraq aktiv siyasətlə məşğul olmaq tərzi və vəzifələrini düzgün və faydalı şəkildə tətbiq etməkdə böyük çətinliklər yaşayırlar. İnsanlar siyasi təşkilatlar daxilində bir-birilə münasibətləri formalaşdıra bilmirlər. Demokratik dəyərlər bir neçə qrupa cəmiyyətin rəyini qazanmaq üçün mübarizə və rəqabət imkanı verir.

Sadaladığım problemlər və maneələrlə yanaşı Azərbaycanın hüquqi dövlətçilik yolunda müsbət rol oynayan amilləri də qeyd etmək istərdim.

Əsas müsbət göstərici kimi qəbul olunmuş konstitusiyanın hüquqi dövlət prinsiplərini tamamən ehtiva etməsi, burada hər hansı bir boşluğun və ziddiyyətin olmamasıdır. Nəzərə alaq ki, deyilən hal son dərəcə vacib bir göstəricidir və bir sıra dövlətlərin qarşısında əsas problem kimi gündəmdə durur. Azərbaycanın ümumilli lideri Heydər Əliyevin Azərbaycan adına sonsuz xidmətlərindən biri də məhz belə bir mükəmməl konstitusiyanın qurulması olmuşdur. Bu, həm də hüquqi dövlətçiliyin ilk illərində ona liderlik edən şəxsin uzaqgörən və böyük vətəndaşlığı kimi göstəricilərin əhəmiyyətini göstərir.

Konstitusiya ilə bağlı digər çox önəmli vəziyyət isə onun bütün prinsiplərinin, yəni, hüquqi dövlət prinsiplərinin legitimliyi, əhalinin nəinki əksəriyyəti, bütün xalq tərəfindən şəksiz qəbuludur. Bu o deməkdir ki, hüquqi dövlət ideyası üçün ictimai zəmin vardır. Milli mentalitet onun prinsiplərini özünün bütün mental göstəricilərinə uyğun sayır.

Göstərilən hal hüquqi dövlətçilik sisteminin qurulması yönündə bir sıra praktik məsələləri həll etmişdir. Bəzi qonşu dövlətlərin təcrübəsindən açıq-aydın müşahidə etmək olur ki, sosial təbəqələr arasında böyük mədəni fərqlər ictimai düşüncə və həyat tərzi haqqındakı düşüncələri, stereotipləri bir neçə bir-birinə zidd istiqamətdə ayırır. Lakin bizdə bu cür ziddiyyətlər yoxdur. Çünki, bir tərəfdən əhalinin mədəni və təhsil səviyyəsi çox ziddiyyətli deyil,böyük fərqlərlə müşahidə olunmur. Kütləvi mədəni səviyyənin qənaətbəxş olması isə imkan verir ki, dəyərlər, özü də demokratik, dünyəvi dəyərlər xalqın bütün təbəqələri tərəfindən sinxron qəbul olunsun [1, 123 s].

Bir sıra dövlətlərdə isə əhalinin mədəni səviyyəsində ziddiyyətlər yaşanmasa da, milli-dini müxtəliflik və onların hər birinin hakimiyyət subyektinin mövcudluğu demokratik prinsiplərin tamamən gerçəkləşməsini dövlətin bütövlüyü baxımından təhlükəli edir.

Sadalanan vəziyyətlərlə bağlı Azərbaycanda müsbət göstəriciləri müşahidə edirik. Bir tərəfdən sosial təbəqələrin öz gələcəkləri haqqında düşüncələri bir ideyaya yönəlib, həyat tərzlərini vahid istiqamətdə və hüquqi dövlət prinsipləri ilə qurmaq istəyirlər. Digər tərəfdən, Azərbaycanda etnik və dini müxtəlifliyə rast gəlinsə də, bu, böyük demoqrafik göstəricilərə malik milli-dini subyektlər səviyyəsində deyil və həmin xalqlar çoxluq təşkil edən millətlə hər hansı bir anlamda fərq daşımırlar.

Göründüyü kimi, konstitusion normaların legitimliyi ilə bağlı Azərbaycanda problem yaradacaq heç bir zəmin yoxdur. Fikrimcə, bir dövlətin hüquqi dövlətçilik yolunda malik olduğu ən böyük imkanlara Azərbaycan dövləti malikdir.

Daha sonra hüquqi dövlət ideyasının əsas ideya mənbəyi olan humanizm, insan amilinə verilən önəm, tolerantlıq kimi dəyərlərin konkretləşməsi imkanlarının Azərbaycanda hansı səviyyədə olmasını diqqətə çatdırmaq istərdim.

Bəllidir ki, əslində humanizm ideyaları hələ orta əsrlərdə Nizami, Nəsimi kimi mütəfəkkirlərin ideya bazası olmuşdur. Hətta iddia edə bilərik ki, həmin ideyalar ilk dəfə məhz Azərbaycanda hürufilik kimi böyük bir cərəyanın prioritet istiqamətlərindən biri kimi yaranmışdır. O zaman Avropada liberal dəyərlər haqqında heç təsəvvür yox idi. Əslində burada təəccüblü bir hal yoxdur. Bugünkü Azərbaycan xalqının bütün dünyanı təəccübləndirən tolerant, insanpərvər xisləti həmin dəyərlərin xalqımızın təbiətinin tələbatı olduğunu sübut edir. Bu ölkə çox siyasi sistemlər, dövlət quruluşları görüb və müxtəlif ideoloji mühitdə yaşayıb.Lakin hər zaman da həyat tərzində, insanlara münasibətində mükəmməl humanist hisslər, davranışlar nümayiş etdirib. Onun təbiəti başqa cür olmağa imkan vermir. Ona görə də bir sıra xalqlardan fərqli , bəzilərindən isə çox fərqli olaraq humanist dəyərlər Azərbaycan xalqı üçün yapışdırma prinsiplər və kosmetik mədəni davranış tərzi ola bilməz. Halbuki, bugünün Qərbində fərdi, ölkə daxili olmasa da regional və qlobal müstəvidə dini və milli dözümsüzlük açıq və ya gizli daim düşüncədə və gündəmdədir [4, 54 s].

Qərbdə liberal dəyərlər, insan hüquq və azadlıqları inkişaf edib. Buna şübhə yoxdur. Lakin orada da bir sıra neqativ hallara , özgələşməyə rast gəlmək mümkündür. Məsələn, mətbuat azadlığı, siyasətin və siyasətçilərin fəaliyyətinin şəffaflığı kimi yüksək dəyərlər özgələşdirilə bilir. Humanist çıxışlarda ölçünü gözləyə bilməmək əslində Avropada liberal dəyərlərlə yaşamaq kimi tarixi ənənələrin və onun əsasında da humanist, dünyəvi insan xislətinin çatışmazlığıdır. Halbuki, Qərbdən fərqli olaraq Azərbaycan üçün özəl həyatın, ailə münasibətləri və həyatının toxunulmazlığı vətəndaş cəmiyyətinin, hüquq azadlığının şərtidir.

Ölkəmizin əsas qanununun qəbul edilməsi, burada təməl demokratik prinsiplərin, o cümlədən, hakimiyyətlərin bölünməsi prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsi idi. Həmin illərdə ölkədə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə müdafiəsi üçün səmərəli, həmçinin çevik mexanizmlərin yaradılması, habelə qanunların aliliyinin təmin olunması gerçəkləşdirilən mütərəqqi islahatların mühüm istiqamətini təşkil edirdi. O dövrdə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilmişdir.

Hüquqi dövlətin prinsipləri ölkəmizdə ilk olaraq müvafiq obyektiv hüquqa uyğun qanunvericilik sisteminin yaradılması, qanunvericilikdə nəzərdə tutulmuş qaydada insanların hüquq və azadlıqlarının təmin olunması ilə özünü göstərir. Demokratik dövlətlərin inkişaf təcrübəsi və ölkəmizin keçdiyi yol göstərir ki, vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. İnsan və vətəndaş hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyəti, nə də hüquqi dövlət formalaşdırmaq mümkündür. Cəmiyyətdə hüquqların təminatçısı dövlətdir. Dövlət bu hüquqları təmin etməklə özünün həm də qoruduğu əsas dəyərləri göstərir. Azərbaycan da hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu seçdiyindən insan və vətəndaş hüquqları və azadlıqlarını təmin edir. Bu gün ölkəmizdə hakimiyyətin qolları bir-birindən asılı olmadan Konstitusiya səlahiyyətlərindən istifadə etməklə fəaliyyət göstərir. Bütün normativ aktlar, qanunun aliliyi əsasında yaradılır və həyata keçirilir. Elə hüquqi dövlət anlayışı dövlət hakimiyyətinin

Konstitusiya normalarına tabe olmaqla, ayrı-ayrı fərdlərin hüquqları dövlətin şəxsində qorunmalıdır. Hüquqi dövlət öz-özünə daimi norma və qaydaların kompleksini müəyyən dərəcədə məhdudlaşdırır. Bu istiqamətdə ölkəmizdə kifayət qədər mütərəqqi islahatlar aparılıb,məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilib, məhkəmə hakimiyyətinin müstəqilliyinə nail olunub, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənib.

## ƏDƏBİYYAT

1. Allahverdiyev S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları , Bakı, Digesta, 2006, 335 s.
2. Azərbaycanın dövlət və hüququnun əsasları, Bakı, Qapp-Poliqraf, 2003, 438 s.
3. Babaoğlu H. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi: siyasi, ideoloji və diplomatik məsələlər, Bakı, Elm, 2007, 505 s.
4. Bağırov Ş. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri, Bakı, MBM, 2006, 203 s.
5. Dövlət və hüquq nəzəriyyəsi. Mühazirələr toplusu. Bakı, Adiloğlu, 2007, 370 s.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1997, 612 s.

## AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT İDEYASININ REALLAŞMASININ SOSİAL ƏSASLARI

***İbadov Orxanpaşa***

## XÜLASƏ

Azərbaycan bütün böyük, kiçik, regional, qlobal problemləri ilə yanaşı hüquqi dövlət ideyasına, sosial tərəqqiyə, ciddi dövlətçilik imkanlarına malikdir. Azərbaycandakı ictimai-siyasi prosesləri təhlil edərkən bu qənaətə gəlmək olur ki, Azərbaycanda hüquqi dövlət ideyasının gerçəkləşməsi üçün zəruri şərait var, qəbul edilən qanunlar və qanunvericilik aktları beynəlxalq standartlara uyğundur, aparılan islahatlar bəşəri dəyərləri özündə ehtiva edir. Azərbaycan mövcud imkanlardan yararlanaraq Cənubi Qafqazda , ümumiyyətlə, yaxın qonşu əraziləri əhatə edən regionda ən gözəl həyat şəraitlərinə malik , nümunəvi bir ölkə səviyyəsinə çatmışdır. Azərbaycan üçün hüquqi dövlət konsepsiyasının davamlı tətbiqində hansı prinsiplərin gerçəkləşməsinə diqqətin xüsusi olaraq yönəlməsinin gərəkliliyini araşdırmaq hər zaman zəruridir.

## СОЦИАЛЬНАЯ ОСНОВА РЕАЛИЗАЦИИ ИДЕИ ПРАВОВОГО ГОСУДАРСТВА В АЗЕРБАЙДЖАНЕ

***Ибадов Орханпаша***

## АННОТАЦИЯ

Наряду со всеми большими, малыми, региональными и глобальными проблемами, Азербайджан имеет представление о правовом государстве, социальном прогрессе и серьезных возможностях государственности. Анализируя общественно-политические

процессы в Азербайджане, можно сделать вывод, что в Азербайджане есть необходимые условия для реализации идеи верховенства права, принятые законы и законодательство соответствуют международным стандартам, реформы включают общечеловеческие ценности. Воспользовавшись имеющимися возможностями, Азербайджан вышел на уровень образцовой страны Южного Кавказа, с лучшими условиями жизни в регионе, который в основном охватывает соседние территории. Азербайджану всегда необходимо изучать необходимость уделять особое внимание реализации принципов устойчивого применения концепции верховенства права.

## SOCIAL BASIS FOR THE REALIZATION OF THE IDEA OF THE LEGAL STATE IN AZERBAIJAN

***Ibadov Orkhanpasha***

### SUMMARY

Along with all the big, small, regional and global problems, Azerbaijan has the idea of the rule of law, social progress and serious statehood opportunities. Analyzing the socio-political processes in Azerbaijan, it can be concluded that Azerbaijan has the necessary conditions for the realization of the idea of the rule of law, the adopted laws and legislation are in line with international standards, the reforms include human values. Taking advantage of the existing opportunities, Azerbaijan has reached the level of an exemplary country in the South Caucasus, with the best living conditions in the region, which generally covers the neighboring territories. It is always necessary for Azerbaijan to study the need to pay special attention to the implementation of the principles of the sustainable application of the concept of the rule of law.

# FİZİOLOJİ, SOSİAL VƏ PSİXOLOJİ YAŞLANMANIN TƏBIƏTİ

***Həsənzadə Gülay Ceyhun qızı***
***BDU-nun, II kurs magistrantı***
***hesenzadegulay@gmail.com***

***Açar sözlər:*** yaşlanma, fizioloji amillər, sosial amillər, psixoloji amillər, tənhalıq, adaptasiya, unutqanlıq.
***Ключевые слова:*** старение, физиологические факторы, социальные факторы, психологические факторы, одиночество, адаптация, забывчивость.
***Keywords:*** aging, physiological factors, social factors, psychological factors, loneliness, adaptation, forgetfulness.

Yaşlanma özü ilə bir sıra problemlər və fizioloji dəyişikliklər gətirir. Onlardan bəzilərini aşağıdakı kimi sıralaya bilərik. Belə ki, bu zaman damarlar, sinirlər, bədən dərisi və digər bioloji toxumalar elastikliyini itirir, damarlarda sərtlik, oynaqlarda degenerasiya baş verir. Skelet quruluşu pisləşir, sümüklər incə və kövrək olur. Reflekslər və hormonal fəaliyyətlər yavaşlayır. Bir sıra sağlamlıq problemləri isə ümumi qan dövranının pozulması nəticəsində baş verir. Qan təzyiqinin azalması zehni fəaliyyətə mənfi təsir göstərir, əzələlərin və digər bədən orqanlarının effektivliyini azaldır. Bu kimi səbəblərə bağlı olaraq bir çox xəstəlik kimi qocalıqda insult və infarkt riski də artır. Yaşlılıqda fiziki reqressiyaları üç qrupda toplamaq mümkündür. Bunlar aşağıdakılardır:

Fiziki reqressiyalar: Gəzinti, qaçış, ifrazat və s. kimi pozğunluqlar,

Cinsi reqressiyalar: Hormonal və reproduktiv fəaliyyətin dayandırılması,

İntellektual reqressiyalar: Yaddaş itkisi, unutqanlıq və s. əlamətləri (5, 20).

Yaşlılıqda dərinin incəlməsi və elastikliyini itirməsi, boyun qısalması, əzələ gücünün azalması, sümüklərdə kalsium itkisi səbəbiylə sümük sıxlığının azalması, görmə və eşitmə problemləri kimi bir çox fizioloji dəyişikliklər müşahidə edilir. Qocalıqda müşahidə edilən belə fizioloji dəyişikliklərə “fizioloji qocalıq” və ya “bioloji qocalıq” deyilir.

“Orta yetkinlik dövründə həm kişilərdə, həm də qadınlarda bir sıra cinsi dəyişikliklər baş verir ki, bu dəyişikliklər bəzi müəlliflər tərəfindən “həyat dəyişikliyi” anlayışı ilə ifadə edilir. Həyat dəyişikliyi orta yaşda kişi və qadınlarda baş verən cinsi dəyişikliklərə tətbiq edilən ümumi bir termindir və mühüm dönüş nöqtəsi kimi həyatın bir dövrünün tərk edilməsi və digər dövrünün başlaması deməkdir. Bu dəyişikliklərin ən mühümü qadın və kişilərdə uşaq sahibi ola bilmənin tədricən azalmasıdır”.

Qısacası, “qocalma prosesi ilə hüceyrə səviyyəsində dəyişikliklər orqanoid və bütün canlı səviyyələrdə dəyişikliklərə və orqan funksiyalarında azalmaya səbəb olur” (6, 27).

Yaşlılıq dövründə qocalar, xüsusən fizioloji reqressiyaların artması ilə əlaqədar sosial-psixoloji problemlər yaşayırlar. Psixoloji problemlərə daha çox yaşlı insanlarda (xüsusilə qadınlarda) və özünü qocalığa hazırlaya bilməyən fərdlərdə rast gəlinir. Lakin psixoloji problemlər bütün yaşlı insanlarda həyatlarının istənilən mərhələsində müşahidə oluna bilər.

Eriksona görə, “Həyatın səkkiz mərhələsi var və bunların sonuncusu olan “öz-özünə inteqrasiya” mərhələsi qocalığı əhatə edir. Bu mərhələdə özünün (eqonun) ən mühüm vəzifəsi əvvəlki mərhələlərdə əldə edilmiş özünəməxsus xüsusiyyətlərini inteqrasiya etməkdir. Özünə toxunulmazlıq bütün həyatı müsbət-mənfi, acı-şirin tərəfləri ilə olduğu kimi qəbul etməkdir. Özünə toxunulmazlığın təmin edilməməsi keçmiş günlərin yaxşı yaşanmadığı hissi və ölüm

qorxusu şəklində özünü göstərir. Yaşlı insanlar müxtəlif itkilərə və çətinliklərə müxtəlif reaksiyalar və mübarizə səyləri göstərirlər.

Yaşlılıq dövrü psixoloji risk dövrü kimi qiymətləndirilə bilər. Yaşlı fərdlərdə qocalma mərhələsində fizioloji dəyişikliklər, fiziki gücün azalması, çoxşaxəli itkilər, stresslər, böhranlar, təqaüdə çıxma, həyat yoldaşının ölümü, xəstəliklər, görünüş dəyişikliyi, emosional itkilər, statusun, yaşayış səviyyəsinin azalması səbəbindən psixi sağlamlıq baxımından əhəmiyyətli risk qrupunu təşkil edir.

Qocalıqda fiziki və zehni geriləmədən asılı olaraq, güc və yaşamaq istəyi tədricən azalır. Xüsusilə, sevgi instinkti xeyli dəyişir. Yaşlılıqda fərd emosional sarsıntıdan və aşınmadan daha çox təsirlənməyə başlayır. Gənclik imicini itirmək, həyat yoldaşını və yaxınlarını itirmək, gənclərin təhsil və evlilik səbəbindən evdən getməsi nəticəsində yaranan sevgi itkisi, uzun evliliklərin yorğunluğu, cinsi həyatda durğunluq yaşlıların psixi quruluşuna mənfi təsir göstərir.

Tompson tərəfindən 1993-cü ildə edilən bir araşdırmada, "qocalıqda rifah üçün ən əhəmiyyətli təhlükələrdən biri insanın həyatdakı məqsədini itirməsi və cansıxıcı olması fikri xüsusi qeyd edilmişdir. Eyni araşdırmada iştirakçılar xəstəliyə və depressiyaya düşmədikcə qocalmadıqlarını ifadə etdilər. Bu, yaşlı insanların psixoloji xüsusiyyətlərinin nə qədər vacib olduğunu açıq şəkildə nümayiş etdirir.

Yaşlılıqda psixoloji dəyişikliyin əsas determinantları üç qrupda toplanır. Bunlara fiziki tənəzzül, statusun itirilməsi və ölüm qorxusu kimi hallar aid edilir. Statusun itirilməsi ilə bağlı xüsusiyyətlərə isə ləyaqətinin itirilməsi, müəyyən yaşda təqaüdə çıxması, təqaüdə çıxması ilə əlaqədar gəlir itkisi və s. daxildir. Ölüm qorxusu isə dini inanclara həddindən artıq bağlılıqdan, arzulanan məqsədlərə çatmamaq narahatlığından və ömrün qısalığını dərk etmə səbəbindən qaynaqlanır.

Yaşlandıqca xarici aləmə nəzarət və təsir azaldıqca insan öz daxili dünyasına qayıdır. Psixoloji mənada özünü boşluqda və tənha hiss edən qocalar qapalı, keçmişə həsrətlə baxıb, yenilik etməkdən çəkinirlər.

Yaşlılıqda psixo-sosial amil qocalıq dövrünə təsir edir. Bu amillər sırasında iqtisadi problemlər, təqaüd, uşaqların evdən getməsi, qohumların itirilməsi və sosial rolların azalması kimi müxtəlif həyat hadisələri var. Bu cür həyat hadisələri baş verən dəyişikliklərdən sonra yeni vəziyyətə uyğunlaşma tələb edir. Uyğunlaşma əldə edilmədikdə, uyğunlaşma problemləri, ümidsizlik, depressiya, əsəbilik və narahatlıq kimi müxtəlif psixoloji problemlər müşahidə oluna bilər.

Yaşlıların uyğunlaşma problemlərindən biri, şübhəsiz ki, şəhər həyatının mürəkkəbliyidir. Birren (1970) müəyyən etdi ki, qocalıqla bağlı psixi pozğunluqlara şəhər yerlərində kənd yerlərində olduğundan bir dəfə çox rast gəlinir. Burada böyük şəhərin sürətli həyatı, izdiham, səs-küy və digər amillər mühüm rol oynayır. Digər tərəfdən, kənd yerlərində yaşayan yaşlı insanlara yaşadıqları mühit tərəfindən daha çox hörmət edilir və işlərini daha uzun illər davam etdirmək imkanı əldə edirlər. Bu gün xüsusilə sənayeləşmiş şəhər cəmiyyətləri gözlənilmədən və hazırlıqsız olaraq qocalma problemi ilə qarşılaşmışlar və yaşlı insanlar təcrübələrindən və sağlam düşüncələrindən faydalana biləcək həll yolları inkişaf etdirə bilməmiş, ləyaqətli bir həyat sürə biləcəkləri şəraiti təmin edə bilməmişlər (7, 106).

Xüsusilə bu zaman sosial münasibətlərin azalması, tək yaşamaq, kasıb olmaq, yaxınlarını itirmək, ləyaqət və fərdi bacarıqların azalması depressiyanın inkişafına şərait yaradır. Həyat yoldaşından ayrılmış və ya dul qalmış insanlarda depressiyaya meyillilik nisbətən çox müşahidə olunur.

Təqaüdə çıxma çox vaxt sakitləşmə və təcrid ilə sinonimdir ki, bu isə özlüyündə stressin əsas səbəblərindən biridir. Həyat yoldaşı və ailəsi ilə olan münasibətlər və rollar təqaüdə çıxma ilə

dəyişir. Sosial təcrid pensiyada baş verir. Xüsusilə həyatı yalnız işdən ibarət olan fərdlərdə daha ciddi problemlər və çöküşlər yaşanır. Məlumdur ki, təqaüdə çıxmazdan əvvəl real planlar quran insanlar bu prossesə daha yaxşı uyğunlaşır. Məhz bu səbəbdən orta yaşda lazımi planlar artıq qurulmalıdır (7, 34).

Yaşlılığa mənfi münasibət, məsələn, qocalığın təqaüdə çıxma və passivləşmə dövrü olması, ictimai həyatdan uzaqlaşma kimi yanlış təsəvvürlərə əlavə olaraq, zəkanın qocalıqda gerilməsi və yaşlı insanların yeni şeylər öyrənə bilməyəcəyi kimi inanc formalaşmışdır. Bununla belə, qocalıqda zəkanın azalması və ya böyüklərin yeni şeylər öyrənə bilməməsi ilə bağlı söz-söhbətlər boşunadır. Zəka və idrak qabiliyyətlərimiz yetkinlik dövründə də davam edir. Əslində, düşüncə və şifahi bacarıqlar yetkinlik dövründə də inkişaf edə bilər.

Yaşlanma ilə bərabər sosial həyatda bir sıra dəyişikliklər baş verir. Bunlardan ən mühümü status və rol itkisi nəticəsində qocalara qarşı asılı, köhnə, ikinci dərəcəli kimi münasibət və qərəzlərdir. Gənclərin yaşlılara qarşı bu mənfi münasibət və davranışları və mədəni ön mühakimələri onların şəxsi qavrayışlarına və yaşlı insanların rol davranışlarına təsir edir.

Əslində qocaların sosial həyatda qarşılaşdıqları əsas problem müasir dünyanın onlar üçün nəzərdə tutulmamasıdır. Bu mənada müasir dünya isə istehsalçılar və istehlakçılar dünyasıdır. Yaşlanma bu münasibətlərdən kənarda qalır. Belə ki, qocalar həm özünü reallaşdırmaq imkanından məhrum olur, həm də cəmiyyətdə qocalığın qəbulu ilə bağlı ayrı-seçkiliyə məruz qalırlar. Yaşlılara qarşı bu ayrı-seçkilik müsbət (müsbət) və ya mənfi (mənfi) ola bilər. Üstəlik, bu uydurmada subyekt kimi addım ata bilməyən yaşlılar hər iki ayrı-seçkiliyin güclənməsinə öz töhfəsini vermiş olur. Başqa sözlə desək, qocaların özlərini "yaşlı" görməsi, onların ümumi sosial düşüncəyə qoşularaq ayrı-seçkiliyi öz gözlərində də gücləndirməsinə səbəb olur (8, 7).

İş həyatından uzaqlaşmaq, başqa sözlə təqaüdə çıxmaq insan həyatında mühüm dəyişikliklər yaradan özü-özlüyündə stresli bir hadisədir. Həyatı boyu hər cür problemlə mübarizə aparan fərd, qocalıq dövründə fiziki, psixoloji və iqtisadi problemlərlə yanaşı, sosial problemlərlə də qarşılaşır. Təqaüdə çıxanda insanın sosial tərəfini qoruyub saxlaya biləcəyi və ona uyğunlaşa biləcəyi bir mühit tapması mühüm problemdir. Ömrünün böyük bir hissəsini işinə və iş yerinə həsr edən və az qala onlarla eyniləşən fərd, təqaüdlə birlikdə özünü bir vakuumda tapır. Cəmiyyətlə münasibətlərin zəiflədiyi və məhdudlaşdığı qocalıq dövründə fərdlər tədricən cəmiyyətdən uzaqlaşmağa başlayırlar.

Burgessə görə (1960), "Təqaüdə çıxanda insan rolsuz rol oynamağa başlayır". Təqaüdə çıxmaq bir tərəfdən həyatın adi davamlılığını pozur, digər tərəfdən də insanın ailə və digər insanlar arasında yerinin və şəxsiyyətinin dəyişməsinə səbəb olur. Onun səlahiyyət, prestij və məhsuldarlıqla itirdiyi rolun yeri isə heç bir halda doldurula bilməz.

Yaşlıların sosial həyata çox asanlıqla uyğunlaşdığını söyləmək olmaz. Bir çox ölkələrdə sosial-siyasi amillər yaşlı insanların sosial həyatda iştirakını çətinləşdirir. İqtisadi prioritetlər, məhsuldarlığın dəyəri, ölüm qorxusu və populyar gənclik mədəniyyəti yaşlı insanların sosial resurslara və dəstəyə çıxış şanslarını azaldır. Məsələn, işləmək istəsələr, işləməyə davam etmək şansından məhrum edilirlər. Yaşayış yerlərinin potensial məhdudiyyətlərinə cavab verməsi planlaşdırılmır və ictimai nəqliyyat sistemləri onların ehtiyaclarını ödəməkdən uzaqdır. Görünən maneələr olmasa belə, sosial normalar yaşlı insanların sosial gözləntilərinin və əsas sosial ehtiyaclarının inkişafı üçün zəruri olan sosial resurslardan istifadəni azaldan qeyri-şifahi müddəaları və qadağaları ehtiva edir.

Qeyd olunanlara yekun olaraq, qocalığın ən qabarıq sosial xüsusiyyəti gənclik və yetkinlik dövründə nüfuz, status və rolların itirilməsi, sosial ayrı-seçkilik, fiziki xəstəliklər, pensiya, ətraf mühitin dəyişməsi və s. kimi amilləri qeyd edə bilərik. Bu səbəblərə görə yaşlı insanın cəmiyyəti təşkil edən digər fərdlər tərəfindən sosial həyatdan kənarda göründüyünü hesab edirik. Bundan

əlavə, ailə ilə münasibətlərdə problemləri, başqalarının köməyinə ehtiyac duymağı, iş tapa bilməməyi, istehlakçı olmağı, faydalı olmamağı, dost və yoldaş tapmamağı da saya bilərik.

Yaşlılar qocalıqda müxtəlif problemlərlə qarşılaşırlar. Bu problemlərin bəziləri yaşlıların fiziki, əqli və sosial vəziyyətindən, bəziləri isə yaşlılıqdan əlavə ekoloji şəraitdən yaranır. Məsələn, sözügedən məqam yaşlıların yaşadığı ölkənin sosial, iqtisadi və mədəni siyasət və təcrübələrindən qaynaqlanır. Bu gün müşahidə edilən fenomen qocalmanın artıq "fərdi" problem deyil, daha çox "cəmiyyət" problemi olduğu reallıqdır. Ölkələrin həyata keçirdiyi sosial siyasətlər, sosial təminat qanunları, bir sözlə, yaşlıların sosial dövlət anlayışına uyğun olaraq qocalma dövründə qarşılaşdıqları problemləri azaldır və ya artırır.

Sosial problemlər insanın tərcümeyi-halı, bioloji dəyişiklikləri, rollarının itirilməsi və cəmiyyət tərəfindən qocalara verilən aşağı qiymət səbəbindən yaranır. Yaşlı qadınlar yaşlı kişilərə nisbətən daha çox çətinliklərlə üzləşirlər və regional şərtlər yaşlı insanın həyat keyfiyyətinə birbaşa təsir göstərir (10, 44).

Yaşlı əhalidəki bu artımla əlaqədar olaraq, qocalıqla bağlı problemlərlə daha tez-tez qarşılaşması qaçılmazdır. Qədim dövrlərdə ənənəvi geniş ailə sistemində yaşlılar bu problemlərlə daha az qarşılaşırdılar. Bununla belə deyə bilərik ki, bugünkü müasir kiçik ailələrdə bu problemlərin yaranma ehtimalı yüksəkdir.

Harris və başqalarının 1975-ci ildə ABŞ-da apardıqları araşdırmanın nəticələrinə görə sənayeləşmə ilə artan qocalma problemlərinin başlanğıcında, sağlamlıq problemləri, aşağı gəlir səviyyəsi, tənhalıq və kimsəsizlik, resurslara çatmaqda çətinlik, sosial ayrı-seçkilik, kifayət qədər dostların olmaması, yaşlı insanlara qarşı törədilən fərdi və sosial cinayətlər və s. kimi səbəblər dayanır.

Bu məqamda yaşlıların həyat məmnunluğuna təsir edən problemlər müzakirə olunacaq. Yaşlılıqda qarşılaşılan problemlər təbii olaraq yaşlıların həyatdan məmnunluğuna mənfi təsir göstərir. Bu araşdırma çərçivəsində yaşlanma və yaşlanma dövrü problemləri, yaşlıların həyatdan məmnunluq və sosial adaptasiya problemi, qayğı problemi, sağlamlıq problemi, qidalanma problemi, mənzil problemi, iqtisadi problem, yaşlı baxımsızlığı və zorakılıq problemi, qoca (kasıb) qadın problemi, qocalıqda sosial adaptasiya problemi, qocaların problemi və yaşlıların siyasi aktyor olmaması, qocalıq və asılılıq problemi (pensiya sığortasının maliyyələşdirilməsi problemi), qocalığın mənfi qavranılması problemi, nəsillərarası qarşıdurma problemi və onların boş vaxtlarından səmərəli istifadə etməmək problemi müzakirə olunmalıdır.

## ƏDƏBİYYAT

1. Əliev Q.C. Tababət fəlsəfəsi. Bakı, 2000, 240 s.
2. Qasımzadə F.F. Umumi etika, bioetika elimlərin texnologiyası etikasına aid./Bioetika, elm və texnologiyaların etikası problemləri.Bakı: Elm, 2005, s.73 – 107.
3. Şükürov A. Fəlsəfə. Bakı: Elm, 2002, 267 s.
4. Александрова М.Д. Проблемы социальной и психологической геронтоло-гии. Л.: Наука, 1974, 135 с.
5. Emiroğlu, V. (1995). Yaşlılık ve Yaşlının Sosyal Uyumu, Ankara: Şafak Matbaacılık.
6. Hatipoğlu, S. (1994). "Yaşlanma Sürecinde Ortaya Çıkan Fizyolojik Değişimler",
Sağlıklı Yaşlanma(iç), Genel Kurmay Başkanlığı Gülhane Askeri Tıp Akademisi Komutanlığı Hemşirelik Yüksekokulu Komutanlığı, Hemşirelik Yüksekokulu Yayın No:7, s.16-30.
7. Gençtan, E. (1978). Çağdaş İnsanda Normaldışı Davranışlar, Ankara: Ankara
Üniversitesi Basımevi.
8. Kalaycıoğlu, S., Tol, U. U., Küçükural, Ö., ve Cengiz K. (2003). Yaşlılar ve Yaşlı

Yakınları Açısından Yaşam Biçimi Tercihleri, Ankara: TÜBİTAK Matbaası.
9. Yurt, V. (1994). "Yaşlanma sürecinde Yaşanan Psikolojik Değişimler," Sağlıklı Yaşlanma(iç), Genel Kurmay Başkanlığı Gülhane Askeri Tıp Akademisi Komutanlığı Hemşirelik Yüksekokulu Komutanlığı, Hemşirelik Yüksekokulu Yayın No:7, s.31-38.
10. Tufan, İ. (2001). "Yaşlanan Dünyada Bir Delikanlı: Türkiye", Toplum ve Sosyal Hizmet Dergisi, Ankara: Hacettepe Üniversitesi Sosyal Hizmetler Yüksekokulu Yayını, Cilt:12, Sayı: 3, s. 27-49.

## FIZİOLOJİ, SOSİAL VƏ PSİXOLOJİ YAŞLANMANIN TƏBIƏTİ

***Həsənzadə Gülay***

### XÜLASƏ

Məqalədə, yaşlanma zamanı insan orqanizmində baş verən fizioloji dəyişikliklərə, eyni zamanda yaşlıların cəmiyyət daxilindəki rollarını müəyyənləşdirən sosioloji və psixoloji məqamlara diqqət yetirilmişdir. Bu və ya digər mənada qocalığa təsir edən digər mühüm amillər müəyyən müxtəlif mənbələrə istinadla qeyd olunmuşdur. Bu zaman mahiyyət etibarilə, yaşlanmaya təbii mexanizm kimi yanaşılmış, bu prosesi sürətləndərin ayrı-ayrı tərəflər şərh edilmişdir. Aktiv yaşlanma zamanı insanın itirdiyinə deyil, güclü tərəflərinə diqqət yetirərək istifadə etməyə davam etdiyi, hətta inkişaf etdirdiyi fərdi xüsusiyyətlərin ön plana çıxdığı bir proses kimi yanaşılmışdır.

## ФИЗИОЛОГИЧЕСКАЯ, СОЦИАЛЬНАЯ И ПСИХОЛОГИЧЕСКАЯ ПРИРОДА СТАРЕНИЯ

***Гасанзаде Гулай***

### АННОТАЦИЯ

В статье основное внимание уделяется физиологическим изменениям, происходящим в организме человека при старении, а также социологическим и психологическим факторам, определяющим роль пожилых людей в обществе. В том или ином смысле другие важные факторы, влияющие на старение, были выявлены со ссылкой на некоторые различные источники. При этом, по существу, старение трактуется как естественный механизм, и интерпретируются различные аспекты ускорения этого процесса. Он рассматривается как процесс, в котором человек продолжает использовать свои сильные стороны, ориентируясь не на то, что он потерял в процессе активного старения, а даже на те индивидуальные черты, которые он развил.

## PHYSIOLOGICAL, SOCIAL AND PSYCHOLOGICAL NATURE OF AGING

***Hasanzadeh Gulay***

### SUMMARY

The article focuses on the physiological changes that occur in the human body during aging, as well as the sociological and psychological factors that determine the role of the elderly in society. In one sense or another, other important factors affecting aging have been identified with reference to certain different sources. In this case, in essence, aging is treated as a natural mechanism, and various aspects of accelerating this process have been interpreted. Active aging has been viewed not as a process that a person loses, but as a process in which he or she continues to use his or her strengths, focusing on his or her strengths, and even on the individual traits he or she develops.

# FƏLSƏFƏDƏ İNSAN PROBLEMİNƏ DAİR MÜXTƏLİF KONSEPSİYALAR

***Nəsibova Gültac***
***BDU-nun II kurs magistrantı***
**gultac.20177@gmail.com**

***Açar sözlər:*** insan, konsept, anlayış, Fəlsəfə, düşüncə tərzi, problem, görüşlər, filosof, fikir, sual.
***Ключевые слова:*** человек, концепция, понимание, философия, способ мышления, проблема, встречи, философ, идея, вопрос.
***Keywords:*** human, concept, understanding, Philosophy, way of thinking, problem, point of view, philosopher, thought, question.

Fəlsəfə insanın abstraksiya gücünü əldə etdiyi ən mühüm mərhələlərdən biridir. Bu mücərrədləşdirmə o qədər irəlidədir ki, "Fəlsəfə nədir?" sualı miladdan öncəyə qədər uzanan Fəlsəfə tarixinə rəğmən günümüzdə hələ də cavablandırılmamış əhəmiyyətli bir sual olaraq öz aktuallığını qoruyur. Hər çağ, hər dövr, hər fəlsəfi düşüncə öz tərəfindən bu suala bir cavab və ya tərif vermək üçün bir çox cəhdlər göstərmiş amma, bu cavabların, təriflərin demək olar ki heç biri Fəlsəfənin hər kəs tərəfindən qəbul edilən bir tərifini verə bilməmişdir. Çünki, bu təriflərdən heç biri ümumiləşdirilmiş və yekun izah rolunda çıxış edə bilməmiş və Fəlsəfənin sadəcə bir və ya bir neçə yönünü əks etdirməkdən ibarət olmuşdur.

Eyni qeyri-müəyyənlik və ya çətinlik hətta, daha irəli səviyyədə "İnsan" anlayışına tərif vermək məsələsində də qarşıya çıxmaqdadır. İnsanın "nə" olduğuna dair bir sual bəlkə də insanın özü qədər qədim olmasına rəğmən hələ də cavabsız bir sualdır. "İnsan nədir?" sualı insana dair ən ümumi sual olması və özündə bir çox sualı birləşdirməsinə paralel olaraq, bir çox fərqli cavabı da ifadə edir. Məsələn, dinin "insanı" ayrıdır. Müxtəlif din anlayışları az və ya çox fərqlənən insan konsepti təsvir edir. Fəlsəfənin, mifologiyanın, ədəbiyyatın, psixologiyanın, incəsənətin... insan anlayışları öz aralarında, həm də bu sahələrin içərisində fərqli insan konseptlərini ortaya qoymaqdadır. Lakin, bu fərqlilik hansı səviyyədə olursa olsun insan var olduğu, düşündüyü, sual verib araşdırdığı təqdirdə davam edəcək və bu sualın konkret cavabını heç bir zaman tapa bilməyəcəkdir.

Fəlsəfədə "İnsan nədir?" sualı cavabları nə qədər fərqlilik göstərsə də, təhlil edilməsi gərəkli olan sualdır. Çünki, bu sual ümumilikdə Fəlsəfənin, fərdi olaraq isə filosofun var olana, baş verən hadisələrə dair baxış formasını müəyyən edən keyfiyyəti daşıyır. Fəlsəfi düşüncələrin, filosofların düşünmə yönünü mövzuları necə ələ aldığını ortaya çıxaran bir "insan anlayışı" gizli və aşıq olaraq mütləq şəkildə vardır. Hətta çoxlarına görə, bütün Fəlsəfə tarixini insan üzərinə bir düşünmə sənəti olaraq dəyərləndirmək mümkündür.

İnsan nədir?" sualının Kantdan əvvəl onun necə cavablandırıldığını araşdırmaq lazımdır. Çünki, Kant insan konsepsiya özündən əvvəlki fəlsəfələr üzərinə qurmuşdur. Kantın üzərinə qurduğu fəlsəfə təkcə onun təsirləndiyi, qismən və ya tamamilə doğru hesab etdiyi fikirlərdən ibarətdir deyil, həmçinin onun qəbul etmədiyi və ya rədd etdiyi düşüncələri də ehtiva edir. Sonda isə,qəbul etmədiyi, onun nöqteyi-nəzərində səhv olan ideyalar belə Kanta cavabı tapmaqda çox kömək edirdi. Buna görə də, fəlsəfənin ilk çağlarından Kanta qədər, ümumilikdə bütün şaxələri insan probleminin necə həll edildiyini açıqlamaq lazımdır.

Kantın insan probleminə olan yanaşmasını dualizm anlayışı əsasında təhlil etmək bu məzmunun başa düşülməsini sürətləndirəcəkdir. Kantın bilik nəzəriyyəsi baxımından insanın dual bir varlıq olması fikri birdən-birə onun beynində yaranan bir idea deyildir. Kant da kökləri antik fəlsəfəyə gedib çıxan müasir mənada Dekartla başlayan bu müzakirə cərəyanın içində öz

yerini almışdır. İnsan dual (ikili) varlıq olması görülməsi Dekartın materiya və ruhu bir-birindən müstəqil substansiyalar olaraq görən maddə nəzəriyyəsi ilə başlayır. Bu nəzəriyyə ilə mövcud olanlar ya fiziki, ya da spiritualdır və bu iki varlıq (fiziki və spiritual varlıqlar) bir-birindən müstəqildir.

Dekartın bu dual baxışını insana tətbiq etdikdə fərqli yanaşmalar ortaya çıxmışdır. Çünki, insan bir cəhətdən maddi varlıq olduğu halda, digər tərəfdən də mənəvi varlıqdır. İnsan təkcə nə maddi, nə də mənəvi varlıq kimi görülə bilər. Beləliklə, "Bu iki sahə arasında hansı əlaqə var?" Bunu müəyyən etməkdə maddi tərəf təsirlidir, yoxsa mənəvi tərəf?" tipli sualların cavablandırılması çox vacibdir. Dekartdan sonra gələn və empirist adlandırılan filosoflar insan probleminə toxunarkən onun maddi (təbii) varlığına önəm verirlər, mənəvi varlığını isə, bu baxımdan izah etməyə çalışırlar.

Kant, "İnsan nədir?" sualına cavab axtararkən insanın doğulduğu gündən etibarən "imkanların mövcudluğu"nun olması ilə yanaşı, "çatışmazlıqların mövcudluğu"nun da olduğunu vurğulayır. İnsan dünyaya gələndə əskik vəsaitlərlə doğulmuş ona hazır səlahiyyət və güc verilməmişdir. İnsanların qida və geyim vasitələri ilə xarici təhlükəsizliyi təmin edəcək müdafiə vasitələri özü tərəfindən ixtira edilməlidir. Ancaq, heyvanın ehtiyacı olan bütün xüsusiyyətlər ona demək olar ki, anadangəlmə verilmişdir. Heyvanla müqayisədə insanda nə aslanın pəncəsi var, nə də ayı gücü. nə it sürəti var, nə də pələng gücü vardır. Heyvanın yaşaması üçün lazım olan keyfiyyətlər onun dünyaya gəldiyi gündən hazırdır.İnsan yaşamını davam etdirmək üçün öz ağıl imkanlarından istifadə edərək təhlükəsziliyini təkbaşına təmin etməlidir. Buna görə də, öz inkişafı üçün müxtəlif tədbirlər görülməlidir.

Ənənəvi cəmiyyətlərdə insan şəxsiyyəti sabit, sərt, qatı və əvvəlcədən mövcud olan müəyyən sosial rolları dini təsdiq və sanksiyalarla insanları yönləndirən ənənəvi bir mif sisteminin funksiyasıdır. İnsan torpaqda və cəmiyyətdə doğulur qrup daxilində ölür və şəxsiyyət və ya şəxsiyyət böhranı deyə bir şey yoxdur.

Aristotel üçün insan ilk növbədə ağıllı (loqos) varlıqdır. Loqosu daşıyan insan ruhu olduğu üçün Aristotelin insan anlayışına dair görüşlərini təhlil etmək üçün onun ruh haqqındakı fikirlərinə diqqət yetirmək lazımdır. Aristotelə görə ruh bütün canlılarda var olan "maddədir və canlı orqanizmin təbii formasıdır". İnsanı digər canlılardan ayıran, insan edən xüsusiyyəti onun ruhunun olması deyi, ruhunun bir hissəsinin ağlın (loqosun) daşıyıcısı olmasıdır. Ruh canlı varlıqların "həyatlarının səbəbi və prinsipi" olaraq insanda olduğu kimi bitkilərdə və heyvanlarda da vardır, onlara canlılıq qatır. Aristotelə görə ruhun daha yüksək formaları daha aşağı olan formalarda yaranır, bitkilərdə olduğu forması ilə ruh mövcud olmazsa, heyvan və insanda olan forması ilə ortaya çıxa bilməz. Ruh bitkilərdə yalnızca qidalanmanı təmin edərkən, heyvanlarda hiss etməyi, təsvirlər formalaşdırmağı və hərkət etməyi mümkün qılır. Heyvanların hiss etmə bacarığına sahib olması onlarda bitkilərdən fərqli olaraq zövqün, ağrının və iştahın mövcud olduğu mənasına gəlir. Heyvanlar sadəcə arzularına görə ghərəkət edirlər, çünki onlarda ruhun ən üst mərhləsini təxəyyül formalaşdırır. Belə ki, ruh bitkilərdə və heyvanlarda onlara canlılıq qatan funksiya kimi ortaya çıxır.

İnsanda var olduğu forması ilə ruh "hərəkətin, hökmün və qavramanın prinsipi olaraq ortaya çıxıxır. İnsan hərəkət edən, təxəyyül formalaşdıran, düşünən, hökm verən canlıdır. İnsan ruhunun ayırd edici xüsusiyyətinin əsas müqəddiməsi "nous" (biz)-dir. İnsan ruhunda təkcə düşünmə ilə bağlı elementlər yoxdur, insan ruhu düşünmə bacarığına qədər bitkilərdə olan böyümə, heyvanlarda isə qavrama-arzulama xüsusiyyətlərinin də daşıyıcısıdır.

İnsanın daşıdığı və onun özünəməxsus bir varlıq olma xarakterini qazandıran ruhun bir məhsulu olan düşünmə gücü sayəsində bitkilər və heyvanlarda mövcud olan ruhdan fərqli bir quruluşa sahibdir. Beləliklə, "ruhun insana düşünməyə və dərk etməyə" şövq edən bir qabiliyyət

olaraq ağıl mümkün olduğu qədər bilmək bacarığıdır və yalnız düşünmə fəaliyyəti həyata keçirildiyi zaman reallığa çevrilir.

Avqustinə [3] görə, insanın bir varlıq kimi mövqeyi digər varlıqlara nisbətən daha xüsusi yerə malikdir. Platonçu Avqustinin insana bu xüsusi mövqeyini verməsi görünən dünya – düşüncə dünyası (fikirlər) fərqi və yenə də, Platonun real obyekti – ideal obyekt fərqi ilə dəstəklənir, ruh - bədən, bu dünya - o biri dünya arasındakı fərqləri təsir etmişdir. Onun fikrincə, insan bir tərəfdən fiziki, digər tərəfdən də mənəvi varlıqdır. O, “İnsan bədən tərəfindən cisimlər aləminə aiddir: ... Öz-özümə sən kimsən?” deyə soruşdum. “Mən insanam” deyə öz-özümə cavab verdim. İnsan kimi mən bədəndən və ruhdan yaradılmışam; biri bu dünyadandır, digəri məndədir” qeyd etmişdir [2].

Avqustin insanın varlıq kimi daxil olduğu cisimlər dünyasının necə təsvir edildiyini xristian rəvayətinə istinad edərək izah edir. Ancaq, o, bu istinadı özünəməxusus “zaman” ideyası ilə birləşdirir. O, “Buna görə də,Allah varlıqları yoxdan yaratmışdır”. Allahın bu yaradılışı ilə birlikdə zaman başlamışdır: “Dünya yaranmazdan əvvəl zaman yox idi” kimi fikirlər irəli sürür. Buradan o, insan bədəninin zaman və məkan anlayışının olduğu nəticəsini çıxarır. Avqustinə görə, yaradan tanrı da zamandan və məkandan kənar mövqe tutur. O, “Bədən dünyanı, ruh ilahiliyi təmsil edir. Buna görə də, ruh bədənə nisbətən daha dəyərlidir”: “Əgər bu varlıqların (insanların) hər birinin ruhu olmasaydı, sevilməzdilər” kimi idealları müdafiə edirdi.

Ruhun bədəndən daha qiymətli olması fikrinin kökündə Xristianlığın “ilk günah” rəvayətinə dayanır. Bir sözlə, bədən ləzzətlərini mənəvi xoşbəxtlikdən üstün tutmaq, cismi mənəvidən üstün tutmaq bu dünyada yaşamaqla cəzalandırılmağa səbəb olmuşdur: “Əgər Adəm günah işlətməklə səndən üz döndərməsəydi, onun bağrından dərin marağı, fırtınalı qüruru, nizamsız dalğalarıyla insanlıq deyilən duzlu okean çıxmazdı.” Avqustin dünyada olma vəziyyətini bu cür müxtəlif metaforalarla ifadə edir, lakin, o, adətən görüşlərini Tanrının həyatın mənbəyi olduğuna və insanın dünyaya düşməsi ilə bu mənbədən uzaqlaşmasına yönəldirdi. Buna görə də dünya üçün “qaranlıq”, “gecə”, “ölü”,“həyat”, “yaşayan ölüm” kimi ifadələrdən istifadə edir: “Bu həyata “ölən həyat”-mı? yoxsa “Yaşayan ölüm” demək dahamı doğru olar?, bilmirəm...”

Avqustin [3] hesab edirdi ki, insanın mənəvi tərəfi fiziki tərəfindən daha qiymətli olduğu düşüncəsinin əsası kimi Allah insanı öz surətində yaratmış olmasına bağlıdır. Bu iddiaya misal olaraq, insanın üç xüsusiyyəti - bilməsi, var olması, iradəli olmasının Allahda mütləq mövcudluğuna dəlalət etdiyinə inanırdı. O, bildirirdi: “Epistemoloji olaraq Tanrı hər şeyi bilir və həqiqətin özüdür. Ontoloji cəhətdən Tanrı dəyişməz və etik/əxlaqlıdır. Bu baxımdan, bu dəyişməzlik onun iradəsində/fəaliyyətində də özünü göstərir.”

Nitsşe öz əsərlərində insanı və insani keyfiyyətləri öldürməyi öyrədir. Çünki bu keyfiyyətlər özündən əvvəlki sələflərinin keyfiyyətlərini ehtiva edir. Çünki o, “heyvan və fövqəlinsan arasında uçurum üzərindən çəkilmiş bir kanatdır”. Nitsşe uçurumun o tayına keçmək üçün yolun üstündəkilərin məhvini bir zərurət kimi təqdim edir, çünki “bu balaca insanlar fövqəlinsan üçün çox böyük bir təhlükədirlər” [5, s.34].

Təqdir edici haldır ki, filosof bunu sələfləri kimi inqilabi yolla etmir, o, düşüncələrdə kök atmış, kiflənmiş və heç cür fərqli düşünməyə imkan verməyən ideyaları birbir ortaya çəkir, ifşa edib əzir və yerinə öz “inkarını” doldurur. Nitsşenin müasiri olmuş və onun fəlsəfəsini geniş tədqiq etmiş Fulye yazır: “Nitsşeni oxuyanda eyni zamanda iki hiss keçirirsən: pərəstiş və mərhəmət (düzdür, sonuncunu o, bir təhqir kimi rədd edir); yüksək düşüncələr bolluğu ilə yanaşı, orada nə isə xəstə bir şey var; o, necə də sevir ki, “eybəcər” bir şey desin ki, bu da bəzən düşüncənin və ürəyin ən ecazkar coşqularını dayandırır və əbəs edir”. Bəli, Nitsşe qurmağı, yaratmağı dağıtmaqdan, məhv etməkdən başlayır [5, s.34].

İnsan haqqında müasir təsəvvürlər irrasionalist mütəfəkkirlərin nəaliyyətlərini nəzərə alsa da, ən rasionalist materialist və idealist baxışlara əsaslanır. Özlərinə qədərki nəzəri və empirik fikrə dərindən yiyələnmiş marksizm klassikləri «Alman ideologiyası» əsərində yazırdılar: «İnsanları heyvanlardan şüura görə, dinə görə – ümumiyyətlə istənilən hər şeyə görə fərqləndirmək olar. Onların özləri bədənlərinin quruluşundan asılı olan addımı ataraq, özləri üçün zəruri olan həyat vasitələrini istehsal etməyə başlayan kimi özlərini heyvanlardan fərqləndirməyə başlamış olurlar. İnsanlar özləri üçün zəruri olan həyat vasitələrini istehsal etməklə öz maddi həyatlarının özünü də dolayı yolla istehsal edirlər [6].

İnsanlar özləri üçün zəruri olan həyat vasitələri istehsal edərkən işlətdikləri üsul, hər şeydən əvvəl, onların hazır şəkildə tapdıqları və yenidən hasil edilməsi lazım gələn həyat vasitələrinin özünün xassələrindən asılıdır» Homo sapiens– in əsas fərqləndirici cəhəti, əlaməti kimi istehsal fəaliyyəti çıxış edir. İnsanın sosial– bioloji (antropososiogenez) təkamülündə mühüm yeri F.Engels tərəfindən irəli sürülən, sonralar isə sovet antropoloqları və arxeoloqları tərəfindən inkişaf etdirilən «meymunun insana çevrilməsi prosesində əməyin rolu» hipotezidir. Əvvəlcə əmək, sonra isə onunla birlikdə səhih nitq elə iki ən başlıca amil olmuşdur ki, bunun nəticəsində insan beyni daha da inkişaf etmişdir. Beyin və ona tabe olan hisslərin, getdikcə daha çox aydınlaşan şüurun, mücərrədləşdirmə və əqli nəticə çıxarmaq bacarığının inkişafı əməyə və dilə əks təsir göstərərək, bunların hər ikisinin daha da inkişafına getdikcə yeni– yeni təkanlar vermişdir [6].

## ƏDƏBİYYAT

1. Bröcker 1974 Walter Bröcker, Aristoteles, Vittoiro Klostermann Verlag, Frankfurt am Main.
2. Augustine 1993 Augustine, On Free Choice of the Will. Hackett Publishing Company, Inc., Indianapolis/Cambridge.
3. Augustine 1994 Augustine, The City of God. (Çev. Marcus Dods), The Modern Library, New York.
4. Augustine 2010 Augustine, On the Free Choice of the Will and Free Choice and Other Writings. (Edt. Peter Kiny), The Cambridge University Press, UK.
5. "Fəlsəfə və sosial-siyasi elmlər" elmi-nəzəri jurnalı, Bakı, 2013 № 1, AFSEA, s. 154.
6. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti, Rusca ikinci nəşrindən tərcümə Bakı, "Şərq-Qərb", 2010, 360 səh.

# FƏLSƏFƏDƏ İNSAN PROBLEMİNƏ DAİR MÜXTƏLİF KONSEPSİYALAR

***Gültac Nəsibova***

## XÜLASƏ

Fəlsəfədə cavabları nə qədər fərqli olsa da, "İnsan nədir?"sualı verilməsi gərəkli olan bir sualdır, çünki bu sual ümumən Fəlsəfəni, xüsusilə də mövcud olan və baş verənlər haqqında filosofun baxışını əsaslı şəkildə dəyişdirə biləcək təsirə malikdir. Bu sual eyni zamanda, "İnsanın təbiəti nədir?", "Onu insan edən nədir?", "İnsanın dəyişməyən və ya daim dəyişən cəhətlər varmı / bunlar hansılardır?, "Onu digər canlılardan fərqləndirən nədir?", "İnsan xüsusi məxluqdurmu?", "Əgər xüsusidirsə bu "xüsusiyyəti" nədən qaynaqlanır?" kimi bir çox sualı özündə birləşdirir. Fəlsəfənin məşğul olduğu sahə insanın birbaşa özüdür. Fəlsəfəyə insanın

"özünü tanıması", "həyatına məna qatması", "özünün nəyə qadir olduğunu öyrənməsi" kimi daxili sorğusunun yansıması kimi baxmaq olar. Buna görə də, Fəlsəfəni insanın həqiqəti bilmə, anlama səyi kimi də müəyyən etmək olar çünki, həyatın mənası və mənasızlığı insanın var olması ilə əlaqədadır.

İnsan təbii və ya tarixi varlıq olmasından savayı, haqqında düşünülən bir varlığa çevrilməsi Fəlsəfənin yaranması ilə başlamışdır. Antik fəlsəfənin qabaqcıl filosofları özləri haqqında deyil, dünya haqqında daha çox düşünürdülər. Kainatın mənşəyi nədir?, birinci maddə nədir? və s. kimi kobud şəkildə sıralasaq, yalnız bundan sonra Fəlsəfədə ağılın gücü haqqında düşünülməyə başlandı. Buna görə Fəlsəfənin "Düşünən insan" anlayışına çatması,onu tədqiq etməsi çox vaxt apardı.

## РАЗНЫЕ КОНЦЕПЦИИ ЧЕЛОВЕЧЕСКИХ ПРОБЛЕМ В ФИЛОСОФИИ

***Насибова Гултадж***

### АННОТАЦИЯ

Какими бы разными ни были ответы в философии, вопрос «Что такое человек?» К этому вопросу также относятся: «Какова природа человека?», «Что делает его человеком?», «Есть ли какие-либо черты человека, которые не изменяются или постоянно меняются?», «Что отличает его от других живых существ? ", "Является ли человек особенным существом?" "Если он особенный, то каков источник этой "особенности"?" включает в себя множество вопросов. Областью, в которой занимается философия, является сам человек. Философию можно рассматривать как отражение внутреннего исследования человека, такого как «самопознание», «добавление смысла в свою жизнь» и «изучение того, на что он способен». Поэтому философию можно определить и как попытку человека познать и понять истину, ибо смысл и бессмысленность жизни связаны с бытием человека.

В дополнение к тому, чтобы быть естественным или историческим существом, человек превратился в мыслимое существо с появлением философии. Ведущие философы античной философии больше думали о мире, чем о себе. Каково происхождение Вселенной, что такое первая субстанция? и так далее. Только после этого философия стала задумываться о силе разума. Поэтому философии понадобилось много времени, чтобы прийти к понятию «мыслящий человек» и изучить его.

## DIFFERENT CONCEPTS OF HUMAN PROBLEM IN PHILOSOPHY

***Gültaj Nəsibova***

### SUMMARY

"What is man?" in philosophy. question, what are the answers however much it differs, it is a question that must be asked; because this question fundamentally transforms philosophy in general, and in particular, has an influencing on the philosopher's view of what exists and what is happening. This question also includes, "What is the nature of man?", "What makes him human?", "Are there any things that do not change or are constantly changing? What are these?", "What distinguishes him from other living beings?", "Is man a special creature?", "If it is special, what is the source of this 'feature'?" includes many questions such as. The field in which philosophy deals is directly with human himself. Philosophy can be seen as a reflection of human's inner inquiry into "self-knowledge," "adding meaning to his life," and "learning what he is capable of." Therefore, philosophy can also be defined as human's effort to know and understand the truth, because the meaning and meaninglessness of life is related to human's existence.

The transformation of human from being a natural or historical being into a being to be thought of began with the creation of philosophy. The leading philosophers of ancient philosophy thought more about the world than about themselves. What is the origin of the universe? What is the first substance? and so on. It is only after this that philosophy began to think about the power of the mind. Therefore, it took a long time for philosophy to reach the concept of "thinking man" and study it.

# İCTİMAİ PSİXOLOGİYANIN MAHİYYƏTİNƏ DAİR

***Zeynəddin Hacıyev,***
***BDU-nun Fəlsəfə kafedrasının professoru***
***haciyev.zeyneddin.camal.@bsu.edu.az***

***Açar sözlər***: sosial və humanitar elmlər, sosial psixologiya, gündəlik və nəzəri səviyyələr, fəlsəfi təhlil.
***Key words***: social sciences and humanities, social psychology, everyday and theoretical levels, philosophical analysis.
***Ключевые слова***: общественные и гуманитарные науки, общественная психология, обыденный и теоретический уровни, философский анализ.

Nəzərə almaq lazımdır ki, müasir cəmiyyətin ictimai varlığında baş verən radikal dəyişiklər və yeniləşmələr, ictimai psixologiyadan kənarda gözlənilən uğurları təmin edə bilməz. Möhtəşəm və geniş miqyaslı vəzifələri vaxtında, səmərəli və qənaətlə yerinə yetirmək üçün ictimai psixologiyanın potensialını bu işə qoşmaq, sonuncunun nəhəng mənəvi enerjisini, iradə və əzmini bacarıqla istifadə etmək həyati zərurətdir. Əks halda cəmiyyətdə həyata keçirilən islahatlar və dəiyşikliklər son nəticədə uğursuzluğa məhkumdur, çünki belə vəziyyətdə şüurun, ruhun, böyük səfərbəredici qüvvəsi nəzərə alınmır və ondan istifadə edilmir.

İctimai psixologiyanın mahiyyətini araşdırarkən ictimai şüuru bütöv bir tam kimi götürmək zəruridir. Bu o deməkdir ki, ictimai psixologiyanın ictimai şüur sistemində yeri, həyata keçirdiyi funksiyalar və bütövlükdə cəmiyyətin mənəvi və maddi həyatında rolu əlahiddə halda deyil, şüurun digər struktur bölgülərit ilə qarşılıqlı təsirdə və vəhdətdə baş verir. Sözügedən məqamın xüsusi vurğulanması, bir tərəfdən müasir cəmiyyətin həyatında bütün şüur amillərinin rolu və əhəmiyyətini açmaq (hər bir üzvi sistemin bütövlük keyfiyyətinin onu təşkil edən ünsürlərin ayrı-ayrılıqda oynadığı rol ilə müqayisədə daha geniş imkanlara malik olması nəzərə alınmaqla), digər tərəfdən isə bu prosesdə ictimai psixologiyanın malik olduğu özünəməxsus formaların və vasitələrin necə reallaşdığını aşkara çıxarmaq məqsədinə xidmət edir.

Tanınmış rus filosofu V.Barulin haqlı olaraq qeyd edir ki, ictimai psixologiya genetik baxımdan sosial gerçəkliyin inikas etdirilməsinin ilkin formalarından biridir. Onun məzmununu ictimai hisslərin, emosiyaların, əhval-ruhiyyələrin, adətlərin, ənənələrin, yaşantıların, ciddi ifadə formalarının məcmusu təşkil edir (1, s.190).

İctimai şüurun özünəməxsus struktur ünsürü olan ictimai psixologiyada təkcə mövcud sosial gerçəklik inikas etdirilmir, həm də böyük insan qruplarının və etnik birliklərin bu reallığa fəal münasibəti ifadə olunur. Sözügedən münasibət hər şeydən əvvəl, həmin insan birliklərinin tələbatlarını əks etdirir, yəni öz məzmununda onların sosial həyatı mənimsəməyə (öyrənməyə) yönələn daxili sövqedicilərini bildirir. Burada həm də insan birliklərinin mövcud citimai şəraiti bəyənməsi və yaxud bəyənməməsi öz ifadəsini tapır. Bu isə nəticə etibarilə hansı maddi və mənəvi dəyərlərin istehsalı və istifadə olunması məsələsində müvafiq seçim etmək deməkdir.

İctimai psixologiya cəmiyyətdə gedən proseslərin anlaşılmasında və onlara mənəvi münasibətin ifadə olunmasında hissləri və düşüncələri özünəməxsus şəkildə əlaqələndirən spesifik mənəvi hadisədir. O, insanların öz həyat şəraitində və ictimai varlığına münasibətinin emosional və intellektual vəhdəti deməkdir. Bu mənada onu sosial qrupların və etnik birliklərin psixiki həyat tərzinin təzahürü kimi səciyyələndirmək olar. Sonuncu sosial subyekt növlərinin fəaliyyəti və davranışı ilə bilavasitə bağlı olub, onları bir çox cəhətdən müəyyən edir (8, s. 361).

İctimai psixologiya insanların bilavasitə gündəlik praktiki fəaliyyəti gedişində, bu prosesin empirik inikası şəraitində formalaşır. O hansısa ixtisaslaşdırılmış əməyin deyil, ümumi kollektiv sosial yaradıcılığın məhsulu kimi çıxış edir. Onun məzmununda bir tərəfdən tarixən qərarlaşmış olan ənənələr, təsəvvürlər, adətlər, baxışlar, dünyagörüşü elementləri, mövcud olur, digər tərəfdən isə müasir həyat fəaliyyətinin və məişətinin törətdiyi emosional göstəricilər geniş yer tutur. Bununla yanaşı ictimai psixologiyanın tərkibində ayrı-ayrı rasional elementlərin, zəka məqamların da olduğunu qeyd etmək məntiqi görünür (7., s.6). Bütövlükdə ictimai psixologiya böyük sosial qruplar tərəfindən cəmiyyətdə gedən proseslərin gündəlik həyat və təcrübə ilə sıx bağlı olan ilkin səviyyəli mənəvi əks olunması deməkdir. Onun məzmunu dünyanın və sosial reallığın praktiki faydalılıq baxımından ifadə edir və insnaların mövcud sosial mühitdə səmtləşməsi vasitəsi rolunu oynayır.

Həyatda baş verən hadisə və proseslərə ilkin reaksiya forması olan ictimai psixologiya son dərəcə müxtəlif (ölkədaxili və beynəlxalq miqyaslı) məsələləri əhatə edir, onlara gündəlik təcrübə və praktiki maraq mövqeyindən qiymətləndirir. Bununla yanaşı onun məzmunu həm də öz dramatizmi, səthiliyi, dağınıqlığı və ziddiyyətli xarakter daşıması ilə səciyyələnir. Sadalanan əlamətlər ictimai psixologiyanın təbiəti ilə bağlıdır, yəni o ilkin səviyyəli kollektiv şüur formasıdır, əksərən kortəbii surətdə formalaşır, hadisə və prosesləri cari maraqlar baxımından dəyərləndirir (5, s.77).

İctimai psixologiyanın məzmunu və ifadə formaları mövcud cəmiyyətin sosial münasibətlərinin xarakteri, praktikanın əldə olunmuş səviyyəsi və hakim mədəniyyət tipi ilə müəyyən olunur. Burada iqtisadi münasibətlər haqqında təsəvvürlər çox vaxt insanların maddi istehsal fəaliyyəti prosesində kortəbii surətdə yaranır. Buna görə də bəzən sosial reallığı mütabiq (adekvat) əks etdirməyə bilir (6., s. 701). İctimai psixologiyanın məzmununda mühüm yer tutan mədəni-tarixi səpki, hər bir dövrün ümumi mədəniyyətini və şüur səviyyəsini ifadə edir və birinci növbədə adi danışıq dilində özünü göstərir. Qeyd olunan hər iki səpki ictimai psixologiyada qarşılıqlı təsir də və çulqaşmış vəziyyətdə özünü göstərir.

İctimai psixologiyanın məzmununu təşkil edən bilikər, insanlar tərəfindən gündəlik həyat prosesində geniş istifadə olunur. Sözügedən məqam psixoloji səviyyənin cəmiyyətdə çox mühüm rol oynadığını sübut edir. Digər tərəfdən ictimai psixologiyada ifadə olunan təsəvvürlər idrak fəaliyyəti prosesinin sosiomədəni təhlilində vacib müqəddəm şərt rolunu oynayır. Başqa sözlə deyilsə, onlara arxalanmaq və düzgün istifadə etmək həmin prosesin adekvat izahını asanlaşdırır. Həm də ictimai psixologiyanın bu münasibətdə spesifikliyini nəzərə almadan aparılan idrakı təhlil natamam xarakter daşıyır, çünki dərk etmə fəaliyyətinin məqsədi, istiqaməti və dəyərləndirici təbiəti kimi məsələlərə lazımi diqqət yetirilmir.

Müasir şəraitdə ictimai psixologiyanın məzmunu və ifadə formaları əsaslı surətdə yeniləşir. Müstəqillik dövründə cəmiyyətdə gedən dərin transformasiya prosesləri onun formalaşması və fəaliyyətində böyük dəyişikliklər yaradır. Burada bir tərəfdən ənənəvi formalar, digər tərəfdən isə ictimai münasibətlərdə yaranan yeni cəhətlər özünü göstərir. Bu işdə sosial praktikanın zənginləşməsi, fəaliyyətin bütün sahələrindəki mütərəqqi meyillər, insanların daim yüksələn təhsil və mədəniyyət səviyyəsi, şüurluluğu və zənginləşməkdə olan dünyagörüşü başlıca determinantlar kimi çıxış edir.

İctimai psixologiyanın daxli məzmununda bütövlükdə cəmiyyətin mənəvi-emosional dünyasında sosial hisslər çox mühüm əhəmiyyətə malikdir. Məhz onlarda müvafiq sosial birlik formasının və ayrılıqda götürülmüş hər bir şəxsin mövcud sosial reallıq, konkret ictimai hadisələr və proseslər haqqında ilkin təsəvvürləri (həm təsdiqləyici, həm də qiymətləndirici) ifadə olunur. Buna nümunə kimi insanlarda əsrlər boyu formalaşmış xeyirxahlıq, ədalət, haqq

işinin qələbə çalacağına inam, optimizm və sairi göstərmək olar. İnsanların ictimai fəaliyyətində, şəxsi həyatı və məişətində onların nə dərəcədə mühüm rol oynadığı heç kimdə şübhə doğurmur.

İctimai psixologiyanın digər tərkib elementi olan ictimai əhval-ruhiyyə yüksək sabitliyi və məkanca geniş yayılması ilə səciyyəlnir. Doğrudur o, hisslər ilə müqayisədə daha dağınıq xarakter daşıyır, lakin bu fakt sosial əhval-ruhiyyənin cəmiyyətdə bir sıra mühüm funksiyalar yerinə yetirməsinə mane olmur. Belə ki, subyektlərin mövcud maddi və mənəvi dəyərlərə münasibəti, bütövlükdə mənəvi mühiti səciyyələndirən əsas cəhətlər məhz burada öz ifadəsini tapır. Sosial əhval-ruhiyyənin cəmiyyətdə mühüm rolu aşağıdakı iki səpkidə özünü göstərir. Bir tərəfdən, onda cəmiyyətin əsas vəzifələrini yerinə yetirmək əzmi mərkəzləşmiş halda ifadə olunur ki, bu insanları sosial yaradıcılığın bütün sahələrində və mədəni inkişafda yeni-yeni nailiyyətlərə ruhlandırır. Digər tərəfdən, bəzən sosial əhval-ruhiyyədə etinaslıq, qeyri-sağlam və düzgün olmayan qiymətləndirmə halları, şəxsi ambisiyalar özünə sığınacaq tapa bilir. Sonuncu vəziyyətdə sosial əhval-ruhiyyə geniş miqyaslı və dərin sosial irəliləyişlərin reallaşmasına ləngidici təsir göstərir. Buna görə onları törədən səbəbləri aşkar edib, aradan qaldırmaq çox vacibdir.

İctimai psixologiyanın struktur elementi kimi ənənələr üzərində xüsusi dayanmaq lazım gəlir. Əvvəlcə, onların geniş məzmuna malik olduğu vurğulanmalıdır. Burada müxtəlif adətlər, mərasimlər, davranış normaları, şüur və davranış stereotipləri və sair əhatə olunur. Onlarda keçmiş nəsillərin əmək, qəhrəmanlıq, vətənpərvərlik, sədaqət kimi ənənələri qorunub saxlanılıb və gələcək nəsillərə ötürülür. Bu baxımdan yanaşdıqda onların nəsillər arası varislik funksiyası yerinə yetirdiyi aydın görünür. Müxtəlif ənənələr cəmiyyətdə həm də böyük tərbiyəvi funksiya yerinə yetirir. Məsələn, ölkəmizdə tarixən qərarlaşmış olan vətəni sevmək, lazım gəldikdə onun yolunda canından keçmək ənənəsi, erməni işğalçılarına qarşı Birinci və İkinci Qarabağ Müharibəsi dövründə özünü tam gücü ilə göstərdi.

İctimai psixologiyanın daxili təsnifatında sosial birlik formaları üzrə bölgü diqqəti cəlb edir. Bu müstəvidə yanaşdıqda, müxtəlif sosial qrupların, siniflərin, sosial təbəqələrin spesifik psixologiyalara malik olduğu vurğulanmalıdır. Xüsusilə də milli müstəqillik illərində cəmiyyətimizin sosial strukturunda baş verən əsaslı dəyişikliklr (yeni sosial qrup və təbəqələrin yaranması, ənənəvi sosial birlik formaları tərkibində yeniliklər) müvafiq olaraq cəmiyyətimizin ictimai psixologiyasını daha rəngarəng və çoxtərəfli etmişdir.

İctimai psixologiyanın daxili tərkibində milli psixologiya daha vacib yer tutur. Marksist fəlsəfənin milli şüuru və psixologiyanı müvafiq sinfi göstəricilərə tabe vəziyyətdə götürməsinə rəğmən XX əsrin sonlarında baş verən əsaslı dəyişikliklər milli münasibətlərin tarixi prosesdə həlledici rolunu təsdiq etdi. Bu vəziyyət özünün müvafiq ifadəsini bütövlükdə milli şüurun, o cümlədən də onun struktur səviyyələrinin (deməli milli psixologiyanın da) rolunun artmasında tapdı. Bununla əlaqədar qeyd edək ki, Azərbaycan xalqının milli psixologiyası məzmunca çox zəngin olub, aşağıdakı səciyyəvi xüsusiyyətləri ilə seçilir: milli qürur və ləyaqətin, iftixar hissinin yüksək olması, əməksevərlik, ədalətlilik, milli yaddaşın möhkəmliyi, milli tarixi keçmişə və ənənələrə hörmətlə yanaşılması, milli tolerantlıq, digər millətlərlə sülh, mehribançılıq və dostluq münasibətlərində olmaq istəyi, multikulturalizm ənənələrinə sədaqət, milli mədəniyyətlərin dialoquna, qarşılıqlı təsirinə və bir-birini zənginləşdirməsinə yüksək diqqət və qayğı bəslənilməsi və sair.

İctimai psixologiyada milli səpkinin mühüm yer tutması, təsadüfi olmayıb, bu onunla izah edilir ki, hər bir millətin həyat fəaliyyəti, dünyanı və sosial reallığı öz şüurunda inikas etdirməsi özünəməxsus xarakter daşıyır və digərlərindən ciddi surətdə fərqlənir. Sözügedən spesifiklik millətin, xalqın milli şüurunda, xüsusilə də onun psixoloji səviyyəsində daha qabarıq ifadə olunur. Bu münasibətdə tanınmış rus filosofu V.V.İlinin aşağıdakı fikri tam ədalətlidir. Hər bir

xalq özünəməxsus şəkildə doğulur, yaşayır, xəstələnir və ölür. Onun əmək fəaliyyəti, təsərrüfatçılığı, istirahəti, kədəri, təbəssümü, gülüşü, şənlənməsi, müşahidəsi, dərk etməsi mühakimə yürütməsi, xeyriyyəçiliyi və qonaq qəbul etməsi, döyüşməsi, ədalət hissi, xarakteri, intizamı mənəvi idealı arzusu, dövlət instinkti, bir sözlə öz daxili dünyası və mənəvi-yaradıcı potensialı vardır (4, s.68-69).

Xalqımızın milli psixologiyası tarixən qərarlaşmış olan müsbət milli stereotiplərə söykənir. Müstəqillik illərində qərarlaşmış, yeni sosial reallığın, ictimai praktikanın bilavasitə psixoloji səviyyədə inikası kimi formalaşır. Milli müstəqillik yolu ilə inkişaf edən ölkəmizin milli dirçəlişi, onun milli şüurunun zənginləşməsi, özünün müvafiq ifadəsini milli psixologiyanın bütün tərəflərində də tapır. Uzun əsrlər gedişində formalaşmış və zamanın sınağından çıxmış əsas milli psixoloji keyfiyyətlər, müasir sosial həyatda baş verən yeni milli-mənəvi dəyərlər ilə daha da zənginləşir və tamamlanır.

Bütün bunlar isə digər amillərlə qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək milli varlığın adekvat dərk olunmasına və milli şüurun inkişafına güclü müsbət təsir göstərir. Bu prosesdə bəzən milli maraqların psixoloji inikasını səciyyələndirən millətçilik psixologiyasının canlanması baş verir ki, bu da özü-özlüyündə pozitiv məna alır, çünki milli həmrəyliyin güclənməsini, milli inteqrasiyanı təmin edir. Bunula yanaşı vurğulanmalıdır ki, milli psixologiyanın neqativ yönümlü inkişafı arzu olunmaz nəticələrə gətirib çıxarır, milli müstəsnalıq, milli əlahiddəlik və milli şovinizm əhval-ruhiyyəsi yaradır.

Deyilənlərdən aydın olur ki, bütövlükdə ictimai şüurda olduğu kimi, onun ilkin səviyyəsi olan ictimai psixologiyada da bir-birilə çoxtərəfli qarşılıqlı təsirdə olan insanların, sosial gerçəkliyi bütöv bir tam kimi inikas etdirməsi baş verir. Doğrudur, bilavasitə gündəlik praktiki fəaiyyətin təsiri altında formalaşan ictimai psixologiya sosial həyatda baş verən hadisə və prosesləri çox vaxt kortəbii və sistemsiz əks etdirir, onların daxili mahiyyətini deyil, üzdə olan zahiri tərəflərini ifadə edir. Lakin bu fakt onun insanların həyatında və cəmiyyətin inkişafında mühüm rolunu və əhəmiyyətini inkar etmir. Belə ki, sözügedən psixoloji təsəvvürlərin məzmununda insanların sosial həyatda düzgün səmtləşməsinə kömək edən, onların əmək fəaliyyəti və məişətinin səmərəli təşkili, mədəniyyətinin inkişafı baxımından zəruri və faydalı olan çoxlu məlumatlar vardır.

İctimai psixologiya öz mahiyyətinə və ictimai şüurun strukturunda tutduğu yerinə görə adi şüur ilə çox yaxındır. O, da adi şüur kimi böyük insan qruplarına məxsusdur. Deməli kütləvi şüur xarakteri daşıyır. Lakin ictimai şüurun bu iki struktur bölgüsünü eyniləşdirmək doğru olmazdı, çünki birinci, ictimai şüurun strukturuna sosioloji yanaşmanın vahidi olduğu halda, ikinci də ictimai şüurun qnoseoloji təsnifatı əsas götürülür. Sözügedən struktur bölgüsü formalarının oxşar cəhətləri əsas etibarilə aşağıdakılarda özünü göstərir:a) hər ikisi ruallığın nisbətən üzdə olan tərəflərini inikas etdirir; b) konkret tarixi məzmuna malik olur; c) obyektlərin dərinliyinə, mahiyyətinə nüfuz etmir; ç) çox vaxt sistemsiz və dağınıq olması ilə səciyyələnir.

Onların aralarındakı fərqlər isə bunlardır: əvvəla öz məzmunu etibarilə adı şüur, ictimai psixologiyadan daha geniş anlayışdır, çünki təkcə ictimai həyatı deyil, həm də təbiətdə baş verən hadisə və prosesləri əks etdirir. Digər tərəfdən, ictimai psixologiya sosial həyatı sadəcə əks etdirməklə məhdudlaşmır, cəmiyyətdə gedən proseslərə sosial birlik formalarının maraqları baxımından fəal münasibət bildirir, yəni onları qiymətləndirir. Nəhayət, ictimai psixologiyanın sosial təsir gücü, adı şüurda olduğundan çoxdur. Bu xüsusilə də cəmiyyətdə müharibə baş verdikdə və gərginlik halları olduqda özünü daha aydın göstərir. Belə hallarda kütlələrin ictimai psixologiyası, onarın coşğunluğu və əhval-ruhiyyəsi, ədalətlilik hissi, haqq işinə inamı daha yüksəyə qalxır və insanlar lazım gəldikdə canlarından keçməyə belə razı olurlar.

Bu məqamın aydın nümunəsi ölkəmizin ərazisinin erməni işğalçılarından azad olunması uğrunda gedən qırx dörd günlük müharibə dövründə özünü göstərdi. On minlərlə gənc ictimai rəyin müsbət təsiri altında könüllü olaraq torpaqlarımızın azadlığı uğrunda müharibəyə qoşuldu, çoxları isə həyatını qurban verərək şəhidlik zirvəsinə ucaldı. Qeyd olunan vəziyyət həm də belə bir amilin təsiri altında baş verir: ictimai psixologiyaya yetkin nəzəri şüurun, dünyagörüşün təsiri çoxalır. Nəticədə burada sosial xarakterdə, insnaların təfəkür tərzində, ümumi mənafelərin dərk olunmasında mühüm irəliləyişlər özünü göstərir.

İctimai psixologiyanın cəmiyyətdə rolu özünü iki istiqamətdə (müsbət və mənfi) göstərir. Birinci, əsas etibarilə bunda üzə çıxır ki, o müxtəlif sosial subyekt növlərinin real şüuru kimi böyük yaradıcı, pozitiv qüvvəyə malik olur. Hər bir ictimai inkişaf mərhələsində cəmiyyətin qarşısına qoyduğu əsas məqsəd və vəzifələrin uğurla və səmərəli reallaşması, onların ictimai psixologiya nüfuz etmə səviyyəsi ilə bilavasitə bağlıdır.

Cəmiyyətin strateji və taktiki hədəfləri ictimai psixologiyada dərin kök saldıqda və əsl inama çevrildikdə, kütlələr onların həyata keçirilmsi üçün əzmlə çalışır və böyük fədakarlıq nümunələri göstərirlər. Bu müstəvidə yanaşdıqda müasir cəmiyyətimizin qarşısında duran iqtisadi, sosial, siyasi və mədəni vəzifələrin insanların psixologiyasına hopmasına nail olmaq son dərəcə mühümdür. Buradan aydındır ki, bazar iqtisadiyyatının möhkəmləndirilməsi demokratiyanın hərtərəfli inkişaf etdirilməsi, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qərarlaşması istiqamətində atılan addımlar ictimai psixologiyanın qüdrətli təkanverici gücündən və tükənməz potensialından ayrılmazdır.

Digər tərəfdən ictimai psixologiya şüurun aşağı səviyyəsi olmaqla, öz məzmununda müəyyən mühafizəkar ənənələrin, keçmişin qalıqlarının, fanatik dini təsəvvürlərin, ictimai həyatda gedən proseslərin səthi və yanlış qiymətləndirmələri, sosial demaqogiyanın, populizmin, şayiə və dedi-qoduların özünə yer tapdığı əlverişli məkan rolunu oynayır. Bu halda ictimai psixologiya cəmiyyətdə öz adekvat rolunu oynaya bilmir, köhnəlmiş stereotipləri əldə rəhbər tutan mütərəqqi ictimai prosesləri ləngidən və onlara istehlakçı, meşşan münasibət bəsləyən qüvvə kimi çıxış edir.

Müasir cəmiyyətdə ictimai psixologiyanın formalaşmasına məqsədyönlü təsir onun müsbət yaradıcı qüvvəsini daha da artırmağa və möhkəmləndirməyə, onun neqativ təzahürlərinə qarşı tərbiyəvi fəaliyyəti gücləndirməyə yönəlmişdir.

## ƏDƏBİYYAT


1. Барулин В.С. Социальная философия. М. Фаир-Песс, 2002
2. Журавлев В.В. Проблемы духовной жизни развитого социализма. М. Высшая школа, 1980
3. Лекторский В.А. Субъект, объект, познание. М., Наука, 1980
4. Ильин В.В. Философия. 2-я часть, М., Академический проект, 1999
5. Общественное сознание и его формы. Под ред. В.И.Толстых. М., Политиздат, 1986
6. Спиркин А.Г. Социальная философия. М., Гардарики, 2005
7. Уледов А.К. Общественная психология и идеология. М., Наука, 1985
8. Философия. Под ред. В.Н.Лавриненко. М.,Юрист, 1996

## İCTİMAİ PSİXOLOGİYANIN MAHİYYƏTİNƏ DAİR

***Zeynəddin Hacıyev***


### XÜLASƏ

Müasir dövrdə baş verən transformasia proseslərinin son dərəcə geniş miqyası və dərin məzmunu, ictimai realığın dəyişilməsini şərtləndirən və motivləşdirən amillər çoxluğunun, o cümlədən də ictimai psixologiyanın fəlsəfi təhlilini zərurətə çevirir. İctimai şüura xas olan çoxsəviyyəlilik, mürəkkəblik və dinamizm kimi keyfiyyətlər ictimai psixologiyanın nəzəri-fəlsəfi refleksiyasına yeni tələblər irəli sürür, onun araşdırılmasında effektiv metodların və paradiqmaların istifadə olunmasını gündəmə gətirir.


## О ПРИРОДЕ СОЦИАЛЬНОЙ ПСИХОЛОГИИ

***Зейнаддин Гаджиев***


### АННОТАЦИЯ

Чрезвычайно широкий масштаб и глубокое содержание трансформационных процессов, происходящих в настоящее время, вызывают необходимость философского анализа множества факторов, обуславливающих и мотивирующих изменения социальной действительности, в том числе социальной психологии. Такие качества, как многоуровневость, сложность и динамичность, присущие общественному сознанию, предъявляют новые требования к теоретико-философскому осмыслению социальной психологии, выдвигая на первый план использование эффективных методов и парадигм при ее изучении.


## ON THE NATURE OF SOCIAL PSYCHOLOGY

***Zeynaddin Hajiyev***


### SUMMARY

The extremely wide scale and deep content of the transformational processes currently taking place necessitate a philosophical analysis of many factors that determine and motivate changes in social reality, including social psychology. Such qualities as multilevelness, complexity and dynamism inherent in social consciousness make new demands on the theoretical and philosophical understanding of social psychology, highlighting the use of effective methods and paradigms in its study.

# TÜRK FƏLSƏFƏSİNDƏ İNSAN KONSEPSİYASI

***Nəsibova Gültac***
***BDU-nun II kurs magistrantı***
***gultac.20177@gmail.com***

***Açar sözlər:*** Fəlsəfə, insan problemi, türk fəlsəfəsi, varlıq problemi, insan konsepsiyası
***Ключевые слова:*** философия, человеческая проблема, тюркская философия, проблема существования, человеческая концепция.
***Keywords:*** Philosophy, human problem, turkish philosophy, existence problem, human concept.

Varlıq haqqında (ontologiya), idrak haqqında (qnoseologiya) təlimlərində insan problemi, xüsusilə onun mənşəyi, mahiyyəti, təbiətdə tutduğu yeri, cəmiyyətdə rolu məsələləri fundamental fəlsəfi problemlərdən biri kimi nəzərdən keçirilir. Fəlsəfə meydana gələndən bu günə qədər insan onun diqqət mərkəzində olmuşdur. Bu gün artıq digər elmlər də (psixologiya, təbabət, pedaqoqika və s.) insan fəaliyyətinin bu və ya digər cəhətini öyrənməkdədir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, müasir elm necə inkişaf edirsə– etsin, insan, onun mənşəyi və mahiyyəti məsələlərində hələ də sirli cəhətlər çoxdur. Əslində təkzibedilməz fakt və arqumentlərlə bəşəriyyətin təşəkkülünün tarixdən əvvəlki dövrünü izah etməyə qadir olan elə bir nəzəriyyə hələ də yaranmamışdır. İnsan haqqında mövcud təsəvvürlər başlıca olaraq hipotez və fərziyyələrə əsaslanır. Lakin buna qətiyyən təəccüb etmək lazım deyildir (1).

Çünki dünya o cümlədən insan haqqında müasir elmi təsəvvürlər 300– 400 il bundan əvvəl formalaşmağa başlamışdır. Bu isə bəşəriyyətin çoxəsrlik tarixində bir ana bərabərdir. Ancaq bütün bunlara baxmayaraq, insanın təbiətinin fəlsəfi izahı ümumnəzəri səviyyədə kifayət qədər inandırıcıdır və gediləcək yolun istiqamətini düzgün müəyyən edir. İnsan haqqında ilk ideyalar fəlsəfə meydana gəlməmişdən əvvəl olmuşdur. Bu barədə bizə gəlib çatan miflər və ibtidai dini təsəvvürlər çoxlu məlumat verir. Antik dövr mütəfəkkirləri– Qədim Hindistanda, Çində, Yunanıstanda insana kosmosun bir hissəsi, hardasa zamandan kənarda təbiətin «nizamı», «qaydası» kimi çıxış edən, özündə dünyanın ilk əsaslarını– suyu, odu, havanı, torpağı, efiri birləşdirən varlıq kimi baxırdılar. Sonra struktur baxımından Platonda qeyd edildiyi kimi, insan ruh və bədəndən ibarət hesab olunurdu. Aristotel isə iki– ruh və bədəni bir reallığı təşkil edən kimi təsvir etmişdir.

Orta əsr mənbələrində tam adı Məhəmməd bin Məhəmməd bin Tarxan Uzluğ Əbunəsr əl -Fərabi ət-Türki kimi göstərilən bu ünlü Tükr filosofu 870-ci ildə Fərab yaxınlığındakı bir kənddə anadan olmuşdur. Ərəbcə öyrəndikdən sonra o dövrün tanınmış müəllimlərindən riyaziyyat, məntiq və fəlsəfə dərsləri almışdır. Şərq aləmində adını ilk filosof kimi tanıdan Fərabi Aristotel məntiqi və metafizikasının böyük şərhçisi, xüsusilə orijinal bir düşünür olduğu üçün "birinci müəllim" Aristoteldən sonra ona "ikinci müəllim" adı verilmişdir. Fərabi istər şəxsi həyatında, istərsə də təfəkkür aləmində bir filosof olaraq yaşamışdır. Yunan fəlsəfəsi İslam aləmində ilk həqiqi təmsilçisi olaraq Fərabini bulmuşdur. Tədqiqatçılar göstərirlər ki, "Fərabi antik fəlsəfənin bir toplayıcısı olsa və bu işlə yetinsəydi belə yenə də insanlığın minnət və şükran duyğusuna sahib olmağa layiq olardı. Halbuki, o son dərəcə orijinal bir düşünür olub, özünəməxsus bir fəlsəfi sistem yaratmışdır. Fərabinin yaratdığı bu fəlsəfi sistem İbn Sina tərəfindən ciddi şəkildə təqib edilmiş, Ğəzzali tərəfindən isə şiddətli tənqid edilmişdir" (2).

Orta əsrlərdə fəlsəfə yalnız Fərabi və İbn Sinanın sayəsində ciddi bir elm sahəsinə çevrilmişdi. Məşhur tarixçi İbn Xəlliqan Fərabidən bəhs edərkən yazmışdır ki, "Fərabi müsəlmanların yetişdirdiyi ən böyük filosofdur. O, məntiq, musiqi və digər mövzularda bir çox

əsərlər yazmışdır. Fəlsəfədə onun çatdığı mərtəbəyə kimsə çata bilmədi. Yalnız bu ünlü filosofun əsərləri sayəsində İbn Sina yetərli bir səviyyəyə çataraq əsərlərini yararlı hala gətirmişdi. (İqtibas Mehmet Aydının yuxarıda göstərilən yazısından götürülmüşdür.

Fərabi dövrün fəlsəfəsinin demək olar ki, bütün sahələrində, xüsusilə məntiq, metafizika, rasional psixologiya, əxlaq və siyasət sahələrində yüksək bir mövqeyə çatmışdı. Fərabinin sayəsində fəlsəfə dünyanın müxtəlif bölgələrini gəzib dolaşmış, əsərləri Avropa filosoflarının bir çoxunun stolüstü kitabı olmuş, fəqət çox təəssüflər olsun ki, filosof doğma yurdunda öz həyatını davam etdirə bilməmişdi. Fərabi Aristotel və Plotonda olmayan "Tanrının gələcəyə aid mümkünləri bilməsi", "Determinizm", "İlahi sifətlərin məntiqi statusu", "Doğru bilginin əldə edilməsi üçün induktiv və deduktiv metodların birlikdə işlədilməsi" kimi fəlsəfi mövzuları önə sürmüşdü.

Fərabinin nəzəri fəlsəfəsinin əsasını "Varlıq" problemi təşkil edir. Ümumiyyətlə, Fərabinin fəlsəfəyə etdiyi ən önəmli xidmət metafizika sahəsində olmuşdur. Bu sahədə Platon və Aristotelin görüşlərindən yola çıxan Fərabi bu görüşlər arasında bir eynilik görmüş və bu eyniliyi sübut etmək üçün "Platon və Aristotelin görüşlərinin birlikdə ələ alınması" başlıqlı müstəqil bir əsər yazmış və ilk dəfə din ilə fəlsəfə, başqa sözlə vəhy ilə ağıl arasında bir uzlaşma olduğunu irəli sürmüş və göstərmişdi ki, peyğəmbərlərdə həm ağıl, həm də təxəyyül gücü vardır. Ona görə də peyğəmbər vəhy yolu ilə aldığı məlumatları xəyal gücü ilə qavrana bilən hala gətirmək qabiliyyətinə malikdir ki, bu baxımdan peyğəmbərin mövqeyi vəhydən məhrum filosofun mövqeyindən üstündür.

Farabinin Şərq və ümumən dünya fəlsəfəsinə gətirdiyi ən böyük yeniliklərdən biri də "Siyasi fəlsəfə"ni yaratmasıdır. Filosofun "Siyasət kitabı" və "Yetkin toplum" əsərləri sözün həqiqi anlamında ictimai-siyasi və fəlsəfi məna daşıyır. Bu əsərlərdə irəli sürülən əsas məqsəd yetkin cəmiyyətin necə olması, hansı etik, əxlaqi və siyasi qayəyə dayanması, hansı ictimai prinsiplərlə yaşaması, cəmiyyətin sosial quruluşu, bu cəmiyyətdə fərdin yeri və vəzifələrini, bəşəriyyətə yeni gələcək cəmiyyətin necə qurulması və idarə olunmasını göstərməkdir. Farabi bütün bunları filosof-sosioloq kimi araşdırmış , əsərini "Fazil şəhər" adlandırmış, bu şəhərin timsalında yetkin toplum və ideal cəmiyyət modelini təqdim etmiş və bu yetkin toplumu idarə edəcək başçının məziyyətlərini göstərmişdir.

Farabi göstərir ki: "Doğru düşünən və düşündüyünü yapmaq iradəsinə sahib olan insan azad insandır. Həm doğru düşüncədən, həm də iradədən məhrum olan insan heyvandır. Doğru düşünən, lakin iradəsi olmayan insan kölədir". Başqa deyim ilə: "Ağlı, iradəsi və cəsarəti olan insan azad insandır. Ağlı, iradəsi olmayan, ancaq cəsarəti olan insan heyvandır. Ağlı olan, lakin iradəsi və cəsarəti olmayan insan kölədir".

Farabiyə görə elm və fəlsəfə ilə məşğul olanlardan bəziləri iradə və cəsarətdən məhrum olduqları üçün onlar köləlikdə o biri insanlardan geri qalmazlar. Onların bilgilərindən fayda gəlməyəcəyi kimi, özləri də digər elm adamları üçün utanc gətirirlər.

Farabi böyük bir filosof olmaqla yanaşı, həm də sözün həqiqi anlamında əvəzsiz bir məntiq alimi idi. O, məntiqə dair bir sıra elmi əsərlər yazmışdır ki, bunlardan ən məşhuru "Məntiqə giriş" əsəridir. Farabiyə görə "Məntiq bizi bilinəndən bilinməyənə doğru aparır. Bilgi əldə etmə səyində doğrunu yalandan ayırmamıza yarayan yeganə yol da budur. Farabi məşhur alman filosofu Kantın "Safoğlun tənqidi" ilə bağlı irəli sürdüyü problemi ondan yüz illərcə öncə irəli sürmüş və məntiqi dəlillərə əsaslanaraq göstərmişdi ki: "Təbiətlə məşğul olan bir elm adamının gözündə bir şeyin varlığı o şeyin özündən başqa bir şey deyildir. Varlıq şeylər haqqında yeni bir bilgi önə sürən gerçəkliklə ilgili bir kateqoriya sayıla bilməz"(3).

Farabinin sayəsində məntiq Şərqdə müstəqil bir elm sahəsinə çevrilmiş, İslam dünyasının böyük mədəniyyət mərkəzlərinə yayılma imkanı bulmuşdu. Farabi məntiqinin sağlam və orijinal

olduğunu bütün tarixçi alimlər qəbul etmişlər. Orta əsrin ən böyük yəhudi filosoflarından olan İbn Meymun Samuel Ben Tibbona yazdığı bir məktubunda göstərmişdi: "Məntiq mövzusunda Farabinin yazdıqlarından başqasını oxumağı tövsiyə etmirəm. Çünki Farabinin bütün yazdıqları, xüsusilə də "Prinsiplər" kitabı nəfis bir ziyvfət süfrəsidir"

Ümumiyyətlə, filosof və məntiqçi Farabidən ilk yararlanan İbn Sina, Nizaməlmülk, Nəsrəddin Tusi, Nizami Gəncəvi və yəhudi filosofları olmuşdur. Yəhudi filosofları Farabi fəlsəfəsinin Avropaya keçişində önəmli rol oynamışdır. Onların vasitəsilə Farabinin təsiri Deskardeş, Spinoza, Kant və Berqsona qədər gedib çatmışdır. Xristian dünyasının qədim Yunan fəlsəfəsi ilə ciddi təması da başda Farabi olmaqla müsəlman filosoflarının əsərləri sayəsində olmuşdur. Farabinin Qərbə təsiri təkcə təbiət fəlsəfəsi və məntiq sahəsində deyil, metafizika, din fəlsəfəsi, əxlaq və siyasət sahəsində də özünü göstərmişdir. Farabinin teizmlə bağlı görüşləri zaman-zaman Avropada blok şəklində iqtibas edilmişdir.Fərabi məntiqə tərif verərkən göstərir ki, məntiq sənəti əqli kamilləşdirən, idrakda insanı düzgün yola, həqiqətə yönəldən, insanı yanılmadan qoruyan, səhvə yol verib – vermədiyini yoxlayan və öyrədən qaydalar məcmusudur.

Fərabi təfəkkür qanunu olan məntiqi, dil haqqında elm olan qrammatika ilə müqayisə edərək yazır: “Məntiq, qrammatikaya uyğun gəlir. Belə ki, məntiq sənətinin əqlə və əqli məlumatlara nisbəti, qrammatikanın dilə və sözlərə nisbəti kimidir. Qrammatikanın sözlər haqqında bizə verdiyi qaydalar, məntiq elminin əqli məlumatlar haqqında bizə verdiyi qaydalara bənzəyir. Qrammatika hər hansı bir xalqın sözlərinə məxsus qaydalar verir, məntiq elmi isə bütün xalqların sözləri üçün ümumi olan müştərək qaydalar verir ” (4).

Ağılla bağlı Fərabi göstərir ki, fəal əql maddədə olmamış və əsla olmayacaq alstrakt formadır. Fəal əql, bir tərəfdən yer nəfslərinin, digər tərəfdən isə torpaq, hava,su və od kimi dörd ünsürün varlıqları üçün səbəbdir.

Fərabi eminasiya nəzəriyyəsini şərh dərkən yazır: “Fəal əqllər maddədən təcrid olunmuş fəal bir əqldə başa çatır. Göylərin sayı burada qurtarır. Bütün mövcudat eminasiya yolu ilə Vahid Varlıqdan törənmişdir.” Vahid Varlıq ilk səbəb, digər varlıqlar isə nəticədir. Nəticə öz varlığını ilk səbəbdən aldığı üçün ilk səbəbin mahiyyətini müəyyən dərəcədə təmsil edir. İlk səbəb öz mahiyyətini anlayır. Onun mahiyyəti bütün mövcud şeyləri təşkil etdiyi üçün, deməli o, bütün mövcud şeyləri anlaya bilir. Belə ki, əslində hər bir şey öz varlığını İlk Səbəbin varlığından alır. Materiya Tanrıdan çıxan nəticə olaraq və İlk Səbəb məsus xüsusiyyətlərə yiyələnərək Tanrının mahiyyəti, məzmunu olur.

Farabi Allahdan bəhs edərkən göstərir ki, Allah nə kütləyə, nə maddiyə, nə də aksidensiyaya malikdir. O, substansiyadan və aksidensiyadan ayrı mövcuddur. Fərabi substansiyaya ulduzları, yer və onun hissələrini, su, daş, bitkilərin müxtəlif növlərini,heyvanları və hər bir heyvanın üzvlərini aid edir (4).

Maddə ilə formanın qarşılıqlı əlaqəsindən bəhs edərkən Fərabi yazır: “Təbii cisimlərdən hər biri iki şeydən ibarətdir: onlardan biri çarpayının taxtası, digəri isə çarpayının quruluşu mislindədir. Taxta mislində olan şey maddə, onun quruluşu mislində olan şey isə formadır. Maddə elə bir təşəkküldür ki,forma ona istinad edir.Maddə olmadan formanın nə istinadı, nə də varlığı mümkündür. Maddənin varlığı formaya görədir. Əgər hər hansı bir forma mövcud olmasaydı, onda maddə də olmazdı”.

***Ключевые слова:*** молодежь, достойный труд, безработица, занятость, развитие.
***Keywords:*** youth, decent work, unemployment, employment, development.

Qloballaşma ilə əlaqədar yaşanan dəyişikliklər əmək bazarına da öz təsirini göstərmişdir. Bunun nəticəsində işsizlik və məşğulluq problemləri inkişaf səviyyəsindən asılı olmayaraq bir çox ölkənin ümumi probleminə çevrilmişdir. Həmçinin, yaranan məşğulluq problemləri layiqli işə olan tələbatı da üzə çıxarmışdır.

Layiqli əmək fərdlərin hüquqlarının qorunduğu adekvat gəlir və sosial müdafiəni təmin edən məhsuldar iş hesab olunur. Layiqli əmək "fərdlərin işləmək və məşğulluq hüquqlarına, əməyin mühafizəsi və təhlükəsizlik şəraitinə, sosial təminat imkanlarına və həmkarlar ittifaqları və ya digər təmsilçilik və iştirak mexanizmləri vasitəsilə özünü ifadə etmək hüququna istinad edən konseptual çərçivəni təsvir edir" (1, səh. 3).

Layiqli əmək konsepsiyası 1999-cu ildən etibarən Beynəlxalq Əmək Təşkilatı tərəfindən əsas məqsədə çevrilmişdir. Dünyada layiqli əməyin yaradılması sahəsində bir sıra mühüm problemlər mövcuddur. Bir çox ölkələr yetəri qədər sosial müdafiənin olmaması, uyğun məşğulluq imkanlarının azlığı, işçilərin əsas hüquqlarının təmin olunmasında çatışmazlıqlar kimi səbəblərdən layiqli işlərin təmin olunmasında boşluqlar ilə üzləşirlər. Xüsusilə də qadınlar layiqli iş problemi ilə kişilərdən daha çox qarşılaşırlar. Dünyanın bir çox yerlərində məşğulluğun kəmiyyət və keyfiyyətində əhəmiyyətli gender fərqi vardır və qadınlar qeyri-formal məşğulluqda kişilərdən daha çox iştirak edirlər.

Layiqli əməyin müxtəlif kateqoriyalardakı şəxslər üçün ayrıca müəyyən edildiyi görünür. Bu, layiqli əmək anlayışını geniş şəkildə qiymətləndirmək imkanı verir. Müvafiq olaraq, layiqli əmək işsizlər, uşaqlar, böyüklər, gənc işsizlər, qocalar və qadın işçi qüvvəsi üçün fərqli mənalara malikdir. Uşaqlar üçün layiqli əmək dedikdə uşaq əməyinin dayandırılması, onların təhsil imkanlarından məhrum edilməməsi və əməyə cəlb olunmada minimum yaş həddinin saxlanması, böyüklər üçün isə özlərinin və ailələrinin ehtiyaclarını ödəyə biləcək əmək haqqının təmin edilməsi deməkdir. Bu, işsiz şəxslərin iş imkanlarının, ahılların isə ehtiyaclarını ödəyə biləcək səviyyədə pensiya təminatı deməkdir.

Gənclik insanın həyatda arzularını reallaşdırmağa, iqtisadi müstəqillik əldə etməyə və cəmiyyətdə öz yerini tapmağa başladığı çox mühüm bir dövrdür. Qlobal iş böhranı gənclərin işsizlik səviyyəsinin yüksək olması, daha aşağı keyfiyyətli iş yerləri, gənclər arasında əmək bazarı bərabərsizliyi, təhsildən iş həyatına keçidin uzun müddət tələb etməsi kimi problemlərlə üzləşməsinə səbəb olmuşdur. Gənclərin məşğulluğu həll edilmədiyi təqdirdə ciddi fəsadları olan aktual qlobal problemdir.

"İşsizlik böhranı" tez-tez mediada bu gün bütün dünyada gənclərin üzləşdiyi ən böyük problem kimi təqdim olunur. "İşsiz" termini aktiv şəkildə iş axtaran və işə başlamağa hazır olan, lakin iş tapa bilməyən insanları əhatə edir.

Layiqli iş hər kəs üçün məhsuldar və ədalətli gəlir gətirən işin əldə olunması imkanları, ailələr üçün sosial müdafiə, iş yerində təhlükəsizlik, şəxsi inkişaf və sosial inteqrasiya üçün daha yaxşı perspektivlər deməkdir. Bununla yanaşı qadınlara və kişilərə iş yerində bərabər imkanların verilməsi də vacibdir.

Layiqli iş imkanlarının davamlı olmaması, qeyri-kafi investisiya və aşağı səviyyəli istehlak problemlərin artmasına gətirib çıxarır. İnkişafın əldə edilməsi üçün cəmiyyətin həyatında hər kəs iştirak etməlidir.

İqtisadi inkişafın modeli və tempi gənc qadınlar və kişilər üçün layiqli iş imkanlarını formalaşdıran amillərdən bəziləridir. İş imkanlarına eyni şəkildə təsir edən digər amillər əmək bazarı balanssızlığı və bacarıqların uyğunsuzluğudur ki, bu da təkcə gənc işçilər üçün deyil, həm də milli iqtisadiyyatlar və sosial birlik üçün təhlükə mənbəyinə çevrilir.

Gənclərin məşğulluq perspektivlərinə demoqrafik, ətraf mühitin davamlılığı və texnoloji dəyişikliklər ilə bağlı narahatlıqlar kimi bir çox meqatrendlər təsir edir. İqtisadi artımın, iş yerlərinin yaradılmasının və struktur transformasiyanın ətraf mühitin deqradasiyasından ayrılması ilə bağlı geniş konsensus mövcuddur. Ekoloji cəhətdən davamlı inkişafa keçid məşğulluqla bağlı dəyişikliklər tələb edəcəkdir. Bura bəzi sektorların daralması, digərlərinin genişlənməsi, yeni peşələrin yaranması, müvafiq iş üçün bacarıq tələblərində və iş yerində təcrübələrdə dəyişikliklərin olması aiddir. Bununla belə, müvafiq siyasətlər həyata keçirildiyi təqdirdə yaşıl işlərlə bağlı transformasiyalar gənclər üçün əhəmiyyətli imkanlar yarada bilər və həm məşğulluğun artırılması, həm də ətraf mühitin qorunması sahəsində uğurlar əldə edilə bilər.

Məşğulluq imkanlarının artırılması layiqli əməyin ilk elementini təşkil edir. Məşğulluq həm də şəxslərin azad iradəsi ilə baş verməlidir. O, məcburi əmək və köləlik kimi qəbuledilməz və insan ləyaqətinə yaraşmayan şərtləri ehtiva etməməlidir. Layiqli əmək kontekstində məşğulluğun digər bir xüsusiyyəti uşaq əməyindən istifadənin qarşısının alınması üçün minimum yaş həddinin müəyyən edilməsidir. Bundan əlavə, işçilərin öz iradəsi ilə yarım və ya tam ştatlı işin həyata keçirilməsi layiqli işin məşğulluq ölçüsü baxımından əhəmiyyətlidir (2, səh. 188-189).

İş həyatı ilə bağlı hüquqların ən əsası məcburi və uşaq əməyinə son qoyulması, ayrı-seçkiliyin aradan qaldırılması, birləşmək azadlığı və kollektiv danışıqlar hüququnun tanınmasıdır (3, səh. 125-128). İşçilərin hüquqları arasında qeyd edilməli olan digər bir məsələ iş həyatında ayrı-seçkilik, işə qəbulda işçilərə ədalətli və bərabər münasibətin göstərilməsidir. Cins, milli mənşə, irq, yaşa, dinə görə ayrı-seçkiliyin bütün formalarının qadağan edilməsi layiqli əməyin yaradılması üçün vacibdir (2, səh. 189).

Layiqli əməyin təmin olunmasında əsas məsələlərdən biri də sosial dialoqun mövcudluğudur. Qayın fikrincə, sosial dialoq adətən əmək haqqının və iş şəraitinin müəyyən edilməsi ilə bağlı işəgötürənlər və işçilər arasında, müəssisənin funksiyalarında iştirakla bağlı işçilər və rəhbərlik arasında, sosial və iqtisadi siyasətin həyata keçirilməsi məqsədilə sosial tərəfdaşlar və hökumət nümayəndələri arasında əmək haqqının və iş şəraitinin müəyyən edilməsi ilə bağlı üç fərqli səviyyədə baş verir (3, səh. 113-145).

İş həyatında ayrı-seçkiliyə məruz qalan qrupların başında qadınlar gəlir. Dünyanın bir çox yerlərində layiqli iş yerlərinin yaradılması və yaradılmış iş yerlərinin keyfiyyəti baxımından əhəmiyyətli gender uçurumu mövcuddur. Kişilərlə müqayisədə qadınlar əmək bazarına daxil olmaqda daha çox problemlərlə üzləşirlər. Bununla yanaşı işçi qüvvəsinə qoşulmağı bacaran qadınlar yenə də işə qəbul, işdən çıxarma, yüksəliş və mükafatlandırma kimi məsələlərdə ayrı-seçkiliyə məruz qalırlar. Hökumətlər dinamik, innovativ, dayanıqlı və insan mərkəzli iqtisadiyyatların qurulması, gənclərin məşğulluğunu və xüsusilə qadınların iqtisadi imkanlarının artırılmasını və hamı üçün layiqli işi təşviq etmək üçün siyasətlər həyata keçirə bilərlər.

Məqsədi işçiləri və onların ailələrinin minimum həyat səviyyəsini təmin etmək olan sosial müdafiə layiqli əməyin vacib elementidir. Ayrı-seçkilik etmədən hər kəsə sosial risklərə qarşı iqtisadi təminat yaratmaqla insan ləyaqətinə yaraşan minimum həyat səviyyəsini təmin etməyə çalışan sosial müdafiə, əlillik, xəstəlik, analıq, qocalıq, işsizlik və işdən çıxarılma hallarında şəxsləri müdafiə edir. O, həmçinin istehsalatda bədbəxt hadisələrin və peşə xəstəliklərinin qarşısının alınmasını və ağır iş şəraitindən mühafizəni əhatə edir (6, səh. 40).

Gənclərə layiqli işə keçid üçün ən yaxşı imkanın təmin edilməsi mümkün olan ən yüksək keyfiyyətdə təhsilə və təlimə sərmayə yatırmağı, gəncləri əmək bazarının tələblərinə uyğun bacarıqlarla təmin etməyi, müqavilə növündən asılı olmayaraq onlara sosial müdafiə və əsas xidmətlərə çıxışı təmin etməyi tələb edir. Eləcə də bütün gənclərin cinsindən, gəlir səviyyəsindən və sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq məhsuldar məşğulluğa nail ola bilməsi üçün iş şəraitinin yaxşılaşdırılması tələb olunur.

Gənclərə çox işləmələri və yüksək hədəflər müəyyənləşdirmələri kimi tələblər qoymaqla layiqli əməyin təmin edilməsi üçün məsuliyyəti fərdiləşdirməkdənsə, gənclərin layiqli işə çıxışındakı əsas maneələrin aradan qaldırmasına daha çox fokuslanılmalıdır.

İş dünyası gənclər üçün mövcud işlərin sayına və növlərinə təsir edən sürətli texnoloji dəyişikliklər ilə xarakterizə olunur. Bundan əlavə, ənənəvi peşələrin xüsusiyyətlərində və vəzifə strukturunda baş verən dəyişimlər və tamamilə yeni peşələrin ortaya çıxması hər hansı peşəyə qarşı olan bacarıq tələblərinə də öz təsirini göstərir. Bir tərəfdən, gənc işçilər yeni texnologiyalara daha rahatlıqla adaptasiya ola və yaşlı işçilərə nisbətən yeniliyə daha tez uyğunlaşa bilərlər (4, səh. 54-55). Digər tərəfdən, onlayn platformalar da daxil olmaqla, müvəqqəti məşğulluq kimi daha az təhlükəsiz iş formaları da artmaqdadır. Texnologiyanın iş dünyasına təsiri, ölkənin inkişaf səviyyəsinə, iqtisadiyyatın strukturuna və işçilərin dəyişən əmək bazarının tələblərinə uyğunlaşmaq üçün nə qədər hazırlıqlı olduğuna bağlı olaraq, ölkələr, sektorlar və işçi qrupları arasında dəyişiklik göstərəcəkdir. Məsələn, texnoloji dəyişiklik aşağı və orta gəlirli ölkələrə struktur transformasiyalarını sürətləndirmək və gələcək inkişaf mərhələlərinə “sıçrayış” etmək imkanları təqdim edir (5, səh. 49). Gələcəkdə, texnoloji dəyişikliyin təsirlərini nəzərə almaq gənclər üçün daha çox və daha yaxşı iş yerlərinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.

Azərbaycan Respublikasında layiqli əmək milli iqtisadi və sosial siyasətin əsas məqsədlərindən biri hesab olunur. 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı (LƏÖP) Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasında, həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda və digər bir sıra bu kimi milli proqramlarda qeyd olunan hədəflərə əsaslanır (7, səh. 2).

Layiqli əmək üzrə əsas məqsədlərin həyata keçirilməsi üçün bir sıra prioritetlər müəyyənləşdirilmişdir. Bunlardan birincisi, layiqli əmək imkanlarının və keyfiyyətli iş yerlərinin təşviqidir. Bu məqsədin həyata keçirilməsi istiqamətində əldə edilən əsas nəticələrdən biri gənclərə yönələn aktiv əmək bazarı proqramlarının hazırlanması və onların icra edilməsidir.

İkinci prioritet istiqamət sosial müdafiənin təkmilləşdirilməsidir. Bu məqsədlə yeni işsizlikdən sığorta sistemi hazırlanmışdır. Bununla yanaşı, Milli Əməyin təhlükəsizliyi və Mühafizəsi sistemi beynəlxalq müasir standartlara uyğunlaşdırılmışdır.

Üçüncü prioritet istiqamət isə əməyin idarə edilməsinin və sosial dialoqun gücləndirilməsidir. Bu məqsədlə Əmək Müfəttişliyinin potensialı artırılmış, sosial dialoq üzrə üçtərəfli mexanizm təsis olunmuş, həmçinin, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının (ASK) potensialı artırılmışdır. ASK’nın gənclərin məşğulluğu, qeyri-formal məşğulluq, əməyin mühafizəsi və təhlükəsizliyi kimi məsələlərlə bağlı potensialın artırılmasında iştirakı nəzərdə tutulmuşdur.

Nəhayət, hökumətlər və inkişafın digər iştirakçıları gəncləri siyasət müzakirələrinə cəlb etmək, eləcə də onların təcrübələrindən istifadə etmək, ehtiyac və istəklərinə cavab vermək üçün effektiv strategiyaların layihələndirilməsi, proqramlaşdırılması və həyata keçirilməsində iştirakını dəstəkləməlidirlər. İştirak sosial birliyin və sosial-iqtisadi inkişafın təmin edilməsinin ən mühüm xüsusiyyətidir.

## ƏDƏBİYYAT


1. Işığıçok, Özlem, "XXI. Yüzyılda İstihdam ve İnsana Yakışır İş", Bursa, 2005
2. Kapar, Recep, "Uygun İş Bağlamında Çalışan Yoksullar", Sosyal Siyaset Konferansları Dergisi, Sayı: 48, (İstanbul: İstanbul Üniversitesi Yayınları), ss. 185-204, 2004
3. Ghai, Dharam, "Decent Work: Concept and Indicators", International Labour Review, Vol. 142, No. 2, s. 113-145, 2003
4. International Labour Organization, Global Employment Trends for Youth 2017: Paths to a better working future, ILO, Geneva, 2017
5. International Labour Organization, Global Employment Trends for Youth 2020, ILO, 2020
6. Sengenberger, Werner, "Decent Work: The International Labour Organization Agenda", Dialogue and Cooperation, 2/2001
7. Azərbaycan Respublikasının 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı, 2016 https://www.ilo.org/wcmsp5/groups/public/---europe/---ro-geneva/documents/project/wcms_531142.pdf


## GƏNCLƏR ÜÇÜN LAYİQLİ ƏMƏYİN DƏSTƏKLƏNMƏSİ

*Zeynalova Səma*

## XÜLASƏ

Gənclərin məşğulluq problemi müasir dövrün əsas qlobal məsələlərindən biridir. Bu problem gənclər üçün layiqli işə olan tələbatı artırmışdır. Layiqli işlər fəqrlərin əmək hüquqlarının tam təmin olunduğu işlərdir. Bu baxımdan adekvat gəlir, sosial müdafiə, qərarların qəbulunda iştirak və s. kimi məsələlərin həll olunması layiqli işlərin yaradılmasında əsas rola malikdir. Gələcəyin əsas qurucuları olan gənclər layiqli üçün layiqli işlərin təşviqi onların imkanlarını və perspektivlərini genişləndirir.

## ПОДДЕРЖКА ДОСТОЙНОЙ РАБОТЫ МОЛОДЕЖИ

*Зейналова Сема*

## АННОТАЦИЯ

Проблема занятости молодежи является одной из главных глобальных проблем современности. Эта проблема повысила спрос на достойную работу для молодежи. Достойный труд – это труд, при котором полностью гарантируются трудовые права малоимущих. В связи с этим решение таких вопросов, как достаточный доход, социальная защита, участие в принятии решений и т. д., играет ключевую роль в создании достойной работы. Содействие достойному труду молодых людей, являющихся главными строителями будущего, расширяет их возможности и перспективы.

## SUPPORTING DIGNIFIED WORK FOR YOUNG PEOPLE

*Zeynalova Sema*

## SUMMARY

The problem of youth employment is one of the main global issues of our time. This problem has increased the demand for decent work for young people. Decent work is work in which the labor rights of the poor are fully guaranteed. In this regard, the solution of issues such as adequate income, social protection, participation in decision-making, etc., plays a key role in creating decent work. Promoting decent work for young people, who are the main builders of the future, expands their opportunities and prospects.

# КАЧЕСТВО ЖИЗНИ НАСЕЛЕНИЯ

***Дадашов Нагы Джамаладдин оглы***
***II курс магистрант БГУ***
***nagi-dadashov@mail.ru***

***Ключевые слова:*** Жизнедеятельность, качество, понимание, приоритет.
***Açar sözlər:*** Həyat fəaliyyəti, keyfiyyət, anlayış, priotiet.
***Keywords:*** Life activity, quality, understanding, priority.

***Введение.*** **Актуальность статьи:** Качество жизни выражает глобально желаемое понятие, которое часто используется правительствами, местными и международными организациями и ожидается отдельными людьми (Rojas: 2014. s.1). Многомерное качество жизни, это понятие, которое исследуется различными дисциплинами и иногда используется вместо понятий благосостояния и счастья, которые в разных дисциплинах определяются по-разному. Качество жизни, это широкое понятие, включает в себя понятия полноценной жизни, полноценной жизни и счастливой жизни.

**Обзор литературы:** Статья содержит Зубец А. Н., Окрепилова И. Г., Венедиктова С. К., Новиков Г. А., Биктимиров Т. З., Шарафутдинов М. Г., Самойленко В. В., Рудой С. В., Салимова Т., Hsiao, Y., Wu, C.H., & Yao, G., Rojas, M научные исследования некоторых ученых

**Методология, результаты:** При написании статии использовались синтез путем анализа, а также мето индукции и дедукции. Поэтому в качестве метода анализа тема была взята в целом, а затем разделена на главы и проанализирована отдельно.

**Концепция качества жизни.** Качество жизни относится к описанию и оценке условий жизни или характера людей в конкретной стране или регионе. Качество жизни определяется внешними факторами, относящимися к человеку или сообществу, включая технологии, инфраструктуру, отношения с другими группами или странами, такие силы, как институты общества, природная среда и другие факторы, включая взаимодействие с обществом и ценностями.

Можно сказать, что качество жизни имеет много составляющих. Эти компоненты; пользоваться услугами здравоохранения и образования, возможностями качественного и адекватного питания, защитой, здоровой городской средой, устранением прав, возможностей и гендерного неравенства, присутствием в повседневной жизни, достоинством и безопасностью. Хотя все эти компоненты имеют разное значение, отсутствие любого из них негативно сказывается на качестве жизни (Зубец А. Н: 2014. с. 38-41. ).

**Определение качества жизни.** «Качество» подчеркивает степень совершенства характеристики, но качество жизни может иметь разное значение для разных групп. Для некоторых это может означать, насколько счастливы они и другие, в то время как для других это может означать экономический статус, образование, уровень здоровья или безопасности. Многие исследователи согласны с тем, что понятие качества жизни слишком широкое, чтобы его можно было определить. Поэтому очень сложно разработать определение этого понятия, которое могло бы быть принято во всем мире. Разница в качестве жизни как слово означает разные значения для групп. Это интерпретируется как отсутствие или отсутствие условий для жизни или семьи и проблем со здоровьем, таких как детская беременность, болезни или количество бедных в районе.

Хотя понятие качества жизни выражается в разных значениях, в предыдущие века оно употреблялось в значении роскоши и рассматривалось как незначительное понятие. В век, в котором мы живем, оно приобрело для людей значение полного удовлетворения; В указанном смысле удовлетворенность определяется как уровень удовлетворения потребностей и желаний, а также числовые нормы и количественное удовлетворение.

Качество жизни может быть выражено как сумма биологического статуса людей, образа жизни, отношений и количественных и качественных значений городской среды, в которой они живут. «Основная цель качества жизни — определить, насколько человек удовлетворен своим собственным психологическим, социальным, физическим и экономическим положением».

Хотя существует множество различных определений, основной смысл этих определений заключается в том, что качество жизни является очень всеобъемлющей концепцией, которая продолжает зависеть от объективных переменных, связанных с жизнью людей, и субъективных переменных, формируемых собственным восприятием человека.

По этой причине два измерения качества жизни - объективное и субъективное - считаются разными показателями в исследованиях качества жизни.

Объективные показатели; доход, образование, профессия, здоровье, статус проживания и т.д. пока; Удовлетворенность/удовлетворенность этими возможностями выражается в виде субъективных показателей качества жизни.

Объективные показатели, такие как уровень образования, часто собираются на национальном уровне. Иногда объективные показатели группируются в сводные индексы, что позволяет проводить национальные и международные сравнения (Новиков Г. А., Биктимиров Т. З., Шарафутдинов М. Г., Самойленко В. В., Рудой С. В: 2013. s. 23-26.). Социальные показатели часто используются в качестве объективной меры качества жизни. Например, детская смертность, количество врачей на душу населения и ожидаемая продолжительность жизни оцениваются в рамках качества жизни, связанного со здоровьем, а уровень убийств, количество сотрудников полиции на человека и уровень изнасилований оцениваются в рамках показателей, связанных с преступностью.

Объективные (объективные) показатели; Он основан на оценке условий, которые возникают независимо от восприятия людей, и представляет собой измерение конкретных аспектов искусственной среды, природной среды, экономики и социальной сферы. Объективные данные состоят из статистической информации и данных, систематически собираемых учреждением на международном, национальном, региональном и городском уровнях. Однако таких индикаторов часто не хватает. На них может повлиять как занижение данных (например, об уровне преступности), так и завышение данных (например, о доходах). Более того, выбор переменных для объективных показателей может включать субъективное принятие решений. Объективные показатели могут не в полной мере отражать ощущение благополучия людьми. Самочувствие индивидов - это опыт гораздо более сложный, по-разному детерминированный и предполагаемый описательными социальными показателями на основе внешних условий в обществе. Поэтому важно учитывать субъективное благополучие людей.

Субъективное качество жизни символизирует измерение установок. Субъективные показатели отражают оценку индивидом объективных условий жизни. Точное значение субъективного измерения зависит от контекста, в котором оно используется. Параллельно с попытками использования объективных признаков при анализе качества жизни больше внимания привлекали субъективные показатели (Салимова Т: 2014. с. 68.). Для того чтобы

понять благополучие человека, основную предпосылку субъективного благополучия, важно понять когнитивные и аффективные реакции человека на его собственную жизнь в целом, а также конкретные измерения жизни. Удовлетворенность относится к когнитивной и эмоциональной оценке людьми своей жизни.

**Sxem 1: Система уровня жизни**




**Источник:** Составлено автором.

Индекс человеческого развития отражает материальное и социальное благополучие населения более широко, чем валовой внутренний продукт. Индекс человеческого развития отличается тремя основными характеристиками человеческого развития (Саркисян Л.Ю: 2021. с. 1610.). Эти характеристики следующие:

- долгая и здоровая жизнь исходя из средней ожидаемой продолжительности жизни;
- образование среди взрослых, а также уровень образования, определяемый исходя из общей численности учащихся начальных, средних и высших учебных заведений, а также средних специальных учебных заведений;
- достойный уровень жизни, основанный на доходах и покупательной способности населения.

***Вывод.*** С развитием техники, загрязнением отходами, шумовым загрязнением и т. д., с развитием техники города, имеющие историю столь же древнюю, как и история человечества, со временем изнашиваются и отходят от своего прежнего производительного и полезного состояния. Известно, что проблемы возникают. Рост населения и сокращение семейной структуры увеличивают потребность в жилье, и, как следствие, незапланированные поселения приводят к ограничению устойчивых жилых пространств. Это выдвигает на первый план вопросы «устойчивых городов» и «качества жизни» (Hsiao, Y., Wu, C.H., Yao, G: 2014. с. 971.). Он направлен на обеспечение социальной справедливости с помощью устойчивого развития городов, на замедление проблем, возникающих с ростом населения в городах, и на планирование городов с учетом философии устойчивого развития. Устойчивость городов имеет большое значение для новых поколений. В этом контексте концепция «устойчивого города» показывает точку, на которую пришло понимание урбанизма в текущем столетии. Устойчивые города — это города с высокой удовлетворенностью жизнью. Чтобы города были устойчивыми,

пригодными для жизни и имели высокое качество жизни, им необходимо экологически целостное городское планирование.

## ЛИТЕРАТУРА


1. Зубец А. Н. Истоки и история экономического роста. — М.: «Экономика», 2014. — 463 с.
2. Окрепилова И. Г., Венедиктова С. К. Управление качеством жизни. — СПб.: СПбГУЭФ, 2010. — 104 с.
3. Новиков Г. А., Биктимиров Т. З., Шарафутдинов М. Г., Самойленко В. В., Рудой С. В. Оценка качества жизни в паллиативной медицине. — Ульяновск: УлГУ, 2013. — 114 с.
4. Салимова Т. Качество жизни в контексте положений устойчивого развития // Стандарты и качество : журнал. — 2014. — № 6. — С. 68—71.
5. Hsiao, Y., Wu, C.H., & Yao, G. (2014). "Convergent and Discriminant Validity of the Wooqol-Bref Using a Multitrait-Multimethod Approach", Social Indicators Research, Vol 116, Issue 3, pp 971-978
6. Rojas, M. (2014), "The Measurement of Quality of Life: Conceptualization Comes First A Four-Qualities-of-Life Conceptual Framework and an Illustration to Latin America", Mexico, http://www.iadb.org/res/laresnetwork/files/pr308finaldraft.pdf


## КАЧЕСТВО ЖИЗНИ НАСЕЛЕНИЯ

***Дадашов Нагы***

## АННОТАЦИЯ

Жизнедеятельность является одним из пионеров общественной жизни. В этом отношении было проведено много исследований. Конечно, фактор качества в управлении жизнедеятельностью особенный. Потому что приоритетные шаги качественной жизни находятся в числе исходных ценностей. В статье рассматриваются ценности жизнедеятельности и ее качество.

## ƏHALİNİN HƏYAT KEYFİYYƏTİ

***Dadaşov Nağı***

## XÜLASƏ

Həyat fəaliyyəti sosial yaşamın öncüllərindəndir. Bu xüsusda bir çox tədqiqatlar aparılmışdır. Təbii ki, həyat fəaliyyətinin idarə olunmasında keyfiyyət faktoru əlaxsusdur. Çünki keyfiyyətli yaşam üçün prioritet addımlar ilkin dəyərlərdəndir. Məqalədə həyat fəaliyyəti və onun keyfiyyətinə dair dəyərlər tədqiq olunmuşdur.

## QUALITY OF LIFE OF THE POPULATION

***Dadashov Naghi***

## SUMMARY

Life activity is one of the pioneers of social life. A lot of research has been done in this regard. Of course, the quality factor in the management of life activities is special. Because the priority steps for a quality life are among the initial values. The article examines the values of life activity and its quality.

# NƏSİRƏDDİN TUSİNİN «ƏXLAQİ NASİRİ» ƏSƏRİNDƏ AİLƏYƏ OLAN EHTİYACIN SƏBƏBLƏRİ

***Məmmədov Həbib Mehman oğlu,***
***ADMİU-nun, "Gənclərlə iş" ixtisası, II kurs magistrantı***
***mammadov.habib5@gmail.com***

***Açar sözlər:*** Nəsirəddin Tusi, Əxlaqi Nasiri, ailə, cəmiyyət, sosial problem
***Ключевые слова:*** Насреддина Туси, Ахлак Насири, семья, общество, социальная проблема
***Keywords:*** Nasreddin Tusi, Akhlaqi Nasiri, family, society, social problem

Görkəmli alim və ictimai xadim Xacə Nəsirəddin Tusi bildiyimiz kimi əsasən riyaziyyat və astronomiya sahəsində məşhurlaşmışdır. Lakin ensiklopedik zəkaya və biliyə malik olan bu elm adamı həmçinin əxlaqi-tərbiyəvi mövzularda da fikir sahibi olmuşdur. Bunun ən bariz nümunəsi öz dövrü ilə yanaşı əsrlər sonra da dəyərini itirməyən məşhur «Əxlaqi Nasiri» əsəridir. Bu əsərin hazırlanması zamanı Tusi bir çox filosofların əxlaqla bağlı kitablarından, dastan və folklor nümunələrindən və s. materiallardan istifadə etmişdir. Burada cəmiyyət, ictimai münasibətlər, din, əxlaq, təlim-tərbiyə və s. məsələlərlə bağlı zəngin və rəngarəng fikirlər verilmişdir [1. səh 4]. Haqqında bəhs etdiyimiz ailə mövzusu isə kitabı əhatə edən 3 məqalədən birinin mövzusudur. Nəsirəddin Tusi ilk öncə mənzilə ehtiyacın səbəbini araşdırır və onu şərtləndirən amilləri sadalayır. Burada mənzil dedikdə məqsədin ailə olduğunu görürük. Çünki ailənin sığınacağı, qərar tutduğu ünvan mənzildir.

Tusi ilkin olaraq insanın qidaya olan ehtiyacından başlayır. Qidaya olan ehtiyac isə növbəti ehtiyacı - sənət və peşə ilə məşğul olmağı vacib edir. Ancaq insan gündəlik əmək fəaliyyəti ilə məşğul olsa belə hər gün lazım olan qədər qida əldə etməyə bilər. Bu səbəbdən ehtiyat olaraq qida tədarük edilməlidir və onu təhlükəsiz yerdə saxlamaq üçün mənzil tikilməsinə ehtiyac vardır.

Şəxs peşə və sənətlə məşğul olduğuna görə yığılan ehtiyatı qorumaq üçün bir köməkçiyə ehtiyac duyur. Həmçinin onun digər ehtiyacları, xüsusilə doğub törəməsi üçün də bir həmdəmi olmalıdır. Buna görə də, ilahi hikmət elə bir təbiət yaratmışdır ki, bir kişi bir qadını özünə cift seçir, həm mənzili və başqa şeyləri qoruyan tapılır, həm nəsli artırmağa imkan yaranır, həm də ki bir şəxsdə iki mühüm vəzifə şərti asanlıqla cəmləşmiş olur. [1. səh 155] Qeyd edilənlər müasir dövrdə elmi müstəvidə ailə üçün qəbul edilmiş iki funksiyanı əhatə edir. Bunlar ailənin reproduktiv və təsərrüfat-iqtisadi funksiyalarıdır. Tusinin burada qeyd etdiyi məsələ qədim insanların da cəm halda yaşamağa başlamasının səbəbidir. Onun yaşadığı dövrdən xeyli sonra qədim insanların həyat tərzinini tətqiq edən alimlər bu nəticələrə gəlib çıxmışdılar. Yeni insan icmalarının meydana gəlməsi, daha çox yem və qida şərtləri tələbinin meydana çıxmasını şərtləndirirdi. Buna görə instiktiv də olsa, insan icması, digər canlılarda olduğu kimi, bir yerdə yaşamağa, ov etməyə və qorunmağa məcbur idilər [5]. Bu birgəyaşayışın ən ideal forması ailədir. Ailə məfhumunun ən qədim zamanlardan bu günə kimi gəlib çıxması və təkmilləşməsi onun insan üçün əhəmiyyətinin və təbiət qanunları ilə uyğunluğunun ən bariz sübutudur. Bundan sonra Tusi ailəyə yeni fərdin əlavə olması - uşağın dünyaya gəlməsi barədə danışır.

Uşaq dünyaya gəldikdən sonra ona qulluq etməklə bağlı bir sıra işlər ortaya çıxır, bu da ailədə köməkçiyə, xidmətçiyə ehtiyac yaradır. Nəticə olaraq Nəsirəddin Tusiyə görə mənzilin, ailənin beş rüknü yəni sütunu, əsası vardır: ata, ana, övlad, xidmətçi və azuqə [1. səh 156]. Gördüyümüz kimi, alim burada ailə üzvlərindən ata,ana və övladı qeyd edir. Bu da müasir dövrdə aktual olan sadə ailə tipi, elmi dillə desək nuklear ailədir. Nuklear latınca nus-leus nüvə deməkdir. O, iki

nəsildən – ata-ana və uşaqlardan ibarət olur. Demoqrafların qənaətincə, hazırda ən geniş yayılmış ailə tipi nuklear ailə sayılır [6]. Gənclərin də ən çox rəğbət göstərdiyi ailə tipi bu tipdir. Azərbayan və şərq-müsəlman mədəniyyəti üçün mürəkkəb ailə tipi - nənə, baba və s digər qohumların da ailə ilə birgə yaşadığı tip xarakterik olsa da, burada Tusinin müasir dövrdə gənclərin üstünlük verdiyi ailə formasını qeyd etdiyini görürük. Adətən gənclər ailə qurarkən valideynlərinin maddi və mənəvi dəstəyi ilə addım atırlar. Bu yolda ata və ana ən yaxşı bələdçi hesab olunur. Onlar ailə qurma prosesində və sonrakı mərhələlərdə bir çox işlərdə dominant rola malik olurlar. Tusi isə ailənin qurulması prosesini izah edərkən burada kişi və qadını ixtiyari şəkildə hərəkət edən və qərar verən müstəqil şəxsiyyətlər kimi göstərir. Onun qeyd etdiyi modeldə tərəflərin ailə qurmasının səbəbi yalnız öz maddi və mənəvi ehtiyacları ilə əlaqədardır.

Daha sonra burada qeyd edilməlidir ki, haqqında danışdığımız çoxluğun yəni ailənin tərkibində olan vahidlərin nizama salınması da böyük əhəmiyyət kəsb edir. Tusi burada ilk olaraq ev sahibinin - evin kişisinin adını çəkir və onun üzərinə ən böyük məsuliyyət qoyur. O ailənin digər üzvlərini müvafiq qida ilə təmin etməli, onların təhlükəsizliyini mühafizə etməli, digər bu kimi məsələləri həll etməyə çalışmalıdır. Bu zaman ailə başçısı ailə üzvlərini tərifləyib danlamaq, mükafatlandırılıb cəza vermək, könüllərini ələ almaq, mübahisələrə son qoymaq kimi işləri yerinə yetirməlidir. Qeyd edilən məsələlər ailənin müasir dövrdə qəbul edilmiş iki funksiyasını əhatə edir. Bu ailənin tərbiyəvi və bərpaedici funksiyalarıdır. Bu iki funksiya əsasən ailənin mənəvi rollarına işarə edir. Belə başa düşülür ki, mənəvi ehtiyacların ödəndiyi ən ümdə məkan ailədir. Bu səbəbdəndir ki, ailədə tərbiyə və digər bu kimi mövzular düzgün qurulmadıqda yaxud valideynlərdən biri ya hər ikisi uşaqlarla birlikdə olmadıqda bu ailədən sağlam və kamil şəxsiyyətin çıxması sual altında olur.

Nəsirəddin Tusi ailə daxilində yaradılmalı olan tarazlığı insan bədənindəki maddələr arasındakı müvazinətə bənzədir. Bədəndəki müvazinət insanın sağlamlığının göstəricisi olduğu kimi ailə üzvləri arasındakı uyuşma da bu ailənin möhkəmliyinə dəlalət edər. Bədən üzvlərindən birində problem yarandıqda bütünlükdə insanın cismi narahat olduğu kimi ailə fərdlərindən birində xoşagəlməz vəziyyət yarandıqda bütün ailə, xüsusilə ailənin rəisi bundan əziyyət çəkir. Rəis bu zaman həmin üzvün və bütün üzvlərin mənafeyini nəzərə almalı, onun qayğısına qalmalı, əgər ciddi tədbirlər görmək lazımdırsa bundan çəkinməməlidir. Xəstəlik digər üzvlərə ziyan verməmiş narahat üzvü müalicə etmək lazımdırsa bunu etməli, hətta onu bədəndən ayırmaq zərurəti yaranıbsa ailənin ümumi mənafeyinə görə bu işdə tərəddüd etməməlidir. Həkim bütün bədən üzvlərini müayinə etdiyi kimi ailənin rəisi ayrı ayrılıqda hər bir ailə üzvü barədə düşünməli, onların qayğısına qalmalıdır. Həmçinin onlar arasında münasibətlərin düzgün qurulmasına diqqət etməlidir. Ailə fərdlərinin bədən üzvləri ilə müqayisəsi məsələsi Tusinin İslam dininin təlimlərindən bəhrələnməsinin nəticəsidir. İslam dini mətnlərində Həzrət Məhəmmədin dilindən nəql olunan hədisdə iman gətirən insanların dostluq və mehribanlıq baxımından bir bədən üzvü kimi olduğu deyilir [2. səh 304]. Həmçinin Tusinin müasiri olmuş görkəmli fars şairi Sədi Şirazi də əsərlərində bu misaldan istifadə etmişdi. Onun həmin məsələyə toxunduğu şeirin tərcüməsi belədir:” Adəm övladı bir-birlərinin bədən üzvləri kimidirlər; çünki yaradılışda bir incidəndirlər. Fələk bir üzvü ağrıdanda digər üzvlər də qərar tapa bilməzlər. Əgər sən başqalarının çətinlik və dərd-qəminə kədərlənmirsənsə, sənin adını insan qoymaq olmaz” [2. səh 304].

Tusiyə görə, bütün üzvlərin qarşılıqlı və şərikli fəaliyyəti ən bitkin fəaliyyət sayılır. Bu fəaliyyətin başında duran və onu müvafiq surətdə tənzimləyən ailə başçısıdır. O qeyd edilən bədən misalında həm həkim rolunda həm də əsas bədən üzvü rolunda çıxış edir.

Tusi ümumilikdə haqqında danışılan mövzu barəsində maraqlı və ətraflı bir tərif işlədir. Qeyd edir ki, mənzil qurma sənəti (buna ailə qurma hikməti də deyirlər) bu camaatın hamısının xeyrinə

olan, məişətlərinin təminatını asanlaşdıran, mənəviyyatlarının inkişafını sürətləndirən, ümumun mənafeyini müdafiə edən bir elmdir [1. səh 156]. Göründüyü kimi alim burada ailə ilə bağlı hərtərəfli bir tərif verir. İlk öncə qeyd edilməlidir ki, burada ailə qurmaq bir sənət kimi təqdim olunur. Yəni bu ifadə ailə həyatının xüsusi qaydalarının, qanunauyğunluqlarının olmasını izah edir. Adətən insanlar ailəyə çox sadə yanaşırlar, burada davranış qaydaları, münasibətlərin düzgün qurulmasına ciddi şəkildə diqqət etmirlər. Tusi mövzu barədə danışarkən ailə qurmaq sənəti ifadəsini istifadə etməklə məsələnin ciddiyətini ortaya qoyur. Bu işdə sənətkar olmağı lazım bilir. Ailə qurmağın xüsusi bir sənət olması fikri bizə digər bir böyük mütəfəkkirin oxşar yanaşmasını xatırladır. Bu XX əsrin böyük psixoloqu, sosioloq və filosofu Erix Fromdur. Onun məşhur "Sevmək sənəti" kitabı Tusinin qeyd edilən fikri ilə səsləşir. Erix Fromun beynəlxalq bestseller olan bu əsəri bu cümlələrlə başlayır:"Həqiqətənmi məhəbbət bir sənətdir? Əgər elədirsə, onda bu iş əmək və bilik tələb edir" [3. səh 5]. Qadın və kişi arasındakı məhəbbətə bu cür xüsusi yanaşan Form Tusi ilə oxşar fikrə sahibdir.

Həmçinin diqqət etdikdə görürük ki, Tusi bu tərifdə bir birinin yanında iki ifadə işlədir. Ailə qurmağı insanların məişətlərinin təminatını asanlaşdıran, mənəviyyatlarının inkişafını sürətləndirən bir elm kimi təqdim edir. Burada həm ailə üzvlərinin maddi məsələlərinin təmin olunması, həm də mənəvi təkamülünə nail olunmasında ailə institutunun rolu vurğulanır. Bu prosesdə ailə üzvləri bir birinə kömək edirlər və qarşıya çıxan maddi, mənəvi müşküllərin öhtəsindən birgə gəlirlər. Bu baxımdan ailə xüsusi bir ittifaq hesab edilə bilər. Məsələn qadın çətinliyə düşübsə həyat yoldaşı onun harayına çatır və vəziyyətdən çıxmaq üçün ona kömək əlini uzadır. Yaxud övlad problem yaşayırsa valideynlər ona dəstək olurlar. Bu sayədə çətinliklər daha tez və asan şəkildə aradan qalxır. Amma ailə üzvləri hər biri təkbaşına yaşayıb, bu məsələlərlə tənha olduğu halda mübarizə aparsaydı yəqin ki öhdəsindən gələ bilməyəcəkdi. Qeyd etmək lazımdır ki, ailə elə bil unikal sosial qrupdur ki, burada insanlar arasında həm qohumluq, həm də mənəvi bağlar mövcuddur. Bu səbəbdən burada yardımlaşma, bir birinin qayğısına qalmaq daha rahatdır. Ailədə insanlar digər birinin problemini öz problemi kimi hiss edə bilirlər. Tusi bunu izah edir və verdiyi tərifdə də qeyd edilən məsələni bildirir.

Burada o, xüsusilə ailənin rəisinin, yəni kişinin rolunu vurğulayır. İslam dünyagörüşündən bəhrələnən alim kişini ailə başçısı hesab edir və əsas məsuliyyəti onun üzərinə qoyur. Mövzu ilə bağlı Tusi Həzrət Məhəmmədin bu hədisini qeyd edir və ona istinad edir:"Siz hamınız öz sürüsünü qorumağa məsul olan çobanlar kimisiniz" [1. səh 157].

Burada bir məsələyə aydınlıq gətirilməlidir ki, müasir dövrdə bəzən geniş müzakirələrə səbəb olur. Məsələ ondan ibarətdir ki, xüsusilə xanımlar bəzi hallarda kişinin evin rəisi olması məsələsinə etiraz edirlər. Bunu kişilərə ailədə imtiyaz verilməsi və onların qadınlardan üstün tutulması kimi başa düşürlər. Nəsirəddin Tusi isə burada fərqli bir yanaşma ortaya qoyur. O məqalədə kişinin vəzifəsini və rolunu qeyd etdiyi zaman Həzrət Məhəmmədin buyurduğu «xalqın rəhbəri onun xidmətçisidir» [8]. kəlamının məntiqi ilə məsələyə yanaşır. Tusi və onun bəhrələndiyi İslam dünyagörüşünə görə rəhbərlik etmək imtiyaz və üstünlük deyil, məsuliyyət və xidmət etmək deməkdir. İslam peyğəmbəri həmçinin başqa bir yerdə "İman cəhətdən ən yaxşı insan o kəsdir ki, gözəl əxlaqa malik olar, ailəsinə qarşı mehriban olar. Mən ailəmə qarşı sizlərdən ən mehribanıyam" - deyə buyurmuşdur [7]. Eyniylə Tusi də kişini ailənin rəisi adlandırır, amma onun digər ailə üzvlərindən üstün olduğunu qeyd etmir. Kişinin ailənin digər üzvlərinin qayğısına qalmalı olmasını, çətin situasiyalarda özünü qabağa verməsini tələb edir. Qeyd edir ki, ailənin rəisi bütün ailə üzvləri ilə tək tək məşğul olmalıdır. Hər birinə kömək etməlidir və həm də ailənin ümumi mənfəəti üçün çalışmalıdır. Tusiyə görə ailədə problem olduqda ailənin rəisi bundan xüsusi narahatlıq keçirir. Ailə üzvləri bir bədən şəklində hesab

olunsa evin rəisi həkim kimi hər bir üzvü ayrı-ayrılıqda müayinə edib, hamısına xüsusi diqqət ayırmalıdır [1. səh 157].

Sonda isə Tusi ailənin toplumun mənafeyini müdafiə etdiyinə işarə edir. Görünən odur ki, Tusi ailəni həm fərdin, həm də cəmiyyətin xeyrinə olan bir fenomen hesab edir. Çünki subay insanlar, demək olar ki, heç bir cəmiyyətə aid deyillər və ucsuz-bucaqsız bir fəzada, planetlər arasında, çəkisiz vəziyyətdə sərgərdan qalmış varlıqlara bənzəyirlər! Onlar cüzi bir şeyə görə öz ata-baba yurdunu qoyub başqa bir yerə köçə, yaxud hər hansı bir narahatlıq zamanı həyatla vidalaşıb ondan üz çevirə bilərlər [4. səh 22]. Ailə sahibi olan insanlar isə daha sabit düşüncəli olmaqla yanaşı, öz yaşadıqları yerə, vətənlərinə bağlı olurlar. Ümumiyyətlə vətənpərvərlik hissləri, mili-mənəvi dəyərlərin ən yaxşı mühafizə olunduğu mühit ailədir. Bu səbəbdən dövlətlər də bir çox hallarda ailə institutunun mühafizə edilməsində və gənc ailələrə sosial təminat verilməsində maraqlı olurlar.

Subay şəxslər həmçinin bir sıra əxlaqi kamilliklərə çatmaqda da geri qalırlar. Ona görə ki, sevgi, güzəşt, fədakarlıq, mehribanlıq kimi xüsusiyyətlər ən çox ailə mühitində aktuallıq kəsb edir [4. səh 23]. Ailə mühitindən kənar düşüb, tənha ömür sürən insanlar bu xüsusiyyətlərə yadlaşır və nəticədə şəxsiyyətlərində bir natamamlıq yaranır. Həmçinin ünsiyyət tələbatının da ən yaxşı şəkildə təmin olunduğu mühitlərdən biri ailədir.

## ƏDƏBİYYAT

1. Xacə Nəsirəddin Tusi. Əxlaqi Nasiri. “Lider Nəşriyyatı”. 2005. 280 səh
2. Mürtəza Mütəhhəri. Kamil insan. İrşad Nəşriyyatı. 2021. 336 səh
3. Erix From. Sevmək sənəti. Qanun Nəşriyyatı. 2013. 144 səh
4. Məkarim Şirazi. Gənclərin cinsi problemləri. Parlayan günəş. 2011. 140 səh
5. http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%202015%202/104-114.pdf
6. https://kayzen.az/blog/xo%C5%9Fb%C9%99xt-ail%C9%99/2745/ail%C9%99-v%C9%99-ail%C9%99nin-funksiyalar%C4%B1.html
7. https://weislam.az/%C9%99n-imanli-insan-ail%C9%99sin%C9%99-xanimina-qarsi-%C9%99n-mehriban-olanidir/
8. https://themuslim500.com/guest-contributions-2019/prophetic-leadership/

## NƏSİRƏDDİN TUSİNİN «ƏXLAQİ NASİRİ» ƏSƏRİNDƏ AİLƏYƏ OLAN EHTİYACIN SƏBƏBLƏRİ

***Məmmədov Həbib***

## XÜLASƏ

Böyük alim Nəsirəddin Tusinin ictimai, fəlsəfi məsələləri əhatə edən Əxlaq Nasiri əsərində ailə mövzusu ilə bağlı ciddi fikirlər verilmişdir. Bu fikirlər həmin dövr üçün əhəmiyyətli olmaqla yanaşı günümüzlə də aktualdır. Tusinin fikirlərini müasir dövrdə ailə mövzusu ilə bağlı elmi baxışlarla müqayisə etdikdə maraqlı nəticələr alırıq. Ailə institutunun möhkəm qalması üçün ona olan ehtiyacın səbəblərini və onun faydalarını bilmək lazımdır. Tusinin baxışları bu məsələdə çox dəyərli bələdçi rolunu oynayır.

# ПРИЧИНЫ НЕОБХОДИМОСТИ СЕМЬИ В «АХЛАК НАСИРИ» НАСРЕДДИНА ТУСИ

***Мамедов Хабиб***

## АННОТАЦИЯ

Работа великого ученого Насреддина Туси «Ахлак Насири», охватывающая социальные и философские вопросы, дает серьезные идеи о семье. Эти идеи важны для того периода и актуальны и сегодня. Мы получаем интересные результаты, когда сравниваем взгляды Туси с современными научными взглядами на семью. Чтобы институт семьи оставался сильным, необходимо знать причины его необходимости и преимущества. Взгляды Туси служат ценным руководством в этом вопросе.

# THE REASONS FOR THE NEED FOR A FAMILY IN NASREDDIN TUSI'S «AKHLAQ NASIRI»

***Mammadov Habib***

## SUMMARY

The great scholar Nasreddin Tusi's work, Akhlaq Nasiri, which covers social and philosophical issues, gives serious views on the subject of the family. These ideas are important for that period and are still relevant today. We get interesting results when we compare Tusi's views with modern scientific views on the subject of the family. For the family institution to remain strong, it is necessary to know the reasons for its need and its benefits. Tusi's views serve as a valuable guide in this matter.

# GÜRCÜSTAN VƏ AZƏRBAYCANIN SOSİAL MÜDAFİƏ SİSTEMİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Quliyeva Əzizə***
***BDU-nun II kurs magistrantı***
***azizaguliyeva99@gmail.com***

***Açar sözlər:*** sosial müdafiə, sosial təminat, sosial yardım, sosial siyasət, pensiya, müavinət, ünvanlı sosial yardım.
***Ключевое слово:*** социальная защита, социальное обеспечение, социальная помощь, социальная политика, пенсия, разрешение, адресная социальная помощь.
***Keywords:*** social protection, social security, social assistance, social policy, pension, allowance, targeted social assistance.

Peşəkar fəaliyyət növü kimi sosial işin əhalinin sosial müdafiəsinin həyata keçirilməsində öz yeri vardır. Hal-hazırda sosial müdafiə sistemi deyərkən qanunvericiliklə müəyyən olunmuş iqtisadi, sosial, hüquqi təminatlar və ilk növbədə sosial baxımdan zəif olan əhalinin müxtəlif təbəqələrinin və qruplarının həyat təminatını saxlamaq üçün şərait yaradan sosial institutların və müəssisələrin məcmusu başa düşülür (1, səh 125).

Sosial müdafiənin əsas vəzifələri kimi aşağıdakıları qeyd etmək olar :

1. Vətəndaşların qanunla müəyyən olunmuş sosial hüquqları və minimal sosial təminatlarının həyata keçməsi – ilk növbədə təqaüd təminatı, sosial xidmət, uşaqlı ailənin maddi təminatı və s.
2. Sosial müdafiə sisteminin dəyişən sosial iqtisadi şəraitə uyğunlaşdırılması – buraya sosial xidmət müəssisələri şəbəkəsinin inkişafı, əhaliyə göstərilən sosial xidmət siyahısının genişləndirilməsi, sosial işçi kadrlarının hazırlanması və s. aiddir.
3. Tamamlanmış sosial texnologiyanın formalaşdırılması əsasında sosial müdafiənin təşkilinin təkmilləşdirilməsi, əhalinin müxtəlif kateqoriyalarına fərdi yanaşma.
4. Əhalinin sosial yardımın fəal formalarından geniş istifadə olunması (1, səh 56).

Sosial müdafiənin ötən dövr ərzində ilkin formasının yaradılmasına baxmayaraq, sosial müdafiənin təkmilləşdirilməsi və müasir tələblərə cavab verən sistemin qurulması zərurəti hələ də aktual məsələlərdəndir. Hazırda sosial müdafiə sisteminin daha təkmil və səmərəli təşkili, pensiya sisteminin inkişafı, yardım sisteminin müasirləşdirilməsi və şaxələndirilməsi baxımından bir neçə problemlər mövcuddur. Bu da əhalinin lazımi həyat şəraiti ilə təmin edilməsi və onların minimum yaşayış standartlarına çıxışı və potensial yoxsulluq və işsizlikdən sığortalanmaları zərurətini göz önünə gətirir. Xüsusilə də sosial yardım sistemində mövcud olan boşluqlar xarici ölkələrdə tətbiq edilən işlək mexanizmlərlə müqayisə etməyə təşviq edir. Çox uzağa getməyək. Qonşu dövlətlərdə tətbiq edilən sosial müdafiə sistemləri ilə ölkəmizdəki sistemi müqayisə etsək, mövcud problemlər və eləcə də bir çox uğurlu addımları görə bilərik. İlk olaraq qonşu ölkələrdən Gürcüstana nəzər salaq. Gürcüstan əsas etibarilə inkişaf etməkdə olan ölkələr sırasına daxildir. Müqayisə etməyimizin əsas səbəblərindən biri də məhz iki inkişaf etməkdə olan ölkənin sosial müdafiə sisteminin arasındakı əsas fərqləri müəyyən edək. Eləcə də, Gürcüstanın tətbiq etdiyi sosial siyasətdə hansı addımları Azərbaycana uyğunlaşdırmaq olar, bunu müəyyən etmək də əsas səbəblərdən biridir. İstər Gürcüstanın, istərsə də Azərbaycanın sosial müdafiə sisteminin formalaşmasında SSRİ-nin mövcudluğu böyük rol oynamışdır. Demək olar ki, hər iki ölkə də SSRİ dağıldıqdan sonra bir müddət sovetdən qalma ənənələrini sosial siyasətdə də davam etdirdilər. Lakin bu o demək deyil ki, hər iki dövlətin sosial sistemində bu

günə qədər heç bir dəyişiklik baş verməmişdir. İlk olaraq biz Gürcüstanın sosial müdafiə sistemindən danışaq. Gürcüstanda sosial müdafiəni Gürcüstanın Məcburi Köçkünlər, Səhiyyə, Əmək və Sosial Müdafiə üzrə Nazirliyi həyata keçirir. Nazirliyə Gürcüstanın baş naziri tərəfindən təyin olunan nazir rəhbərlik edir. Nazirliyin əsas funksiyaları əhaliyə keyfiyyətli tibbi və ictimai səhiyyə xidmətlərinin göstərilməsini təmin etməkdir, ölkədə tibb və əczaçılıq fəaliyyətinin tənzimlənməsi, dövlət pensiyalarının, sosial təminatın idarə edilməsi, uşaqların hüquqlarının müdafiəsidir. Əsasən vergilər hesabına maliyyələşən Gürcüstanın sosial təminat sistemi tarixi sarkaç dalğalanmalarının mirasını əks etdirir. Hal-hazırda o, ömürlük və qeyri-ömürlük müavinətlərin qarışığından ibarətdir, o cümlədən əsas ömürlük müavinətlərinin universal təminatı (məsələn, qocalıq və əlillik müavinətləri), müəyyən digər təminatları təmin etmək üçün işəgötürənlərdən asılılıq (məsələn, xəstəliyə görə ödəniş və əmək xəsarətindən qorunma) və yoxsul hesab edilənlərə çatmağa yönəlmiş yoxsulluğa arxalanmaq (məsələn, Ünvanlı Sosial Yardım Proqramı və Uşaq Yardım Proqramı vasitəsilə). Sistem, həmçinin 1952-ci il BƏT-in Sosial Təminat Konvensiyasına uyğun olaraq tələb olunan həyat dövrü ilə bağlı əsas müddəalardan məhrumdur: əmək xəsarəti planı, işsizlik sığortası, böyüklər üçün ölüm müavinətləri və xəstəlik və analıq müavinətləri. Gürcüstanda mərkəzi və yerli idarəetmə orqanları tərəfindən verilən, sosial cəhətdən həssas beş hədəf qrupuna verilən üç növ sosial müavinət vardır: birbaşa maliyyə yardımı, subsidiya şəklində dolayı maliyyə yardımı və digər sosial xidmətlər. Hökumətin geniş strategiyasını, o cümlədən sosial müdafiə ilə bağlı müddəaları əks etdirən ilk siyasət sənədi 2006-cı ildə qəbul edilmiş Əsas Məlumatlar və İstiqamətlər (BDD) sənədi olmuşdur. Sənəddə bir bənddə çox qısa şəkildə məsələyə toxunulur və hökumətin kateqoriyalara deyil, ehtiyaclara əsaslanan qalıq sosial müdafiə sistemi yaratmağı hədəfləyir (7, səh 3).

Bununla belə, faktiki islahat prosesi 2005-ci ilin martında "Yoxsulluğun azaldılması və əhalinin sosial müdafiəsi tədbirlərinin yaxşılaşdırılması haqqında" 51 saylı Hökumət Sərəncamının qəbul edilməsi ilə BDD-nin yaradılmasından əvvəl başlanmışdır. Bu, yeni konsepsiyanı əks etdirən ilk hüquqi sənəd idi (6, səh 7).

Gürcüstanda hər biri ən azı 15 ildir fəaliyyət göstərən üç əsas sosial transfer növü var. Ən mühüm transfer yaşa görə pensiyadır ki, bu da pensiya yaşına çatmış 770 292 nəfəri əhatə edir. Gürcüstanda pensiya yaşı qadınlar üçün 60, kişilər üçün isə 65-dir. Köçürmə məbləği ayda 220 lari (cari məzənnə ilə 121 manat) təşkil edir ki, bu da orta əmək haqqının təxminən 18%-ni (ayda 1200 lari) təşkil edir. Sosial paket bu kateqoriyalara aiddir: kimsəsiz uşaqlar, əlillər, siyasi repressiya qurbanları və silahlı münaqişələrdə ailə üzvlərini itirmiş şəxslər. Köçürmələrin məbləği benefisiarların müxtəlif növlərinə görə dəyişir, lakin əksəriyyəti ayda 100 və 220 lari (55 – 121 manat) arasında olur. Hazırda bu köçürmələri 173 905 nəfər alır. Ünvanlı Sosial Yardım (ÜSY) etibarnamə vasitəsi ilə sınaqdan keçirilmiş ailə köçürməsidir. Köçürmə məbləği ailənin rifah balından asılı olaraq ayda hər bir üzv üçün 30-60 lari (17-33 manat) arasındadır. Həmçinin, ÜSY məlumat bazasında qeydiyyatdan keçmiş ailələr, ailə müavinətləri almaq hüququ olmasa belə, rifah balı müəyyən həddən aşağı olduğu müddətdə hər uşaq üçün hər ay 50 lari (28 manat) alır. Bu müavinət 189 227 ailəni əhatə edir (o cümlədən ailəyə pul dəstəyi komponenti alan ailələr). Əlillərə və ailə başçısını itirməyə görə dövlət təqaüdü verilir (5, səh 11).

Dövlət, həmçinin yaşayış yerlərindən alternativ, icma və ailə əsaslı sosial xidmətlərə qədər geniş spektrli sosial xidmətlərin inkişafına və təmin edilməsinə kömək edir. Bu xidmətlər xüsusilə əlillər, kimsəsizlər və qocalar qruplarını əhatə edir. Xidmətlərə aşağıdakılar daxildir: əlillər üçün reabilitasiya xidmətləri, günərzi qayğı mərkəzləri, icma əsaslı xidmətlər. Sosial-iqtisadi vəziyyətini əks etdirən balı müəyyən edilmiş rəsmi səviyyədən aşağı olan əhali üçün bu

4) Dəyərin çıxılması üsulu ilə gömrük dəyərinin müəyyənləşdirilməsi – bu zaman, ilk öncə malların gətirildiyi tarixdən ən çoxu 90 gün əvvəl idxalatçı ölkənin ərazisində qiymətləndirilmiş və satıcıdan heç bir qarşılıqlı asılılığı olmayan alıcıya satılmış eyni, və yaxud dqa eynicinsli malların ən böyük partiyasının sərbəst bazar qiymətləri təyin edilir və daha sonra isə, müəyyən xərc maddələri çıxılır.

5) Dəyərin toplanması üsulu ilə gömrük dəyərinin müəyyən edilməsi üsulu.

6) Ehtiyat üsulu ilə gömrük dəyərinin müəyyənləşdirilməsi üsulu.

Gömrük tarifinin hesablanması və ödənilməsi mexanizminin ikinci ünsürü isə, malın mənşə ölkəsinin müəyyən edilməsidir. Malın mənşə ölkəsi – həmin malın ya tam istehsal olunduğu, ya da kifayət qədər emala məruz qaldığı ölkədir. Malın mənşə ölkəsinin müəyyənləşdirilməsinin 2 əsas meyarı vardır:

1. Tam istehsal meyarı.
2. Kifayət qədər emal meyarı.

Tam istehsal meyarı, malın tam sürətdə verilmiş ölkədə istehsal olunduğunu göstərir.

Kifayət qədər emal meyarı isə, əsasən malın mənşə öikəsinin təyin olunması zərurəti malın istehsalında iki və ya daha çox öikənin iştirak etdiyi aşkar edilərkən yaranır.

Gömrük tarifinin hesablanması və ödənilməsi mexanizminin üçüncü ünsürü isə, XİF ƏN-na uyğun olaraq mal kodunun müəyyən edilməsidir. Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası (XİF ƏN) dedikdə, ölkəyə gətirilən və ölkədən aparılan mallara tətbiq edilən gömrük rüsum dərəcələrinin sistemləşdirilmiş siyahısı nəzərdə tutulur. XİF ƏN-na uyğun olaraq mal kodunun düzgün müəyyənləşdirilməsi üçün 3 blok tərkib elementlərini tətbiq etmək lazımdır. Bu blok elementləri aşağıdakılardır:

1) Nomenklatura hissəsi.
2) Bölmə və qruplara qeydlər.
3) XİF ƏN-nın əsas interpretasiya qaydaları.

Gömrük tarifinin hesablanması və ödənilməsi mexanizminin dördüncü ünsürü isə, güzəştlərin və preferensiyaların dəyişməsinə baxılmadır. Ümumiyyətlə, xarici ticarət əməliyyatlanmn tarif tənzimlənməsi mexanizminin digər əsas amili də məhz gömrük sərhədindən keçirilən obyektlərə (mallara, xidmətlərə, nəqliyyat vasitələrinə) və o cümlədən də subyektlərə (şəxslərə) müstəsna aktiv tarif üstünlüklərinin verilməsidir [1, s.74]. İlk növbədə qeyd etmək lazımdır ki, müstəsna tarif güzəştləri 2 cür olur:

1. Aktiv tarif üstünlükləri.
2. Passiv tarif üstünlükləri.

Aktiv tarif üstünlükləri dedikdə, burada tarif güzəştləri, preferensiyalar və s. nəzərdə tutulur.

Passiv tarif üstünlüklərinə isə, əlavə gömrük ödənişlərinin tətbiqi, əlverişsiz ticarət rejiminin seçilməsi və s. aid edilir.

Gömrük tarifinin hesablanması və ödənilməsi mexanizminin beşinci ünsürü isə, gömrük rüsm və vergilərinin müəyyən olunmuş qaydada hesablanması və ödənilməsidir. Gömrük rüsumu dedikdə, gömrük orqanları tərəfindən tutulan haqqdır, yəni, əmtəələr ölkənin gömrük ərazisinə gətirilərkən, o cümlədən də həmin ərazidən çıxarılarkən tutulan haqq nəzərdə tutulur [2]. Həmçinin gömrük rüsumları 3 əsas funksiyanı icra edirlər:

1) Fiskal.
2) Proteksionist.
3) Balanslaşdırıcı.

Azərbaycan Respublikasında tətbiq edilən gömrük rüsumlarına aşağıdakılar aid edilir:

1. Advalor – malların gömrük dəyərinə görə faizlə hesablanmasıdır.
2. Spesifik – mal vahidinə görə müəyyən edilmiş dəyərlə hesablanılır.
3. Kombinə edilmiş – hər iki növü birləşdirməklə hesablanılır.

Qeyd etdiyimiz kimi, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin digər bir metodu isə, qeyri-tarif tənzimlənmə metodudur.Hazırda xarici ticarətin tənzimlənməsinin mühüm sahələrindən biri qeyri-tarif üsullarıdır. Qeyri-tarif tənzimlənmə, adi gömrük tarifləri istisna olmaqla, malların beynəlxalq ticarətinə, o cümlədən də ticarət edilən kəmiyyətlərin və ya qiymətlərin və ya hər ikisinin dəyişməsinə potensial iqtisadi təsir göstərə bilən siyasət tədbirləridir. Qeyri-tarif tənzimləmə metodlarının ən genişyayılmış növünü kəmiyyət məhdudiyyətləri təşkil edir. Kəmiyyət məhdudiyyəti – həm ixracına, həm də idxalına icazə verilən əmtəələrin nomenklaturasını və kəmiyyətini müəyyən edən qeyri-tarif tənzimləmənin inzibati formasıdır. Kəmiyyət məhdudiyyətlərinə aşağıdakılar aiddir:

- Lisenziyalaşdırma.
- Kvotalaşdırma.
- İxracın "könüllü" məhdudlaşdırılması.

Lisenziyalaşdırma – xarici iqtisadi fəaliyyətin dövlət orqanları tərəfindən müəyyən müddətə görə verilən, həmçinin müəyyənləşdirilmiş kəmiyyətlərdə əmtəə ixracını və yaxud idxalını nəzərdə tutan icazələr vasitəsilə tənzimlənməsidir.

Kvotalaşdırma - əmtəənin həm ixracını, həm də idxalını müəyyən müddətdə müəyyən olunmuş kəmiyyət və yaxud məbləğ həddində məhdudlaşdıran kəmiyyət qeyri-tarif vasitsəsidir və kəmiyyət məhdudiyyətlərinin geniş yayılmış başlıca formasıdır. Eyni zamanda, kvotalar fəaliyyət istiqamətinə görə də fərqləndirilir. Belə ki, fəaliyyət istiqamətinə görə idxal və ixrac kvotaları vardır.

İxracın "könüllü" məhdudlaşdırılması isə, öhdəliyi nəzərdə tutur. Bu o deməkdir ki, ticarət tərəfdaşlarından hər hansısa biri əmtəənin ixracına kvota tətbiq edilməsi haqqında rəsmi və yaxud qeyri-rəsmi saziş əsasında ixracın həcmini məhdudlaşdırmaq üzrə öhdəlik götürür.

Ümumi olaraq, respublikamızda dövlətimiz tərəfindən uğurlu xarici ticarət siyasət həyata keçirilir və bu xarici ticarət siyasət bütövlükdə ölkəmizin iqtisadi təhlükəsizlik sisteminin əsas tərkib hissələrindən biri olmaqla yanaşı, eyni zamanda da milli rəqabət üstünlüklərinin formalaşması və inkişafına əsaslanır. Bu isə, öz növbəsində ölkəmizin daha da inkişaf edərək, qabaqcıl dünya dövlətlərinin sırasında öz layiqli yerini tutması ilə yanaşı xalqımızın rifah halının yüksəldirilməsinə xidmət edir.

## ƏDƏBİYYAT

1. A.M.Məhərrəmov, H.H.Aslanov. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı, 2008.
2. Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu.
3. H.B.Allahverdiyev, K.S.Qafarov, Ə.M.Əhmədov. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, 2006.
4. Ş.Əliyeva. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt, 2015.
5. www.az.nsp-ie.org/comercio-exterior-2444
6. www.stat.gov.az/source/trade/
7. AM Maharramov, HH Aslanov. Regulation of foreign economic activity. Baku, 2008.
8. Law of the Republic of Azerbaijan on Customs Tariff.
9. HB Allahverdiyev, KS Gafarov, AM Ahmadov. Basics of state regulation of the national economy. Baku, 2006.
10. Sh.Aliyeva. Azerbaijan's foreign economic policy. Sumgayit, 2015.
11. www.az.nsp-ie.org/comercio-exterior-2444
12. www.stat.gov.az/source/trade/

## XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TARİF TƏNZİMLƏNMƏSİ METODLARI

***İskəndərli Aişə***

## XÜLASƏ

Müasir dövrdə xarici ticarət əlaqələrinin tənzimlənməsi aktual mövzudur. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin müxtəlif metodları vardır. Məqalədə xarici ticarət əlaqələrinin tənzimlənməsi metodlarından bəhs edilir. Həmçinin, qısa formada xarici ticarət siyasətinin əhəmiyyətindən də bəhs edilmişdir.

## МЕТОДЫ ТАРИФНОГО РЕГУЛИРОВАНИЯ ВНЕШНЕТОРГОВЫХ ОТНОШЕНИЙ

***Искандерли Аише***

## АННОТАЦИЯ

Регулирование внешнеторговых отношений является актуальным вопросом современности. Существуют различные методы государственного регулирования внешнеэкономической деятельности. В статье рассматриваются методы регулирования внешнеторговых отношений. Также была кратко обсуждена важность внешнеторговой политики.

## METHODS OF TARIFF REGULATION OF FOREIGN TRADE RELATIONS

***Iskandarli Aisha***

## SUMMARY

Regulation of foreign trade relations is a topical issue in modern times. There are various methods of state regulation of foreign economic activity. The article discusses the methods of regulating foreign trade relations. The importance of foreign trade policy was also briefly discussed.

# BEYNƏLXALQ VALYUTA MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ

***Dos. Aslanov Habil Hüseyn oğlu***
***Məmmədli Ləman Elxan qızı***
***BDU-nun I kurs magistrantı***
***memmedli0111@gmail.com***

***Açar sözlər:*** valyuta, beynəlxalq valyuta münasibətləri, valyuta tənzimlənməsi, valyuta siyasəti, devalivasiya
***Ключевые слова:*** валюта, международные валютные отношения, валютное регулирование, валюта политика, девальвация
***Keywords:*** currency, international currency relations, currency regulation, currency policy, devaluation

Valyuta tənzimlənməsi – valyuta və valyuta dəyərləri ilə əməliyyatların keçirilməsini özündə əks etdirən beynəlxalq iqtisadi münasibətlərin dövlət tənzimlənməsinin bir formasıdır. Kapitalist ölkələrdə valyuta tənzimlənməsi dünya və dövlət iqtisadiyyatının vəziyyətindən, maliyyə sisteminin etibarlılığından asılıdır.

Valyuta münasibətlərinin tənzimlənməsi sistemində aparılan valyuta siyasəti iqtisadiyyatın daxili və xarici dinamik tarazlığını təmin edir, həmçinin valyuta məzənnəsini sabitləşdirilməsi məqsədilə ölkənin hal - hazırdakı, struktur məqsədlərinə uyğun olaraq dövlətin və Mərkəzi bankların pul tədavülü və beynəlxalq iqtisadi münasibətlər sahəsində həyata keçirdiyi tədbirlərin məcmusunu müəyyən edir.

Valyuta tənzimlənməsi dövlət tərəfindən beynəlxalq hesablaşmaların və valyuta əməliyyatlarının həyata keçirilmə qaydalarının reqlamentləşdirilməsidir [2, s.66].

Valyuta tənzimlənməsi birbaşa və dolayı üsullarla həyata keçirilir. Birbaşa valyuta tənzimlənməsi qanunvericilik aktları vasitəsilə yerinə yetirilir. Dolayı valyuta tənzimlənməsi isə bazarın iqtisadi agentlərinin davranışına, iqtisadi və maliyyə - kredit üsulları ilə təsir etməklə həyata keçirilir.

Valyuta tənzimlənməsinin tərkib hissələri kimi valyuta əməliyyatlarının keçirilməsi, mərkəzləşmiş valyuta ehtiyatlarının və iqtisadi subyektlərin valyuta resurslarının yaradılması qaydalarının təyin edilməsi və valyuta nəzarəti çıxış edir.

Valyuta tənzimlənməsinin əsas makro və mikroiqtisadi əhəmiyyəti olan aşağıdakı istiqamətləri vardır:

1. İxrac əməliyyatlarının tənzimlənməsi və valyuta qazancları üzərində nəzarət.
2. İdxal əməliyyatlarının tənzimlənməsi və valyutanın alınması ilə bağlı əməliyyatların aparılması qaydası.
3. Mərkəzi Bank tərəfindən həyata keçirilən cari valyuta əməliyyatları üzərində səmərəli nəzarətin təşkili.
4. Bank sistemlərinin təkmilləşdirilməsi və valyuta tənzimlənməsinin mənfəətinin artırılması.
5. Kapitalın hərəkətinin tənzimlənməsi və onun axınının qarşısının alınması üzrə tədbirlərin həyata keçirilməsi.
6. Normallaşdırılmış valyuta borclarının dövlət tərəfindən idarə edilməsi və Mərkəzi bankın qızıl valyuta ehtiyatının artırılması.
7. Düzgün valyuta məzənnəsi siyasətinin həyata keçirilməsi.

8. Milli pulun stabilliyini təmin etmək, ona təyziqi azaltmaq üçün səhm bazarı və dövlət istiqrazlarının tənzimlənməsi.

Valyuta tənzimlənməsi prinsipləri kimi isə aşağıdakıları qeyd edə bilərik:

• Valyuta tənzimlənməsi və valyuta nəzarəti sistemlərinin birliyi;

• Valyuta əməliyyatlarının rezidentləri və qeyri – rezidentlərinin hüquq və maraqlarının dövlət tərəfindən həyata keçirilməsi;

• Rezident və qeyri – rezidentlərin valyuta əməliyyatlarına heç bir sübuta istinad etməyən dövlət müdaxiləsi hallarının istisna edilməsi;

• Dövlətin daxili və xarici valyuta siyasətinin vəhdəti.

Valyuta tənzimlənməsi metodlarını müəyyən şərtlilik dərəcəsinə görə tam liberal, natamam liberal, qeyri – liberal valyuta tənzimləmələri kimi fərqləndirmək olar [1, s.44].

Beynəlxalq valyuta münasibətlərinin tənzimlənməsi valyuta siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Valyuta siyasəti – dünya təssərüfat əlaqələri sistemində iqtisadiyyatın daxili və xarici dinamik tarazlığını təmin etmək, beynəlxalq ödəmələri müəyyən bir sistem daxilində yerinə yetirimək, dövlətin strateji və cari məqsədlərinə uyğun şəkildə həyata keçirilən tədbirlərin məcmusunu əks etdirir. Valyuta siyasəti milli səviyyədə Maliyyə Nazirliyi, Mərkəzi Bank və s, beynəlxalq səviyyədə isə xüsusi dövlətlərarası valyuta – kredit qurumları vasitəsilə reallaşdırılır. Mərkəzi Bankın tətbiq etdiyi pul siyasəti ölkədə makroiqtisadi stabilliyin təmin olunmasına və ölkənin beynəlxalq rəqabət qabiliyyətinin qorunub saxlanmasına yönəldilir. Dayanıqlı makroiqtisadi sabitlik və aşağı inflyasiya, davamlı iqtisadi artımın və əhalinin sosial rifahının yüksəldilməsi üçün əsas şərtlərdəndir.

Valyuta siyasətinin sağlam və səmərəli tətbiqi ölkənin iqtisadi təhlükəsizliyinin əsas təminatıdır. Valyuta siyasətinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

1. iqtisadiyyatda dollarlaşmanın qarşısını almaq;
2. valyuta sabitliyinin və valyuta nəzarətinin təmin edilməsi;
3. xarici borcun idarə olunması;
4. daxili investisiya ehtiyacının qarşılamaqla xarici investisiyanın cəlb edilməsi;
5. kapital çıxışına məhdudiyyət;
6. xarici rəqabətə qarşı yerli istehsalçıların müdafiəsi, yəni idxal əvəzləyici istehsalın stimullaşdırma siyasətini tətbiq etmək;
7. ixracatçılara yönəlik stimullaşdırma siyasəti;
8. valyuta böhranına qarşı alınacaq tədbirlər;
9. tədiyyə balansının tarazlığı;
10. çirkli pulların yuyulmasına qarşı mübarizə və s. [3, s.31]

Valyuta siyasətinin əsas həyata keçirilməs formaları aşağıdakılardır:

1) Diskont siyasət;
2) Deviz siyasəti;
3) Valyuta müdaxiləsi;
4) Devalvasiya;
5) Revalvasiya;
6) Valyuta ehtiyatlarının diversifikasiyası;
7) Valyuta məzənnəsi rejimi;
8) Valyuta dönərlilik dərəcəsinin tənzimlənməsi;
9) Valyuta məhdudiyyətləri.

Diskont siyasətin mənfəətliliyi ölkənin investisiya siyasəti ilə birbaşa əlaqədardır. Diskont siyasət – Mərkəzi Bank tərəfindən faiz dərəcəsinin dəyişdirilməsidir. Belə ki, daxili bazarda kreditin dəyərinə təsir etməklə valyuta məzənnəsinin səviyyəsi tənzimlənir. Lakin son illərdə

diskont siyasətin faydalılığının azalması müşahidə olunur. Bu isə diskont siyasətin daxili və xarici məqsədləri arasında olan ziddiyyətlərlə əlaqədardır. Beləliklə faiz dərəcələri bazarı canlandırmaq məqsədi ilə aşağı salınırsa, bu artıq qeyd etdiyimiz kimi kapitalın xaricə axması ilə nəticələnir. Bu da tədiyyə balansına mənfi təsir edir. Lakin tədiyyə balansının vəziyyətinin yaxşılaşdırılması məqsədiylə faiz dərəcələrinin artırılması isə durğunluq vəziyyətində olan iqtisadiyyata mənfi təsir göstərir.

Deviz valyuta siyasəti milli valyuta məzənnəsinə dövlət orqanlarının xarici valyuta alıb satması ilə təsir metodur. Milli valyutanın məzənnəsini artırmaq məqsədilə Mərkəzi Bank xarici valyutanı satır və ya əksini edərək, milli valyutanın məzənnəsini azaltmaq məqsədilə xarici valyutanı alır. Deviz valyuta siyasətinin xarakterik xüsusiyyəti həyata keçirdiyi siyasətin nisbətən böyük miqyasa malik olması və qısa zaman periodunda tətbiq olunmasıdır.

Bildiyimiz kimi devalvasiya və revalivasiya valyuta siyasətləri ənənəvi metodlardandır. Devalvasiya milli valyutanın məzənnəsinin xarici valyutalara və ya beynəlxalq pul vahidlərinə, qızıl standartı dövründə isə qızıla nisbətən aşağı salınması ilə ifadə olunur və valyuta məzənnəsinin sabitləşmə metodudur. Devalvasiya dövlət tərəfindən ölkə iqtisadiyyatına edilmiş müdaxilədir. Heç bir ölkə öz valyutasını digər valyutalar qarşısında dəyər itirməsini istəməz. Lakin iqtisadi itkilərin qarşısının alınması baxımından bəzi hallar da devalvasiyanın tətbiq edilməsi zəruri ola bilir.

Revalvasiya isə devalvasiyanın müəyyən dərəcədə əksi hesab edilir. Belə ki, revalvasiya milli valyutanın xarici valyuta qarşısında məzənnəsinin artmasıdır. Bu valyuta siyasəti adətən sabit məzənnə sistemində tətbiq edilir. Revalvasiya daxili qiymətləri yüksəldərək ixracatı azaldır, xarici malların qiymətlərini aşağı salaraqsa idxalatı artırır. Bu prosses valyuta məzənnəsi lazımi səviyyəyə yüksələnə qədər davam edir. Bunun nəticəsində isə ölkənin tədiyyə balansının müsbət qalığı artır.

Valyuta məhdudiyyətləri valyuta əməliyyatlarının inzibati tədbirlər və qanunvericilik aktları ilə qadağan olunması və ya limitləşdirilməsi, nizama salınması istiqamətində həyata keçirilən valyuta tənzimlənməsi siyasətidir. Əsas etibarı ilə valyuta məhdudiyyəti valyuta bazarında valyuta məzənnəsinin tənzimlənməsinə xidmət edir. Valyuta məhdudiyyətinin əsas məqsədlərindən biri də milli iqtisadiyyatı xarici təsirlərdən qorunmaqdır.

Bildiyimiz kimi, valyuta tənzimlənməsi haqqında qanun hər bir dövlətdə mövcuddur və dövlətin valyuta siyasətinin prioritet vəziyyətini əks etdirir. Bu zaman qanunvericilik tərəfindən valyuta məhdudlaşdırılmaları təyin edilə bilər. Bu məhdudlaşdırılmalar sərhəddən kənara pul köçürmələri, kapital çıxarışı və əcnəbi valyuta ilə sərbəst ticarətə qadağa qoyulmanı əhatə edə bilər.

Valyuta tənzimlənməsini yerinə yetirmək üçün dövlət bir sıra iqtisadi tədbirlər həyata keçirir. Bu iqtisadi tədbirlərin müəyyən hissəsini Dövlət Gömrük Komitəsi, bir hissəsini isə Mərkəzi Bank həyata keçirir. Həmçinin, valyuta nəzarəti orqanlarıda Azərbaycan Respublikasının Mərkəzi Bankı və Dövlət Gömrük Komitəsidir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı Azərbaycan Respublikasında valyuta tənzimini həyata keçirən əsas orqandan biridir. Azərbaycan Respublikasının Mərkəzi Bankı bu qanuna müvafiq olaraq:

a) Azərbaycan Respublikasında xarici valyutanın və xarici valyutada qiymətli kağızların tədavülü sahəsini və qaydasını müəyyən edir;

b) valyuta əməliyyatlarının tənzimlənməsinə dair normativ aktlar qəbul edir;

c) rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasında xarici valyuta ilə və xarici valyutada olan qiymətli kağızlarla əməliyyatlar aparması qaydalarını, habelə Azərbaycan

Respublikasında qeyri - rezidentlərin milli valyuta ilə və milli valyutada qiymətli kağızlarla əməliyyatlar aparması qaydalarını müəyyən edir;

d) rezidentlərə məxsus xarici valyutanın və xarici valyutada olan qiymətli kağızların Azərbaycan Respublikasına məcburi köçürülməsi, gətirilməsi və göndərilməsi qaydasını, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda rezidentlər (qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, kredit təşkilatları, sığorta bazarının peşəkar iştirakçıları, investisiya fondları və onların idarəçiləri istisna olmaqla) tərəfindən xarici valyuta hesablarının açılmasının hal və şərtlərini müəyyən edir;

e) valyuta əməliyyatları üzrə statistikanın vahid formasını, təqdim olunması qaydasını və müddətini müəyyən edir;

f) qəbul edilmiş beynəlxalq standartlar əsasında Azərbaycan Respublikası üzrə valyuta əməliyyatlarının statistikasını hazırlayır və dərc edir [6].

Azərbaycanda valyuta siyasətinin əsas vəzifələrinə manatın real bazar dəyərinin təmin edilməsi, dolarlaşma meyilinin zəifləməsi, qızıl-valyuta rezervlərinin səmərəli istifadəsi və real valyuta məzənnəsinin istifadəsi üçün səmərəli alətlərdən istifadə aiddir. Valyuta siyasətinin həyata keçirilməsində əsas məqsədlərdən biri də hər bir dövlətin öz milli valyutasının məzənnəsinin sabitliyini qorumaqdır.

Ümumiyyətlə, manatın məzənnəsi – iqtisadiyyatın sosial və iqtisadi sağlamlığının əsas indikatorlarından biridir. Azərbaycan Respublikasında makroiqtisadi tarazlığın təminatı üçün pul tədavülünün dayanıqlılığı, büdcənin tarazlığı, valyuta məzənnəsinin sabitliyi əsas vəzifələrdəndir.

Valyuta məzənnəsi ya tələb və təklif əsasında, ya da dövlət tərəfindən təyin edilə bilər. Lakin çox vaxt valyuta məzənnəsi tələb və təklif əsasında formalaşır. Ona görə də valyuta məzənnəsi sabit qalmır, çünki valyuta bazarında tələb və təklif tez-tez dəyişir. Tələb çox olduqda valyuta məzənnəsi artır, əksi olduqda isə azalır.

Valyuta məzənnəsinin devalvasiya və revalvasiya nəticəsində dəyişməsi milli gəlirin dinamikasına əhəmiyyətli təsir edir. İdarəetmədə daha çox istifadə olunan metod valyutanın devalvasiyasıdır.

Azərbaycanda manat 2015-ci ildə kəskin ucuzlaşdı. 2015-ci ildə baş verən 2 devalvasiya nəticəsində manat 2 dəfədən çox ucuzlaşdı. Belə ki, ilk devalvasiya 21 fevral 2015-ci ildə baş verdi. Mərkəzi Bank manatın 1 dollara görə dəyərini 0,78-dən 1,05 manata təyin etdi. Devalvasiya 33.8% oldu. 21 dekabr 2015-ci ildə isə 2-ci devalvasiya oldu və 1 ABŞ dollarının rəsmi məzənnəsini 1,55 manat səyivvəsində oldu. Azərbaycan Mərkəzi Bankı dekabrın 21-də manatın dəyişkən məzənnəyə keçidi barədə belə bir açıqlama verdi ki, bu qərara səbəb iqtisadiyyatda xarici valyuta mənfəətlərinin kəskin azalması və valyuta ehtiyatlarının qoruması zərurəti ilə əlaqədardır [5]. İkinci devalvasiyanın kəskinliyini aşağıdakı sxemdə daha aydın görə bilərik:




Azərbaycanda 2017-ci ilin yazından etibarən manatın məzənnəsi sabit qalır. 1 dollar 1,70 manata bərabərdir. 2022-ci ilin aprel ayının məzənnəsinə əsasəndə 1 dollar 1,70 manatdır.

Son illərə nəzər saldıqda görərik ki, ölkəmizdə COVİD-19 pandemiyasının neqativ təsirlərinə və Vətən müharibəsinin baş verməsinə baxmayaraq 2020-ci ildə həyata keçirilən effektli monetar və prudensial siyasət ölkədə makroiqtisadi və maliyyə sabitliyini təmin etməyə imkan vermiş, bu istiqamətdə cari ilə müəyyən edilmiş başlıca hədəflərə nail olunmuşdur.

## ƏDƏBİYYAT

1. D.Vəliyev, A.Əsədov. Beynəlxalq iqtisadiyyat. Bakı, 2012.
2. N.R.Quliyev, M.M.Mahmudov. Beynəlxalq maliyyə münasibətləri. Bakı, 2011.
3. Ş.Hacıyev, Ə.Bayramov. Beynəlxalq iqtisadiyyat. Bakı, 2005.
4. Z.F.Məmmədov. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Bakı, 2012.
5. https://www.cbar.az
6. http://www.e-qanun.az
7. D.Valiyev, A.Asadov. International economy. Baku, 2012.
8. N.R.Quliyev, M.M.Mahmudov. International financial relations. Baku, 2011.
9. Sh.Hajiyev, A.Bayramov. International economy. Baku, 2005.
10. Z.F.Mammadov. International currency-credit relations and monetary system of foreign countries. Baku, 2012.
11. https://www.cbar.az
12. http://www.e-qanun.az

# BEYNƏLXALQ VALYUTA MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ

***Məmmədli Ləman***

## XÜLASƏ

Beynəlxalq valyuta münasibətlərinin tənzimlənməsi beynəlxalq iqtisadi münasibətlərin dövlət tənzimlənməsi formasıdır. Valyuta tənzimlənməsinin həyata keçirilməsi üçün bir sıra tədbirlər var. Məqalədə beynəlxalq valyuta münasibətlərinin tənzimlənməsindən və prinsiplərindən, valyuta tənzimlənməsinin əsas makro və mikroiqtisadi əhəmiyyətindən bəhs olunur. Həmçinin, qısa formada valyuta siyasətinin valyuta tənzimlənməsindəki mühüm rolundan bəhs olunmuşdur.

## РЕГУЛИРОВАНИЕ МЕЖДУНАРОДНЫХ ВАЛЮТНЫХ ОТНОШЕНИЙ

***Мамедли Ламан***

## АННОТАЦИЯ

Регулирование международных валютных отношений является формой государственного регулирования международных экономических отношений. Предусмотрен ряд мер по осуществлению валютного регулирования. В статье рассматриваются регулирование и принципы международных валютных отношений, основное макро и микроэкономическое значение валютного регулирования. Также кратко обсуждалась важная роль денежно-кредитной политики в валютном регулировании.

## REGULATİON OF İNTERNATİONAL CURRENCY RELATİONS

***Mammadli Laman***

## SUMMARY

Regulation of international monetary relations is a form of state regulation of international economic relations. There are a number of measures to implement currency regulation. The article discusses the regulation and principles of international monetary relations, the main macro and microeconomic importance of currency regulation. The important role of monetary policy in currency regulation was also briefly discussed.

# AZƏRBAYCANDA AÇIQ İQTİSADİYYATA KEÇİDİN YÜKSƏK FORMASI KİMİ AZAD TİCARƏT RAZILAŞMALARININ İMKANLARI VƏ İLKİN ŞƏRTLƏRİ

***Dos.M.Y.Yadulla elmi rəhbər***
***İsayev Əmrah Faiq oğlu***
***BDU-nun Beynəlxalq Münasibətlər və İqtisadiyyat kafedrasının II kurs magistrantı***
***amrah_99@outlook.com***

***Açar sözlər:*** azad ticarət razılaşmaları, xarici ticarət, dünya təcrübəsi, dövlət tənzimlənməsi.
***Ключевые слова:*** соглашения о свободной торговле, внешняя торговля, мировой опыт, государственное регулирование.
***Keywords:*** free trade agreements, foreign trade, world experience, government regulation.

«Azad ticarət razılaşmaları» fenomeni dünya praktikasında son onilliklərdə özünə geniş yer etmişdir. Müasir azad iqtisadi zonaları (bundan sonra AİZ) ötən əsrin 70-ci illərinin əvvəllərində öz praktikasına daxil edən Cənub-Şərqi Asiya ölkələri, qısa müddət ərzində, iqtisadi artım tempinə görə, regionun iqtisadi öncüllərinə çevrilməyə müvəffəq oldular. Belə ki, 1970-ci ildə Cənubi Koreyada azad iqtisadi zonalar haqqında qəbul edilən qanuna uyğun olaraq, xarici investisiyaların cəlb edilməsi, ixrac artımının stimullaşdırılması, məşğulluğun artırılması, sənaye texnologiyalarının təkmilləşdirilməsi və nəhayət, iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə, ölkənin sahilyanı rayonlarında AİZ yaradıldı. Fəaliyyəti dövlət tərəfindən fəal dəstəklənən bu zona, tezliklə, «Asiya möcüzəsi»nin liderlərindən birinə çevrildi.

XX əsrin 90-cı illərində iqtisadi artım tempinə görə, Çin dünya lideri oldu. Hazırda ölkədə, hələ 1980-ci illərdə AİZ statusu almış, beş xüsusi iqtisadi region fəaliyyət göstərir. 1990-cı ildə bu zonalara qoşulan Rudunq investisiyaların həcminə görə digər zonaları üstələməyə nail olmuşdur.

Hal-hazırda AİZ geniş xarici investisiyalar cəlb edən, xarici iqtisadi fəaliyyətə rüsumsuz rejim tətbiq edən, inkişafı digər iqtisadi və təşkilati tədbirlərlə stimullaşdırılan ərazilər kimi fəaliyyət göstərir. Kiota konvensiyasının VIII əlavəsində azad zona və ya «porto-franko» definisiyası rəsmən qəbul edilmişdir. Burada «porto-franko» — əmtəələri milli gömrük sistemindən kənarda yerləşən və bu səbəbdən mütləq gömrük nəzarətinə məruz qalmayan ərazi-obyektlər hesab olunur.

Beynəlxalq ticarət-iqtisadi münasibətlərində müəyyən azadlığı ilə fərqlənən ilk ərazilər — «porto-franko»lar, hələ XVI yüzilliyin axırında Aralıq dənizi sahillərində yaranmışdır. 1595-ci ildə Genuyada (İtaliya) azad liman statusu təsis olunmuş, daha sonralar, məsələn, Odessa liman-şəhəri 1817-ci ildə «porto-franko» güzəşt rejimi əldə etmişdi (bu rejim Sovet hakimiyyətinin qurulmasınadək mövcud olmuşdu) və s.

Dünya təcrübəsində, AİZ-lər, özlərinin bazar iqtisadiyyatının müvəffəqiyyətlə formalaşmasına, ölkə iqtisadiyyatının inkişafına təkan verən güclü amil olduğunu artıq sübuta yetirmişlər. Bu, xüsusən yüksək göstəriciləri ilə fərqlənən zonaların fəaliyyət göstərdiyi Çinin təcrübəsində daha qabarıq nəzərə çarpır. AİZ-lərə geniş yer verən Çin hökuməti onların normal fəaliyyəti üçün qısa müddətdə əlverişli hüquqi baza yaratmış, maliyyə-vergi, gömrük və digər iqtisadi tədbirlər planı işləyib hazırlamışdır.

Müasir AİZ-lər, əsas etibarı ilə, sərhədyanı ərazilərdə yerləşmələri, ölkənin digər əraziləri ilə müqayisədə üstün istehsal və bölgü şərtləri, öz sərhədlərini əlaqədar təsərrüfat sferalarına, sahələrə və ərazilərə genişləndirmək və yaymaq qabiliyyətinə malik olmaları ilə fərqlənirlər. Hazırda dünyada mindən çox AİZ mövcuddur. Onlar dəyəri dünya ticarət dövriyyəsinin 15 %-ni

təşkil edən məhsul hazırlayır və ixrac edirlər. AİZ vasitəsilə milli əmtəə və xidmətlər dünya bazarına daxil olur, xarici resurslar milli iqtisadiyyata «axır», bununla da ölkə təsərrüfatının dünya iqtisadiyyatına inteqrasiya miqyasları genişlənir.

İstehsalın tənəzzülü, uzun illər mövcud olmuş təsərrüfat əlaqələrinin pozulması, kapital qoyuluşu həcminin kəskin surətdə azalması, əhalinin həyat səviyyəsinin kəskin aşağı düşməsi şəraitində AİZ-lərin yaradılması mövcud problemlərin həllində köməkçi yollardan biri kimi qiymətləndirilir. Bazar iqtisadiyyatına keçid ölkənin dünya təsərrüfat kompleksinə inteqrasiyasının yüksək səviyyəsini nəzərdə tutur ki, bu da xarici investisiyaların milli iqtisadiyyata axınını tələb edir. Məhz bu planda respublika ərazisində AİZ-lərin yaradılması məqsədəuyğun hesab olunur. Nəzərə almaq lazımdır ki, Azərbaycan dünyanın iqtisadi cəhətdən ən əlverişli ərazilərindən birində — Şərqlə Qərbin arasında, qədim «İpək yolu»nun üzərində yerləşir. Bu yolun Azərbaycan, Qərb və Şərq ölkələri üçün sosial-iqtisadi və siyasi əhəmiyyəti böyükdür. «İpək yolu» vasitəsilə qurulacaq beynəlxalq iqtisadi əlaqələrə geniş miqyasda qoşulma, bu yol üzərində AİZ-lərin yaradılması XXI əsrdə respublikanın inkişaf strategiyasının ən prioritet istiqamətlərindən sayılır.

AİZ-lərin yaradılması özünüidarəetmə elementlərini gücləndirməyin, təsərrüfat proseslərini idarəetmə ünsürlərinin regional səviyyədən makroiqtisadi səviyyəyə keçirilməsinin vasitələrindən, iqtisadiyyatın ərazi-təsərrüfat cəhətdən təşkilinin səmərəliliyinin təmin edilməsi formalarından biridir.

Hazırda, Azərbaycanın nəqliyyat sektorunun ümumi inkişaf kontekstində müxtəlif variantlarda inkişaf konsepsiyaları hazırlanmalı, qonşu və uzaq ölkələrlə əməkdaşlığın proqnozları, həmin ölkələrin inkişaf strategiyaları, qlobal siyasətdəki mövqeləri öyrənilməlidir.

AİZ-lər yaradılmasının dünya təcrübəsi, bu sahədə müəyyən uğurlarla yanaşı, müvəffəqiyyətsizliklərin də olduğunu göstərir. Məsələn, Polşa və Hindistanda yaradılan AİZ-lər layihələşmə mərhələsində bəzi hesablamaların düzgün aparılmaması ucbatından fəaliyyət dövründə gözlənilən səmərəni verə bilməmişdi. Ümumiyyətlə isə, bu sahədə ən geniş yayılmış səhvlər sırasında aşağıdakılar göstərilir:

— zonanın yerləşdiyi ərazinin düzgün seçilməməsi;

— bazar infrastrukturuna kifayət qədər diqqət verilməməsi (lazımi avtomobil yollarının, hava nəqliyyatının olmaması; telekommunikasiya və elektrik təchizatının aşağı inkişaf səviyyəsi);

— zonanın idarə olunması və güzəşt rejimlərinin yaradılması ilə məşğul olan dövlət idarələri arasında (məs., maliyyə nazirliyi, gömrük komitəsi, iqtisadiyyat nazirliyi və s.) institusional əlaqələrin lazımi səviyyədə olmaması.

Keçid dövründə, bir çox ölkələrdə, yuxarıda sadalanan səbəblər sırasında iqtisadi böhranın da adı çəkilir. İqtisadi vəziyyətin kəskin olduğu şəraitdə AİZ-lərin səmərə verəcəyi bəzən sual altında qalır.

Konkret inzibati ərazini əhatə edən AİZ-lərin, əksər hallarda, qeyri-səmərəli nəticələnməsi dünya təcrübəsindən məlumdur. Azad zonaların sərhədlərinin inzibati-ərazi sərhədləri ilə üst-üstə düşməsi həmişə diqqət mərkəzindədir. İnzibati idarəçiliyi əvvəlki qaydada saxlanılan zonalarda, iqtisadi azadlığı nəzərdə tutulan formada təmin etmək, əksər hallarda mümkün olmur. Bütün tədbirlərə baxmayaraq, inzibati idarəçilik iqtisadi fəaliyyət üçün bürokratçılıq, süründürməçilik və bu kimi digər maneələr yaratmaqda davam edir. Bunları nəzərə alaraq, azad zonalarda, ölkənin bütün ərazilərində olduğu qaydada deyil, fərqli formada idarəçilik sistemi formalaşdırılır.

AİZ-lərin yaradılması və fəaliyyətinin tənzimləyici mexanizmləri dəqiq müəyyən edilməli, iqtisadiyyatın gələcəkdə struktur yenidənqurulması perspektivləri, dünya bazarının konyukturunun mümkün dəyişiklikləri, ölkənin regionları üzrə sosial-iqtisadi səviyyənin

bərabərləşdirilməsi probleminin həlli ilə bağlı olan iqtisadi inkişafın alternativ variantları əsaslandırılmalıdır.

AİZ — təcrid edilmiş ərazi (anklav) deyil, dövlət iqtisadi siyasətinin sabitliyinə, xüsusi hüquqi rejimə əsaslanan, daxili və xarici investorlara potensial təminatların təmin edilməsinə yönələn güzəşt və stimulların xüsusi iqtisadi-hüquqi sisteminin fəaliyyət göstərməli olduğu iqtisadi məkan, suveren ölkə ərazisinin bir hissəsidir.

Dünya təcrübəsi azad iqtisadi zona infrastrukturunun yaradılmasına münasibətdə müəyyən tələblər formalaşdırmışdır. Bu tələblərə görə, məsələn, nəqliyyat dəhlizləri tərkibində AİZ-lərin yaradılması və fəaliyyəti məsələləri daha dəqiq və əsaslandırılmış surətdə işlənib hazırlanmalıdır.

Sahibkarlığa yardım məqsədilə ayrı-ayrı ərazilərdə AİZ-lərin yaradılması — açıq iqtisadiyyatın qurulması və dünya təsərrüfat əlaqələri məkanına daxil olmaq üçün perspektiv tədbirlərdəndir. AİZ-in yaradılması və inkişafının xarici təcrübəsi, mexaniki olaraq, müasir inkişaf mərhələsi nəzərə alınmadan digər ölkənin ərazisində tətbiq edilə bilməz. Buna görə də, milli iqtisadi və hüquqi şəraitə uyğun olan azad iqtisadi zonaların qurulmasının əsas prinsiplərini işləyib hazırlamaq, məqsədlər sistemini aydınlaşdırmaq, yaradılacaq AİZ-in sahə və funksional yönümünün ümumdövlət prioritetlərini müəyyən etmək lazımdır.

AİZ fəaliyyətindən əldə edilən səmərə lokal deyil (öz ərazisində), həm də makroiqtisadi (ölkənin bütün xalq təsərrüfatı üçün) xarakter daşımalı, zona ərazisində investisiya prosesinin bütün iştirakçılarının (istər dövlət və yerli özəl, istərsə də xarici səhmdarların) maraqları bərabər surətdə təmin olunmalıdır. Hər bir AİZ-də çoxvariantlı iqtisadi inkişaf üçün imkanların təmin edilməsi zəruridir.

AİZ-lərin normal fəaliyyəti üçün maliyyə və bank infrastrukturunun yaradılması variantlarını nəzərə alan inkişaf proqramları işlənib hazırlanmalı, sadə və geniş təkrar istehsalın investisiyalaşmasını təmin edəcək ilkin kapital yığımı üçün şərait yaradılmalıdır. Müasir ölkələrdə iqtisadi fəaliyyət məhdudlaşdırıcı fiskal siyasət hesabına diskriminasiya edilməklə, üzərinə sərt nəzarət qoyulmuşdur. AİZ-də belə nəzarət zəifləyir, vergi sistemi isə, xüsusilə də, gömrük rüsumlarına münasibətdə güzəşt rejimində işləyir.

AİZ-lərin yaradılma təcrübəsini ümumiləşdirərək qeyd etmək lazımdır ki, AİZ infrastrukturunun inkişafına qeyri-dövlət vəsaitlərinin cəlb edilməsi inkişafın gələcəkdə stabilləşməsi üçün müsbət amildir. Xarici iqtisadi fəaliyyətin və regional təsərrüfatçılığın perspektiv forması olaraq, ciddi selektiv yanaşmanı, böyük hazırlıq işini tələb edən, dövlət üçün yeni və mürəkkəb forma olan AİZ-lər, bütövlükdə dövlətin və regional iqtisadi komplekslərin səmərəli inkişafını təmin edə bilər.

AİZ layihələrində, onun yaradılmasından iqtisadiyyat üçün əldə ediləcək aşağıda sadalanan ən mühüm, sosial-iqtisadi səmərə nəzərə alınmalıdır:

— AİZ-in milli iqtisadiyyata təkmilləşdirici təsiri;

— ölkə üçün yenilik sayılan və əvvəllər istifadə olunmayan iqtisadi mexanizmlərlə eksperimentin mümkünlüyü;

— qapalı iqtisadiyyatın açıq iqtisadiyyata çevrilməsi işinə AİZ-lərin yardımı.

Deyilənləri ümumiləşdirərək, «Azərbaycanda AİZ-lərin yaradılması perspektivi varmı?» sualına müsbət cavab verə bilərik. Şübhəsiz ki, onun səmərəli realizə edilməsi aşağıdakı mütləq şərtlərə riayət edilməsi şərtilə həyata keçə bilər:

— həm ümumdövlət, həm də regional maraqları nəzərə alan AİZ sahəsində dəqiq konsepsiyanın yaradılması;

— AİZ yaradılması və fəaliyyəti prosesini tənzimləyən müvafiq normativ-hüquqi bazanın işlənib hazırlanması və qəbul edilməsi, AİZ-in ölkənin iqtisadi məkanı prinsipini pozmayan məhdud ərazidə təşkili;

— AİZ yaradılmasında həm yerli, həm də ərazi orqanlarının qarşılıqlı iqtisadi marağı;

— real səmərənin perspektivdə əldə olunacağı nəzərə alınmaqla, AİZ infrastrukturunun formalaşması üçün ərazi idarəetmə orqanlarının bu məqsədə mühüm büdcə vəsaitlərinin ayrılması;

— AİZ ərazisində fəaliyyət göstərən yerli və xarici investorlara təsərrüfat fəaliyyətinin aparılması üçün mümkün qədər əlverişli şərait yaradılması.

Göründüyü kimi, burada həll edilməsi mümkün olmayan şərt yoxdur. AİZ problemi bütün maraqlı tərəflərin razılaşdırılmış fəaliyyəti ilə həll edilə bilər. Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da AİZ yaradılması xarici investisiyaların cəlb edilməsinin səmərəli üsuluna, xarici iqtisadi əlaqələrin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafında katalizatora çevrilə bilər. Bunun üçün onların yaradılma siyasəti düşünülmüş və davamlı olmalıdır.

## ƏDƏBİYYAT

1. Azad iqtisadi zonalar: reallıq və düşüncələr. M.Y.Yadulla. "Hüquqi dövlət və qanun" jurnalı. Bakı. Hüquq ədəbiyyatı nəşriyyatı
2. Beynəlxalq ticarət razılaşmalarının çoxtərəfli ticarət sisteminə təsiri. V.Ç.Remçukova. M.Ekonomika. 2016.
3. Bayramov Ə.İ. Xarici ticarətdə biliteral asılılıq problemi. // İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı, №1, Bakı, 2001.

## AZƏRBAYCANDA AÇIQ İQTİSADİYYATA KEÇİDİN YÜKSƏK FORMASI KİMİ AZAD TİCARƏT RAZILAŞMALARININ İMKANLARI VƏ İLKİN ŞƏRTLƏRİ

***İsayev Əmrah***

### XÜLASƏ

Məqalədə azad ticarət razılaşmalarının imkanları və ilkin şərtləri nəzərdən keçirilmişdir. Hal-hazırda AİZ geniş xarici investisiyalar cəlb edən, xarici iqtisadi fəaliyyətə rüsumsuz rejim tətbiq edən, inkişafı digər iqtisadi və təşkilati tədbirlərlə stimullaşdırılan ərazilər kimi fəaliyyət göstərir.

## ВОЗМОЖНОСТИ И ПРЕДПОСЫЛКИ СОГЛАШЕНИЙ О СВОБОДНОЙ ТОРГОВЛЕ КАК ВЫСОКОЙ ФОРМЫ ПЕРЕХОДА К ОТКРЫТОЙ ЭКОНОМИКЕ В АЗЕРБАЙДЖАНЕ

***Исаев Амрах***

### АННОТАЦИЯ

В статье рассматриваются возможности и предпосылки соглашений о свободной торговле. В настоящее время Порто-франко выступает как территория, привлекающая большие объемы иностранных инвестиций, вводит беспошлинный режим внешнеэкономической деятельности, стимулирует развитие за счет других экономических и организационных мер.

## OPPORTUNITIES AND PRECONDITIONS FOR FREE TRADE AGREEMENTS AS A HIGH FORM OF TRANSITION TO AN OPEN ECONOMY IN AZERBAIJAN

***İsayev Amrah***

### SUMMARY

The article discusses the possibilities and preconditions of free trade agreements. At present, the FTA acts as an area that attracts large amounts of foreign investment, imposes a duty-free regime on foreign economic activity, and stimulates development through other economic and organizational measures.

# SAHİBKARLIQ FƏALİYYƏTİNƏ DÖVLƏT DƏSTƏYİ

***İ.ü.f.d Xasiyev Bəhruz Qabil oğlu***
***İbrahimzadə Zenfira Fariz qızı***
***BDU-nun I kurs magistrantı***
***zenfira.memmedli@gmail.com***

***Açar sözlər:*** sahibkarlıq fəaliyyəti, sahibkar, sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi.
***Ключевые слова:*** предпринимательская деятельность, предприниматель, государственная поддержка предпринимательской деятельности.
***Keywords:*** entrepreneurial activity, entrepreneur, state support for entrepreneurial activity.

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir[1].

Sahibkarlıq fəaliyyəti cəmiyyət üzvlərinin şəxsi gəlir və ya mənfəət əldə etməyə yönəldilən, öz riski və öz əmlak cavabdehliyi ilə həyata keçirilən müstəqil təşəbbüskar təsərrüfat fəaliyyətidir. Bu fəaliyyətlə məşğul olanlar sahibkar adlanır. Sahibkarlıq fəaliyyəti nə, nə üçün, kimin üçün istehsal etmək, təsərrüfat qanunlarının qəbul olunması, məhdud resurslardan istifadənin daha mütərəqqi üsullarının axtarılıb tapılması, daha az xərclə daha keyfiyyətli məhsul istehsalı, yeni xidmət üsullarını tapılması, satışın səmərəli təşkili, istehlakçıların araşdırılması, rəqiblərin hərtərəfli öyrənilməsi və s. ilə bilavasitə bağlıdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hər bir şəxs sahibkarlıq mühitini qiymətləndirməyi bacarmalıdır. Qeyd etmək lazımdır ki, sahibkarın öhdəsində olan bir neçə funksiya vardır:

•Sahibkar iqtisadi fəaliyyəti üçün zəruri olan bütün resursları bir yerə toplayır (bu resurslara təbii, investisiya və əmək resurslarını aid etmək mümkündür).
•Sahibkar ən əsas iqtisadi məsələlər üzrə qərarlar qəbul edir.
•Sahibkar yenilikçidir.
•Sahibkar öz vəsaiti, iş vaxtı və iqtisadi mühitdəki nüfuzu ilə risk edir.

Sahibkarlıq hər şeydən öncə iqtisadi fəaliyyətdir. Bu fəaliyyəti isə 3 tipə ayıra bilərik:
•Öz yaşayışını təmin etmə zərurətinə görə fəaliyyət.
•Rahatlıq və əlavə gəlir əldə etmək mülahizələrinə görə fəaliyyət.
•Sahibkar mülahizələrinə görə fəaliyyət.

Ümumiyyətlə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin bir neçə səbəbi vardır: pul qazanmaq, ictimaiyyətin rifahına töhfə vermək, azad fəaliyyət göstərmək, cəmiyyətdə özünü təsdiq etmək və s. bu fəsiləyə aid edilə bilər ki, burada saydıqlarımızdan asılı olmayan başlıca məqsəd gəlir, mənfəət əldə etməkdir.

Sahibkarlıq öz miqyasına görə kiçik, orta və iri sahibkarlığa ayrılır. Bazar iqtisadiyyatına keçid ölkələrində, o cümlədən də Azərbaycanda kiçik sahibkarlıq xalq təsərrüfatının inkişafını, əhalinin məşğulluğunu, ümumiyyətlə iqtisadiyyatın inkişafını müəyyən edən əsas iqtisadi amil hesab olunur[2].

Sahibkarlıq fəaliyyəti ilə fiziki (hüquqi şəxs yaratmadan), yaxud hüquqi şəxs kimi məşğul olmaq olar:

a) Fiziki şəxs kimi:
- Fərdi sahibkarlıq

b) Hüquqi şəxs kimi:
- Tam ortaqlıqlar

- Kommandit ortaqlığı
- Məhdud Məsuliyyətli Cəmiyyət
- Səhmdar Cəmiyyəti
- Kooperativ[3].

Sahibkarlığa dəstək, onun inkişafı dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da hazırda dövlətin işgüzar fəaliyyəti ilə bağlı iqtisadi siyasətin mərkəzi istiqamətlərindən birinə çevrilmişdir. Məhz belə bir siyasət nəticəsində sahibkarlıq fəaliyyəti ilə bağlı qanunvericilik və təşkilatı-iqtisadi şərait daim inkişaf etdirilir və təkminləşdirilir, qanunsuz müdaxilələr və süni maneələrlə ciddi mübarizə aparılır, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəsi durmadan yüksəlir, onun inkişafı ayrı-ayrı tədbirlər səviyyəsindən daha çox məqsədyönlü dövlət proqramları əsasında həyata keçirilir. Sahibkarlığa dövlət dəstəyi hər şeydən əvvəl Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Belə ki, Konstitusiyada göstərilir ki, dövlət bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Hər bir ölkədə olduğu kimi Azərbaycan dövlətinin sahibkarlığın qorunması və stimullaşdırılması ilə bağlı məqsədyönlü qanunvericilik, təşkilati və iqtisadi xarakterli tədbirlər ilk növbədə kiçik biznesin inkişafı ilə bağlıdır. Bu baxımdan xüsusən 1999-cu ildə ölkə parlamenti tərfindən qəbul edilmiş "Kiçik sahibkarlığa Dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanunu bir tərəfdən sahibkarlıq sahəsində zəruri dövlət siyasətinin və məqsədyönlü əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsində dönüş nöqtəsinə çevrilir. Digər tərəfdən, həmin hüquqi sənəd sübut edir ki, kiçik sahibkarlığın inkişafı üzrə dövlət tədbirləri bu və ya digər dövlət qurumunun fəaliyyəti çərçivəsindən çıxaraq bütövlükdə Azərbaycan dövlətinin iqtisadi siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Ölkəmizdə sahibkarlığın inkişafına ayrılan vəsait, kredit və subsidiyalar, həmçinin digər güzəştlər sahibkarların gələcək uğurlarını şərtləndirməklə yanaşı, bu işə həvəs və bağlılığı daha da artırır.Regionlarda dövlətin maliyyə dəstəyindən əlavə, sahibkarlığın inkişafı üçün yaradılan şərait, işgüzar mühitin formalaşması da mühüm əhəmiyyət kəsb edir.

Sahibkarlığın inkişafı, əlverişli biznes mühitin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir və onun mərkəzində durur. Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir və qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində uğurla yerinə yetirilməkdədir.

Hazırda bu sahədəki siyasət sahibkarlığa dövlət himayəsinin sistem şəklində həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəldilmişdir. Bu strateji xəttin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Sahibkarlığa dövlət maliyyə köməkliyi mexanizmi yaradılmış, bu mənbə kiçik və orta sahibkarların maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsinin mühüm real mənbəyi kimi çıxış edir[4]. azerbaijan.az)Dövlət başçısının "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb. Güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6%-dən 5%-ə endirilmişdir. Eyni zamanda, yeni qaydalarda orta həcmli kreditlərin hədləri dəyişdirilərək 50 001 manatdan 1 000 000 manatadək müəyyən edilmişdir.

Respublikamızda sahibkarlığın inkişafına mane olan süni maneələrin aradan qaldırılması istiqamətindəki fəaliyyətinin ardıcıl və davamlı səciyyə daşıdığını Prezident İlham Əliyevin 30 aprel 2007ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı bir daha təsdiqləyir. Bu Fərmanla indiyə qədər çoxpilləli biznesə başlamaq sahəsində mövcud problemlərin həlli, o cümlədən, süründürməçilik hallarının, bürokratik əngəllərin aradan qaldırılması nəzərdə tutulubdur. Bu məqsədlə vahid kodlaşdırmanın aparılması, biznes strukturlarının "bir pəncərə" - vahid qeydiyyat orqanı tərəfindən qeydə alınması məsələləri əksini tapıbdır.

Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda dövlətin sahibkarlığın inkişafı üçün qayğı və səyini əsirgəmədiyini xüsusi qeyd etmişdir: "Sahibkarlara daim diqqət vardır. Sahibkarlar həm siyasi, həm də maddi tərəfdən dəstəklənir. Sahibkarlara müxtəlif yollarla - Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli kredit şəklində böyük vəsait verilir".

Bütün bu nailiyyətlər, onu deməyə əsas verir ki, Azərbaycanda sahibkarların, iş adamlarının etibarlı himayədarına çevrilmiş cənab İlham Əliyevin reallaşdırdığı məqsədyönlü siyasət hesabına özəl sektor yeni inkişaf dönəminə qədəm qoymaqla, sahibkarlığın inkişafına diqqət daha da artırılıbdır. Məhz elə buna görədir ki, qeyri- neft sektorunun inkişafı üçün həyata keçirilən iqtisadi strategiya uğurla davam etdirilir [5].

Bu gün bütünlükdə Azərbaycan Respublikasında, o cümlədən onun regionlarında həyata keçirilən sahibkarlıq fəaliyyəti müvafiq qanunvericilik bazasına əsaslanır və bu baza sahibkarların maliyyə problemlərinin həlli, sahibkarlığa dövlət maliyyə yardımının artırılması, biznes fəaliyyətinə başlamaq şərtlərinin sadələşdirilməsi, ölkədə biznes mühitinin səmərəsinin yüksəldilməsi, son nəticədə isə regional inkişaf proqramına uyğun olaraq respublikda sahibkarlığın dinamik və sürətli inkişafının təmin edilməsi istiqamətində daim təkminləşir. Bu baxımdan xüsusilə Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında" (1 mart 2005-ci il), " Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinnin istifadəsi qaydaları haqqında" (28 dekabr 2006-cı il), " Azərbaycan Respublikası sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" (30 aprel 2007-ci il), "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "Bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" (25 oktayabr 2007-ci il) və s. fərman və sərəncamaları mühüm əhəmiyyətə malikdir. 2004-2008 və 2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramları isə ölkənin soaial-iqtisadi inkişaf strategiyasında sahibkarlığın bu formasına yüksək önəm verildiyini sübut edir.

## ƏDƏBİYYAT

1. https://www.taxes.gov.az/az/post/47
2. https://voen.az/faydali-melumatlar/32-sahibkarliq-fealiyyeti-nedir.html
3. http://edf.gov.az/az/content/172
4. https://azerbaijan.az/related-information/139
5. http://anl.az/down/meqale/ses/2011/fevral/155834.htm
6. https://www.taxes.gov.az/az/post/47
7. https://voen.az/faydali-melumatlar/32-sahibkarliq-fealiyyeti-nedir.html
8. http://edf.gov.az/az/content/172
9. https://azerbaijan.az/related-information/139

10. http://anl.az/down/meqale/ses/2011/fevral/155834.htm

## SAHİBKARLIQ FƏALİYYƏTİNƏ DÖVLƏT DƏSTƏYİ

***İbrahimzadə Zenfira***

## XÜLASƏ

Müasir dövrdə sahibkarlığın inkişafı aktual mövzudur. Sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi müxtəlif istiqamətlərdə həyata keçirilir. Məqalədə sahibkarlıq fəaliyyətinə dövlət dəstəyindən bəhs edilir. Həmçinin sahibkarlıq fəaliyyətindən də bəhs edilmişdir.

## РЕЗЮМЕ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ ПРЕДПРИНИМАТЕЛЬСТВА

***Ибрагимзаде Зенфира***

## АННОТАЦИЯ

Развитие предпринимательства является актуальной проблемой современности. Государственная поддержка предпринимательства осуществляется по различным направлениям. В статье речи идет о государственной поддержке предпринимательства. Также обсуждалась предпринимательская деятельность.

## STATE SUPPORT FOR ENTREPRENEURSHIP ACTIVITIES

***Ibrahimzade Zenfira***

## SUMMARY

Entrepreneurship development is a topical issue in modern times. State support for entrepreneurship is provided in various directions. The article discusses state support for entrepreneurship. Entrepreneurial activity was also discussed.

# FORDİZM PRİNSİPİ VƏ ONUN MÜASİR İQTİSADİYYAT ÜZƏRİNDƏKİ TƏSİRİ

***iqtisad elmləri doktoru Pəri Həsənova***
***BDU-nun iqtisadiyyat kafedrasının professoru,***
***Quliyev Əhəd Elşən oğlu***
***BDU-nun II klurs magistrantı***
***ahadgulusoy@gmail.com***

***Açar sözlər:*** fordizm, post-fordizm, azad bazar iqtisadiyyatı, kütləvi istehsal, makroiqtisadi nəzəriyyə
***Ключевые слова:*** фордизм, постфордизм, свободная рыночная экономика, массовое производство, макроэкономическая теория.
***Keywords:*** fordism, post-fordism, free market economy, mass production, macroeconomic theory.

Fordizm, amerikalı avtomobil istehsalçısı Henri Fordun şərəfinə adlandırılmış kütləvi istehsalın və sənayeləşmənin, habelə müasir iqtisadi və sosial sistemin təməlini qoymuş konseptlərdən biridir. Bu prinsip Amerika Birləşmiş Ştatlarının sosial-iqtisadi sistemində müharibə sonrası iqtisadi inkişafın nəticəsi olaraq yaranmış kapitalizmi təsvir edir.

Fordizm eyni zamanda "kütləvi istehsala əsaslanan iqtisadi genişlənmə və texnoloji inkişaf modeli" kimi də tərif edilir. Baxmayaraq ki, bu metod avtomobil sənayesində məhsuldarlığın təkmilləşdirilməsi üçün geniş bir şəkildə istifadə olunub, bu prinsip hər növ emalat prossesində istifadə oluna bilər. Fordizmin bu qədər məşhur və tətbiqə yararlı olmasının arxasında 3 böyük təməl dayanır:

1. Məhsulların standartlaşdırılması (hər bir detal xüsusi avadanlıqlar tərəfindən hazırlanır və işçilər tərəfindən qəliblənir)
2. İxtisaslaşmamış işçilərin son məhsula töhfəsini təmin edən konveyer xəttlərinin geniş istifadəsi
3. İstehsal olunmuş məhsulların işçilər tərəfindən istehlak olunmasını mümkün etmək üçün onlara yüksək maaşların verilməsi [1].

Fordizm prinsipinin və Henri Fordun müasir iqtisadi sistemə ən böyük töhfəsi xüsusi alətlərdən istifadə ilə mürəkkəb tapşırıqların sadələşdirilməsi olmuşdur: Öz tərkib komponentlərini rahat şəkildə dəyişdirə bilən konveyer xəttləri üçün hər zaman eyni şəkildə istifadə oluna bilən və eyni zamanda əvəzlənən hissələr yaradıldı. Konveyer xəttləri, onun yaradacağı effektivliyə malik olmasa belə, Forddan öncəki dövrdə də istifadə olunurdu. Belə ki, sənaye inqilabı əmtəə bazarında saysız-hesabsız ixtiralara və istehsalın genişlənməsinə səbəb olduğu üçün bir çox sənaye sahələrində, ələxsus dəmir yolu lokomotivlərində, tikiş maşınlarında, odlu silahların hazırlanmasında istehsalçılar daha sərfəli və keyfiyyətli vasitələrə yönəlmişdilər. Bunun nəticəsi olaraq kimi konveyer xəttlərindən 19-cu əsrin ikinci yarısından etibarən istifadəyə başlanıldı. Henrinin əsl naliyyəti isə konveyer xəttlərinin potensialını öncədən anlayaraq onları komponentlərə ayırıb daha məhsuldar və səmərəli kombinasiyada yenidən bərpa etmək idi. Bu dəyişikliyin ən böyük üstünlükləri ondan ibarət idi ki, o, fabrikin işləməsi üçün vacib olan işçi qüvvəsini azaldırdı və istehsal xərclərini minimuma endirirdi [2].

Henri Fordun bu dəyişiklər əsnasında ən çox fikirlərindən faydalandığı şəxs F.Taylor olmuşdur. Taylorun "elmi idarəçilik" yanaşmasına əsasən işçilərin etdikləri işi parçalara ayrılaraq detallı olaraq incələnməsi, qeydə alınması və bu işin görülməsi üçün ən sadə və uyğun yolun tapılması vasitəsi ilə nəzərəçarpan dərəcədə böyük faydalılıq təmin olunacaqdır. Lakin,

Fordu Taylordan fərqləndirən özəlliyi onun hədəfi idi. Taylor kütləvi istehsalın azad bazar iqtisadiyyatına yeni bir rasional və modernist baxışı gətirəcəyini öncədən bilmişdir.

İşçilərinə yüksək maaş vermək Ford üçün kifayət deyil idi. O, eyni zamanda işçilərin pullarını hansı şəkildə xərcləyəcəkləri ilə də maraqlanırdı: İşçilərin doğru həyat tərzinə sahib olmaları, münaqişədən uzaq bir ailə həyatlarının olmaları və doğru əxlaqi dəyərlərə malik olmaları Ford üçün çox önəmli idi.

Sistemin iqtisadiyyatı idarəetmə gücünə o qədər inanmışdır ki, 1929-cu ildəki iqtisadi böhran əsnasında işçi maaşlarını artırmışdı. Amma, ağır rəqabət şərtləri altında maaşları azaltmaq və ixtisarlar qaçınılmaz olduğu üçün Ford bu siyasətə uzun müddət davam edə bilmədi.

Hər nə qədər Fordizmin təməlində kütləvi istehsal dayansa da, bunu ilk tətbiq edən şəxs Ford olmayıb. Kütləvi istehsal ilk olaraq 1798-ci ildə ABŞ ordusundan təcili sürətdə 10.000 tüfəng istehsalı tələbi ilə qarşılaşan silah istehsalçısı Eli Uatney tərəfindən həyata keçirilmişdir. Ford sadəcə kütləvi istehsal prinsipini avtomobil sənayesində ilk dəfə tətbiq edən şəxs olmuşdur. Ümumi götürdükdə isə kütləvi istehsal istehsalın bir növü olub, böyük həcmdə hazırlanan məhsulun aşağı çeşidliyi ilə səciyyələnir. Kütləvi istehsal müəssisədə bir və ya bir neçə ölçüdə olan məhsulun və ya onun hissələrinin istehsalına yönəlmiş yüksək ixtisaslaşma dərəcəsinə malikdir. Bu istehsalın əsas xüsusiyyəti istehsal prosesinin özündə və onun aparılma üsulunda, işçi yerlərinin ixtisaslaşdırması və onların əməliyyatların ardıcıllığına uyğun yerinə yetirilməsindədir. Texnoloji proses çox hallarda proqresivdir. İşçilərin kiçik məşğuliyyət dairəsində ixtisalaşma dərəcəsi də yüksək olmalıdır. Kütləvi istehsalda əməliyyatlar sinxronlaşdırılır və əmək vasitələrinin işçi yerlərdə hərəkəti fasiləsiz olaraq mexanikləşdirilmiş və avtomatlaşdırlmış sistemlərin köməyi ilə aparılır (POLLERT, A., "Dismantling Flexibility" Capital and Class, Vol.34, 1988.).

Fordizmin tam dərin anlaşılması üzərində 3 fərqli yanaşma var:

1. Fransız tənzimləmə məktəbi (FRS) fordizmi incələyərkən 2 dinamikaya əsaslanar.

1) Toplama rejimi: Fordist toplama rejimi, dövlətin makroiqtisadi siyasət vasitəsilə bazar münasibətlərini tənzimləməsinə, sosial xidmətlərin dövlət tərəfindən səmərəli şəkildə təmin edilməsinə və bazardakı tələbə qarşılıq olaraq kütləvi istehsalın standart olaraq aparılmasına dayanır (2).

2) Tənzimləmə formatı: Bazarda ortaya çıxma potensialı olan dəyişikliklərə paralel olaraq hazırkı toplama rejiminin özünün dəyiştirə bilməsi və inkişaf etməsidir. Bu bütün normaların, siyasi addımların, mənəvi dəyərlərin toplama rejiminə bağlı olması və onunla birlikdə bütövlük göstərməsidir (Remaking the Connections: Marxism and the French Regulation School – David Neilson (2012)).

2. Piore və Sabel, Fordizmi bazardakı dəyişikliklərə əlaqəli olaraq ələ alır, Fordizmin kütləvi istehsalın və kütləvi istehlak arasındakı balansların qurulduğu sistem olduğu qələmə verilir. Bu yanaşmaya görə Fordizmin əsas hədəfi bazardakı böyük miqtarda tələbi az xərcli kütləvi istehsal ilə qarşılamaqdır. Piore və Sabel istehsalat müddətindəki dəyişiklikləri bazardakı inkişaf prosesləri ilə açıqlayarlar. Lakin, unutmaq olmaz ki, iqtisadi faktorlar qədər sosial və siyasi faktorların da rolu böyükdür (Piore, Michael J. & Charles F. Sabel 1984. The Second Industrial Divide).

3. Robin Murray isə Fordizmin əsas prinsiplərinin təkcə kapitalist deyil də , eyni zamanda sosialist ölkələri də əhatə etdiyini irəli sürür və Stalinin hakimiyyəti dövründə keçmiş SSR ölkələrinin özündə Fordist xüsusiyyətləri daşıyan kütləvi istehsalın tətbiq olunduğunu qeyd edir. Sosialist ölkələrdə belə kütləvi istehsala uyğun texnologiyadan istifadə edilmiş, sənaye modelində də Fordist anlayışa bənzər prinsiplərdən istifadə olunmuşdur [6].

1970-ci illərdə kapitalist ölkələrdə Fordizmin daxili və xarici bazardakı ani tələb-təklif dəyişikliklərinə adekvat cavab verə bilmədiyi fikri önə sürülməyə başlandı. Post-Fordizm, Fordizm kimi çox sayda oxşar məhsulun kütləvi istehsalının əksinə məhsulların az sayda, lakin müxtəli çeşidlərdə istehsal olunması şəklində yeni bir sənaye quruluşuna istinad edər. Post-Fordizmin özəlliklərindən biri olan çevik istehsal dəyişikliklər halında sistemin reaksiya verməsinə imkan verən elastikliyin olduğu bir istehsal sistemini özündə cəmləşdirir. Post-Fordizmdə Fordizmdən fərqli olaraq yüksək texnologiyalı cihazlarda daha az sayda, lakin daha bacarıqlı işçi qüvvəsi iştirak edər. Çox bacarıqlı olan işçilər texnoloji cihazları istifadə edə biləcək olanlardır və fərqli sahələrdə işləyə bildikləri üçün şirkətə funksional çeviklik qazandırarlar. Bacarıqsız adlandırılan işçilər, adətən müqavilə ilə işləyən və onlar şirkətə tələb dəyişikliklərində rəqəmsal çevikliyi təmin etmək üçün istifadə olunan işçi qüvvəsini təşkil edirlər. Yarı bacarıqlılar isə bu iki qrupun arasında yer alarlar. (fordizm, post-fordizm ve ötesi, anadolu üniversitesi edebiyat fakültesi dergisi, nisan, cilt: 1, sayı: 1, sayfa 134-152.) [8]:

Post-Fordizmin əsas xüsusiyyətləri isə aşağıdakılardır:

- Az dəstəli istehsal
- İmkan iqtiadiyyatları
- İxtisaslaşdırılmış məhsullar və işlər
- Yeni texnoloji avadanlıqlar
- Sosial təbəqədən daha çox istehlakçı təbəqəsinə diqqət
- Xidmət və professional işçi anlayışlarının yüksəlişi
- İşçi qüvvəsində qadınların nisbətən yüksək iştirakı

*Neo-Şumpeterian* düşüncələrinə əsasən Post-Fordizm Kondratiev dalğalarının göstərdiyini yeni bir yaradıcı yıxımdır, yəni yeni istehlak məhsullarının istehsal olunduğu, yeni istehsal və paylanma metodlarının yarandığı bir dönəmdir və bu nöqteyi nəzərdən Post-Fordizm bir texnoloji inqilabdır: daha məhsuldar istehsalın təmin olunduğu, nisbi xərclərin azaldığı, limitsiz tələbə imkan tanıyan və işçi qüvvəsini çevik edən texnologiyaya verilən addır. biliyin axıcılığı və bu axıcılığın texnologiyaya əlavə etdiyi izafi dəyər Neo-Şumpeterian Post-Fordizm perspektivini ümumiləşdirir. Toyota paradiqması bu texnoloji inqilabın ən gözəçarpan nümunəsidir. (H, Hanusch & Andreas Pyka The Principles of Neo-Schumpeterian Economics (2007) )

Toyota paradiqması, Toyota şirkətinin sənaye lideri olmasını və mühəndislərin 80% səmərəliyinə çatmasını təmin edən metoddur. Belə ki, bu metodda baş mühəndislərə öz məsuliyyətləri altında layihənin sahibi və rəhbəri kimi çıxış etmək səlahiyyəti verilir, strateji planlaması və tətbiqi eyni şəxs, ya da qrup tərəfindən həyata keçirilər. Bu sistem də "Lean Startup" adlı yeni bir iqtisadi yanaşmaya yol açar.

Bu iqtisadi yanaşmaya əsasən, şirkətlər və yaxud sahibkarlar geniş bazar analizi edib, kütləvi istehsal etmək əvəzinə, ilk öncə istehsal edəcək olduqları məhsulları sınaq kimi potensial müştərilərinə tətbiq etməli, həmin potensial müştərilərdən gələcək olan rəylərə əsasən məhsulun bazardakı cari dəyərini və yaxud həmin məhsula tələbin elastikliyinin nə dərəcədə olduğunu qabaqcadan görüb, bu prinsipə uyğun şəkildə davranmalı və strateqiya qurmalıdırlar.

Bu elmi məqalənin hazırlanması zamanı aparılan təhlillər mövzu ilə bağlı bəzi nəticələri ortaya çıxarmışdır. Beləki, üzərindən 100 ilə yaxın vaxt keçməsinə baxmayaraq Henri Fordun təməlini qoyduğu "Fordizm" prinsipinin tətbiqi, günümüzün şərtlərini və azad bazar iqtisadiyyatının tələblərini nəzərə alarsaq real görünməsə belə, onun qarşılığında yaranmış olan Post-Fordizm fəlsəfəsinin günümüz dünya iqtisadiyyatına geniş təsiri danılmazdır. Təkcə avtomobil sənayesində deyil, həmçinin texnologiya, tekstil, turizm və bu kimi digər sektorlarda Post-Fordizm yanaşmasının özünü əks etdirməsi bu ideyaya sübutdur.

Digər tərəfədən baxıldıqda, Fordizm prinsipinin xüsusiyyətlərini sırf kapitalist ölkələrdə, azad rəqabət şəraitinin hökm sürdüyü yerlərdə deyil, eyni zamanda keçmiş SSR timsalında sosialist ölkələrdə özünü büruzə verməsi, bu yanaşmanın Makroiqtisadiyyata olan geniş təsirinin ən böyük dəlillərindən biridir.

## ƏDƏBİYYAT


1. http://www.willamette.edu/~fthompso/MgmtCon/Fordism_&_Postfordism.html
2. https://www.sciencedirect.com/science/article/pii/B9780080449104002133
3. Remaking the Connections: Marxism and the French Regulation School – David Neilson (2012)
4. POLLERT, A., "Dismantling Flexibility" Capital and Class, Vol.34, 1988.
5. Piore, Michael J. & Charles F. Sabel 1984. The Second Industrial Divide
6. Robin Murray, "Fordism and Post-Fordism" in Stuart Hall and M Jacques (eds.) *New Times: The Changing Face of Politics in the 1990s*, Verso 1989.
7. fordizm, post-fordizm ve ötesi, anadolu üniversitesi edebiyat fakültesi dergisi, nisan, cilt: 1, sayı: 1, sayfa: 134-152.
8. Hall, S. (October 1988) "Brave new world." Marxism Today, p. 24.
9. H, Hanusch & Andreas Pyka The Principles of Neo-Schumpeterian Economics (2007)


## FORDİZM PRİNSİPİ VƏ ONUN MÜASİR İQTİSADİYYAT ÜZƏRİNDƏKİ TƏSİRİ

*Həsənova Pəri, Quliyev Əhəd*

## XÜLASƏ

Elmi məqalənin məqsədi müasir kapitalizmin təməlini qoyan istehsalçılardan biri olan Henri Fordun düşüncələri əsasında yaranmış Fordizm prinsipini geniş analiz edilməsi və onun təhlilinin aparılmasıdır. Daima dəyişən iqtisadi mühitdə bu prinsipin sırf nəzəri tərəflərinə deyil, eyni zamanda praktiki yönlərinə, müxtəlif alimlərin bu iqtisadi nəzəriyyəyə yönəlmiş şərhlərinə, uğurlu və uğursuz tərəflərinə baxılmışdır.

## ПРИНЦИП ФОРДИЗМА И ЕГО ВЛИЯНИЕ НА СОВРЕМЕННУЮ ЭКОНОМИКУ

*Пари Гасанова, Гулиев Ахад*

## АННОТАЦИЯ

Цель научной статьи - проанализировать принцип фордизма, в основе которого лежат идеи Генри Форда, одного из основоположников современного капитализма. В постоянно меняющихся экономических условиях рассмотрены не только теоретические аспекты этого принципа, но и его практические аспекты, интерпретации различных ученых этой экономической теории, ее успехи и неудачи.

## THE PRINCIPLE OF FORDISM AND ITS IMPACT ON THE MODERN ECONOMY

*Pari Hasanova, Guliyev Ahad*

## SUMMARY

The purpose of the scientific article is to analyze the principle of Fordism, which is based on the ideas of Henry Ford, one of the founders of modern capitalism. In a constantly changing economic environment, not only the theoretical aspects of this principle, but also its practical aspects, the interpretations of various scholars on this economic theory, its successes and failures have been considered.

# XARİCİ TİCARƏTİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

***dos. Yadulla Mehriban***
***İsayev Əmrah***
***BDU-nun II kurs magistrantı***

***Açar sözlər:*** xarici ticarət, dövlət tənzimlənməsi, iqtisadi sistem
***Ключевые слова:*** внешняя торговля, государственное регулирование, зкономическая система
***Keywords:*** foreign trade, government regulation, economic system

Milli təhlükəsizliyin tərkib hissəsi kimi iqtisadi təhlükəsizliyin təmin edilməsi zərurəti böhranlı inkişaf fazasında xeyli artır. Müstəqil dövlətin iqtisadi mənafelərinin qorunması onun qarşısında duran ən vacib məsələlərdəndir. İqtisadi mənafelər məhz iqtisadi təhlükəsizlik amilləri vasitəsilə qorunur.

İqtisadi təhlükəsizlik ölkənin etibarlı müdafiə qabiliyyətinin təmin edilməsi, cəmiyyətdə sosial sabitliyin saxlanılması, onun ekoloji bəlalardan qorunması kimi tərkib hissələri ilə birgə surətdə mövcuddur. Burada hər şey qarşılıqlı əlaqədardır və bir istiqamət digərini tamamlayır: zəif və qeyri-effektiv iqtisadiyyatda hərbi təhlükəsizlik ola bilməz, necə ki, sosial münaqişələrlə didilən cəmiyyətdə nə hərbi təhlükəsizlik, nə də effektiv iqtisadiyyat mümkün deyil. Belə qarşılıqlı əlaqəni vurğulayanda nəzərə almaq lazimdır ki, onda həlledici, bazis rolu iqtisadi təhlükəsizliyə aiddir.

İqtisadi təhlükəsizliyin mahiyyətini daha yaxşı başa düşmək üçün onun "inkişaf" və "dayanıqlıq" anlayışları ilə əlaqəsini aydın etmək lazımdır. İnkişaf iqtisadi təhlükəsizliyin komponentlərindən biridir. İqtisadiyyat inkişaf etmirsə, onun daxili və xarici təhlükələrə qarşı müqaviməti kəskin aşağı düşür. Dayanıqlıq və təhlükəsizlik iqtisadiyyatın bir vahid sistem kimi vacib xüsusiyyətlərindəndir. Onları qarşı-qarşıya qoymaq olmaz, onların hər biri özlüyündə iqtisadiyyatın vəziyyətini xarakterizə edir. İqtisadiyyatın dayanıqlığı onun elementlərinin sistem daxilində şaquli, üfiqi və digər əlaqələrin möhkəmliyini və etibarlığını, daxili və xarici "yüklərə" dözmək qabiliyyətini göstərir [62].

İqtisadi təhlükəsizliyin özü xeyli mürəkkəb daxili quruluşa malikdir. Real proseslərin təhlili və zəngin ölkə və xarici təcrübənin nəzərdən keçirilməsi onun 3 mühüm tərkib hissəsini fərqləndirməyə imkan verir:

- iqtisadi müstəqillik – müasir dünya təsərrüfatı şəraitində heç də mütləq səciyyə daşımır. Beynəlxalq əmək bölgüsü milli iqtisadiyyatları qarşılıqlı asılı edir. Bu şəraitdə iqtisadi müstəqillik dövlətin öz milli resurslarına nəzarət edə bilməsi imkanını, iqtisadiyyatın rəqabət qabiliyyətliliyini təmin edən və ona dünya ticarətində, kooperasiya əlaqələrində və elmi-texniki nailiyyətlərin mübadiləsində eyni səviyyəli tərəf kimi iştirak təmin edən səmərəliliyi və məhsul keyfiyyətini bildirir;
- milli iqtisadiyyatın sabitliyi və dayanıqlılığı – bütün formalarında mülkiyyətin mühafizəsini, sahibkarlıq fəallığı üçün etibarlı şərait və təminatların yaradılmasını, sabitliyi pozmağa qabil olan amillərin qarşısının alınmasını (kriminal strukturlarla mübarizə, gəlir bölgüsündə sosial təlatümlərə səbəb ola biləcək ciddi fərqlərə imkan verilməməsi və s.) nəzərdə tutur;
- özünüinkişafa və tərəqqi bacarığı – bu, müasir dinamik inkişaf edən ölkədə xüsusilə vacibdir. İnvestisiyalarnvə innovasiyalar üçün əlverişli mühitin yaradılması, istehsalın daim

yeniləşdirilməsi, işçilərin peşə təhsili və ümumi mədəni səviyyəsinin yüksəldilməsi milli iqtisadiyyatın sabitliyinin və özünü qoruyub saxlamasının zəruri və mütləq şərtlərinə çevrilirlər.

Beləliklə, iqtisadi təhlükəsizlik milli iqtisadiyyatın müstəqilliyini, onun sabitliyini və dayanıqlılığını, daim yeniləşmə və özünütəkmilləşmə qabiliyyətini təmin edən şərtlərin və amillərin məcmusudur.

Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli "Milli təhlükəsizlik haqqında" Qanunun 17-ci maddəsində deyilir ki, Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının milli iqtisadiyyatının və iqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunmasıdır.

Qanunda Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas istiqamətləri kimi aşağıdakılar qeyd edilir:

1) Dövlətin iqtisadi potensialının artırılması;
2) Təbii ehtiyyatların energetika əsaslarının, tranzit imkanlarının qorunması;
3) Daxili və xarici maliyyə ehtiyyatlarının ölkə iqtisadiyyatına yönəldilməsi;
4) Büdcə vəsaitlərinin və dövlət ehtiyyatlarının səmərəsiz istifadəsinə yol verilməməsi;
5) Bank sisteminin təkmilləşdirilməsi;
6) İqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi.

Dövlətin iqtisadi təhlükəsizliyi onun milli təhlükəsizliyin çox vacib tərkib hissəsidir. Dünya təcrübəsi göstərir ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkənin müstəqilliyinin zəmanətçisi, sabitliyin və cəmiyyətin səmərəli fəaliyyətinin mühüm şərtidir. Buna görə də iqtisadi təhlükəsizliyin təmin edilməsi və formalaşdırılması mühüm milli prioritetlərin sırasına aiddir. Qərb iqtisadi ədəbiyyatında iqtisadi təhlükəsizlik adətən milli iqtisadiyyatın dünya iqtisadi böhranları şəraitinə dözümlülüyünün təmin edilməsi kimi izah edilir. Son onilliklərdə, inkişaf etmiş ölkələrin iqtisadiyyatlarında qloballaşma prosesi ilə əlaqədar baş verən dərin struktur dəyişiklikləri nəticsəində iqtisadi təhlükəsizlik anlayışına milli iqtisadiyyatın və ya onun aparıcı sahələrinin dünya bazarlarında rəqabət qabiliyyətliliyinin təmin edilməsi kimi vacib əlamət də əlavə edilmişdir.

İqtisadi təhlükəsizliyin təmin olunmasının strateji məqsədi - şəxsiyyətin həyatı və inkişafı, cəmiyyətin sosial-iqtisadi və hərbi-siyasi sabitliyi, daxili və xarici təhlükələrin təsirinə uğurla müqavimət göstərmək, dövlət bütövlüyünün qorunması üçün əlverişli şərait yaradılmasıdır.

İqtisadi təhlükəsizliyin təmin olunması dedikdə, iqtisadiyyatın elə inkişaf səviyyəsi başa düşülür ki, şəxsiyyətin və ümumilikdə yaşayış şəraitinin yaxşılaşmasına, sosial-iqtisadi və hərbi-siyasi sabitliyin təmin olunmasına, dövlətin ərazi bütövlüyünün qorunmasına imkan verən iqtisadi inkişaf səviyyəsi başa düşülür. Ümumilikdə, iqtisadi təhlükəsizlik strategiyasının mahiyyəti gözlənilən və ya qəfildən baş verə biləcək daxili və xarici iqtisadi təhlükənin aradan qaldırılmasına imkan verən iqtisadi inkişaf səviyyəsinə nail olunmasından ibarətdir.

Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas məqsədi kimi milli maraqların qorunmasına yönəlik kompleks müdafiə sisteminin və yaxud adekvat fəaliyyət strategiyasının əsas elementlərinin formalaşdırılması çıxış edir. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi iqtisadiyyatın inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunması, cəmiyyətin ayrı-ayrı subyektlərinin hərtərəfli inkişafı üçün əlverişli şəraitin yaradılması və ümumilikdə əhalinin yaşayış səviyyəsinin yüksəlməsi, cəmiyyətin sosial-iqtisadi sabitliyinə, iqtisadi hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş vahid dövlət siyasətinin həyata keçirilməsini nəzərdə tutur.

Ölkənin iqtisadi təhlükəsizliyinə təhdidləri: sosial-iqtisadi təhdidlər, xarici iqtisadi təhdidlər, struktur-texnoloji təhdidlər, institutsional təhdidlər və s. kimi qruplaşdırmaq olar. Bu təhdidlərin qarşısının alınması, aradan qaldırılması birbaşa dövlətin vəzifəsidir. Dövlət iqtisadi

təhlükəsizliyin təmini üçün müvafiq iqtisadi siyasəti həyata keçirir. Ölkənin iqtisadi təhlükəsizliyinə ən böyük təhdidlərdən ən başlıcası xarici iqtisadi təhdidlərdir. Bu baxımdan dövlətin xarici iqtisadi siyasəti xüsusi önəm daşıyır.

Müasir dövrdə ölkələr arasında iqtisadi münasibətlər beynəlxalq aləmdə özünün ən yüksək səviyyəsinə çatmışdır. Dünya bazarında qiymətlərin dinamikası, ayrı-ayrı ölkələrin ixrac potensialında və idxal tələbatında baş verən dəyişikliklər, dünya iqtisadiyyatında struktur irəliləyişlər və beynəlxalq inhisarların fəaliyyəti hər bir ölkənin mənafeyinə toxunur, onun sosial-iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Beynəlxalq aləmdə xarici iqtisadi əlaqələrin hər bir iştirakçısı öz maraqlarını müdafiə etmək və xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsini həyata keçirmək məqsədilə xarici iqtisadi siyasəti həyata keçirir. Xarici iqtisadi siyasətin həyata keçirilməsi beynəlxalq iqtisadi münasibətlərdə dövlətin strateji məqsədlərinin müəyyənləş-dirilməsini, qarşıya qoyulmuş məqsədlərə çatmağı təmin edəcək üsul və vasitələrin işlənib hazırlanmasını və sonda əldə olunmuş nəticələrin qorunub saxlanmasını nəzərdə tutur.

İqtisadi təhlükəsizliyin təmin olunması sahəsində dövlət strategiyası aparılan iqtisadi siyasət çərçivəsində işlənib hazırlanır və reallaşır. Xarici iqtisadi əlaqələrin hər bir iştirakçısı öz maraqlarını müdafiə etmək və xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsini həyata keçirmək məqsədilə müəyyən siyasət həyata keçirir. Xarici iqtisadi siyasətin həyata keçirilməsi bütövlükdə beynəlxalq münasibətlərdə və ayrı-ayrı ölkələr və ölkə qrupları ilə xarici iqtisadi əlaqələrdə dövlətin strateji məqsədlərinin müəyyənləşdirilməsini, həmçinin, qarşıya qoyulmuş məqsədlərə çatmağı təmin edəcək üsul və vasitələrin işlənib hazırlanmasını və sonda əldə olunmuş nəticələrin qorunub saxlanmasını nəzərdə tutur.

Xarici iqtisadi siyasət bütövlükdə xarici fəaliyyətin məcmusunu tənzimləyir. Hazırkı dövrdə bəzi dövlətlərin mövcud xarici iqtisadi siyasət vasitələrinin məcmusu onlara həm öz xarici iqtisadi əlaqələrinin strukturunun formalaşmasına və inkişaf istiqamətlərinə, həm də digər dövlətlərin xarici iqtisadi əlaqələrinə və xarici iqtisadi siyasətlərinə fəal təsir göstərmək imkanı verir.

Dövlətin xarici iqtisadi siyasəti onun daxili iqtisadi siyasəti ilə ayrılmaz surətdə bağlıdır və real bazar münasibətlərinin təşəkkül tapdığı bir ölkədə daxili və xarici iqtisadi siyasət dialektik vəhdətdə formalaşdırılmalıdır. Ən ümumi formada demək olar ki, xarici iqtisadi siyasətin başlıca vəzifəsi ölkə daxilində geniş təkrar istehsal üçün əlverişli xarici iqtisadi şəraitin yaradılmasıdır.

Xarici iqtisadi əlaqələr beynəlxalq hüquqi normalar əsasında fəaliyyət göstərir. Xarici iqtisadi əlaqələrin tənzim olunmasına digər amillər də təsir göstərir. Yəni, ölkənin beynəlxalq arenada iştirakı, onun dövlət quruluşu, material, əmək resursu və maliyyə resursları, təbii resursları, beynəlxalq iqtisadi münasibətlərdə iştirakına zəmin yaradır. Xarici iqtisadi əlaqələrin tənzimlənməsinin aşağıdakı vəzifələrini qeyd etmək olar:

1. Xarici iqtisadi fəaliyyətin hüquqi prinsiplərini müəyyən edən normaların işlənib hazırlanması və onların tənzim edilməsi;
2. Xarici iqtisadi əlaqələri tənzim edən orqanların statusunun müəyyən edilməsi;
3. Xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsini müəyyən etmək, ölkədə müştərək müəssisələrin tikilməsinin normativ aktlarını tərtib etmək;
4. İxrac rejmini müəyyən etmək, ixracı lisenziyalaşdırmaq, məhsulun göndərilməsi və gətirilməsinin qaydasını müəyyən etmək;
5. Valyuta, gömrük tənzimlənməsini həyata keçirmək;
6. Xarici iqtisadi əlaqələqrdə iştirak edən dövlətlərin marağının qorunması tədbirlərini həyata keçirmək.

Xarici iqtisadi fəaliyyət milli istehsal prosesinin tərkib hissəsidir. Azərbaycan Respublikasının həyata keçirməkdə olduğu, iqtisadi islahatlar göstərir ki, bu iqtisadi islahatlar dövlətin xarici iqtisadi əlaqələrinin fəaliyyəti siyasətində tərkib hissəsidir. Dövlət, xarici iqtisadi münasibətlərin formalaşmasına makrosəviyyədə baxır və qlobal iqtisadi münasibətləri həll edir. Xarici iqtisadi münasibətlərin yenidən qurulması o vaxt səmərə verir ki, onun fəaliyyət mexanizmi, metod və prinsipləri respublikada aparılan iqtisadi islahatların prinsiplərinə uyğun olsun. Bundan əlavə, xarici iqtisadi münasibətlər sahəsində aparılan islahatlar mövcud təsərrüfat mexanizminin dünya iqtisadiyyatına inteqrallaşmasına uyğin olmalıdır. Bu, respublikanın beynəlxalq bazara çıxmaq imkanlarını genişləndirir.

Xarici iqtisadi münasibətlərin fəaliyyətinin formalaşması zamanı respublika suverenlik mövqeyindən çıxış etməlidir. O, hər şeydən əvvəl, ölkənin vahidliyi baxımından araşdırılmalıdır. Ölkənin suverenliyi və xarici iqtisadi münasibətlər sahəsindəki siyasəti aşağıdakı halların üstünlüyü baxımından nəzərə alınır:

1. Ölkənin iqtisadiyyatı açıq olmalıdır;
2. Xarici iqtisadi münasibətlərdə ilk başlanğıc iqtisadi münasibətlərin məqsədyönlü olmasıdır;
3. Xarici iqtisadi əlaqələr resursa qənaət əsasında qurlmalıdır, yəni məhsul ixracatında son məhsul daha çox xüsusi çəkiyə malik olmalıdır;
4. Xarici iqtisadi əlaqələrdə içərisində elmi-texniki və maliyyə istiqamətləri üstünlüyə malik olmalıdır .

Xarici iqtisadi münasibətlərin dövlət tənzimlənməsində aşağıdakı məsələlər daha da təkmilləşdirilməlidir.

1. Ticarət siyasətinin inzibati qanunauyğunluğunun hüquqi normativ bazası. Məhdudlaşdırıcı məqsəd səviyyələri reqlamentləşdirilir (lisenziyaların verilməsi, yeni texnologiyanın alınması);
2. Xarici iqtisadi münasibətlərdə iştirak edən dövlətlərlə hesablaşma qaydası, maliyyə məsələləri, gömrük tarifi və vergi sisteminin getdikcə təkmilləşdirilməsi;
3. İdxal və ixrac və həmin münasibətlərdə iştirak edən şəxslər, subyektlər üzrə vətəndaşlıq qanunçuluğunun təkmilləşdirilməsi;
4. Xarici ölkələrlə beynəlxalq arbitraj və digər qanunvericiliklərin təkmilləşdirilməsi.

Xarici ticarət xarici iqtisadi əlaqələrin realizasiyasının əsas mexanizmi kimi çıxış edir. Beynəlxalq iqtisadi münasibətlərin böyük hissəsini, daha dəqiq desək, 85%-dən çoxunu xarici ticarət münasibətləri təşkil edir. Buna görə də, beynəlxalq iqtisadi münasibətlərin tarixən ən qədim, mühüm və ən çox inkişaf etmiş forması kimi xarici ticarətə xüsusi diqqət yetirilməli, onun inkişaf istiqamətləri və problemləri araşdırılmalı, dinamika və meylləri, tənzimlənməsi istiqamətləri təhlil olunub, öyrənilməlidir.

Ölkənin xarici ticarət konsepsiyası bütövlükdə iqtisadi təhlükəsizlik konsepsiyasının tərkib elementi kimi nəzərdən keçirilməli və formalaşdırılmalıdır. Belə ki, dövlətin iqtisadi təhlükəsizlik sisteminin yaradılması və möhkəmləndirilməsi başlıca olaraq ticarətin təşkili və inkişafından birbaşa asılıdır. İqtisadi münasibətlərin getdikcə dərinləşməsi ölkənin həm iqtisadi təhlükəsizlik konsepsiyasında, həm də xarici ticarətdə əsaslı dəyişikliklər tələb edir.

Xarici ticarət müxtəlif ölklərin əmtəə istehsalçıları arasında beynəlxalq əmək bölgüsü əsasında yaranan əlaqə formasıdır və onların iqtisadi asılılığını əks etdirir. XX əsrin ikinci yarısından etibarən xarici ticarətin inkişafında nisbətən yüksək templər müşahidə olunmağa başlanmışdır. Bu da bir sıra amillərin təsiri ilə əlaqədardır. Bu artım ilk növbədə dünya iqtisadiyyatının ümumi vəziyyətinə və biləvasitə beynəlxalq ticarətin artımına təsir edən amillərin fəaliyyəti nəticəsində baş vermişdir. Bu amillərin təsiri qərb ölkələrində iqtisadi artımın ümumi templərinin əsrin əvvəllərinə nəzərən əhəmiyyətli dərəcədə yüksəlməsinə, tsiklik böhranların isə o qədər də dərin və uzunmüddətli olmamasına gətirib çıxarmışdır. Bu baxımdan

xarici ticarətin nisbətən yüksək templərlə inkişafına təsir edən amillərin nəzərdən keçirilməsi məqsədəuyğundur.

Xarici ticarətin nisbətən yüksək və sabit templərlə artımına təsir göstərən başlıca amillər, əsasən, aşağıdakılardır:

- beynəlxalq əmək bölgüsünün inkişafı, istehsalın və kapitalın beynəlmiləlləşməsinin dərinləşməsi və beynəlxalq ixtisaslaşma və koorperasiyalaşmanın güclənməsi;
- müasir elmi-texniki tərəqqi. Məhz bu amil əsas kapitalın təzələnməsinə, iqtisadiyyatın yeni sahələrinin yaradılmasına rəvac verir, köhnə sahələrin rekonstruksiya edilməsini sürətləndirir;
- beynəlxalq korporasiyaların, transmilli və çoxmilli şirkətlərin müasir dünya bazarında aktiv fəaliyyəti;
- QATT/ÜTT çərçivəsində qəbul olunmuş qərarlar və beynəlxalq ticarət sazişləri vasitəsilə xarici ticarətin tənzimlənməsi;
- kapital yığımı proseslərinin intensivləşdirilməsinə və böhranların qarşısının alınmasına yönəldilmiş iqtisadiyyatın dövlət tənzimlənməsinin inkişafı;
- beynəlxalq maliyyə-iqtisadi qurumlarının, ayrı-ayrı maliyyə təşkilatlarının, məsələn, Beynəlxalq Valyuta Fondunun və ya Dünya Bankının sabitləşdirici və tənzimləyici fəaliyyəti;
- xarici ticarətin liberallaşdırılması, dünyanın bir çox ölkələrinin idaxlın kəmiyyət məhdudiyyətlərinin ləğv edilməsini və gömrük rüsumlarının əhəmiyyətli dərəcədə aşağı salınmasını nəzərdə tutan ticarət rejminə keçməsi, azad iqtisadi zonaların yaradılması;
- ticarət-iqtisadi inteqrasiya proseslərinin inkişafı: regional maneələrin dəf edilərək aradan qaldırılması və regional səviyyədə birlik və blokların, azad ticarət zonalarının, "ümumi bazar"ların yaradılması;
- keçmiş müstəmləkə ölkələrinin siyasi msütəqillik qazanması və onların sırasından ixrac yönümlü, xarici bazarlara istiqamətlənmiş iqtisadiyyat modelinə malik olan yeni sənaye ölkələrinin meydana gəlməsi. Bu isə nəticə etibarilə onların ticarət dövriyyəsinin artmasına gətirib çıxarmışdır.

Göründüyü kimi xarici iqtisadi əlaqələrin mərkəzində xarici ticarət əlaqələri dayanır. Buna görə də, xarici ticarət siyasəti dövlətin xarici iqtisadi siyasətinin əsasını təşkil edir.

Ölkənin xarici ticarət konsepsiyası bütövlükdə ölkənin iqtisadi təhlükəsizlik sisteminə, ilk növbədə milli rəqabət üstünlüklərinin formalaşdırılması və inkişafına əsaslanmalıdır. Göstərilən tərzdə xarici ticarət konsepsiyasının istinad nöqtəsi müəyyənləşdirilərək, onun istiqamətlərini aşağıdakı kimi formalaşdırmaq olar:

I. Strateji istiqamətlər:

- ixracın dövlət həvəsləndirilməsi sisteminin təşkili;
- bazar subyektlərinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi məqsədi ilə dövlət proqramlarının hazırlanması;
- daxili bazarın milli mənafelərə uyğun qorunması.

II. İxrac fəaliyyəti:

- ölkənin ixrac potensialının formalaşdırılması və inkişaf etdirilməsi;
- ixrac strukturunun təkmilləşdirilməsi, əsas ağırlıq mərkəzinin hazır məhsul və xidmətlər üzərinə keçirilməsi;
- ölkənin ixrac potensialının müqayisəli üstünlük prinsipi əsasında qiymətləndirilməsi;
- texnologiya tutumlu məhsulların ixracının artırılması;
- ixrac yönümlü istehsalın inkişafı və modernləşdirilməsində xarici investisiyaların aktiv surətdə cəlb edilməsi.

III. İdxal sferası üzrə:

- mühüm məhsul növlərinin daxili tələbatı ödəmək səviyyəsində istehsalının təşkili;

- ölkənin iqtisadi asılılığının azaldılması;
- idxalın strukturuna nəzarət.

Aydındır ki, Azərbaycanın xarici ticarət konsepsiyası göstərilən istiqamətlərin üzvi vəhdətinə əsaslanmaqla formalaşdırılmalı və ölkənin xarici ticarəti bu prinsiplər bazasında həyata keçirilməlidir.

Xarici ticarət və ümumiyyətlə, xarici iqtisadi əlaqələrin təşkilati quruluşu üzrə dünya ölkələrinin təcrübəsinin təhlili göstərir ki, xarici ticarət siyasətinin, eləcə də xarici iqtisadi fəaliyyətin səmərəli həyata keçirilməsi üçün bu istiqamətdə zəruri olan təşkilat strukturları - nazirliklərarası xarici iqtisadi əlaqələr komitəsi, beynəlxalq təsərrüfat kooperasiyası və s. yaradılmalıdır. Lakin bu heç də o demək deyildir ki, xarici ticarət əlaqələri bütünlüklə dövlət inhisarına alınmalıdır. Qeyd etdiyimiz kimi, xarici iqtisadi fəaliyyətin inhisarlaşdırılması və eyni zamanda daxili bazarda əlaqələrin sərbəstləşdirilməsi real bazar münasibətlərinin təşəkkülü istiqamətində bir sıra problemlərin yaranmasına səbəb ola bilər.

Dünya ölkələrinin iqtisadi inkişaf təcrübəsi göstərir ki, xarici iqtisadi əlaqələr bəşər tarixində, ölkələrin iqtisadi və sosial rifaha qovuşmasında mühüm rola malikdir. Beynəlxalq ticarətdə, o cümlədən də, xarici iqtisadi əlaqələrin qurulmasında uzun illərdən bəri bir-biri ilə qarşılıqlı əlaqədə olan iki istiqamət müşahidə edilir.

Birinci istiqamət, beynəlxalq ticarətin liberallaşmasına doğru atılan addımlar, o cümlədən, beynəlxalq əmək bölgüsünün (BƏB) dərinləşməsinin qarşısını alan ticarət maneələrinin aradan qaldırılması, istehsal qüvvələrinin beynəlmiləlləşməsi, istehsal amillərinin sərbəst hərəkətini təmin edən transmillil əşmə, dünya xalqları tərəfindən qarşılıqlı əməkdaşlıq və qarşılıqlı mədəni mübadilə sivilizasiyaların bir-birini dərk etməsinə yönələn sosial-iqtisadi tərkiblərin çulğalaşması, qloballaşmanın təsiri nəticəsində ümumi rifahın artırılması, bu proses və şəraitlərin ağuşunda «çırpınan» bir sıra digər qlobal, regional və lokal proseslərdir.

İkinci istiqamət yuxarıdakı istiqamət və proseslərlə paralel proteksionizmin güclənməsi və dərinləşməsi, «yad» kapitalın və əmtəələrin öz ölkələrinə daxil olmasını məhdudlaşdırma cəhdləri, yəni milli maraqların və mənafelərin çərçivəsində xalqların mövcudluğunun və sosial-iqtisadi «arenada» həyat uğrunda mübarizəsi fonunda təbii xüsusiyyətləri ilə əlahiddələşən obyektiv, eyni zamanda subyektiv zərurətlərdən ibarətdir.

Xarici iqtisadi münasibətərin liberallaşdırılması ilk əvvəl proteksionizm nəzəriyyəsi ilə əlaqədardır. Proteksionizm – müxtəlif tədbirlərlə milli iqtisadiyyatın rəqabətdən qorunması və xarici ölkələrin müdaxiləsinin məhdudlaşdırılması üzrə dövlət siyasətidir. Bunun üçün müxtəlif tədbirlərdən istifadə olunur:

1. Xarici məhsullara yüksək vergi tarifi qoyulması;
2. Müxtəlif maneələrin, lisenziyaların məhdudlaşmasının qarşısının alınması üçün qeyri-standart tədbirlərin tətbiq edilməsi;
3. Xarici məhsullara ölkənin milli xüsusiyyətinin uyğun olması tələbinin qoyulması.

Lakin, qeyd etmək lazımdır ki, ifrat proteksionizm ölkə iqtisadiyyatının inkişafını məhdudlaşdıra və beynəlxalq rəqabət qabiliyyətini aşağı sala bilər. Bu halın aradan qaldırılması və beynəlxalq ticarətin liberallaşdırılmasında vahid maliyyə sistemini tənzimləmək üçün 1944-cü ildə beynəlxalq valyuta fondu yaradılmışdır. Həmin fond ifrat proteksionizmə qarşı ticarət üzrə müqavilə işləyib hazırlamışdır. Həmin müqaviləyə əsasən, xarici ticarətdə müxtəlif tariflər işlənib hazırlanmış, lakin onların yersiz tətbiqi məhdudlaşdırılmışdır. Digər tərəfdən, həmin müqaviləyə əsasən, beynəlxalq ticarətdə iştirak edən ölkələr eyni səviyyədə tarif, qeyri-tarif vasitələrdən və digər vergi sistemindən istifadə edilməlidir.

Real gerçəkliklər fonunda inkişaf edən beynəlmiləl ticarət-iqtisadi və maliyyə əlaqələri proteksionizmin məhdudlaşdırılmasını tələb etsə də, böhran meylləri və dünya təsərrüfat

əlaqələri sisteminin hər bir iştırakçısının mövqelərinin zəifləməsi zamanı ticarətin liberallaşdırılması istiqamətində müəyyən «sapmaların» ortaya çıxmasına imkan yaradır. İqisadi qloballaşmanın təsiri nəticəsində son illərdə sənayecə inkişaf etmiş ölkələrin məqsədyönlü və ardıcıl təzyiq və təsirləri nəticəsində bir qayda olaraq beynəlxalq ticarətin liberallaşması meyli üstünlük təşkil etsə də, əksər ölkələr, xüsusilə də, iqtisadi və siyasi güc mərkəzləri özlərinin xarici (beynəlxalq) ticarət-iqtisadi diplomatiyalarında iqtisadi amilləri (müxtəlif forma və metodlarda) proteksionist tədbirər qismində tətbiq etməyə üstünlük verirlər.

Xarici ticarət əlaqələrinin müasir inkişaf mərhələsində proteksionizm siyasəti mənfi hal kimi qəbul edilir. Belə ki, xarici ticarətdə proteksionizm siyasəti bir sıra mənfiliklərə yol açır: rəqabət meyllərini zəiflədir, resursların səmmərəli bölgüsünə mane olur, sahibkarları durğunluğa və tənbəlliyə yönəldir, onların innovativ, yenilikçi axtarışlarını zəiflədir, monopoliya yaranmasına səbəb olur, bürokratik əməliyyatı artırır, rüşvətə və resurslardan qeyri-səmərəli istifadəyə yol açır. Bununla belə, xarici ticarətdə proteksionizmə tamamilə mənfi hal kimi baxmaq doğru sayılmaz. Belə ki, iqtisadiyyatın bəzi sahələrində milli maraqların müdafiəsi naminə dövlətin yerli istehsalçıları müdafiəsinə zərurət yaranır.

Dövlətin proteksionist xarici ticarət siyasəti yürütməkdə əsas məqsədlərini aşağıdakı kimi sadalamaq mümkündür:

- Yerli sektorları və əhalinin məşğulluq səviyyəsini qorumaq;
- Milli təhlükəsizliyə təhdid yaradan amillərdən qorunmaq (müdafiə istiqamətli sektorlarla bağlıdır);
- İstehlakçıları etibarlı olmayan mallardan qorumaq;
- Proteksionist siyasət yürüən bir sıra ölkələrə cavab vermək;
- Siyasi məqsədlərə nail olmaq üçün təsir göstərmək .

Azərbaycan Respublikasında mövcud iqtisadi reallıqlar baxımından xarici ticarət siyasətinin maksimum sərbəstləşdirilməsini həyata keçirmək məqsədə uyğundur. Belə ki:

1. Respublikada real bazar münasibətlərinin formalaşması və tamqiymətli xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün bütün məhdudiyyətlərin götürülməsi tələb olunur.
2. Azərbaycanın öz imkanları çərçivəsində investisiya və iqtisadiyyatda struktur dəyişiklikləri siyasəti aparmağa, əsas fondların və bir sıra istehsal sahələrinin yenidən qurulmasını həyata keçirməyə, yeni texnika və texnologiya əldə edilməsinə nail ola bilməz. Yeganə çıxış yolu «xarici impulsdan» tam həcmdə istifadə olunmasından ibarətdir.
3. Ölkənin istehsal etdiyi sənaye məhsulları əksər hallarda dünya standartlarına cavab vermir.
4. Azərbaycan Respublikasının ixracatında neft və neft məhsulları yüksək xüsusi çəkiyə malikdir.

İqtisadiyyatın zəruri artım templərinə nail olunması və dünya iqtisadiyyatına səmərəli qovuşma xarici ticarət siyasətinin maksimum sərbəstləşdirilməsini tələb edir. Qeyd etmək lazımdır ki, bu sahədə 5 aprel 1994-cü il tarixli "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" və 24 iyun 1997-ci il tarixli "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları önəmli rol oynamışdır. Həmin fərmanlarda bazar mexanizminin geniş tətbiqi əsasında iqtisadiyyatın yenidən qurulması və inkişafında dönüş yaratmaq, xarici bazar subyektləri ilə qarşılıqlı faydalı ticarət və iqtisadi əlaqələri genişləndirmək, onların səmərəliliyinin yüksəldilməsi, xarici bazarlara məhsul satışında və idxalda daxili bazar subyektlərinin fəaliyyətinin sərbəstləşdirilməsi, ticarət əlaqələrinin daha da liberallaşdırılması, genişləndirilməsi, respublikada idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları respublikanın valyuta ehtiytalarının və ixrac potensialının artırılmasında onların marağının gücləndirilməsi və s. cəhətlər üzrə aidiyyatı qərarlar qəbul olunmuşdur. Bu fərmanlarla

məhsulların xarici ticarətində məhdudiyyətlər aradan qaldırılmış, bütün hüquqi şəxslərə strateji məhsullar üzrə xarici ticarət fəaliyyətini həyata keçirmək səlahiyyəti verilmişdir.

Xarici ticarətdə ölkə iqtisadiyyatının inkişafını xarakterizə edən bütün proseslər dəqiq əks olunur. Bu proseslər idxalatçılar, ixracatçılar arasında qarşılıqlı əlaqələrin mürəkkəbliyini və bazar agentlərinin ziddiyyətlərini göstərir. Xarici ticarətdə ölkənin iştirakı onun iqtisadi inkişaf səviyyəsi, ərazisi, əhalisinin sayı, təbii resurslarla təmin olunma səviyyəsi, daxili bazarın həcmi, iqtisadi siyasətin vəzifəsi və məqsədi ilə şərtlənir. Xarici ticarətin həcmi və sturkturu maddi istehsalın vəziyyəti, onun texniki səviyyəsi, ictimai əmək bölgüsünün inkişaf səviyyəsi ilə müəyyən olunur. Ölkənin daxil olduğu və ya olacağı xarici ticarət təşkilatlarının qaydalarını və şərtlərini öz ticarət siyasətinə tətbiq etməsi məhz ticarət əlaqələrinin genişləndirilməsinə yönəldir. Bu da xarici ticarətin həcminin artmasna, ixrac və idxalın strukturunun dəyişməsinə, ticarət əlaqələrinin daha da sadələşdirilməsi, liberallaşdırılması, dərinləşdirilməsi üçün şərait yaradır.

## ƏDƏBİYYAT

1. Abdullayev S.H., Dadaşova G.F., Feyzullayev C.Ə. Azərbaycan Respublikasının xarici ticarət sahəsində qanunvericiliyinin təhlili. Bakı: Adiloğlu, 2006, 86 s.
2. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasi, 2002, 447 s.

## XARİCİ TİCARƏTİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

***İsayev Əmrah***

## XÜLASƏ

Müstəqil dövlətin iqtisadi mənafelərinin qorunması onun qarşısında duran ən vacib məsələlərdəndir. İqtisadi mənafelər məhz iqtisadi təhlükəsizlik amilləri vasitəsilə qorunur. İqtisadi təhlükəsizlik ənənəvi olaraq iqtisadi sistemin əhalinin normal həyat fəaliyyətini lazımi səviyyədə saxlamaq, xalq təsərrüfatını resurslarla dayanıqlı təmin etmək qabiliyyətini, milli-dövlət maraqlarını ardıcıl həyata keçirməsini müəyyənləşdirən ən mühüm xarakteristikası kimi nəzərdən keçirilir.

## ОСНОВНЫЕ ЧЕРТЫ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ И НАПРАВЛЕНИЯ

***Амрак Исаев***

## АННОТАЦИЯ

Защита экономических интересов независимого государства является одной из важнейших задач, стоящих перед ним. Экономические интересы защищаются факторами экономической безопасности. Экономическая безопасность традиционно считается важнейшей характеристикой экономической системы, определяющей способность поддерживать нормальный уровень жизни населения, устойчивое обеспечение экономики ресурсами, последовательную реализацию национально-государственных интересов.

## THE MAIN FEATURES OF STATE REGULATION OF FOREIGN TRADE AND ITS DIRECTIONS

***Amrah Isayev***

## SUMMARY

Protecting the economic interests of an independent state is one of the most important issues facing it. Economic interests are protected through economic security factors. Economic security is traditionally considered to be the most important characteristic of the economic system, which determines the ability to maintain the normal level of life of the population, the sustainable provision of the economy with resources, the consistent implementation of national-state interests.

# İQTİSADİ İNKİŞAF BAXIMINDAN BANK SİSTEMİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

***i.ü.f.d., dos.Xasiyeva Leyla Qabil***
***Xudaverdiyev Sənan***
***BDU-nun II kurs magistrantı***
***senan.xudaverdiyev750@mail.ru***

***Açar sözlər:*** bank sistemi, tənzimləmə, dövlət siyasəti, hüquqi əsaslar, Azərbaycan Respublikası.
***Ключевые слова:*** банковская система, регулирование, государственная политика, правовая база, Азербайджанская Республика.
***Keywords:*** banking system, regulation, state policy, legal framework, Republic of Azerbaijan.

***Giriş.*** Sosialist sistemin süqutu ilə ölkədə köklü iqtisadi islahatlar, denonsasiya, inhisarçılıq və özəlləşdirmə ümumilikdə iqtisadi sahədə münasibətləri tənzimləyən qanunların köklü şəkildə dəyişdirilməsinə səbəb olmuşdur [1, s.44].

İqtisadi islahatların səmərəliliyi çox vaxt iqtisadi proseslərin inkişaf səviyyəsindən və ilk növbədə dövlət tərəfindən maliyyə - kredit münasibətlərinin hüquqi tənzimləmə mexanizmindən asılıdır.

Banklar pul vəsaitlərinin toplanması və təklif edilməsi ilə pul münasibətlərinin iştirakçıları arasında vasitəçi rolunu oynamaqla yanaşı, həm də bir sıra sosial əhəmiyyətli vəzifələri - mənzil, ehtiyac məhsulları və s. nümayiş edirlər [2, s.34].

Yaxşı təşkil olunmuş bir bank sistemi ilk olaraq iqtisadi artıma müsbət təsir göstərir. Lakin, bank sistemi həmişə səmərəli şəkildə tənzimlənmir və buna səbəblə bu vacib məqsədə müəyyən vaxtlarda nail olmaq mümkün deyil.

Yalnız iqtisadiyyatın vəziyyəti deyil, cəmiyyətin sosial sabitliyi də ölkənin kredit sektorunun vəziyyətindən asılıdır. Kredit ittifaqları cəmiyyət üçün daha çox məsuliyyət daşıyırlar.

Beləliklə, təkcə öz resurslarını deyil, digər insanların da resurslarını istifadə edirlər. Bu qabiliyyətdə banklar əslində sosial funksiyaları yerinə yetirir, dövlətlə cəmiyyət arasında vasitəçi rolunu oynayır və ölkədə sosial - iqtisadi proseslərin dövlət tənzimlənməsinin həyata keçirilməsi üçün bir növ vasitə rolunu oynayır [1, s.54].

Bankların rolu haqqında belə bir anlayışa əsaslanaraq, bank münasibətlərinin sosial əhəmiyyətli funksiyalarını nəzərə alaraq daha dərin və daha dolğun tənzimlənməsinin vacibliyindən danışmaq lazımdır. Bu vəziyyət tədqiqatın mövzusunu və məzmununu müəyyənləşdirir.

***Əsas hissə.*** Bank münasibətlərinin tənzimlənməsi bank sisteminin səmərəliliyinin və rasionalizminin əsasını təşkil edən konstitusiya əsaslarının müəyyən edilməsi ilə başlayır.

Bank qanunvericiliyinin mətninin hazırlanmasında aydın və vahid düsturlardan istifadə etmək, qanunun köməyi ilə əldə ediləcək məqsədləri adekvat şəkildə ifadə etmək və məsələnin tənzimlənməsinin qarşısını almaq olduqca vacibdir.

Ümumiyyətlə, bank işinin vacib və əsas məsələlərinin qanun və qaydalarla tənzimlənməsini azaltmaq lazımdır. Müəyyən bir məsələ ilə bağlı qanun yoxdursa, tənzimləmə hərəkətləri çox vaxt bir tərəfin - müəyyən əlaqələr qruplarını tənzimləmək səlahiyyətinə malik olan birtərəfli mövqeyini əks etdirir [1, s.67].

Nəticədə, bütün iqtisadi təşkilatların, eləcə də bütün əhalinin iqtisadi maraqlarına təsir edən bank işində qəbuledilməz hüquqi tənzimləmə səviyyəsində azalma var. Bütün bunları nəzərə

alaraq, Azərbaycan Respublikasında bank qanunlarının hələ sistemləşdirilmədiyini iddia etmək olar.

Bankların fəaliyyətinin tənzimlənməsində kənar auditorların rolunu nəzərə alaraq, Mərkəzi Bankın bank auditini aparan auditorlara lisenziya verməsi məqsədəuyğun olardı [1, s.67].

Bu auditorların sertifikatları da Mərkəzi Banka təqdim edilməlidir. Bu, audit rəylərinin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır. Bundan əlavə, qanuna kənar auditorların mərkəzi banka bank likvidliyi barədə məlumat vermələri, habelə bank çıxarışlarını yoxlamaqdan imtina etmələri barədə müddəalar daxil edilməlidir.

Fikrimizcə, Mərkəzi Bank həddindən artıq tənzimləməyə meyilli olmamalıdır. Belə ki, kommersiya banklarının fəaliyyəti daha orta səviyyədə tənzimlənən kommersiya təşkilatları ilə rəqabətdə narahatlıq yaradaraq lazımsız məhdudiyyətlərə yol verməməlidir.

Həm də hesab edirik ki, tənzimləyici banklardan daha çox bankçılığa diqqət yetirilməlidir. Başqa sözlə, tənzimləyicilər qurumlardan daha çox funksiyalara diqqət yetirməlidirlər.

Bank sistemi, hüquq - mühafizə fəaliyyəti və hüquq sektorunda məqsəd və vəzifələrin həyata keçirilməsi ilə məşğul olan xüsusi hüquqi alətləri əhatə edir [3, s.112].

Bütün bunlar, qanunvericiliyin təkmilləşdirilməsinə və aydınlaşdırılmasına yönəlmiş qanunvericiliyə, habelə Mərkəzi Bankın və Azərbaycan Respublikasının məhkəmələri vasitəsilə həyata keçirilən konkret məhkəmə işlərinə əsaslanır.

Tədqiqat, bank sektorunda müəyyən növ və metodlardan istifadə edən iyerarxik olaraq qarşılıqlı fəaliyyət göstərən bir sıra ictimai institutları təmsil edən bankların hüquqi tənzimlənməsi üçün təşkilati çərçivəni müəyyən etmişdir [2, s.128-129].

Respublika banklarını özəlləşdirmək cəhdləri, iqtisadiyyatın bazar iqtisadiyyatı prinsipi ilə inkişaf etdirməyə çalışdığını göstərir və dövlətin ən böyük banklarından birinin ilkin dəqiqləşdirilməsinə və sonradan özəlləşdirilməsinə baxmayaraq, kapital aktivləri hələ də Beynəlxalq Beynəlxalq Bankı tərəfindən təmsil olunur.

Azərbaycan Beynəlxalq Bankının əsas indeksdəki əsas rolu digər bankların bank sektorunda fəaliyyət göstərməsini çətinləşdirməkdir. Azərbaycan Beynəlxalq Bankının bank sektorunda dövlət aktivlərinin cəmlənməsi və bu banka dövlət dəstəyi sərbəst rəqabətin təşkili və inkişafına mənfi təsir göstərəcəkdir.

Fikrimizcə, bank sektorunda azad rəqabəti təmin etmək üçün Azərbaycan Beynəlxalq Bankının özəlləşdirilməsi prosesi başa çatdırılmalıdır.

Bank sektorundakı rəqabət mühitini genişləndirmək və dövlət banklarını özəlləşdirməklə kapital banklarının özəlləşdirilməsinin maliyyə bazarının liberallaşdırılmasında ən əhəmiyyətli amillərdən biri olduğu sübut edilmişdir.

Bəzi hallarda, digər kredit təşkilatları və ya ictimaiyyət, Mərkəzi Bankın bank qanunvericiliyinə görə hər hansı bir kredit təşkilatına sanksiya tətbiq etdiyini həmişə bilməməlidir. Bu bank qanunlarının xüsusiyyətidir.

Bankçılıq tez - tez müştərilərin xidmət etdikləri bankların etibarına əsaslanır. Buna görə də müştərinin maliyyə qurumunun maliyyə vəziyyətinə inamı onun uğurunun təminatıdır.

Bankda pozuntunun aşkar edildiyi və ya kredit təşkilatının rəhbərinə inzibati cərimə ödənildiyi barədə məlumat aldıqda, heç bir əsası olmasa belə, kredit təşkilatının sabitliyinə şübhə edə bilərlər.

Buna görə də, bəzi hallarda hesabdan pul çıxarılmasına zəncirvari reaksiya başlaya bilər [4].

Hesab edirik ki, Mərkəzi Bank bu cür arzuolunmaz halların qarşısını almaq üçün bəzi hallarda kredit təşkilatına gizli şəkildə cərimə tətbiq edə bilər.

Dövlət ipoteka qeydiyyatı orqanına güzəşt müqaviləsinin və ya çıxış müqaviləsinin təqdim edilməsi ipoteka qeydiyyatını tamamlamaq üçün kifayət etməlidir.

Bu məqsədlə, ipoteka şirkətinə bu ipoteka ilə bağlı ipoteka müqaviləsi tətbiq etmək demək olar ki, mümkün deyil [5, s.4].

Yuxarıda göstərilənləri nəzərə alaraq, ipotekanın əlavə qeydiyyat qanununa dəyişikliklər yalnız ipoteka ilə təminat verilən ipoteka satışında ipoteka müqaviləsinə yenidən baxılmadan təqdim edildikdə edilməlidir.

Qlobal böhran dalğası iştirakçıları maliyyə tənzimləmə strukturunu yenidən düşünməyə vadar edir. Son onilliklərdə maliyyə bazarı demək olar ki, hər yerdə daha mürəkkəb hala gəlmişdir.

Ümumiyyətlə, hər zaman daha mürəkkəb və bir-biri ilə əlaqəli, daim dəyişən maliyyə bazarını daha səmərəli etmək üçün yeni və ətraflı məlumatlar əldə etmək vacibdir.

İslam ölkələrindən olan şirkətlər, Azərbaycanda İslam bankçılığını tənzimləyən müvafiq qanunvericiliyə baxmayaraq, 1990 - cı illərin əvvəllərindən etibarən Azərbaycanda öz fəaliyyətlərini, habelə İslam İnkişaf Bankı ilə əməkdaşlıq daxil olmaqla, ölkədə İslam bankçılığının inkişafı üçün əlverişli şərtləri gücləndirirlər [5].

Bir çox maliyyələşdirmə əməliyyatları Azərbaycan Respublikasının qanunvericiliyinin icazə verdiyi ölçüdə normal əməliyyatlar şəklində İslam prinsiplərinə uyğun olaraq həyata keçirilir.

İslam bankları üçün qənaətbəxş qanunvericiliyin olmaması və tənzimləyicinin İslam bankçılığına mənfi münasibəti Azərbaycanda fəaliyyət göstərən bankların İslam maliyyələşdirmə metodlarından istifadə etmək təşəbbüslərini məhdudlaşdırır [1, s.128].

Təcrübələr göstərir ki, İslam əmanətlərinin gəlirlilik dərəcəsi adi bank əmanətlərindən daha yüksəkdir. Yuxarıda göstərilənlərin hamısına əsaslanaraq demək olar ki, Azərbaycanda İslam banklarının fəaliyyətini tənzimləmək üçün müvafiq qanunvericilik bazasının yaradılması məqsədəuyğundur.

Məlum olduğu kimi, demək olar ki, bütün kredit müqavilələrində bankları maliyyə bazarının bütün mənfi təsirlərindən qoruyan hüquqi tədbirlər var. Əsas tədbirlərdən biri Azərbaycan manatının ABŞ dollarına və ya avroya nisbətdə məzənnəsinin bağlanmasıdır.

Beləliklə, borcalan, ödəmə tarixi ilə ABŞ dolları və ya avrodakı kredit müqaviləsinin geri qaytarılma tarixi arasındakı məzənnə fərqindən yaranan hər hansı bir zərərə görə məsuliyyət daşıyır.

Digər bir müdafiə tədbiri, bazar şərtlərinin, bank bazarının və ya ölkənin maliyyə vəziyyətinin (təbii ki, artım istiqamətində) dəyişməsi halında bank tərəfindən kredit faizlərinin birtərəfli şəkildə dəyişdirilməsidir. Müəllif, bankların bu şəkildə özünü qorumaq imkanından məhrum edilməli olduğunu müdafiə edir [1, s.113].

Banklarla Mərkəzi Bank arasındakı maraqlar arasındakı uyğunsuzluq, bərpa prosesinin uğuruna təsir edən ciddi bir problem olaraq qalır. Bir çox hallarda, bankın özü və ya sahibləri nəinki müvəqqəti idarəçi təyin etməklə, həm də sağlamlaşdırılmasında maraqlıdırlar. Bu baxımdan, bərpa işlərində iştirak edən Mərkəzi Bankın nümayəndələrinin işlərinin banka zərər verməyəcəyi barədə daha çox düşünmək lazımdır.

Bank fəaliyyətinin tənzimlənməsində kənar auditorların rolunu nəzərə alaraq, Mərkəzi Bankın Azərbaycanda bank auditini aparan auditorlara lisenziya verməsi məqsədəuyğun olardı.

Xarici audit, kredit ehtiyatlarının yaradılmasının qiymətləndirilməsi, bankda risklərin ölçülməsi və idarə edilməsi və s. bu cür vəzifələrin verilməsi auditorun müvafiq sahədə təhsil almasını tələb edir. Bu auditorların sertifikatları da Mərkəzi Banka təqdim edilməlidir.

***Nəticə.*** Bəzi ölkələrdə məcburi sığorta dərəcələri zamanla azalır. Fikrimizcə, Azərbaycandakı bankların vəziyyətini daha əlverişli və rəqabətə davamlı olması üçün müsbət təcrübədən istifadə etməyə başlamağın vaxtıdır.

Azərbaycanın bank sistemində korporativ idarəetmə standartlarından ümumilikdə qənaətbəxş şəkildə istifadə olunsa da, bu prosesin dərinləşdirilməsi və genişləndirilməsi lazımdır.

Hesab edirik ki, Azərbaycanda maliyyə institutlarının inkişafı gələcəkdə vahid sistemə keçid ehtiyacını yaradacaq. Fikrimizcə, bu halda Almaniyanın inteqrasiya olunmuş təcrübə modelindən istifadə etmək daha məqsədəuyğun ola bilər.

Bu model, mərkəzi bankın bankların fəaliyyətinə nəzarətdə fəal rol oynamasını təmin etməklə vahid təcrübədə bir sıra çatışmazlıqların qarşısını almaqla funksional tənzimlənmənin zəif tərəflərini aradan qaldırır.

Əlbəttə ki, bank sektorunda qanunvericilik və hüquq tətbiq təcrübəsində bir məqsədi olan sosial, tarixi, iqtisadi, psixoloji və digər amillər daha geniş şəkildə nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Həsənov A.S. Azərbaycanda bank sisteminin dövlət tərəfindən tənzimlənməsi, Bakı, Qanun, 2019, 389 səh.
2. Muradov A.S. Bank sektorunda mövcud problemlər, Bakı, Azərnəşr, 2017, 399 səh.
3. Orley U.L. Banking sector, London, London publishing, 2017, 455 p.
4. http://www.e-qanun.az/framework/43056 - bank sektorunun idarəedilməsi 2021.
5. https://dejure.az/en/node/698 - bankın dövlət tənzimlənməsi 2021.


## İQTİSADİ İNKİŞAF BAXIMINDAN BANK SİSTEMİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

***Xudaverdiyev Sənan***


### XÜLASƏ

Bütün dünyada bankların iqtisadiyyatın əsas sistemi olduğu birmənalı olaraq qəbul edilmişdir. Bu baxımdan bank sisteminin hüquqi baxımından düzgün tənzimlənməsi hər bir dövlət üçün çox vacibdir. Etiraf etmək lazımdır ki, bank sektorunun hazırkı vəziyyəti ölkəmizdə fəal inkişaf edən bazar münasibətlərinin tələblərinə və istifadəçilərə göstərilən bank xidmətlərinin qeyri - qənaətbəxş çeşidinə və keyfiyyətinə, bank şəbəkəsinin qeyri - bərabər inkişafına, bir çoxlarının mövcudluğuna tam cavab vermir. Bu baxımdan mövzu müasir dövr üçün aktuallığını qoruyub saxlayır.


## ВОПРОСЫ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ БАНКОВСКОЙ СИСТЕМЫ В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

***Худавердиев Санан***


### АННОТАЦИЯ

Во всем мире однозначно принято, что банки являются основной системой экономики. В связи с этим правильное регулирование банковской системы очень важно для любого государства. Необходимо признать, что современное состояние банковского сектора в нашей стране не в полной мере отвечает требованиям активно развивающихся рыночных отношений и неудовлетворительного ассортимента и качества банковских услуг, предоставляемых пользователям, неравномерного развития банковской сети, наличия множества . В связи с этим тема остается актуальной для современной эпохи.


## ISSUES OF LEGAL REGULATION OF THE BANKING SYSTEM IN ECONOMIC DEVELOPMENT

***Khudaverdiyev Sanan***


### SUMMARY

All over the world, it is unequivocally accepted that banks are the main system of the economy. In this regard, the proper regulation of the banking system is very important for any state. It must be acknowledged that the current state of the banking sector in our country does not fully meet the requirements of actively developing market relations and the unsatisfactory range and quality of banking services provided to users, unequal development of the banking network, the existence of many. In this regard, the topic remains relevant for the modern era.

# AZƏRBAYCAN İQTİSADİYYATINDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ OBYEKTİV ZƏRURİLİYİ

***Məmmədov Nicat İdris oğlu***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: İqtisad üzrə fəlsəfə doktoru, dos. Şıxəlizadə Səidə***
***m.niat600@gmail.com***

***Açar sözlər*:** iqtisadiyyat, qeyri-neft sektoru, Milli iqtisadiyyatın təhlükəsizliyi, İqtisadi siyasət, İnkişaf tədbirləri.
***Ключевые слова*:** экономика, ненефтяной сектор, безопасность национальной экономики, экономическая политика, меры развития.
***Keywords*:** economy, non-oil sector, security of national economy, economic policy, development measures.

**Giriş.** Hər bir ölkənin əsas məqsədlərindən biri də ölkənin iqtisadiyyatının davamlı inkişafını təmin edilməsidir. Əsasən ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi zamanı onun heç bir təziq altında olmadan müstəqil iqtisadi siyasətinin yürüdülməsi, rahat bir şəkildə iqtisadi islahatların aparılması, daxili və xarici heç bir təhlükəyə məruz qalmama, habelə iqtisadiyyatın ölkə daxilində hansı resursa görə ixtisaslaşmasının müəyyən edilməsi və ən əsası da ölkəyə uyğun ən səmərəli iqtisadi modelin seçilməsi əsas amillərdəndir.

Bildiyimiz kimi qloballaşan dünyada günü-gündən texnologiya və texnika, informasiya mənbələri, iqtisadi modellər inkişaf edir, bununla yanaşı olaraq təbi resurslar da tükənir. Hazır ki, dövrdə bir çox İEOÖ dövlətlərin, eləcə də Respublikamızın əsas iqtisadi inkişafı Neft sektoru hesabına formalaşır. Burdan da məlum olduğu kimi gələcək illərdə ölkəmizin davamlı iqtisadi inkişafının təmin olunmasıda bir sıra təhlükələr yaranacaq. Hansı ki, bunların əsas səbəbi neft təbii resursunun tükənən və bərpa olunmayan olmasıdır. Bu baxımdan öz iqtisadi modelinin tükənən resurslar üzərində quran dövlətlərin gələcək iqtisadi inkişafı təhlükə altında düşür. Məhz elə buna görə də hazırki dövrdə iqtisadiyyatın təməlini qeyri-neft sektorunun üzərində qurulması ən mühüm məsələlərdən biridir. Müasir dövrdə Neft sektorundan sonra davamlılığına və potensialına görə əsas yeri Qeyri-neft sektoru tutur. Bu sferanın ölkə iqtisadiyyatına tətbiq edilməsi ilə ümumən sosial-iqtisadi sferada yüksəlişə, iqtisadi fəaliyyət sahəsində görülən işlərin avtomatlaşdırılmasına, əhalinin rəqəmsal geriliyinin aradan qaldırılmasına və ən əsası davamlı iqtisadi inkişafa səbəb olacaqdır.

Bildiyimiz kimi Neft-qaz sənayəsi ilə ixtisaslaşmış dövlətlərdə iqtisadiyyat bu yöndə inkişaf edir və nəticə etibarilə qeyri-neft sektoru həmin ölkələrdə nisbətən zəif iqtisadi artım göstərir. Buna isə əsas səbəb aşağıda qeyd olunan amillərdir:

- ölkə üzrə əsas investisya payının neft-yanacaq sektoruna yatırılması;
- ümumən yeni texnologiya və texnikanın müvafiq sektora tətbiq edilməsi;
- dünya bazarında neft-yanacaq sektorundan əldə olunan məhsullara böyük miqyasda tələbatın olması və s. bu kimi amillər müvafiq sektorun intensiv inkişaf etdirilməsinə səbəb olur. Bununla yanaşı bu sektorun inkişafı nəticəsində yüksək dərəcədə gəlirlərin əldə olunması və ÜDM payının yüksəlməsi neft-yanacaq sektorunun inkişafında əsas maraqlardandır. Bütün bu proseslərin nəticəsi qeyr-neft sektorunun inkişafının ləngiməsinə, maddi təmninatının qarşılanmamasına və müasir texnika və texnologiyanın tətbiqinə əngəl olur. Bu səbəbdən də ölkələrin resursdan asılı iqtisadiyyatında gələcəklə bağlı olan davamlı iqtisadi inkişafında təhlükələr meydana çıxır.

Belə bir halda ölkələr öz iqtisadi modellərini qeyri-neft sektoru üzərində qurulmasının tərəfdarı olurlar. Çünki qeyri-neft sektorunun inkişaf etdirilməsi nəticəsində ölkə iqtisadiyyatı tarazlı və dinamik inkişaf sərgiləyəcəkdir. Həmçinin müvafiq sektorun inkiafı ölkənin daxili regionlarında sosial-iqtisadi inkişafa təkan verəcək, məşğulluğun səviyyəsi yüksələcək, ölkənin idxaldan asılılıq səviyyəsi azalacaq və beynəlxalq bazarda ixracın yüksəlişinə müsbət təsir bağışlayacaqdır.

**Əsas hissə.** Günu bu gündə məlum olduğu kimi Respublikamızda əsas inkişaf göstəricisi Neft sektorundan əldə olunan gəlirlərdir və demək olar ki, büdcənin əsas hissəsi bu sektorun hesabına formalaşır. Ancaq ölkəmiz Neft sektoru hesabına ölkənin milli iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində gələcəklə bağlı probelmlərin meydana çıxacağından xəbərdardır. Bu səbəbdən irəli gələrək Qeyri-neft sektorunun inkişaf etdirilməsi obyektivliyi zərurət halını alır.

Hazırki dövrdə ölkə üzrə milli iqtisadiyyatda qeyri-neft sektoruna keçidin təmin olunması iqtisadiyyatda aqrar və yüngül sənayenin inkişafına, kənd-təsərrüfatı sahəsinin dirçəlməsinə, büdcəyə daxil olan gəlirərin tarazlaşdırılmasına, məhsul üzrə ixtisaslaşamya, habelə neft təbi resursundan asılılığın azaldılmasına təsir göstərəcəkdir. Bununla yanaşı qeyri-neft sektorunun inkişaf etdirilməsi ölkənin ixrac strukturundan bilavasitə bir məhsul əsas yer almasının qarşısını alaraq digər sektorularında inkişafına zəmin yaradacaqdır. Digər bir yandan isə müvafiq sektorun inkişafı ilə bağlı stratejik əhəmiyyətli tədbirlərdən biridə ölkədə hakim mövqe tutan neft sektorundan əldə olunan gəlirlərin böyük bir hissəsinin investisya şəklində qeyri-neft sektoruna yatırılmasıdır. Bu məqsədyönlü addımın nəticəsində neft resursunun iqtisadiyyatda öz payı azalacaq və qeyri-neft sektoru öz strateji əhəmiyyətini göstərəcəkdir.

Bildiyimiz kimi Respublikamız resurlar baxımından çox zəngin ölkədir bunlara misal olaraq neft quyuları, qaz yataqları, qızıl yataqları, dəmir filizi ehtiyatları və.s bu kimi yüzlərlə resurs potensialına mövcuddur. Ancaq bununla beə Azərbaycanda qeyri-neft sektorunun inkişafına dair çox güclü potensial imkanlar vardır. Hansı ki, həmin sahələrə başlıca olaraq kənd-təsərrüfatı, emal sənayesi, tikinti sənayesi, xidmət sektoru olan turizm, kosmik sənaye, telekommunikasiya və rabitə sahəsi, həmçinin yüngül yeyinti sənayesini bur aid etmək olar. Belə ki, həmin potensial ehtiyatlardan istifadə etməklə ölkəmiz məhsul üzrə ixtisaslaşmaya görə həm daxili tələbatını ödəmək həm də xarici bazarlara məhsul çıxarmaq imkanına malikdir və bu yöndə dövlət tərəfindən bir çox tədbirlər görülür,islahatlar aparılır, həmçinin dövlət əhəmiyyətli proqramlar qəbu edilir.

Müasir dövrün gətiriyi yeniliklərə uyğun olaraq ölkə iqtisadiyyatında qeyri-neft sektorunun payının yüksəldilməsi baxımından bu sahəyə geniş miqyasda investisya yatırımlarının cəlb olunması zərurət halını alır. Ancaq burda bir məsələyədə diqqət yetirmək lazımdır ki, buda müvafiq sahənin inkişafını sadəcə daxili və xarici infestisyaların köməyi ilə həyata keçirməyin qeyri mümükünlüyüdür. Hər bir sahənin inkişafında mütləq dövlət nəzarəti, bu yöndə inkişaf islahatları, həmçinin dövlət proqramları qəbul edilməlidir. Ümumən ölkənin iqtisadiyyatına tətbiq edilməsi nəzərdə tutulmuş sahənin inkişafı üçün dövlət öz daxili siyasətində bu sahənin tətbiqi və idarə edilməsi yönündə öz iqtisadi siyasətində yer verməlidir.

Statistikaya əasasən ölkə əhalisinin təqribən 60 %-dən çoxu şəhər regionlarında yerləşmişdir. Məhz bu səbəbdən irəli gələrək iş yerlərinin və məşğulluşun səviyyəsi şəhərlərdə daha çoxdur. Bu səbəbdəndə iqtisadi rayonlardakı inkişaf şəhərə nisbətən zəifdir.Bu baxımdan ölkə əhalisinin kənd və rayonlara cəlb olunması üçün bu istiqamətdə bir çox layihələr irəli sürülmüşdür.Buna misal olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünə aid reqlamentdə dediyi fikirlərə əsasən Respublikanın sosial-iqtisadi sferasındakı inkişafının qarşısında duran vəzifə və öhdəliklər gələcək iqtisadi

inkişafla bağlı olan strategiya haqqındadır. Həmin bu fikirlərə əsasən ölkədə neft-qaz sektoru hesabına formalaşan iqtisadiyyat gələcək vəd etməməsi baxımından bilavasitə olaraq ölkə iqtisadiyyatı qeyri-neft sektoruna yönəlmişdir. İrəli sürülmüş inkişaf strategiyasında qeyri-neft sektorunun üç əsas sahəsi əsaslandırılışdır. Bunlar informasiya və kommunikasiya texnologiyaları, Turizm və Kənnd Təsərrüfatı sahələridir. Müvafiq sahələrin inkişaf etdirilməsilə ölkə iqtisadiyyatında hərtərəfli inkilşafına və şaxələnməsinə, regionların sosial-iqtisadi inkişafına və cəmiyyətin sosial rifah halının yaxşılaşdırılmasına, həmçinin məşğulluğun səviyyəsinin yüksəlməsinə təsir göstərəcəkdir. Nəticə etibarilə iqtisadi siyasətin prioritet istiqamətlərinin qeyri-neft sektoruna yönəldilməsi, ölkədəki makroiqtisadi sabitliyin tənzimlənməsi, fəaliyyətlə əlaqədar yaranan iqtisadi münasibətlərin tənzimlənməsi, investisya axınlarının cəlbi ümumən sosial-iqtisadi sferanın inkişafına səbəb olmuşdur.

Statistikaya əsasən ölkə üzrə iş bölgüsünün təmin olunmasına görə 40%-ə qədəri respublikamızda kənd təsərrüfatı sahəsində cəmlənmişdir. Bununla bağlı olaraq qeyri-neft sektorunun davamlı inkişaf etdirilməsi baxımından və məşğulluğun səviyyəsinin yüksəldilməsinə görə, ümum daxili məhsulun payının artırılması, həmçinin məhsul üzrə ixtisaslaşma baxımından başlıca sahələrdən biridə kənd təsərrüfatıdır. Hazırki dövrdə tətbiq olunan Kənd Təsərrüfatının inkişafı və kreditləşdirilməsi layihəsinə əsasən kənd təsərrüfatı torpaqlarının qeydiyyatı və sahibkarların maliyyələşdirilməsi və stimulun verilməsi öhdəlikləri əsas məsələlərdəndir. Müvafiq ləyihə sayəsində yenidən kiçik və orta fermerlərin fəaliyyətinin təmin edilməsi reallaşdırılır. Bununla yanaşı bazar əlaqələrinin genişləndirilməsi, istehsalçı fermerlərin və sahibkarların bazara çıxardığı məhsulların keyfiyyətinin yüksəldilməsi, kənd-təsərrüfatı sektorunun və aqrobiznesin inkişafı baxımından maliyyə ehtiyyatlarının və xidmətlərinin gücləndirilməsi, müvafiq sahə üzə ixtisaslı kadrların cəlb olunması, tətbiq edilən texnika və texnologiyanın müasir standartlara cavab verməsi ilə bağlı bütün işlər həyata keçirilməkdədir.

İnkişaf etmiş ölkələrin təcrübələrindən də məlum olduğu üzrə qeyri-neft sektorunda əsas potensial sahələrdən biri də informasiya kommunikasiya texnologiyalarıdır. Bu sahənin inkişaf etdirilməsi ilə bağlı 2003-2012-ci illərdə Ümum Milli strategiya qəbul edilmişdir. Strategiyanın əsas məqsədi ölkə iqtisadiyyatındakı idarəetmə orqanlarının fəaliyyətinin avtomatlaşdırılması, İKT-nin ölkə iqtisadiyyatına tətbiqi nəticəsində meydana çıxan münasibətlərin tənzimlənməsi, istehsalın avtomatlaşdırılması, texnoloji yönümlü iqtisadiyyata keçid, İnformasiya Cəmiyyətinin formalaşdırılması, kosmik fəza sənayeninin təkmilləşdirilməsi, ölkə üzrə telekommunikasiya və teleradio xidmətinin inkişafı,həmçinin ölkə iqtisadiyyatının tükənən resurslardan asılılığının aradan qaldırılması yer almışdır. İKT-nin ölkənin əsas iqtisadi fəaliyyət sahələrində tətbiq olunması zamanı bank xidmətlərinin işinin asanlaşdırılması, səhiyyə sahəsində müasir standartlara cavab verəcək şəkildə müayinə və müalicə xidmətlərinin səviyyəsinin yüksəldilməsi, təhsildə müasir üsluba keçid və distant təhsilin formalaşdırılması, cəmiyyətin rəqəmsal geriliyinin aradan qaldırılması, maliyyə və kredit əməliyyatlarının avtomatlaşdırılması və s. bu kimi bir çox sahələrin inkişafına səbəb olacaqdır.

Ölkənin əsas qeyri-neft sektoruna aid olan və gələcək vəd edən sahələrindən biri də Turizm sahəsidir. Turizmin sahəsinin inkişaf etdirilm4əsi ölkənin beynəlxalq arenaya inteqrasiyası deməkdir. Belə ki, müasir dövrdə bir çox inkişaf etmiş ölkələrin gəlirlərinin böyük bir hissəsi turizm sənayesi hesabına formalaşır. Məhz bu səbəbdən irəli gələrək Azərbaycanda da Turizm sənayesinin inkişafına dair bir çox tələblər irəli sürükmüş və dövlət əhəmiyyətli proqramlar qəbul edlmişdir. Bunun ən bariz nümunəsi 2010-2014-cü illərdə turizm sənayesinin inkişafına dair qəbul olunmuş dövlət proqramıdır. Proqramın əsas məqsədi ümumən ölkə üzrə və iqtisadi rayolarda turizm sənayesinin inkişafı, müvafiq sahəyə lazımi infrasturukturun təmin edilməsi,

həmçinin rekreasyon ərazilərin müəyyən olunması, daxili və xarici investisya axınlarının yönləndirilməsi və ölkənin beynəlxalq arenada tanınması naminə xarici vətəndaşların cəlb edilməsi idi. Bununla yanaşı yüksək gəlir payına malik olan turizm komplekslərinin tikilməsi və istifadəyə verilməsi, yolların tikintisi, hotel və restoranların salınması aiddir.

Bu tədbirlərin reallaşdırılmasında əsas məqsəd müxtəlif subyektlərin cəlb olunması, ticarət və ictimai iaşə müəssisələrini, əyləncə təşkilatlarını, nəqliyyat müəssisələrini) və onların fəaliyyəti nəticəsində əldə edilən vəsaitlər yerli büdcələrə və dövlət büdcəsinə mədaxil olacaqdır.

Turizm sosial-mədəni fəaliyyət növü olmaqla yanaşı, həm də səyahət zamanı insanların zəruri tələbatını təmin edən iqtisadiyyatın mühüm sahəsidir və onun gələcək inkişafı, təkmilləşdirilməsi ölkənin gəlirlərinin artmasına imkan yarada bilər.

**Cədvəl 1.1 Azərbaycan Respublikasının 2013-2019-cu illər üzrə əsas makroiqtisadi proqnoz göstəriciləri.**

| Göstəricilər | Ölçü vahidi | Hesabat | | Proqnoz | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| REAL SEKTOR | | | | | | | | |
| ÜDM bazar qiymətləri ilə | Mln. AZN | 58223,8 | 58983,4 | 57213,2 | 57635,6 | 60210,4 | 63088,9 | 67617,1 |
| Real artım tempi | % | 5,6 | 2,9 | 3,5 | 1,7 | 2,8 | 3,7 | 5,1 |
| Neft sektoru, ÜDM, bazar qiymətləri ilə | Mln .AZN | 24943,5 | 23017,1 | 17845,7 | 16814,6 | 15977,5 | 16122,3 | 17315,5 |
| Real artım tempi | % | 1,1 | -2,7 | -0,5 | -,8 | -2,5 | 0,4 | 4,8 |
| Payı (ÜDM-də) | % | 43,1 | 39,5 | 31,3 | 28,4 | 26,4 | 25,7 | 25,9 |
| Qeyri-neft sektoru, ÜDM, bazar qiymətləri ilə | Mln. AZN | 33224,3 | 35971,4 | 39325,6 | 41439,5 | 44256,7 | 47051,6 | 50212,5 |
| Real artım tempi | % | 11,2 | 7,2 | 5,6 | 3,4 | 4,7 | 4,9 | 5,1 |
| Payı (ÜDM-də) | % | 57,2 | 61,1 | 68,7 | 71,6 | 73,6 | 74,3 | 74,1 |

Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (www.economy.gov.az)

Cədvəldən də göründüyü kimi ölkəmizdə 2013-2019 cu illərdə Real sektorlarda statistik göstəricilər əks olunmuşdur. Burada biz Neft sektorunun, Qeyri-neft sektorunun, Ümum Daxili Məhsulun artım payını, real artım tempini görə bilərik. Hansı ki, ölkə üzrə qeyri-neft sektorunun inkişafının obyektiv zəruriliyi məsələsindəki bütün statistik göstəricilər əks olunmuşdur.

Göstəricilərə əsasən biz deyə bilərik ki, 2015-ci ildən bu yana ölkə iqtisadiyyatında və ÜDM-nin formalaşmasında neft sektorunun payı nisbətən azalmış və qeyri-neft sektorunda stabil real artım tempi müşahidə edilmişdir, həmçinin qeyri-neft sektorunun Ümum Daxili Məhsulun formalaşmasında və bazar qiymətlərinin tənzimlənməsində əsaslı payı olmuşdur. Bu da müvafiq sektor üzrə dövlətin ciddi nəzarətinin nəticəsidir. Hansı ki, bu tədbirlər toplusuna 2011-2013-cü illərdə Nazirlər Kabineti tərəfindən verilmiş qeyri-neft sektoru məhsullarının ixracının stimullaşdırılmasına dair verilən sərəncamı, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il 16 mart tarixli Milli İqtisadiyyat və İqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritəsinin başlıca istiqamətləri haqqında verdiyi sərəncamı, daha sonra Prezident İlham Əliyevin göstərişi ilə 2015-2020-ci illəri əhatə edən Dövlət Proqramını, bununla yanaşı müvafiq sktorun inkişafı naminə qəbul edilmiş bir çox akt və tədbirlər toplusunu aid etmək olar.

Nəticə etibarı ilə sonda belə bir qənaətə gəlmək olar ki, Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi nəticəsində ölkə iqtisadiyyatının gələcəkdə davamlı inkişafına təminat verir, iqtisadiyyatın daxili strukturlarında asılılığın aradan qaldırılmasına kömək edir, müasir dövrdə yarana biləcək maliyyə krizislərinin riskini azaldır, ölkədə bir məhsulun hakim mövqe tutmasının qarşısını alır və regionlar üzrə müxtəlif məhsullar üzrə ixtisaslaşmaya əlverişli şərait yaradır, həmçinin idxalın və ixracın sturkturunun tənzimlənməsinə, bununla yanaşı bazarlarda təkmil rəqabət mühitinin formalaşmasına zəmin yaradır. Bunlardan başqa qeyri-neft sektoru demoqrafik siyasətdə də öz tövhələrin verir. Hansı ki, bunlara cəmiyyətin sosial rifahının yaxşılaşdırılması, tikinti və emal sənayelərində, KT-də, turizm sahəsində məşğulluğun səviyyəsinin yüksəldilməsi, informasiya və kommunikasiya texnologiyalarının təsiri ilə əhalinin rəqəmsal geriliyinin aradan qaldırılması, telekommunikasiya texnologiyalarının köməyilə beynəlxalq arenya inteqrasiya,ümumən sosial sferanın yüksəlişinə müsbət təsir göstərməsi aiddir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üzrə Dövlət Proqramı”. Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli Sərəncamı;
2. 2011-2013-cü illər üçün qeyri-neft sektoru məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər planı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı №40, Bakı: 8 fevral 2011-ci il;
3. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 16 mart 2016-cı il tarixli “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri haqqında” Sərəncamı;
4. “Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illər)”.
5. Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə sosial və iqtisadi inkişaf konsepsiyası və proqnoz göstəriciləri. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Bakı: 2013;
6. https://www.economy.gov.az/article/state-programs/21429
7. https://static.president.az/pdf/38542.pdf
8. https://www.stat.gov.az/

# AZƏRBAYCAN İQTİSADİYYATINDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ OBYEKTİV ZƏRURİLİYİ

***Məmmədov Nicat***

## XÜLASƏ

Günümüzdə bir çox dövlətin prioritet məqsədi milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Bildiyimiz kimi milli iqtisadiyyat müxtəlif amillərdən asılı olur. Müvafiq amillərə misal olaraq iqtisadiyyatın sahə strukturu, daxili bazarın mühavizəsinin mövcud vəziyyəti, istehsal edilən məhsulların təkmil rəqabət mühitində formalaşması və rəqabət qabiliyyətliliyi, habelə ölkə üzrə idxal və ixrac olunan məhsulların gedişatının daxili strukturu, həmçinin ixtisaslaşma ilə bağlı olaraq yerli istehsalın stimullaşdırılmasını göstərmək olar. Məlum olduğu kimi Respublikamızda iqtisadiyyat sahəsində sabitliyin təmin edilməsi istiqamətində bir çox islahatlar və dövlət əhəmiyyətli proqramlar qəbul edilməkdədir, habelə daxili sektorlarda təkmil rəqabət mühitinin formalaşdırılması, bununla yanaşı ölkənin davamlı iqtisadi inkişafının təmin edilməsi baxımından resurslarından effekktiv istifadə edilməsi əsas məsələlərdəndir. Məhz elə buna görə də dövlət tərəfindən tətbiq olunan iqtisadi siyasət ölkənin iqtisadi modelinin qeyri-neft sektoru üzrə ixtisaslaşması yönündədir.

Məqalənin məqsədi qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi zamanı bu məsələnin qarşısında duran problemlərin aradan qaldırılması və gələcək inkişaf vəd edən məsələlərin təhlil edilməsi, həmçinin müvafiq sektorun inkişaf istiqamətlərinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr işləyib hazırlamaqdan ibarətdir. Nəticə etibarı ilə qeyri-neft sektorunda əsas məqsaəd qarşıya qoyulan vəzifələrə iqtisadiyyatın müasir strukturunun qimətləndirilməsi və onun inkişafı amillərinin müəyyənləşdirilməsi, qeyri-neft sektorunun inkişafında ortaya çıxa biləcək problemlərin araşdırılması və ortaya çıxarılması, onların həlli yollarının işlənib hazırlanması və dünya iqtisadiyyatına səmərəli keçid edə biləcək sahələrin müəyyən edilməsi və inkişafı yolunda tövsiyyələr hazırlamaqdır.

# ОБЪЕКТИВНАЯ НЕОБХОДИМОСТЬ РАЗВИТИЯ НЕНЕФТЯНОГО СЕКТОРА ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

***Мамедов Ниджат***

## АННОТАЦИЯ

Сегодня приоритетом многих государств является обеспечение национальной экономической безопасности. Как известно, национальная экономика зависит от различных факторов. К релевантным факторам относятся отраслевая структура экономики, современное состояние защищенности внутреннего рынка, формирование и конкурентоспособность продукции в улучшенной конкурентной среде, а также внутренняя структура импорта и экспорта страны, а также стимулирование местного производства. Как известно, в республике принимается множество реформ и программ государственного значения для обеспечения экономической стабильности, а также формирования улучшенной конкурентной среды в бытовом секторе, а также эффективного использования ресурсов для обеспечения устойчивой экономической разработка. Именно поэтому экономическая политика, проводимая государством, направлена на специализацию экономической модели страны в ненефтяном секторе.

Целью статьи является решение задач, стоящих перед устойчивым развитием ненефтяного сектора, и анализ вопросов, перспективных для дальнейшего развития, а также разработка научно обоснованных предложений и рекомендаций по развитию соответствующего сектора. В результате основной целью ненефтяного сектора является оценка существующей структуры экономики и выявление факторов ее развития, изучение и выявление проблем, которые могут возникнуть в развитии ненефтяного сектора, разработка решений и выявление области эффективного перехода к мировой экономике., заключается в разработке рекомендаций по принятию и развитию.

## OBJECTIVE NECESSITY FOR THE DEVELOPMENT OF THE NON-OIL SECTOR IN THE AZERBAIJANI ECONOMY

***Mammadov Nijat***

**SUMMARY**

Today, the priority of many states is to ensure national economic security. As we know, the national economy depends on various factors. Relevant factors include the sectoral structure of the economy, the current state of protection of the domestic market, the formation and competitiveness of products in an improved competitive environment, as well as the internal structure of the country's import and export, as well as the stimulation of local production. As it is known, many reforms and programs of state importance are being adopted in the Republic to ensure economic stability, as well as the formation of an improved competitive environment in the domestic sector, as well as the effective use of resources to ensure sustainable economic development. That is why the economic policy pursued by the state is aimed at specializing the country's economic model in the non-oil sector.

The purpose of the article is to address the challenges facing the sustainable development of the non-oil sector and analyze the issues that promise future development, as well as to develop scientifically sound proposals and recommendations on the development of the relevant sector. As a result, the main goal of the non-oil sector is to assess the current structure of the economy and identify factors for its development, study and identify problems that may arise in the development of the non-oil sector, develop solutions and identify areas for effective transition to the world economy. is to develop recommendations for making and development.

# TURİZM – İQTİSADİ FƏALİYYƏT FORMASI KİMİ

***iqtisad elmləri doktoru Həsənova Pəri***
***BDU-nun iqtisadiyyat kafedrasının professoru,***
***Zeynallı Yusif Allahverdi oğlu***
***BDU-nun II kurs magistrantı***
***yusif.zeynalli@gmail.com***

***Açar sözlər:*** turizm, inkişaf, mənfəət, iqtisadiyyat, beynəlxalq turizm, istirahət potensialı.
***Ключевые слова:*** туризм, развитие, прибыль, экономика, международный туризм, рекреационный потенциал.
***Key words:*** tourism, development, profit, economics, international tourism, recreational potential.

Azərbaycanda son onillik turizmin milli iqtisadiyyatın inkişafı üçün prioritet sahələrdən biri kimi tanınması ilə əlamətdar olub. Makroiqtisadi göstəricilərin formalaşmasında turizm sənayesinin rolunun artırılması, turizm xidmətlərinin satışının həcminin artırılması, beynəlxalq bazarda milli turizm məhsulunun dövriyyəsinin artım tempinin sürətləndirilməsi zərurəti dövlət siyasəti ilə ölkədə iqtisadi islahatların həyata keçirilməsi və qlobal iqtisadi məkana inteqrasiyası tam uyğundur. Turizmin inkişafı üçün bu sahədə qanunvericilik və standartlar təkmilləşdirilir, Xəzər dənizinin turizm potensialından tam istifadə etmək üçün zəruri tədbirlər görülür, müvafiq turizm marşrutları yaradılaraq məlumatlandırma və təbliğat işləri gücləndirilir. Tarixi, mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlər, müxtəlif turizmin inkişafına təkan verir [1, s.6].

MDB ölkələrinin müasir iqtisadi ədəbiyyatında turizm problemlərini bu və ya digər dərəcədə işıqlandıran bir çox nəşr var. Onların arasında A.Baranova, L.Qrişenko, M.Jukova, N.Kadiyeva, A.Klimenko, E.Kosinova, A.Krutik, V.Novikov, M.Reşetova, Z.Timoşenko, Y.Şahabutinova və s., Azərbaycan alimləri arasında A.Əlirzayevin, R.Qasımovun, F.Rəhmanovun, İ.Rzayevanın, A.Salmanovun və başqalarının əsərləri xüsusi qeyd olunmalıdır.

Hazırda Azərbaycanda turizm dövlət səviyyəsində iqtisadiyyatın prioritet sahələrindən biridir. Bu baxımdan, aktivliyi dövlətin iqtisadi, sosial və siyasi maraqlarına təsir edən və eyni zamanda valyuta gəlirlərinin perspektivli mənbəyi olan turizmin rolu artır. Turizm sahəsində aparılan balanslaşdırılmış dövlət siyasəti sayəsində Azərbaycanda xidmətlərin ümumi ixrac və idxalında ixrac və idxal olunan turizm xidmətlərinin həcmi əhəmiyyətli dərəcədə artmışdır. Turizm xidmətlərinin artımı Azərbaycanın ÜDM-in dinamikasını üstələyib. Belə ki, 2018-ci ildə turizm sektorunun artım tempi 5,7 % təşkil edib. Turist xidmətlərinin həcmi 1067,9 milyon manatı ötmüşdür ki, bu da 2017-ci illə müqayisədə (891 milyon manat) 18,2 % çoxdur. Bu illərdə ÜDM -də turizm xidmətlərinin payı müvafiq olaraq 2,1 % və 1,8 % təşkil edirdi [4, s.121]. Azərbaycan üçün bu, kifayət qədər yüksək göstərici hesab olunur. Qeyd etmək lazımdır ki, Azərbaycana gələn xarici vətəndaşların sayı, turizm müəssisələrinin və kollektiv yerləşdirmə obyektlərinin (otellər, kurort sanatoriyaları) sayı hər il əhəmiyyətli dərəcədə artır. Turizm mərkəzlərinin, pansionatların, otellərin və s. xidmətlərindən istifadə edən turistlərin sayı kəskin artmışdır. Yaxın keçmişdə turistlər Azərbaycana ən çox fərdi qaydada gəlirdilər. Son illər ölkəyə qrup halında gələn turistlərin sayı xeyli artıb. Bu, turizm sənayesinin inkişafı, yerli turizm şirkətlərinin (firmalarının) səmərəli fəaliyyəti və Azərbaycanın turizm potensialının onun hüdudlarından kənarda da geniş təbliği nəticəsində mümkün olmuşdur. Böyük beynəlxalq turizm sərgilərində iştirak edən sahibkarlar işgüzar danışıqlar üçün imkanlar tapır, həm də iş yoldaşlarının yeniliklərini qiymətləndirirlər. Bu sərgilərdə Azərbaycanın turizm şirkətlərinin digər ölkələrin

analoji şirkətləri ilə müqavilələr bağlaması da vacibdir. Belə ki, 2019-cu ildə beynəlxalq turizm sərgiləri zamanı milli turizm şirkətləri və otellər xarici tərəfdaşlarla 700-ə yaxın əməkdaşlıq müqaviləsi imzalanmışdı. Qeyd etmək lazımdır ki, Azərbaycanda mövcud olan mədəni irs və zəngin təbii sərvətlər, turist təklifinin tərkib hissələrindən yalnız biri olduğu üçün ölkədə turizmin səmərəli inkişafı üçün yeganə şərt kimi yerləşdirilə bilməz.

Turizm sektorunun maliyyə-iqtisadi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşması regional inkişafın əhəmiyyətli amilinə çevrildi. Ərazi idarəetmə orqanları turizmin və qiymətli istirahət mənbələri olan yerlərin inkişafına böyük diqqət yetirirlər. Hal-hazırda turizm bölgə iqtisadiyyatının katalizatoru hesab olunur, çünki bu, təkcə mövcud istirahət resurslarından istifadə etməyə deyil, həm də ərazinin istehsal və sosial-mədəni potensialından səmərəli istifadə etməyə imkan verir. Dövlət bununla əlaqədar olaraq turizm fəaliyyəti və turizm infrastrukturu strategiyasının yaradılmasına, investisiyaların cəlb edilməsinə, istirahət zonalarının yaradılmasına və respublikanın bölgələrinə turistlərin sayının artırılmasına təşəbbüs göstərir. Azərbaycan bütün növ istirahət mənbələrinə və bütün növ turizmin inkişafı üçün böyük potensiala malikdir. Son illərdə burada işgüzar, tibbi, ekstremal, çimərlik, ekoloji ekskursiya, aqroturizm kimi turizm növləri sürətlə inkişaf edir. Turizmin tipik quruluşunda, ən çox valyuta gəlir mənbəyi olan və dünyanın əksər ölkələrində tədiyyə balansında əhəmiyyətli faktor olan beynəlxalq turizm xüsusilə vurğulanır. Qlobal kapital axını ilə əlaqədardır. İqtisadiyyatın üçüncü sektorunun artan rolu ilə əlaqədar bu əlaqə son illərdə xüsusilə güclənmişdir. Turizm sektorunda transmilliləşmə prosesi gedir və bu, turizmdə otel şəbəkələrinin və konsorsiumların rolunun genişlənməsində özünü göstərir [3, s.18]. Beynəlxalq turizm yerli işçi qüvvəsinin cəlb edilməsi, yerli turist avadanlıq və materiallarının istifadəsi, əcnəbi turistləri qidalandırmaq üçün kənd təsərrüfatı məhsullarından istifadə və s. yolu ilə qəbul edən ölkənin iqtisadiyyatına daxil edilə bilər. Yalnız bütün bu şərtlər yerinə yetirildikdə, o, alıcı ölkənin ÜDM-in səviyyəsini artıra və onun gələcək iqtisadi inkişafına töhfə verə bilər. Bu gün fəal turist mübadiləsi iqtisadi inteqrasiya proseslərinin əsas komponenti və beynəlxalq iqtisadi əməkdaşlığın inkişafının ayrılmaz halqasıdır. Müəyyən ölkənin beynəlxalq turizm sahəsində mübadilə əlaqələrində iştirak səviyyəsi turizm siyasəti ilə formalaşır, bu da öz növbəsində tələb və təklifinin inkişaf dərəcəsini müəyyən edir. Buna görə də, beynəlxalq turizmin regional bazarlarında baş verən sosial-iqtisadi proseslərin öyrənilməsində mühüm mərhələ, turizm xidmətlərinə tələbat və təklifi formalaşdıran milli bazarların inkişafının ümumi və spesifik xüsusiyyətlərinin öyrənilməsi hesab edilməlidir.

Verilən məlumatlar Azərbaycanın dünya turizm xidmətləri bazarında xalis ixracatçı olduğunu göstərir. Bu vəziyyətin əsas səbəbi, kurort və istirahət zonalarının dünya tələbləri ilə ölkənin otel bazası arasındakı uyğunsuzluqdur. Daha az əhəmiyyətlisi, işləyən səyahət şirkətlərinin (firmalarının) əksəriyyəti vətəndaşlarını xaricə göndərməyi üstün tutur, çünki gedən turizm onlara gələn turizmə nisbətən daha çox qazanc gətirir. Halbuki dünyanın əksər ölkələrində, effektivliyinə görə turizmin inkişafında prioritetdir. Üstəlik, onun effektivliyi daha çox ölkənin turizm potensialından asılıdır. Onu da vurğulamaq lazımdır ki, ölkə nə qədər çox turizm resursuna malik olsa, bir o qədər xarici turistləri cəlb edə, ölkə iqtisadiyyatına valyuta gəlirlərini artıra bilər. Beləliklə, belə qənaətə gəlmək olar ki, Azərbaycanda beynəlxalq turizm əsasən xaricə turizm üzrə ixtisaslaşıb. Ölkəmiz dünya xəritəsində və beynəlxalq turizm bazarında nisbətən yenidir. Fikrimizcə, respublikanı tərk edən respublika vətəndaşlarının sayı ilə müqayisədə ölkəyə gələn turist sayının az olmasının səbəbi də budur. ÜTT və Beynəlxalq Sosial Turizm Bürosunun təkliflərinə əsasən, milli iqtisadiyyatın mənafeyi naminə daxili və gedişli turizmin nisbəti 4:1-ə bərabər olmalıdır [5, s.86]. Ancaq araşdırma apardığımız təhlillər göstərdi ki, Azərbaycanda bu nisbət əksinədir. Daxili turizmin inkişaf səviyyəsinin aşağı olmasının əsas səbəbləri sırasında, ölkənin regionlarında turizm obyektlərinin inkişaf etməməsi və turistlərə

göstərilən xidmətlərin (yerləşdirmə, qida və nəqliyyat sahəsində xidmətlərin) baha olmasıdır. Mənfi fakt Azərbaycanda daxili turizm haqqında etibarlı statistik məlumatların olmamasıdır. Yerli turistlərin sayılması bütün ölkələrdə çox çətin prosesdir və ümumiyyətlə etibarlı rəqəm yoxdur. Bununla yanaşı, statistik məlumatlar turizm bazarındakı meylləri, müxtəlif istiqamətlərə olan tələbatın səviyyəsini, artım potensialını, istirahət və ya xidmət növlərini proqnozlaşdırmağa imkan verir. Bununla əlaqədar olaraq, onlar turist axınının həcmi və onun strukturu ilə yanaşı, həm də turistlərin xarakterik xüsusiyyətlərini və onların hədəf istiqamətlərini əks etdirməlidirlər.

Azərbaycanda daxili turizmi qiymətləndirmək üçün turizmi inkişaf etmiş ölkələrin təcrübəsi tətbiq olunmalıdır. Məsələn, Cənub-Şərqi Asiyanın ən perspektivli ölkələrindən biri olan Tailandın təcrübəsini qeyd etmək olar. Bu ölkənin Turizm Komitəsi hər 5 ildən bir mehmanxanalar şəbəkəsində, istirahət obyektlərində və avtovağzallarda paylanan xüsusi blanklardan istifadə etməklə əhali arasında statistik sorğu keçirir. Daxili turizmin inkişafının məqsədəuyğunluğu onda görünür ki, bu, regionların intensiv inkişafına, yerli əhalinin yeni iş yerləri ilə təmin olunmasına töhfə verəcəkdir. Vətəndaşlarımızın ölkədən kənara çıxanda xərclədikləri vəsaitin bir hissəsinin milli iqtisadiyyatın daxilində dönməsi də çox vacibdir. Turist axınının artması ilə dövlət xəzinəsinə gəlirlər artır. Turistlərin ölkədə qoyduğu pullar büdcə gəlirlərini tamamlayır və ÜDM-in artımına kömək edir. Azərbaycan iqtisadiyyatı ümumi gəlirinin 10 %-ni turizmdən əldə edir. Orta hesabla hər bir qonaq ölkədə təxminən 800 dollar xərcləyir [2, s.59]. Beləliklə, turizm müəssisələrinin səmərəli fəaliyyəti ölkə iqtisadiyyatını getdikcə inkişaf etdirir və artım perspektivlərini getdikcə daha çox müəyyənləşdirir. Ölkənin iqtisadi inkişafı üçün turizmin əhəmiyyətini müəyyən etmək üçün yalnız ondan əldə olunan mənfəətin ölçüsünün göstəricisinə diqqət yetirmək kifayət deyil. Adambaşına düşən gəliri yüksək olan ölkələrdə turizm xidmətlərinin müvafiq qiymətləri əlavə olunur. İqtisadiyyat nöqteyi-nəzərindən, ziyarətçilərin sayı ilə müqayisədə dövlət üçün pul amili böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən fərqli bölgələrdən gələn turistlərin nə qədər pul xərclədiyini, həm də ölkədə keçirdikləri günlərin sayını təxmin etmək lazımdır. Fərdi ziyarətçinin turizm məqsədləri üçün ayırdığı gəlirin bir hissəsini təyinat yerinə, digər hissəsini isə təşkil edərkən və səyahət zamanı bu istiqamətə çatmaq üçün xərclədiyini qeyd etmək lazımdır.

Qeyd etmək yerinə düşər ki, ölkənin bəzi bölgələrində turistlər üçün cəlbedici olan infrastrukturun səmərəli inkişafı sayəsində yerli əhali tez-tez Azərbaycanın bölgələrində istirahət etməyi üstün tutur, bunu son illərin statistikası da sübut edir. Azərbaycana qonşu ölkələrdən çoxlu turist gəlir, amma indi Avropa ölkələrindən, eləcə də Çin, Cənubi Koreya və Yaponiyadan gələn turistlərin sayının artması tendensiyası müşahidə olunur. Azərbaycanda turizm iqtisadiyyatın gəlirli sahələrindən birinə çevrilir. Buna xarici investorların sayının artması və iqtisadiyyatın bu sektorunun səmərəli inkişafı üçün onları cəlb etmək imkanı kömək edir. Etiraf etmək lazımdır ki, müəyyən yerli kurortun populyarlığına əmin olana qədər investorlar çox vaxt özlərini riskə atmaq istəmirlər və yüksək keyfiyyətli infrastruktur yaranana qədər turistlər ora getməyəcəklər. Kurortlarda vəziyyət əlverişli olarsa, həm dövlətin, həm də sahibkarın investisiya qoymağa marağı artar. Başqa sözlə, uğur daha çox uğur gətirir. Həmişə nəzərə alınmalıdır ki, ölkəni tərk edənlərin pulu gediş ölkəsinə, ölkəyə gələnlərin pulu isə gəldikləri ölkəyə maliyyələşmə və investisiyalara çevrilir. Qarşı axınların düzgün stimullaşdırılması ilə bu proses turizmin intensiv şəkildə inkişaf etdiyi ölkələrdə əhəmiyyətli iqtisadi canlanmaya səbəb ola bilər. Turizm birtərəfli qaydada inkişaf edərsə, bu, ölkə iqtisadiyyatına mənfi təsir göstərir, çünki bu, digər sənaye sahələrinin, xüsusən də istehsalat sahəsinin zəifləməsi ilə müşayiət olunur. Buna görə də, ikincinin inkişafı ilə paralel olaraq turizmi inkişaf etdirmək məsləhətdir. Əlbəttə ki, sanatoriyalar və kurort sahəsinə, restoran və kafelərə - iaşə sahəsinə aiddir, lakin bunlar turistik istirahət, idman və istirahət kompleksi çərçivəsində cəmlənibsə, bu turizm sənayesidir [3, s.311].

**Nəticə.** Belə nəticəyə gəlmək olar ki, turizm iqtisadi hadisə kimi:
- milli iqtisadiyyatın intensiv inkişafı üçün katalizator və milli gəlirin artımı üçündür;
- özünü toplaya və nəql edə bilməyən turizm məhsulları, turist xidmətləri şəklində özünü göstərir;
- iqtisadiyyatın bütün sahələrinə və fəaliyyətinə uyğundur;
- milli gəlirin turizm üzrə ixtisaslaşmış ölkələrin xeyrinə yenidən bölüşdürülməsi mexanizmidir;
- investisiyanın tez qaytarılması və yüksək səmərəlilik dərəcəsi ilə xarakterizə olunur;
- yeni iş yerlərinin açılmasına və yeni sahələrin inkişafına töhfə verir;
- iqtisadiyyatın digər sahələrinin inkişafını stimullaşdırır.

## ƏDƏBİYYAT


1. Cəfərov M. Azərbaycan turizm iqtisadiyyatı baxımından da dünya ölkələri üçün maraqlıdır // Yeni Azərbaycan, 02.07.2020. S.6.
2. Əlirzayev Ə. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universiteti, 2010. 529 s.
3. İsmayılov V. Turizmin iqtisadiyyatı: dərslik. Bakı, 2019. 397 s.
4. Qafarov N. Turizmin iqtisadiyyatı: dərslik. Bakı: Kooperasiya, 2019. 583 s.
5. Темный Ю. Экономика туризма: учебник. Москва: Финансы и статистика, ИНФРА-М, 2010. 446 с.


## TURİZM – İQTİSADİ FƏALİYYƏT FORMASI KİMİ

*Pəri Həsənova, Zeynallı Yusif*

### XÜLASƏ

Məqalədə turizm iqtisadi fəaliyyətin bir növü kimi qiymətləndirilir. Ölkənin ÜDM-in səviyyəsini artıran və iqtisadi inkişafına töhfə verən beynəlxalq turizmin əsas şərtləri müəyyən edilir. Azərbaycanda gələn və gedən turizm göstəricilərinin dinamikasının təhlili təqdim olunur. Daxili turizmin aşağı səviyyəsinin səbəbləri açılır və onun daha da inkişaf etdirilməsi yolları göstərilir. Turizmin ölkə iqtisadiyyatına dolayı təsirini nəzərə alan mexanizm təklif edilir.

## ТУРИЗМ - КАК ФОРМА ЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

*Пари Гасанова, Зейналлы Юсиф*

### АННОТАЦИЯ

В статье туризм рассматривается как форма экономической деятельности. Определяются основные условия международного туризма, повышающие уровень ВВП страны и способствующие ее экономическому развитию. Представлен анализ динамики показателей въездного и выездного туризма в Азербайджане. Выявлены причины низкого уровня внутреннего туризма и показаны пути его дальнейшего развития. Предлагается механизм учета косвенного влияния туризма на экономику страны.

## TOURISM - AS A FORM OF ECONOMIC ACTIVITY

*Pari Hasanova, Zeynalli Yusif*

### SUMMARY

In the article tourism is investigated as a form of economic activity. Basic terms of international tourism reducing the level of GDP of the country and contributing its economic development are determined. Analyze of dynamics of inner and outer tourism in Azerbaijan are given. The reasons of low level of inner tourism and the ways of its further development are shown. Mechanism of indirect impact of tourism to economy of the country are proposed.

# XARİCİ İQTİSADİ FƏALİYYƏTİN VALYUTA TƏNZİMLƏNMƏSİNİN KONSEPTUAL ƏSASLARI

***i.ü.f.d.Fərid Babayev***
***BDU-nun dosenti***
***Aytən Şərifova***
***BDU-nun magistrantı***
***sharifova.ayten@bk.ru***

***Açar sözlər***: valyuta nəzarəti, xarici iqtisadi siyasət, valyuta tənzimlənməsi, xarici iqtisadi fəaliyyət, institusional tənzimləmə
***Ключевые слова:*** валютный контроль, внешнеэкономическая политика, валютное регулирование, внешнеэкономическая деятельность, институциональное регулирование.
***Keywords:*** currency control, foreign economic policy, currency regulation, foreign economic activity, institutional regulation.

İqtisadi prosesləri tənzimləyən dövlətin funksiyaları iqtisad elmində hələ onun meydana gəldiyi dövrlərdən başlayaraq nəzərdən keçirilir. Dövlətin iqtisadi funksiyalarının reallaşdırılması üzrə dünya təcrübəsi göstərir ki, bu funksiyaların tərkibi və mahiyyəti tarixi proseslərin müxtəlif mərhələlərində daima və dinamik surətdə inkişaf etmiş və etməkdədir. Xarici ticarət nəzəriyyələrinin inkişafı özündə xarici ticarətə müdaxilə və onun kəskin məhdudlaşdırılması üzrə tədbirlərdən başlayaraq ixrac yönümlü, idxalı əvəz edən istehsalın dəstəklənməsinin zərurətinin dərk olunması və iqtisadi proseslərə tamamilə qarışmamaq siyasətinədək dövlətin tənzimləyici rolunun təkamülünü əks etdirir.

Bu baxımdan xarici iqtisadi fəaliyyətin valyuta tənzimlənməsi probleminə dair müasir dövrün tələblərinə adekvat olan konseptual ümumiləşdirilmələrin aparılması və effektiv həll mexanizmlərin müəyyən edilməsi bu istiqamətdə mövcud olan əsas anlayışlar aparatının və elmi yanaşmaların formalaşması xüsusiyyətlərinin, həmçinin, problemin nəzəriyyəsi, metodologiyası və əsas konsepsiyalarının tədqiq edilməsini zəruri edir.

İlkin iqtisadi cərəyan kimi formalaşmış merkantilizmdən tutmuş bu günə qədər araşdırdığımız problemin mahiyyəti bir qayda olaraq, xarici iqtisadi fəaliyyətin konsepsiyası konteksində təqdiq edilmişdir. Ümumiyyətlə, dövlət-iqtisadiyyat qarşılıqlı münasibətləri zaman-zaman fərqli məzmunda şərh edilmişdir.

Bazar iqtisadiyyatının tənzimlənməsinə tarixən qərarlaşmış bir sıra nəzəri yanaşmalar mövcuddur və onları şərti olaraq iki qrupa ayırmaq olar: təsərrüfat mexanizminin tənzimlənməsinə dövlət müdaxiləsinin tərəfdarları və ona qarşı çıxanlar.

Bu qrupların hər ikisi ümumi əsaslara malikdirlər. Onlar dövləti cəmiyyətin strateji məqsədlərinin əldə olunmasına yönəlmiş iqtisadi siyasətin aparılması üçün müəyyən mülkiyyətə və təsərrüfat funksiyalarına malik olan iqtisadi sistemin bir subyekti kimi nəzərdən keçirirlər.

Merkantilistlər hesab edirdilər ki, dövlət milli sərvətin artımını yalnız ixrac hesabına stimullaşdırmalıdır və xarici ticarət siyasətinin əsas məqsədinin dövlətin qızıl ehtiyatını artırmaq olduğunu irəli sürürdülər. Bununla əlaqədar olaraq, tədiyyə balansında daim profsitin təmin edilməsi üçün fəal dövlət müdaxiləsini zəruri hesab edirdilər.

XVIII əsrin sonlarından başlayaraq klassik məktəb (F.Kene, A.Smit, D.Rikardo və s.) hesab edirdi ki, kapitalizm özünütənzimləyən bir sistemdir və iqtisadi resursların tam istifadəsinə aparır. Klassik nəzəriyyə praktiki olaraq dövlətin iqtisadiyyata müdaxiləsini inkar edirdi.

A.Smit qeyd edirdi ki, dövlət iqtisadi proseslərə müdaxilə etməyərək yalnız gözətçi rolunu yerinə yetirməlidir.

Eləcə də klassiklərin fikrincə, pul-kredit siyasəti, həmçinin valyuta siyasəti istehsalın həcminə təsir göstərə bilməz, yəni pullar iqtisadi aktivliyə təsir göstərmirlər. Klassik nəzəriyyənin iddia etdiyi kimi pul kütləsinin həcmindəki dəyişikliklər təsərrüfat subyektlərinin ehtimal olunan sövdələşmələrinin həcminə təsir edir, lakin tam məşğulluq şəraitində istehsalın həcminə təsir göstərmir. Pul kütləsinin artması qiymətlərin proporsional olaraq yüksəlməsinə, azalması isə qiymətlərin səviyyəsinin proporsional olaraq aşağı düşməsinə səbəb olur.

XX əsrin əvvəllərində xarici iqtisadi fəaliyyətin inkişaf problemlərinə yanaşmalarda iki əks istiqamət formalaşmışdı. Bunlara açıq iqtisadiyyat tərəfdarları Q.Haberlou, E.Hekşer, B.Olin, D.Lendler, A.Lindbek, P.Buomberger və onlara qarşı çıxanlar - iqtisadi proseslərə dövlətin aktiv müdaxiləsinin tərəfdarları - C.M.Keyns, K.Lammers, B.Laum və s. aid idilər.

XX əsrin ortalarında açıq iqtisadiyyatın səmərəliliyi ideyası möhkəm mövqe tutmağa başladı. Bu ideyanın tərəfdarları P.Samuelson, V.Leontyev, R.Vernoy, Q.Hafbauer, M.Porter iddia edirdilər ki, xarici ticarət təkcə qarşılıqlı faydalı mübadilə prosesi deyil, o, həmçinin ayrı-ayrı ölkələrin iqtisadi inkişaf səviyyəsindəki fərqləri azalmasına və ETT-nin inkişafına şərait yaradır. Həmçinin xarici ticarətin multiplikatoru nəzəriyyəsi də geniş yayılmışdır. Bu nəzəriyyəyə əsasən xarici ticarətin milli gəlirin artım dinamikası və digər amillərə təsir effekti hər bir ayrıca ölkə üçün müəyyən kəmiyyət asılılıqları ilə xarakterizə olunur və bu asılılıq müəyyən əmsal - multiplikator formasında hesablanaraq ifadə oluna bilər. Daha sonralar bu nəticələrin müasir dövrdə Azərbaycan iqtisadiyyatı üçün aktuallığını Azərbaycan iqtisadçılarının tədqiqatları da təsdiqləyirdi: "Milli iqtisadiyyatın dünya təsərrüfatı ilə əlaqələrinin ümumi meylini və iqtisadiyyatın inkişafı üçün xarici ticarətin əhəmiyyətini əks etdirən mühüm ümumiləşdirilmiş göstəricilər olan idxal, ixrac və xarici ticarət dövriyyəsinin ÜDM-da həddi, asılılıq əmsalı, ixracın idxalı ödəmə faizi, ticarət axınının intensivlik əmsalı, elastiklik əmsalının xarici ticarət balansının fərqi ilə qarşılıqlı əlaqədə təhlili xarici ticarətin ümumi vəziyyətinin dəyişməsini daha düzgün əks etdirir" [5, s. 123-124].

İqtisadçılar tərəfindən təklif olunan nəzəriyyələr təcrübədə beynəlxalq ticarətin inkişafının yüksək artım surəti ilə öz təsdiqini tapırdı.

Postsovet məkanının tədqiqatçılarının qeyd etdiyi kimi - "… beynəlxalq əmtəə mübadiləsi prosesinə dövlətin təsiri milli iqtisadiyyatın əlavə tənzimləyici aləti kimi çıxış edə bilər" [5].

Tədqiq olunan problemin bu aspektinə aid nəzəri mühakimələrin sonrakı inkişafı xarici ticarətin liberallaşdırılması; istehsalda dəyişikliklər, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, elm və istehsalın kooperasiyasının genişlənməsi, qloballaşmanın güclənməsi və s. nəticəsində xarici ticarətin strukturunun dəyişməsi kimi tendensiyalardan əhəmiyyətli dərəcədə asılı olmuşdur.

Klassik və neoklassik məktəbin fundamental konsepsiya və ideyalarının sonrakı inkişafı nəticəsində qeyd olunan aspektdə yeni iqtisadi strategiya formalaşdı. Bu iqtisadi strategiyanın əsasında institusionalizm və neoinstitusionalizm nəzəriyyələri dururdu. İnstitusionalizmin nümayəndələri: T.Veber, C.Helbeyt, C.Kommons, U.Mitçell dövlətin tənzimləyici rolunda ictimai və şəxsi maraqların uyğunlaşdırılması məsələlərini ön plana çəkirdilər. Neoinstitusionalizmin tərəfdarları R.Kouz, A.Piqu, T.Nort, O.Uilyamson isə hesab edirdilər ki, dövlət tərəfindən aktiv surətdə işlənib hazırlanan hüquqi normalar və institutlar sistemi iqtisadiyyata əhəmiyyətli dərəcədə təsir gücünə malikdir.

Beləliklə, dövriyyədə olan pulların miqdarı xarici-iqtisadi tarazlığa təsir göstərir. Tədiyyə balansının mənfi saldosu zamanı pul kütləsinin azalması milli əmtəələrin nisbi qiymətlərinin aşağı düşməsinə səbəb olur. Bu isə onların rəqabət qabiliyyətini artırır. Əksinə, ölkəyə xarici

valyutanın axını səbəbindən yaranan tədiyə balansının müsbət saldosu pul kütləsinin artmasına gətirib çıxaracaq, nəticədə milli əmtəələrin qiymətləri yüksələcək, bu isə ixracın qarşısını alaraq, idxalı stimullaşdıracaq. Beləliklə, hər iki halda tarazlıq təmin olunur.

Pulun kəmiyyət nəzəriyyəsi uzun zaman ərzində pul-kredit və valyuta siyasətinin əsası olmuş və bu günki dövrdə də öz tərəfdarlarına malikdir.

Klassik nəzəriyyənin davamçıları olan neoklassik məktəbin nümayəndələri iqtisadiyyatda aktiv hökümət siyasətinin nisbətən kiçik rolunu dəstəkləyirlər. Neoklassik məktəbin iqtisadçıları (L.Valras, V.Pareto, A.Marşall) istehsal resurslarının tam və səmərəli istifadəsi şəraitində bazar iqtisadiyyatının təbiətinə dayanıqlı, ümumi iqtisadi tarazlığa meyllilik xüsusiyyətinin xas olması haqda klassik iqtisadçıların çıxardığı nəticələri təsdiq etmiş və təkmilləşdirilmişlər [2, s.44].

Neoklassiklər öz mühüm nəaliyyətlərinin sırasına pulların əmtəələrin əksinə olaraq sərvət olmadığı haqda müddəanı da aid edirdilər. Pullar yalnız əmtəələrin mübadiləsi zamanı vasitə rolunu yerinə yetirirlər və bütün nemətlərin dəyərinin ölçülməsi miqyası kimi çıxış edirlər. Buna görə də neoklassik makroiqtisadi modeldə yalnız üç bazar mövcuddur: əmək, kapital (qiymətli kağızlar) və nemət. Bu bazarlarda iki makroiqtisadi subyekt rastlaşır: ev təsərrüfatları və sahibkarlar [2, s.21].

Maliyyə-valyuta sferasında neoklassik nəzəriyyə üzən valyuta kurslarına əsaslanırdı və hesab edirdi ki, valyuta kursları tələb və təklifin makroiqtisadi proporsiyalarının tarazlığını təmin edən digər bazar mexanizmlərinin təsiri altında müstəqil şəkildə balanslaşır.

“Makromaliyyə sabitliyini təmin etmək məqsədilə strateji və cari dövrlərin tələbatına uyğun gələn iqtisadi məqsədlər seçilib bir-biri ilə uzlaşdırılmalıdır. İqtisadi məqsədlərin mövcud imkanlara uyğun seçilməsi tədrici iqtisadi müvazinətin ən uğurlu prinsipi hesab oluna bilər. Çünki onlar real resurs təminatına uyğun olmazsa, gələcəkdə nəinki tədrici müvazinəti pozacaq, eləcə cə ona nail olmaq imkanlarını məhdudlaşdıracaqdır” [4, s.57].

İqtisadi fikir sahəsində ən əhəmiyyətli dəyişikliyi C.M.Keyns etmişdir. O hesab edirdi ki, məqsədyönlü surətdə məcmu tələbin idarə olunması yolu ilə tam məşğulluğa nail olunmasının rəsmi dövlət siyasətinin əsas məqsədi olmalıdır. Bu müddəa C.M.Keynsin ideyasının praktik əhəmiyyətini təşkil edirdi. Bu məsələnin həll olunması sahəsindəki müvəffəqiyyətlər o qədər böyük olmuşdu ki, işgüzar fəaliyyətin aktivliyindəki yüksəliş və enmələr müstəqil surətdə öz əhəmiyyətini itirərək iqtisadiyyatın stimullaşdırılması və ya inflyasiyanın qarşısının alınması kimi rəsmi dövlət siyasətində dəyişikliklərin təzahürü kimi çıxış etməyə başladı.

Milli iqtisadiyyatın tədqiqinə yeni yanaşma bazar təsərrüfatının fəaliyyəti mexanizmi və bu mexanizmdə dövlətin iqtisadi rolu haqda təsəvvürləri dəyişməyə imkan verdi. Hələ Breten-Vuds konfransının hazırlanması zamanı Keyns çalışırdı ki, Beynəlxalq Valyuta Fondunun yaradılması haqda sazişin layihəsində dövlətlərin öz valyutalarının kurslarının hərəkətliliyi sahəsində hüquqları öz əksini tapsın və pul-kredit siyasətinin alətlərinin istifadəsini öncədən görə bilmişdi.

Bazar iqtisadiyyatının fəaliyyətinin keyns modelinə əsasən xarici-iqtisadi sferada tarazlığa dövriyyədəki pulların miqdarının dəyişməsi hesabına, əsasən də xarici ticarətin vəziyyətinə birbaşa təsir göstərən amillər: işgüzar fəallığın, məşğulluğun və gəlirlərin səviyyəsindəki dəyişikliklər hesabına nail olmaq olar.

Bunun tamamilə əksini büdcə kəsri və böyük həcmdə dövlət borcunun mövcudluğunu müzakirə edən monetaristlər (M.Fridmen, K.Bryuner, A.Melser) iddia edirdilər. Onlar tənəzzül dövründə vergilərin ixtisar olunması və yüksəliş dövründə dövlət xərclərinin ixtisarı ideyasını dəstəkləyir və son nəticədə dövlətin iqtisadiyyatdakı rolunun təsdiqləyirdilər [4, s.38].

Monetaristlərin fikrincə keyns modeli pul-kredit siyasətinin aparılmasının qısamüddətli nəticələrinə nail olmağa imkan verir, lakin uzunmüddətli dövrdə pul-kredit siyasətinin aparılmasının real nəticələri sıfra bərabərdir və bu siyasət nəticəsində dəyişən yeganə iqtisadi göstərici qiymətlərin səviyyəsidir. Monetaristlər həmçinin iddia edirdilər ki, qiymətlərin və gəlirlərin səviyyəsinin dəyişdirilməsi vasitəsilə tədiyə balansının bərabərləşdirmək mümkün deyil. Yalnız valyuta kursunun dəyişdirilməsinin köməyi ilə tarazlı tədiyə balansına nail olmaq olar, yəni tələb və təklifin təsiri altında valyuta kursunun sərbəst dəyişməsinə üstünlük verilirdi.

Beləliklə, monetarizm öz əsasında klassik iqtisadi nəzəriyyənin və onun davamçıları neoklassiklərin fikirlərini təsdiq edirdi.

Valyuta tənzimlənməsinin nəzəriyyə və praktikasının inkişafına əhəmiyyətli töhfəni M.Gilbert verdi. O, müharibədən sonrakı dövrdə likvidlikdə keyfiyyət dəyişikliklərinin edilməsi məsələsini qarşıya qoyaraq, qızıl və valyuta ehtiyatları arasında harmoniyanın qorunub saxlanılması fikri ilə çıxış edirdi. Bu müəllif qızıl-deviz standartlarının süqutunun səbəb və nəticələrini dərindən təhlil edərək, dünya valyuta-kredit sisteminin əsas inkişaf yollarını təklif etmişdi. O, perspektivdə çox valyutalı sistemin istifadəsini qeyd etmişdir. M.Gilbert həmçinin qeyd edirdi ki, valyuta kredit münasibətlərinin kimyəvi tərkibinin əsas elementi siyasi rəhbərliyin gücü və sərtliyi və ya onların mövqeyi-mövcudluğudur [2, s.41].

Valyuta tənzimlənməsinin nəzəriyyə və praktikasına əhəmiyyətli töhfəni AFR-nın keçmiş iqtisadiyyat naziri L.Erxard vermişdir. Valyuta nəzarətinin ləğv olunması siyasətinə qarşı mübarizəni o, ön plana çəkirdi. Qərbi Almaniyada müharibədən sonrakı dövrdə əsas səylər milli valyutanın mövqeyinin bərpa olunmasına; sərbəst qiymətəmələgəlmə mexanizmlərinin təmin olunması məqsədilə tezliklə valyuta nəzarətinin ləğv olunmasına; iqtisadiyyatın inkişafına yönəldilirdi. Azad sahibkarlıq mexanizmi vasitəsilə iqtisadiyyatda tarazlığın təmin olunmasına üstünlük verilirdi.

Qeyd olunduğu kimi, yanaşmalar arasındakı fərqlər dövlətin istifadə etdiyi təsir metodlarından və ya bu təsirin tamamilə inkar olunmasından ibarətdir. Bu mövqeni avstriya iqtisadçısı F.Xayek də müdafiə edirdi. O, ölkələr arasındakı pul dövriyyəsinin valyuta tənzimlənməsi və nəzarətinin bütün növlərinin ləğv olunması, eləcə də müqavilələrin bağlanması və mühasibat uçotunda əməliyyatların əks olunması zamanı tam azad surətdə valyuta növünün seçiminə yol verilməsini təklif edirdi.

Əslində, qeyd etmək lazımdır ki, bu günki dövrdə hər hansı bir elmi məktəbin mövqeyinə üstünlük verən, birmənalı surətdə müəyyən olunmuş yanaşmalar sistemi mövcud deyil. Bu, bir qədər də dünya iqtisadiyyatın inkişafının yüksək templəri və müxtəlif ölkələrin iqtisadiyyatlarının qarşılıqlı asılılığının artması ilə əlaqədardır. Ayrıca götürülmüş ölkə qarşıya çıxan valyuta problemlərini dünya təsərrüfatı ilə qarşılıqlı əlaqənin xüsusiyyətlərini nəzərə olmadan həll edə bilməz. Bundan əlavə iqtisadçıların haqlı olaraq qeyd etdikləri kimi müxtəlif situasiyalarda eyni hadisənin maliyyə ilk növbədə də valyuta bazarlarına təsiri əhəmiyyətli dərəcədə fərqlənə bilər. Deməli, bir halda bu tədbirlər, digər halda isə tamamilə başqa tədbirlərin həyata keçirilməsi tələb oluna bilər.

“Araşdırmalar göstərir ki, iqtisadi inkişafın bazar mexanizmi nəinki dövlət tənzimlənməsini istisna edir, hətta müasir sivilizasiyalı bazar sistemli ölkələrdə kifayət dərəcədə mükəmməl dövlət tənzimlənməsi olmadan iqtisadi inkişafın yüksək tempinə nail olmağın qeyri-mümkünlüyünü göstərir. Ona görə də Azərbaycanda milli müstəqil iqtisadiyyatın yaradılması bazar mexanizmi ilə dövlət tənzimlənməsinin qarşılıqlı fəaliyyətinin optimal nisbətinin yaradılmasından çox asılıdır” [5, s.21].

Beləliklə, aydın olur ki, iqtisadiyyata təsirin bu və ya digər metodlarının istifadəsi və ya istifadə olunmaması ölkə iqtisadiyyatının inkişafının vəziyyətindən və mərhələsindən asılıdır. Bu müddəa o faktla təsdiq olunur ki, iqtisadi nəzəriyyələrdən heç biri tamamilə saf halda tətbiq olunmaqla özünü uzunmüddətli dövrdə təsdiq edə bilməmişdir.

Bir çox yerli tədqiqatçıların bu fikri ilə də razıyıq ki: "Mövcud metodoloji baxışların əsas çatışmazlıqları bir qayda olaraq, reallığın yalnız bir aspektini qabartmaları və onun tam şəkildə şərhini yaxud təhlilini həyata keçirə bilərək təlimlərarası sintezin formalaşması baxımından yararsız olmaları ilə şərtlənir" [4, s.31].

Bir çox MDB ölkələri və Azərbaycan iqtisadçıları da valyuta tənzimlənməsinin nəzəri-metodoloji və praktiki məsələlərini tədqiq etmişlər. Bu ölkələrlə qərb ölkələrinin tədqiqatçılarının əsərlərindəki mühüm fərqlər ondan ibarətdir ki, qərb iqtisadçıları valyuta bazarının fəaliyyəti və tənzimlənməsi sahəsində tədqiqatları bazar iqtisadiyyatı şəraitində aparırdılar, Azərbaycan və MDB ölkələri isə iqtisadi tənzimlənmənin inzibati-amirlik metodlarından bazar metodlarına yalnız XX əsrin sonlarında keçmişdir. Əksər MDB ölkələrində və Azərbaycanda faktiki olaraq təsdiq olunmuş valyuta tənzimlənməsi, həmçinin ümumi dövlət tənzimlənməsi nəzəriyyəsinin mövcud olmaması faktını məhz bununla izah etmək olar.

1990-cu illərin sonlarından etibarən Dünya Bankının ekspertlərinin fikrincə dövlətin iqtisadiyyata, xüsusilə də xarici iqtisadi fəaliyyətə təsirinin ən geniş yayılmış, mütərəqqi və perspektiv modeli "effektiv dövlət modelidir". Bu model dedikdə, bazarın funksional xüsusiyyətlərinin reallaşdırılması zamanı katalizator rolunu oynayan, milli və beynəlxalq səviyyədə şəxsi biznesin fəaliyyətini stimullaşdıran və tamamlayan dövlət başa düşülür. Burada beynəlxalq səviyyədə şəxsi biznesin fəaliyyətinin tamamlanması dedikdə, yalnız institusional və beynəlxalq səviyyədə şaxələnmiş effektiv alət və vasitələr toplusundan istifadə etməklə beynəlxalq rəqabət qabiliyyətinin milli mənafelərə uyğun gücləndirilməsi baxımından xarici-iqtisadi ekspansiyanın təşviqi kimi başa düşmək olar. Müasir beynəlxalq iqtisadi münasibətlər sisteminin fəaliyyət təcrübəsi effektiv dövlətlərin xarici-iqtisadi siyasətində adekvatlıq prinsipinin reallaşdırılmasını tamamilə təsdiq edir.

Qeyd etmək lazımdır ki, qloballaşma proseslərinin inkişafı dövlətləri insan fəaliyyətinin bütün sferalarında öz siyasətlərinin koordinasiyasının gücləndirilməsinə sövq edir. Belə koordinasiya müasir dövlətin xarici siyasətdəki rolunu zəiflətmədən dövlət hakimiyyətinin beynəlxalq əməkdaşlıqla bağlı olan istiqamətinin gücləndirilməsini tələb edir.

Azərbaycan dünya təsərrüfatı sisteminin bir hissəsi olaraq, dünya iqtisadiyyatının müasir vəziyyətdəki üstünlüklərindən məharətlə istifadə etməyə çalışmalıdır; qloballaşmanın bütün müsbət cəhətlərini öz mənafelərinə uyğun istifadə etməli və eyni zamanda onun mənfi təsir amillərinə qarşıdurmaq qabiliyyətini inkişaf etdirməlidir.

Azərbaycanın dünya təsərrüfatına inteqrasiyası milli iqtisadiyyatın inkişaf strategiyasının ən mühüm istiqamətlərindən biridir. Bu zaman bu proses üçün zəruri olan strateji məqsəd və vəzifələr kompleksi Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətinin əldə olunması ilə bağlıdır və aşağıdakı tərkib hissələrini nəzərdə tutmalıdır:

- dövlət iqtisadiyyatın struktur yenidənqurmasını məqsədyönlü surətdə dəs- təkləməsi;
- Azərbaycanın dünya təsərrüfatında iştirakı xarakterində həm əmtəə ixti- saslaşması xətti ilə, həm də müqavilə, hüquqi və siyasi şərtlər baxımından dəyişikliklərin edilməsi;
- ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması.

İnteqrasiya proseslərinin güclənməsi bütövlükdə sosial-iqtisadi inkişafda və xüsusilə xarici iqtisadi fəaliyyətin təşkilində dövlətin rolu və yerinin dərk olunması sahəsində radikal-liberal

və tənzimlənən bazar iqtisadiyyatı konsepsiyalarının birbaşa surətdə bir-birinə qarşı qoyulmasının qeyri-konstruktiv xüsusiyyətlərini üzə çıxarır.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası problemlərini araşdıran tədqiqatçıların fikirləri də bu faktı təsdiqləyir. "Müasir qloballaşma prosesinin formalaşdırmaqda olduğu qlobal ümumilik heç bir vəchlə regional ünsürün aradan qaldırılması kimi qavrana bilməz. Hər hansı bir ölkəyə münasibətdə (onun inkişaf səviyyəsində və milli tənzimləmə sistemi özəlliklərindən asılı olmayaraq) geosiyasi və geoiqtisadi dəyişənlər çoxluğu tətbiq edilən "oyun qaydalarında" dominant rola malikdir, regional iqtisadi inteqrasiya təmayülləri daha da güclənmişdir" [3, s.60].

Bu aspektdə fikrimizcə, söhbət mütləq surətdə dövlətin tənzimləyici funksiyalarında köklü keyfiyyət dəyişikliklərinin edilməsindən gedə bilər. Bu funksiyaların mahiyyəti və tərkibində azərbaycan dövlətçiliyinin konkret tarixi inkişaf mərhələsinin xüsusiyyətlərinə uyğun dəyişikliklər etmək zəruridir. Azərbaycan dövlətçiliyinin bu funksional dəyişiklikləri bir tərəfdən rəqabət mühitinin inkişafının və bazar mexanizmlərinin effektiv fəaliyyətinin institusional təminatını yaratmalı digər tərəfdən isə bazarın fəaliyyətinin mənfi nəticələrini yumşaltmalı və ona sosial yönümlülük verməlidir; eləcə də ilk növbədə olmasa da, dünya iqtisadiyyatının qloballaşması proseslərinin mənfi təsirlərinə, inkişaf etmiş ölkələrin xarici-iqtisadi ekspansiyasına qarşıdurmanın və müasir beynəlxalq iqtisadi münasibətlər sistemində qəbul olunmuş norma və qaydaları nəzərə almaqla milli iqtisadi mənafelərin sivilizasiyalı formada müdafiəsinin institusional mexanizmini yaratmalıdır. Hesab edirik ki, Azərbaycanın müasir dünya təsərrüfatına səmərəli inteqrasiyası siyasəti iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizminin köklü institusional transformasiyasına aparır.

Fikrimizcə, xarici iqtisadi fəaliyyətin konsepsiyasının işlənib hazırlanması və onun tənzimlənməsi məsələlərində adekvatlıq prinsipinin nəzərə alınması zəruridir. Adekvatlıq prinsipi dedikdə xarici iqtisadi fəaliyyətin elə bir institusional tənzimləmə sisteminin yaradılması başa düşülür ki, o, beynəlxalq norma, qaydalar və qloballaşma tendensiyalarına riayət olunması çərçivəsində xarici-iqtisadi fəaliyyətin xarakteri və istiqamətlərində milli iqtisadi mənafelərin prioritetlərini qoruyub saxlaya və müdafiə edə bilsin. Adekvatlıq prinsipi xarici-iqtisadi fəaliyyətin institusional tənzimləmə sisteminin xüsusiyyətlərinin və dünya iqtisadiyyatının qloballaşması qanunauyğunluqlarının üzvi surətdə səciyyələndirilməsinin konseptual əsası kimi nəzərdən keçirilə bilər. Bununla bərabər adekvatlığın özünün mahiyyəti və tərkibi beynəlxalq tələb, norma və qaydaların daxili institusional reallaşdırılmasının elə bir özünəməxsusluğu və üsulları kimi başa düşülməlidir ki, bu zaman qeyd olunan üsullar sözsüz ki, milli iqtisadi inkişafın və qloballaşan dünya iqtisadiyyatı sistemində Azərbaycanın layiqli yerinin təmin olunması üzrə strateji məqsəd və vəzifələr prizmasından özünəməxsus funksional tənzimləmə qabiliyyətini formalaşdırmış olsun.

Fikrimizcə, hazırki dövrdə dövlət hakimiyyəti orqanları tədqiqatçılar və ekspertlər tərəfindən təklif olunan bir çox modellərdən öz seçimlərində əsasən "müasirləşdirmə strategiyasına" üstünlük verməlidir. Bu strategiya şəxsi təşəbbüskarlığı və bazar rəqabətini gücləndirərək, eyni zamanda cəmiyyətin və iqtisadiyyatın müstəqil surətdə həll edə bilmədiyi məsələlərin həllində dövlətin rolunun gücləndirilməsini təklif edir. Bu zaman dövlətin siyasəti yerli əmtəə istehsalçılarının bazarın xarici istehsalçılarının haqsız rəqabətindən qorunmasının uyğun metodlarının tətbiqi ilə Azərbaycanın dünya iqtisadi birliyinə geniş inteqrasiyasına yönəlməlidir.

Biz, xarici ticarət əlaqələrinin modelləşdirilməsi problemlərini araşdıran yerli tədqiqatçıların da bu məsələyə münasibətləri ilə razıyıq. "Azərbaycan Respublikasının beynəlxalq hüquqi tam səlahiyyətli üzvü kimi beynəlxalq iqtisadi münasibətlər sisteminə

inteqrasiyası onun xarici-iqtisadi siyasəti strategiyasının, xüsusən də bu stategiyanın mühüm tərkib elementi olan xarici ticarətin optimal parametrlərinin təyin edilməsini, onun ölkənin sosial, siyasi, milli informasiya proqramları ilə düzgün əlaqələndirilməsini tələb edir" [1, s.76].

Belə konsepsiya, fikrimizcə, müəyyən sadə korrektə xarakterli tədbirləri deyil ciddi dövlət müdaxiləsini tələb edəcək. Xarici-iqtisadi siyasət təkcə elmtutumlu və ixracyönümlü sahələrin deyil, həm də idxalı əvəz edən və eləcə də qoyulan investisiyalardan tez və çevik mənfəət götürmək xüsusiyyətinə malik iqtisadiyyat sahələrində kiçik sahibkarlıq üçün əlverişli şəraitin formalaşmasında səyləri birləşdirməlidir.

Fikrimizcə, dövlət bu və ya digər inkişaf modelinə fanatik surətdə riayət etməməli yaxud da onun qəti rədd etməməlidir. İqtisadiyyatın açıqlığı ilə neoproteksionizmin; liberallaşdırma proseslərində dövlətin iştirakı ilə bazarın qaçınılmaz qanunlarının effektiv səciyyələndirilməsini tətbiq etməli, həmçinin ölkənin tarixi inkişaf kontekstini və sosial-mədəni aspektlərini nəzərə almaq zəruridir.

Bu günki dövrdə, fikrimizcə, xarici iqtisadi fəaliyyətdə adekvatlıq prinsipinin reallaşdırılmasının və effektiv dövlət modelinin uyğun konseptual sxemi institusionalizm və neoinstitusionalizmdir. Yuxarıda qeyd etdiyimiz kimi bu nəzəriyyələrin əsas nümayəndələri T.Veblen, C.Helbreyt, C.Kommons, D.Nort, M.Olson və s.-dir. İnstitusionalizmin Azərbaycanın müasir iqtisadi sistemi üçün birbaşa praktik əhəmiyyətə malik olan mühüm konseptual müddəası institusional strukturların bazar iqtisadiyyatının funksional qabiliyyətinə, struktur, sosial və xarici-iqtisadi siyasətinə əhəmiyyətli təsiri haqda mühakimələrindən ibarətdir.

İnstitusionalizmin dövlətin iqtisadi funksionallığının yüksəldilməsinə əsaslanan metodoloji bazası, dünya iqtisadiyyatının yeni inkişaf mərhələsi və inteqrasiya proseslərinin intensivləşməsi səbəbindən xarici-iqtisadi fəaliyyətdə dövlətin rolu haqda yeni təsəvvürlərə gətirib çıxarır. Azərbaycanın müasir xarici-iqtisadi strategiyasının işlənib hazırlanmasının metodoloji baxımdan ilkin şərti kimi adekvatlıq prinsipi anlayışının mahiyyətinin dəqiq müəyyən olunması təklif oluna bilər. Eləcə də adekvarlıq prinsipinin mahiyyətinin konkretləşdirilməsi zamanı ölkənin sosial-iqtisadi sisteminin dinamik inkişafı məqsədilə onun bütün aspektləri nəzərə alınmalıdır.

Beləliklə, xarici-iqtisadi fəaliyyətin strategiyası qaçınılmaz surətdə milli xarici- iqtisadi mənafelər ilə beynəlxalq iqtisadi təşkilatların institusional şərtləri, dünya bazarının qlobal çağırışları və daim güclənən, kəskin beynəlxalq rəqabətin arasındakı ziddiyyətli sərhədləri çərçivəsində reallaşır.

Adekvatlıq prinsipinin reallaşdırılması çərçivəsində yeni keyfiyyət xüsusiyyətlərinə malik dövlətin xarici-iqtisadi siyasətinin formalaşdırılmasının nəzəri-metodoloji əsasları "konsepsiya", "strategiya" və "xarici-iqtisadi siyasət" anlayışlarının mahiyyətinin və onların qarşılıqlı tabeçiliyinin tədqiq olunmasını nəzərdə tutur. Hesab edirik ki, xarici-iqtisadi fəaliyyətin konsepsiyası ölkənin sosial-iqtisadi inkişafının və qloballaşan dünya iqtisadiyyatında onun layiqli yerinin təmin olunması üzrə strateji məqsədlər haqda təsəvvürlər sisteminə əsaslanır. Xarici-iqtisadi fəaliyyətin strategiyası qeyd olunan məqsədlərin mühüm istiqamətlərini və reallaşdırılması vasitələrini nəzərə alır və ən ümumi formada milli iqtisadiyyatın beynəlxalq, rəqabətqabiliyyətinin təmin olunması kimi interpretasiya oluna bilər.

Dövlətin rolu və onun iqtisadi prosesləri tənzimlənmə qabiliyyəti onun apardığı iqtisadi siyasətlə müəyyən olunur. Dövlətin iqtisadi siyasəti bazar iqtisadiyyatı sisteminin zəruri tərkib elementi və həlqəsinə çevrilir. İqtisadiyyatın dövlət tənzimlənməsinin ümumi məqsədləri (dayanıqlı iqtisadi artımın təmin olunması, tam məşğulluğun təmin olunması, milli valyutanın sabitliyinin və tədiyyə balansının tarazlığının qorunub saxlanılması) ilə yanaşı, səmərəli iqtisadi

siyasət konkret qısa və orta müddətli məqsədlərə də malikdir. İqtisadi siyasətdə bu məqsədlərə çatmaq üçün dövlət tənzimlənməsinin konkret obyekt və vasitələri də dəqiq, birmənalı şəkildə müəyyən olunmalıdır.

## ƏDƏBİYYAT

1. Aslanov H.H. Xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi və bu sahədə "bir pəncərə" sisteminin tətbiqi. Audit jurnalı, Bakı 2021(1), səh.74-84.
2. Ələkbərov Ə.Ə., Məmmədov Z.F., Hüseynova A.T. Maliyyə bazarları. Dərs vəsaiti, Bakı 2021
3. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Dərs vəsaiti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, səh.185.
4. Məmmədov Z.F. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Dərslik, Bakı 2012.
5. Vəliyev D.Ə. Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarlarına inteqrasiyası: Təmayüllər, problemlər, perspektivlər, Bakı: Azərbaycan Universiteti" nəşriyyat, 2006, 242 s.

## XARİCİ İQTİSADİ FƏALİYYƏTİN VALYUTA TƏNZİMLƏNMƏSİNİN KONSEPTUAL ƏSASLARI

***Fərid Babayev, Aytən Şərifova***

## XÜLASƏ

Məqalədə valyutaya nəzarətin formalaşması və inkişafının nəzəri-praktiki aspektlərinin kompleks tədqiqi əsasında valyuta tənzimlənməsi sisteminin və onun reallaşdırılma mexanizmlərinin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələrin işlənib hazırlanmasından bəhs olunur. Tədqiqatın predmetini respublikada valyuta nəzarətinin formalaşması və inkişaf xüsusiyyətləri təşkil edir.

## КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ВАЛЮТНОГО РЕГУЛИРОВАНИЯ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

***Фарид Бабаев, Айтен Шарифова***

## АННОТАЦИЯ

В статье рассматривается разработка предложений и рекомендаций по совершенствованию системы валютного регулирования и механизмов его реализации на основе всестороннего изучения теоретических и практических аспектов становления и развития валютного контроля. Предметом исследования является становление и развитие валютного контроля в стране.

## CONCEPTUAL BASES OF CURRENCY REGULATION OF FOREIGN ECONOMIC ACTIVITY

***Farid Babayev, Ayten Sharifova***

## SUMMARY

The article discusses the development of proposals and recommendations for improving the system of currency regulation and its implementation mechanisms based on a comprehensive study of the theoretical and practical aspects of the formation and development of currency control. The subject of the study is the formation and development of currency control in the country.

# İNFORMASİYA VƏ TELEKOMUNİKASİYA SFERASINDAKI NORMATİV-HÜQUQİ MÜNASİBƏTLƏRİN TƏSNİFATI

***Məmmədov Nicat İdris oğlu***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: İqtisad üzrə fəlsəfə doktoru, dos. Şıxəlizadə Səidə***
**m.niat600@gmail.com**

***Açar sözlər***: İnformasiya və Telekommunikasiya sferası, İnformasiya və Kommunikasiya texnologiyaları, Normativ-hüquqi təsnifat, Telekommunikasiya xidməti, İnternet şəbəkəsi.
***Ключевые слова***: информационно-телекоммуникационная сфера, информационно-коммуникационные технологии, нормативно-правовая классификация, услуги связи, сеть Интернет.
***Keywords***: Information and Telecommunication sphere, Information and Communication technologies, Normative-legal classification, Telecommunication service, Internet network.

**Giriş:** İnformasiya və telekommunikasiya normativ-hüquqi münasibətlərin mövcud olduğu fəaliyyət sahəsidir. Bu əlaqələri dörd kateqoriyaya bölmək olar:

1) Qanunvericilik xarakteri daşıyan münasibətlər;
2) Tənzimləyici orqanların səlahiyyətində olan münasibətlər;
3) Bu qurumların informasiya və ya telekommunikasiya infrastrukturu (məsələn, operatorlar, məzmun provayderləri) şəklində mal və xidmətlər təklif etməsindən asılı olmayaraq, kommersiya qurumlarının hüquqi məsuliyyəti olan münasibətlər;
4) Beynəlxalq ölçüyə malik normalar da daxil olmaqla başqa bir kateqoriya.

Ümumiyyətlə İnformasiya və Telekommunikasiya və ya İKT-nin hüquqi nəticələrini təsvir etmək üçün “normativ-hüquqi münasibətlər”ə bənzər üsuldan istifadə olunmuşdur. Bəzən isə bu, "kiber hüquq" ilə əvəzedici kimi istifadə edilmişdir, baxmayaraq ki, bəzi şərhçilər normativ-hüquqi münasibətlərin kiber qanundan daha geniş bir anlayış olduğunu qeyd edirlər. Bəzi müəlliflər də deyirlər ki, Normativ-hüquqi münasibətlər həm də yalnız bir növ maddə haqqında deyil; daha doğrusu, müxtəlif növ münasibətləri tənzimləmək üçün də tətbiq oluna bilər. Bir sıra müəlliflər bu terminləri müxtəlif kontekstlərdə istifadə edir ki, bu da oxucuların oxuduqları məzmunun kontekstini itirmədən üst-üstə düşən istifadələri olan müxtəlif əsərlər arasında keçidini çətinləşdirə bilər.

XXI əsrdə informasiya kommunikasiya texnologiyalarının və internet şəbəkəsinin inkişaf etməsi bununla yanaşı onun insanların müstəqil fəaliyyət sahələrində tətbiq olunması gözlə görünəcək qədər aktualdır. Belə ki internetin köməyi ilə müxtəlif struktura malik təsərrüfat fəaliyyətindən irəli gələn fərqli işlər həyata keçirilir. Burada özünəxas xüsusiyyət ondan ibarətdir ki, internet vasitəsilə əlaqə yaratmaqla həyata keçirilən ticarət işlərini fiziki baxımdan görmək vacib deyil. Bu xüsusiyyət internet vasitəsiilə yaradılan yeni bir fəaliyyət növü kimi artıq xidmət sahəsi adı altında formalaşmışdır. Məhz elə buna görə də müəssisə və təşkilatlar internet vasitasilə yeni biznes yaratmaq üçün aşağıda göstərilən keyfiyyət və üstünlükləri mütləq şəkildə istifadə tətbiq etməlidirlər.

-rıəqabətin daha da artması;
-təklifin qeyri məhdud olması;
-müştərilərlə əlaqədən və əks əlaqədən faydanın əldə edilməsi aid olunur.

Dünya üzrərində internet şəbəkəsinin və internet texnologiyalarının iqtisadi sahə ilə inteqrasiyası nəticəsində həmin sahə üzrə modern elektron kommersiyanın yaranmasına və

inkişafına səbəb oldu. Öncəliklə internet sahəsindəki işlər istehlakçılara nəzərdə tutulmuş informasiya xidmətini göstərmək düşünülürdü və müştərilərlə münasibətləri yaxşılaşdırmaq məqsədi daşıyırdı. Növbəti mərhələdə isə internet texnologiyasının ən yeni inkanlarından istifadə etmək üçün müəssisələrdə priroritet məqsəd olan yeni biznes-modelinin işlənilməsinə və tətbiq olunmasına başlanıldı. İnkişafa uyğun olaraq yeni biznes modeli dedikdə aşağıdakılar nəzərdə tutulur:

1) Müştərilərlə və müəssisələrlə inkişaf yönümlü münasibətlərin yaradılmasına,
2) Vacib olan məlumat və sifarişin alınmasına,
3) Digər marketinq kanallarının yaranmasına,
4) Müştərilərin tələbatı, sifarişçilərin, malgöndərənlərin və s. barəsində lazımi məlumatların yığılmasına və sistemləştirilməsinə və s. zəmin yaradan cəhətlərə malik idi.

Informasiya xidməti ticarətin və ya kommersiya müqavilələrinin aşağıdakı başlıca proseslərini özündə əks etdirir.

1) məhsulun qiymətinin təyin olunması;
2) sövdələşmənin bağlanılması və dəyərinin ödənilməsi;
3) məhsul haqqında məlumatın axtarılması və s.

Göstərilənlərə yanaşı ticarət əlaqələri ilə bağlı:

-hazır məsulun və göstərilmiş xidmətin təqdim olunması;
-qanuunvericilik bazasının formalaşşdırılması
-iş prosesi zamanı yaranan əlaqələrdən doğan problemlərin həll edilməsi;
-təsərrüfat fəaliyyəti zaman meydana cıxan problemlərin həlli yollarının yaradılması və öz təsdiqini tapması. Daha sonra bunu da qeyd etmek olar ki, başlıca kommersiya əməliyyatlarının bölmələri elektron ticarət sistemindən daha sürətli inkişaf edir.

Telekomunikasiya sistemləri isə internet şəbəkəsi sistemindən fərqli olaraq bütün rabitə və əlaqə şəbəkələrini özündə cəmləşdirir. Telekomunikasiya sistemi internet şəbəkəsi sistemindən fərqli olaraq ilk məqsaədi alınan məlumatın ötürülməsi olsa da, bu funksiya ilə məhdudlaşmır bele ki, ümunmən telekmunikasiya sistemini şərti olaraq iki yerə ayırmaq olar:

1) Telekomunikasiya sistem. Buraya məlumatın ilkin və tam formada qalması, telerabitə, elektron rabitə əlaqələr sistemi aid edilir.
2) Məlumat-telekomunikasiya sistemi. Buraya isə internet şəbəkəsi, habelə telekanallar və radiostansiyalaar daxildir.

Telekomunikasiya sistemi bir sistem kimi ilk dəfə Avropada meydana gəlsə də, ABŞ-da daha çox tətbiq olunmğa başlamış lakin ən intensiv şəkildə günümüzdə Уaponiyada zəruri fəaliyyət sektoru kimi çıxış edir.

**Əsas hissə:** XX əsrin 90-cı illərindən internet şəbəkəsi üzrə ticarət əməliyyatlarının aparılması geniş fomrada yayılmağa başlamışdır və günümüzdə demək olar ki, insanlar və müəssisələr bütün təlabatlarını intenet şəbəkəsi üzərindən həyata keçirirlər buda İnformasiya Cəmiyyətinin yaranmasını şərtləndirən əsas amillərdən biridir. Həmçinin internet şəbəkəsi üzrə ticarət edilən zaman investor kimi çıxış edən subyektlərdən qiymətli kağız bazarında sifariş əldə etmə imkanlarını artırır və onların qəbul etmə imkanlarını asanlaşdırır.

İnternet vasitəsilə həyata keçirilən ticarət əlaqələri mülkiyyət xarakteri daşıdığı üçün ortaya hüquqi münasibətlər meydana çıxır və buna görə də bu munasibətlərin hüquqi cəhətdən tənzimlənməsi zərurəti yaranır. Bundan başqa bu proseslər yalnız milli xarakter daşımadığı üçün yəni, ticarət əlaqələri beynəlxalq səviyyəli olduöu üçün huquqi tənzimləmələrdə beynəlxalq hüququn normalarına uyğun aparılmalıdır.

İnternet şəbəkəsi vasiyəsi ilə həyata keçirilən elektron ticarət əməliyyatlarına dair:

- Satış texnologiyaları. Bu prosesdə müştəilərdən sorğuların əldə edilməsi, maliyyə hesabatlarının aparılması, göstərilən xidmət haqqlarının ödənilməsi və s.
- Distant satışın reallaşdırılması. Yəni məhsul və xidmətlərin onlayn şəkildə həyata keçirilməsi və göndərilməsi nəzərdə tutulur.
- Alqı-satqı işləri.Bu prosesə, çatdırılma,satış,satışdan sonra dəstək mal və göstərilən xidmətin aktual tecrübə növü, kəmiyyət və keyfiyyət haqqında ikitərəfli informasiya əlaqəsi aid edilir.
- Məhsul və xidmətin çeşidlənməsi texnologiyaları aid edilir.

Müasir dövrdə elektron ticarətin sahəsində göstərilən informasiya və məhsul çeşidləri nəzərdə tutulur;

- kompüter texnikası və proqram təminatı sisstemləri;
- gündəlik məişətdə istifaddə olunan məhsullar;
- layihə və logistika xidməti;
- hesasbat bazarları, sığorta edilmə, fərqli növdə xidmətlər, biznes görə xidmət servisi.

Özəl xüsusiyyət kimi bu proseslər zamanı yaranan hüquqi məqamlara elektron imza, müqavilə, əqdlər, pul və s. buna bənzər anlayışların huquqi təsbit edilməsini zərurət halına çevirir. Bu tip aktual məsələlərin həll olunması zamanı beynəlxalq hüququn müvafiq surətdə əlaqələndirilməsi zərurrəti tələb olunur. Buna görə də, müəyyən olunmuş münasibətlərin hüquqi həlli qarşılıqlı razılıq əsasında formalaşdırılır. Çoxu zaman bu kimi məsələlərin həllində ən optimal variant tərəflər arasında sövdələşmə sisteminin yaradılması əsas götürülür. Qarşılıqlı məlumat razılığı zamanı aşaöıdakı göstəricilər xüsusi əhəmiyyət daşıyır

İnternetdən istifadə olunan zaman istər fərdi istifadəçilər istərsə də subyekt qismində çıxış edən müəssisə və təşekilatlar olsun. Bu zaman istifadəçilər və onlara internt xidməti təqdim edən operatorla istifadəçilər arasında qarşılıqlı olaraq hüquqi münasibətlər meydana gəlir. Bəzi hallarda istifadəçilər öz şəxsi kanallarına və ya provayderlərə giriş imkanı əldə etmək istəyərlər bu zama şəbəkə operatorları qanunla xidmət təminatçılarına uyğun şərtlərlə çıxışı təmin etməyə borclu ola bilər, lakin onlar "hüquqi münasibətlər" vasitəsi ilə bu girişə məhdudiyyətlər qoya bilsəydilər, özləri də öhdəlik götürməzdilər. Məsələn, operatorlar elə hüquqi münasibətlər qura bilər ki, yalnız tanınmış istifadəçilər və ya müəyyən keyfiyyətlərə malik olan istifadəçilər internet bağlantısından istifadə edə bilsinlər. Bu hallarda hüquq sahibləri öz şəxsi heyətini, eləcə də onlarla müqavilələri olan biznesləri (məsələn, İT dəstəyi təchizatçısını) əhatə edə bilər. Provayderin vəziyyətində bu o demək ola bilər ki, onun şəxsi heyətinə açıq internet bağlantılarından istifadə etməyə icazə verilən yeganə şəxslərdir. İqtisadi münasibətlərə əsaslandığından və tərəflər arasında heç bir əlaqə tələb olunmadığından bu münasibətləri "qapalı çıxış hüquq münasibətləri" adlandırmaq olar. Bu, "açıq çıxış hüquq münasibətləri"ndən fərqlidir. Operator müəyyən qiymətə açıq girişlə əlaqə təklif edə və istifadəçilərdən onunla fərdi müqavilələr bağlamağı tələb edə bilər. Bu hüquqi münasibətlər də yazılı müqavilələr vasitəsilə deyil, telefon danışıqları və ya e-poçt mesajları vasitəsilə həyata keçirilməlidir.

Müasir dövrdə İnformasiya Komunikasiya Texnologiyalarının bir fənn kimi təhsil sahəsində tədris olunması İnformasiya Cəmiyyətinin yaranmasında vacib amil kimi rol alır. Hansı ki, təhsil sahəsində tətbiq olunan informasiya sistemləri təhsilin yeni mərhələyə keçid eləməsinə kömək olur.

Demək olar ki, bütün sahələrində özünü qabarıq şəkildə biruzə verir. Bu aspektdən yanaşdığımız zaman ölkəmizdə istər aparılan təqdiqatlar işlərinin keyfiyyəti baxımından, istərsə də elmin menecmenti nöqteyi-nəzərindən beynəlxalq informasiya məkanına inteqrasiya informasiya texnologiyalarının tətbiq olunmasının genişlənməsi və inkişafı dinamikası baxımından müasir dövrümüzün ən aktual Ümumiyyətlə təhsil sistemi ilə informasiya sisteminin qarşılıqlı münasibətlərinin formalasdırılması vaxtı informasiya və nəzərdə tutulan

münasibətlərin yaradılması yönündə iki tərəf çıxış edir: birinci tərəf öyrədən-yəni təlimi verən, ikinci tərəfdə məlumatı qəbul edən-yəni öyrənən kimi çıxış edir.

Hazırki dövrdə telekomunikasiya sektoru verimlilik baxımından inkişafın, məşğulluğun və gəlirin yüksək olduğu iqtisadi sahələrdə araşdırılır. Statistikaya görə telekomunikasiya sahəsi üzrə dünyada məcmu gəlir 2008-ci ildə 1.3 triliyon dollar təşkil edir buda əvvəlki illərə nisbətdə bu sahənin 8.4% artmasını göstərir. Doğrudur ki, bu sahədən əldə olunan gəlirlərin böyük bir qismi digər sahələrdə də olduğu kimi xidmət sektorundan əldə olunmuşdur, buraya mobil rabitə xidməti, habelə internet kimi geniş yayğın olan sahələrdən əldə edilən gəlirləri aid etmək olar. Gələcək xarakterli yanaşmalar bu sahənin iqtisadi əhəmiyyətinin yüksəldilməsinə, kəmiyyət və keyfiyyət baxımından bu sahənin daha verimli olmasına yönəlik addımlar olacaqdır.

Ümumiyyətlə İKT-nin geniş miqyasada istifadə edilməsi ölkədaxili sahələr üçün hərtərəfli inkişaf yaradır, bunu beynəlxalq təcrübədə göstərir. Bu səbəbdəndə ölkələr öz iqtisadiyyatının dirçəldilməsində, əhalinin sosial-maddi rifahının yaxşılaşdırılmasında, yoxsulluğun səviyyəsinin azaldılmasında bu texnoloji irəliləyişlərdən istifadə edirlər. Müasir çərçivədə hərbir ölkənin özünün daxili sektorlarında İKT-nin tətbiq edilməsi və inteqrasiyası ümümən həmin ölkənin siyasi-iqtisadi gücünü göstərir.

Regionlar üzrə telekomunikasiya sahəsi üzrə illik gəlir

| Regionlar / İllər | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| Asiya | 364 | 399 | 431 | 456 | 474 | 480 |
| Şərqi Avropa | 80 | 87 | 92 | 96 | 98 | 100 |
| Latın Amerikası | 99 | 114 | 128 | 138 | 147 | 152 |
| Уaxın Şərq və Afrika | 81 | 98 | 112 | 125 | 134 | 141 |
| Şimali Amerika | 406 | 416 | 418 | 420 | 422 | 424 |
| Qərbi Avropa | 392 | 401 | 402 | 399 | 396 | 394 |
| Cəmi | 1422 | 1515 | 1583 | 1634 | 1671 | 1697 |

Telekomunikasiya sahəsi daxilindəki sferalardan illik əldə olunan məcmu gəlirə baxsaq bu sahə üzrə ən çox gəlir payının Şimali Amerikaya aid olduğunu görərik.Buna misal olaraq, statistikaya əsasən baxsaq Şimali Amerika bazarı telekomunikasiya sahəsi üzrə servis xidmətinin 28.5 %-ni təşkil edir. Bundan aşağı pay nisbətində Qərbi Avropa 27.7 %-lə daha sonra isə 11.8 %-lə Orta Şərq və s. digər regionlar yer alırlar. Bu göstərilənləri aşağıdakı cədvəl vasitəsilə daha aydın görmək mümkündür.

Müasir dövrdə informasiya hüququ hüquq elminin tam bir müstəqil sahəsi kimi çıxış edir lakin telekomunikasiya hüququ üçün bunu demək olmaz. Telekomunikasiya hüququ informasiya hüquq sahəsinin daxilində onun yarım sahəsi kimi yaranmışdır ona görə də, informasiya hüququ telekomunikasiya hüququndan geniş anlayışdır. Bu məsələ ilə bağlı fərqli yanaşmalar və fikirlər söylənsə də real olaraq hər iki anlayış qanunvericiliyə uyğun olaraq sistemi əks etdirir. Burdan da yola çıxaraq onu deyə bilərik ki, normativ-hüquqi normalar sistemi müxtəlif sahədə ümumi məcmu kimi qiymətləndirilir. Hansı ki, aydınt şəkildə İKT sistemlərində olan fəaliyyət formalarının reallaşdırılması zamanı yaranır, bəzən dəyişikliyə məruz qalır və hətta ləğv olunur. Qeyd etdiyimiz məqamlarda həmin sahənin nə dərəcədə iqtisadi əhmiyyətli olduğu başa

düşüləndir məhz elə buna görə də, bu sahənin tənzimlənməsi üçün müvafiq sahə üzrə vahid tənzimləyici qayda və qanunlar müəyyən edimәli və vahid tənzimləyici mexanizm formalaşdırılmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)
2. Ümumtəhsil məktəblərinin informasiya və telekommunikasiya texnologiyaları ilə bağlı təminat Proqramı (2003 - 2012-ci illər)
3. R.M. Əliquliyev "İqtisadi proseslərdə informasiya texnologiyaları" "Elm" nəşriyyatı, Bakı, 2002
4. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003—2012-ci illər)" - 17 fevral 2003-cü il
5. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" (Elektron Azərbaycan)" 21 oktyabr 2005-ci il
6. http://ict.az
7. www.rabita.az
8. http://www.president.gov.az
9. https://www.techtarget.com/searchcio/definition/ICT-information-and-communications-technology-or-technologies
10. http://www.meclis.gov.az


## İNFORMASİYA VƏ TELEKOMUNİKASİYA SFERASINDAKI NORMATİV-HÜQUQİ MÜNASİBƏTLƏRİN TƏSNİFATI

*Məmmədov Nicat*

### XÜLASƏ


Bütövlükdə dünyadakı bütün qayda və qanunlar əvvəlcədən müəyyən olunmuş normalara əsaslanır. Belə ki, dünya üzərində üç norma vardır. Bunlara hüquqi norma, riyazi norma, standart norma. Normlar qaydalar çərçivəsində davranış standartlarına istinad edir, hüquq münasibətləri isə mübahisələrin həll olunması sistemidir. Bizim bu günkü bəhs edəcəyimiz mövzuda əsas məsələ hüquqi norma ilə bağlıdır. Belə ki, bu məqalə normaların və hüquq münasibətlərinin informasiya və telekommunikasiya sahəsinə necə aid olduğunu araşdıracaq. Təsnifat bölgüsü isə müəyyən olunmuş sahələr üzrə nəzərdə tutulan fəaliyyətlə əlaqədar olan hüquq münasibətlərinə əsaslanacaqdır. İnformasiya və Telekommunikasiya sahəsindəki əsas amil müasir dövrün yeniliyi olan İnternet şəbəkəsi amilidir. Bu mövzuda İnternet üzərindəki İnformasiya mənbələrinin araşdırılması, habelə Telekommuniksiya sahəsindəki hüquq münasibətlərinin təsnifatı, İnternetdən istifadə edilməklə göstərilən xidmətlər, həmçinin insanların İnternet şəbəkəsi üzərindəki müstəqil fəaliyyəti və onların bu prosesdəki hüquqlarının normativ-hüquqi aktlarla təmin olunmasından ibarətdir. Məqalədə informasiya və telekommunikasiya sahəsində normativ-hüquqi münasibətlərin təsnifatını müəyyən etmək niyyətindədir. İlk olaraq təsnifat üçün ümumi qaydalar müzakirə olunacaq. Daha sonra bu qaydaların gündəlik həyatda necə tətbiq olunduğunu araşdıracaq. Sonda isə pozuntulara görə intizam tənbehi tədbirlərinin necə həyata keçirildiyinə diqqət yetirir. Nəhayət, bu məqalədə pozuntuların potensial nəticələri, habelə bu sahədə normativ-hüquqi münasibətlərlə bağlı yarana biləcək digər suallar təsvir ediləcəkdir.

## CLASSIFICATION OF NORMATIVE-LEGAL RELATIONS IN THE FIELD OF INFORMATION AND TELECOMMUNICATIONS

***Mammadov Nijat***

**SUMMARY**

In general, all the rules and laws in the world are based on predetermined norms. So there are three norms in the world. These include the legal norm, the mathematical norm, the standard norm. Norms refer to standards of conduct within rules, and legal relationships are a system for resolving disputes. The main issue in the topic we will discuss today is the legal norm. Thus, this article will examine how norms and legal relations relate to the field of information and telecommunications. The classification will be based on the legal relationship associated with the proposed activities in certain areas. The main factor in the field of information and telecommunications is the Internet factor, which is a modern innovation. This includes the study of sources of information on the Internet, as well as the classification of legal relations in the field of telecommunications, services provided using the Internet, as well as the independent activity of people on the Internet and ensuring their rights in this process. The article intends to define the classification of normative-legal relations in the field of information and telecommunications. First, general rules for classification will be discussed. He will then examine how these rules are applied in daily life. In the end, it focuses on how disciplinary measures are taken for violations. Finally, this article will describe the potential consequences of violations, as well as other questions that may arise in connection with the regulatory relationship in this area.

## КЛАССИФИКАЦИЯ НОРМАТИВНО-ПРАВОВЫХ ОТНОШЕНИЙ В СФЕРЕ ИНФОРМАЦИИ И ТЕЛЕКОММУНИКАЦИЙ

***Мамедов Ниджат***

**АННОТАЦИЯ**

Вообще все правила и законы в мире основаны на заранее установленных нормах. Итак, в мире существует три нормы. К ним относятся юридическая норма, математическая норма, нормативная норма. Нормы относятся к нормам поведения в рамках правил, а правоотношения представляют собой систему разрешения споров. Основным вопросом в теме, которую мы сегодня обсудим, является правовая норма. Таким образом, в данной статье будет рассмотрено, как нормы и правоотношения относятся к сфере информации и телекоммуникаций. Классификация будет основываться на правоотношениях, связанных с предполагаемой деятельностью в определенных сферах. Основным фактором в сфере информации и телекоммуникаций является Интернет-фактор, который является современной инновацией. Сюда входит изучение источников информации в сети Интернет, а также классификация правоотношений в сфере телекоммуникаций, услуг, оказываемых с использованием сети Интернет, а также самостоятельной деятельности людей в сети Интернет и обеспечение их прав в этом процессе. В статье предполагается определить классификацию нормативно-правовых отношений в сфере информации и телекоммуникаций. Сначала обсудим общие правила классификации. Затем он исследует, как эти правила применяются в повседневной жизни. В конце основное внимание уделяется тому, как применяются дисциплинарные меры за нарушения. Наконец, в данной статье будут описаны возможные последствия нарушений, а также другие вопросы, которые могут возникнуть в связи с нормативными правоотношениями в данной сфере.

# DÖVLƏTİN XARİCİ İQTİSADİ SİYASƏTİNİN MAHİYYƏTİ

***Səidə Şixəlizadə***
***Dosent, Bakı Dövlət Universiteti***
***Amid Kazımov***
***Magistrant, Bakı Dövlət Universiteti***
*azad.azerbaycanim.91@gmail.com*

***Açar sözlər***: dövlət, xarici siyasət, iqtisadi sahə, vahid ölkə siyasətinin mahiyyəti.
***Ключевые слова***: государство, внешняя политика, экономическая сфера, сущность политики отдельно взятой страны.
***Keywords:*** state, foreign policy, economic sphere, the essence of the policy of a single country.

Xarici iqtisadi siyasət haqqında danışarkən iqtisadiyyatla siyasətin qarşılıqlı əlaqəsinə nəzər yetirmək lazımdır. Siyasətlə iqtisadiyyat arasında qarşılıqlı münasibətlər problemi həmişə kəskin olmuş, çoxlu sayda suallar doğurmuş, lakin onlar heç vaxt tam və sona qədər həll olunmamışdır. İlk dövlətlərin yaranmasından bəri iqtisadiyyatın hakimiyyət dairələri tərəfindən tənzimlənməsi məsələsi ortaya çıxmışdır. Amma istehsal sferasının subyektləri siyasətin iqtisadi məsələlərə müdaxiləsini narazılıqla qarşılamışlar.

İqtisadiyyatla siyasət arasında qarşılıqlı əlaqələr və siyasətin iqtisadi münasibətlər sisteminə aktiv şəkildə müdaxilə etməsi , o cümlədən bütün cəmiyyət üçün həyati əhəmiyyət kəsb edən qlobal dəyişikliklər özünü biruzə vermişdir. İqtisadiyyatla siyasətə bir-birinə qarşılıqlı təsir göstərir. İqtisadiyyat hər hansı siyasi sistemin maddi tərkib hissəsi kimi təzahür edir. İqtisadiyyatın siyasətlə özünəməxsus sintezi iqtisadi siyasət kimi təzahür edir. İqtisadi siyasət isə ictimai əhəmiyyətli ciddi məqsədlərə nail olmaq üçün dövlət tərəfindən həyata keçirilən bütün iqtisadi proseslərə təsir tədbirlərinin məcmusudur. İqtisadi siyasət ilkin olaraq müəyyən məqsədlərə çatmaq üçün həyata keçirilir. Bunlar aşağıdakılardır.

1. Milli istehsalın davamlı inkişafı.
2. Məşğulluğun effektli səviyyəsinin təmin edilməsi və dəstəklənməsi.
3. Qiymət səviyyəsinin sabitləşdirilməsi.
4. Xarici ticarət balansının təmin edilməsi.

İqtisadi siyasət müxtəlif istiqamətlərdə həyata keçirilir. Bunlardan ən vacibləri aşağıdakılardır.

- Kapital qoyuluşlarının tənzimlənməsi.
- Satışın tənzimlənməsi.
- İşçi qüvvəsi bazarının tənzimlənməsi.
- Elmi-texniki tədqiqatların və təcrübə-konstruktor işlərinin tənzimlənməsi.

İqtisadi siyasətdə dövlətin qarşısında duran əsas vəzifələrdən biridə dünya ölkələrilə qarşılıqlı iqtisadi əlaqələrin qurulması, gücləndirilməsi və yüksək səviyyədə inkişaf etdirilməsidir. Çünki, ölkə iqtisadiyyatı təkcə daxili iqtisadiyyatla tam olaraq dayanıqlığını qoruya bilməz. Məhz burda dövlətin “Xarici İqtisadi Siyasəti” ön plana çıxır.

"Xarici İqtisadi Siyasət" - dövlətin idxal və ixrac, gömrük rüsumları, tariflər, məhdudiyyətlər, xarici istiqrazlar, digər ölkələrə iqtisadi yardım göstərilməsi, xarici kapitalın ölkəyə cəlb edilməsi birgə iqtisadi layihələrin həyata keçirilməsi sahəsində dövlət siyasətinin keçirilməsi deməkdir.

Xarici və ya beynəlxalq iqtisadi siyasət aşağıdakı əsas istiqamətlərdə həyata keçirilir.

1. xarici ticarət siyasəti;
2. tədiyyə balansı;

3. xarici investisiya siyasəti;
4. xarici yardım siyasəti;

**Xarici ticarət siyasəti** - Beynəlxalq ticarət müxtəlif ölkələrin alıcıları, satıcıları, və vasitəçiləri arasında həyata keçirilən alqı-satqı prosesidir. Xarici ticarət beynəlxalq əmək bölgüsünün dahada genişlənməsinə və dərinləşməsinə. mövcud resurslardan səmərəli istifadə edilməsinə və dünya xalqlarının maddi və mənəvi tələbatlarının ödənilməsinə şərait yaradır.C.Mill "Siyasi iqtisadın prinsipləri" əsərində göstərir ki, "Beynəlxalq ticarətin faydas - dünyanın məhsuldar qüvvələrindən daha səmərəli istifadə olunmsındadır" (3, səh-625).

Beynəlxalq ticarəti şərtləndirən amillər aşağıdakılardan ibarətdir.

- yerli istehsalın kifayət etməməsi;
- əmtəələrinqiymətinin beynəlxalq miqyasda fərqlənməsi;
- müxtəlif ölkələrdəfərqli əmtəələr istehsalı.

Müasir dövrdə dünyanın bir sıra ölkələrinin bazar iqtisadiyyatı sisteminə keçməsi beynəlxalq ticarətin genişlənməsi üçün perspektivlər açır. Yaşı bir o qədərdə çox olmayan ölkələrin milli iqtisadiyyatının formalaşması və inkişafı yalnız daxili imkanlarla deyil, əhəmiyyətli dərəcədə xarici amillərlə bağlıdır.

Xarici ticarət özündə ixrac və idxalı birləşdirir. Xarici ticarət daha çox inkişaf etmiş ölkələr üçün əlavə gəlir götürmək mənbəyidir. İqtisadi cəhətdən elədə yaxşı olmayan ölkələrə xidmət və əmtəələr nisbətən yüksək qiymətə satılır. Bu ölkələrdən isə xammal daha aşağı qiymətlə alınır.

Xarici ticarət idxaldan (əmtəə və xidmətlərin gətirilməsindən) və ixracdan (əmtəə və xidmətlərin göndərilməsindən) ibarətdir. Ticarət siyasətinin effektivliyi üçün idxalın əvəz edilmə üsullarının seçimi mühümdür.

Hazırda suverenlik və iqtisadi müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikası xarici ölkələrlə qarşılıqlı fayda verən əlverişli iqtisadi əlaqələri genişləndirməkdədir. Bu cür əlaqələrin yaradılması çün Azərbaycanda həm də istiqlaliyyətimizin iqtisadi təməlini möhkəmləndirilməsini təmin edə biləcək ictimai siyasi qüvvə və həm də zəruri iqtisadi potensial imkanlar mövcuddur.

Azərbaycanın xarici ticarəti haqqında dövlət statistika komitəsinin 2021-ci ilin yanvar-sentyabr aylarının ümumi statistikasın (makroiqtisadi göstəricilərin) nəzər yetirsək görərik ki, ötən illərə nisbətən artım müşahidə olunur. (10)

Cədvəl 1

| Göstəricinin adı | 2021-ci ilin yanvar-sentyabr ayları, faktiki |
|---|---|
| Ümumi daxili məhsul, milyon manat | 62 877,4 |
| o cümlədən qeyri neft-qaz ÜDM | 40 204,7 |
| Əhalinin hər nəfərinə düşən ÜDM, manat | 6 279 |
| Xarici ticarət dövriyyəsi 1), mlyn. ABŞ $ | 20 100,1* |
| o cümlədən: ixrac | 12 750,6* |
| ondan qeyri neft-qaz ixracı | 1 584,5 |
| idxal | 7 349,5* |

Tədiyyə balansı -xarici ticarət siyasətinin əsas vasitəsi tarif və qeyri-tarif tənzimləmələdir. **Tədiyyə balansı siyasəti** hökumətin tədiyyə balansının müvazinətini təmin etmək üçün həyata keçirdiyi tədbirlərin məcmusudur. Tədiyyə balansının kəsirini ödəmək üçün görülən tədbirləri bu uzunmüddətli və qısa tədbirlərə bölmək olar. Uzunmüddətli tədbirlərə aiddir

− Maliyyə və pul siyasətindən istifadə olunaraq iqtisadiyyatda devalvasiya yaradılması yolu ilə tədiyyə balansında tarazlığın təmin edilməsi;

− Milli valyutanın devalvasiya (revalvasiya) etmək;

− Xarici ticarət balansı kəsirlə bağlanarsa tarif dərəcələrini yüksəltmək, beləliklə də idxalda məhdudiyyətləri artırmaq və ixracın artırılması üçün tədbirlər görmək.

−Xarici ticarət balansı kəsirlə bağlanarsa tarif dərəcələrini yüksəltmək, beləliklə də idxalda məhdudiyyətləri artırmaq və ixracın artırılması üçün tədbirlər görmək.

Qısamüddətli tədbirlərə kəsiri ödəmək üçün digər dövlətlərdən , beynəlxalq təşkilatlardan vəsait əldə edilməsi və ya özünün malik olduğu beynəlxalq ehtiyatlardan istifadə edilməsi üzrə tədbirlər daxildir.

**Xarici investisiya siyasəti** - uzunmüddətli beynəlxalq kapital qoyuluşları sahəsində görülən tədbirləri əhatə edir. Kapital qoyuluşları özündə beynəlxalq uzunmüddətli portfel qoyuluşlarını və birbaşa özəl xarici investisiyaları birləşdirir.

• Birbaşa xarici investisiyalar – Xarici sahibkar kapitalının ölkədə uzunmüddətli kapital qoyuluşu tərəfindən çıxış edən investisiya formasıdır.

• Portfel investisiyalar - qlobal portfel investisiyaları daha qısa müddətli investisiyalar olub , dövriyyə sürəti kifayət qədər çoxdur.

**Xarici yardım siyasəti -** Ölkənin xarici yardım siyasəti beynəlxalq təşkilatlardan və dövlətlərdən yardımların alınması və istifadəsi tədbirlərini əhatə edir. Bu siyasət beynəlxalq aləmdə son dövrlərdə strukturlaşdırılmış yeni bir xarici siyasətdir.

**Münaqişələr və soyuq müharibələr** qlobal iqtisadiyyata öz mənfi təsirini göstərir. Amerkanın və Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiya ölkə iqtisadiyyatının zəifləşməsinə və Rublun dəyər itirməsinə səbəb olur.

Sanksiyaya əsasən, ABŞ Maliyyə Nazirliyi ABŞ maliyyə qurumlarının Rusiyanın Mərkəzi Bankı, Milli Sərvətlər Fondu və ya Maliyyə Nazirliyi tərəfindən 14 iyun 2021-ci il tarixindən sonra buraxılmış rubl və ya qeyri-rubl nominallı istiqrazları alınmasını və Rusiya Mərkəzi Bankına, Milli Sərvətlər Fonduna və ya Maliyyə Nazirliyinə rubl və ya qeyri-rubl nominallı borc verməsini qadağan edir (11).

Nəticə:

İqtisadi siyasətin əsas istiqamətləri xarici iqtisadi fəaliyyətin məcmusunu tənzimləyir: mal və xidmətin beynəlxalq qarşılığı, əmək, maddi, intelektual resurslar və puldur. Onun tərkib hissəsi xarici ticarət siyasəti, valyuta kredit siyasəti xarici investisiyalar , texnologiya və s. ötürülməsində siyasət.

Dövlətin iqtisadiyyata müdaxiləsi bəzi bazar iştirakçılarının etirazına səbəb olsa da ümümən iqtisadiyyatın tənzimlənməsi, antiinhisar tədbirlərinin görülməsi, süni qiymət qalxmalarının qarşısının alınması və s. iqtisadiyyata öz müsbət təsirini göstərir. Xarici iqtisadi siyasət nəticəsində (investorların ölkəyə cəlb olunması, ixrac, gömrük və s.) dövlət müəyyən qədər gəlir əldə edir. Statistika göstərir ki, cari ilin yaz-payız aylarında xarici ticarət dövriyyəsi 20100,1 mln ABŞ dolları təşkil etmişdir.

Dövlətin xarici iqtisadi siyasəti ölkə siyasətinin şah damarından aslı olduğundan, günümüzdə ölkələr arasında müxtəlif iqtisadi siyasət baxışı mövcuddur. Məsələn Türkiyə Cümurhiyyəti Fələstin İsrail münaqişəsində Fələstinin yanında yer alması Türkiyə-İsrail diplomatik əlaqələrini zəiflətmişdir. Belə olan halda hər hansı bir yüksək səviyyədə iqtisadi əlaqələrin gözlənilməsi real deyil. Başqa bir nümunə kimi 2016-cı ildə Rusiya qırıcı təyyarəsinin Türkiyə səmasında vurulması iki ölkə arasındakı əlaqələrin kəskinləşməsinə səbəb olmuş, qısa müddətli olsada iqtisadi əlaqələrin kəsilməsinə gətirib çıxarmışdır.

## ƏDƏBİYYAT

1. Lalə Müsəllim qızı Vəliyeva. Milli iqtisadiyyat. Sumqayıt-2017

2. Dünyamalı Vəliyev,Aqil Əsədov. Beynəlxalq İqtisadiyyat.Bakı-2012
3. İqtisadi Nəzəriyyə kursu.3-cü nəşr.(A.V.Sidoroviç)Moskva “Delo i Servis”-2007
4. Səmədova.O.M. İqtisadiyyata Giriş.Mingəçevir-2018
5. M.C.Atakişiyev, H.M.Abbasov, N.H.Abbasova. Mikro və Makroiqtisadiyyat.Bakı-2010
6. İqtisadiyyatın əsasları.(N.Qreqori Mənkyu: Harvard Universiteti).Bakı-2013
7. İqtisadi Nəzəriyyə.(Makroiqtisadiyyat-1,2, Metaiqtisadiyyat, Transformasiya iqtisadiyyatı) “Daşkov və K” nəşriyyat-ticarət korporasiyası.Moskva-2008
8. Arif Şəkərəli oğlu Şəkərəliyev, “Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər”, monoqrafiya, Bakı 2009
9. İqtisadi Nəzəriyyə.(ADİU).Bakı-2009
10. www.stat.gov.az
11. www.apa.az

## DÖVLƏTİN XARİCİ İQTİSADİ SİYASƏTİNİN MAHİYYƏTİ

***Səidə Şixəlizadə, Amid Kazımov***

## XÜLASƏ

Hər bir dövlətin balanslaşdırılmış uyğun iqtisadi siyasəti vardır. Dövlətin ölkə daxili və xarici olmaqla iki iqtisadi siyasəti mövcuddur.

“Xarici iqtisadi siyasət” dedikdə dövlətin beynəlxalq iqtisadi əlaqələr sahəsində qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsinə yönəldilmiş hökumət fəaliyyətinin məcmusudur. Ümumi anlamda xarici iqtisadi siyasət xarici ticarət və istehsal amilləri axınının istiqaməti və həcminə təsir göstərmək üçün hökumətin hər növ fəaliyyətinin məcmusundan ibarətdir. Müasir mərhələdə dövlətin iqtisadi siyasətində daxili və xarici iqtisadi siysəti bir-birindən hər hansı bir xətt üzrə ayırmaq mümkün deyil. Buna səbəb ümumi iqtisadi siyasətin göstərilən iki istiqaməti bir-biri ilə sıx bağlıdır. Beynəlxalq iqtisadi münasibətlərin predmeti kimi iki əsas tərkib hissəsi çıxış edir.Beynəlxalq iqtisadi münasibətlərin özü və bu münasibətlərin reallaşdırılması mexanizmi. Bu bir elm kimi xarici ölkələrin iqtisadiyyatını deyil, onların iqtisadi münasibətlərinin xüsusiyyətlərini öyrənir. Dövlətin xarici iqtisadi siyasətinin əsas məqsədi ölkə siyasətinə müasir zamanda təsir göstərə biləcək dayanıqlı iqtisadiyyatın güclü inkişafını təmin etməkdir.

## ХАРАКТЕР ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ ГОСУДАРСТВА

***Саида Шыхализаде, Амид Кязимов***

## АННОТАЦИЯ

У каждого государства есть взвешенная и соответствующая экономическая политика. У государства есть две экономические политики: внутренняя и внешняя. «Внешнеэкономическая политика» - это совокупность действий государства, направленных на достижение целей государства в области международных экономических отношений. В целом внешнеэкономическая политика состоит из совокупности всех видов государственной деятельности по влиянию на направление и объем внешнеторговых и производственных потоков. На современном этапе невозможно

каким-либо образом разделить внутреннюю и внешнеэкономическую политику в экономической политике государства. Это связано с тем, что два направления общей экономической политики тесно взаимосвязаны. Предметом международных экономических отношений являются две основные составляющие: сами международные экономические отношения и механизм реализации этих отношений. Он изучает не экономику зарубежных стран как науку, а особенности их экономических отношений. Основная цель внешнеэкономической политики государства - обеспечить сильное развитие устойчивой экономики, способной влиять на политику страны в наше время.

**THE NATURE OF THE STATE'S FOREIGN ECONOMIC POLICY**

***Saida Shikhalizada, Amid Kazimov***

**SUMMARY**

Each state has a balanced and appropriate economic policy. The state has two economic policies, domestic and foreign. "Foreign economic policy" is a set of government activities aimed at achieving the goals of the state in the field of international economic relations. In general, foreign economic policy consists of all kinds of government activities to influence the direction and volume of foreign trade and production flows. At the present stage, it is impossible to separate domestic and foreign economic policy in any way in the economic policy of the state. This is due to the fact that the two directions of general economic policy are closely linked. The subject of international economic relations is two main components. International economic relations themselves and the mechanism of realization of these relations. It does not study the economy of foreign countries as a science, but the characteristics of their economic relations. The main goal of the state's foreign economic policy is to ensure the strong development of a sustainable economy that can influence the country's policy in modern times.

# AZƏRBAYCANA QARŞI ERMƏNİSTANIN HƏRBİ TƏCAVÜZÜ İLƏ BAĞLI BÖYÜK DÖVLƏTLƏRİN İKİLİ STANDARTLAR SİYASƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***İbadova Ülviyyə Mübariz qızı***
***Milli Aviasiya Akademiyasının II kurs magistrantı***
***ue121@mail.ru***

***Açar sözlər:*** Qarabağ münaqişəsi, Azərbaycan, Ermənistan, Rusiya, ABŞ, BMT
***Ключевые слова:*** Карабахский конфликт, Азербайджан, Армения, Россия, США, ООН
***Keywords:*** Karabakh conflict, Azerbaijan, Armenia, Russia, USA, UN

**Giriş.** 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana məxsus mülki yaşayış məntəqələrimizənə hücumları ilə başlayan İkinci Qarabağ müharibəsi Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyannamənin imzalanması ilə 10 noyabr 2020-ci ildə başa çatdı.

Azərbaycanın qəti qələbəsi ilə nəticələnən bu münaqişənin həlli yolunda böyük dövlətlərin siyasətindəki ikili standartlar və münaqişənin həllinə ciddi cəhd göstərilməməsi mühüm məsələlərdəndir.

Regionda maraqları olan böyük dövlətlər, xüsusən də Rusiya və İran Qarabağ münaqişəsinin davamlılığını təmin etmək üçün ciddi səylər göstərirdilər. Məsələyə qarışan bir sıra avropa dövlətləri isə problemin həlli yolunu tapmaq əvəzinə, regionda öz maraqlarına əsaslanıb siyasi böhranlar yaradır, Qarabağ probleminin uzun müddət davam etməsini təmin edirdilər. Tədqiqatımızda Qarabağ probleminin tarixi proseslərlə birlikdə müzakirə edilməsi, hegemon dövlətlərin yanaşmaları və siyasi münasibətlərinin dəyərləndirilməsi nəzərdə tutulmuşdur.

**Ermənistanın işğalçılıq siyasəti və dünya dövlətlərinin buna münasibəti.**

Ermənistanın işğalçılıq siyasətinin mahiyyətini anlamaq üçün ilk növbədə ermənilərin milli ideologiyası olan "Hay-Taxt" doktrinasına və bu ideologiyadan bəhrələnmək istəyən böyük dövlətlərin siyasətinə diqqət yetirmək lazımdır. Ermənistan coğrafi baxımdan qapalı dövlətdir, dənizə çıxışı yoxdur, dənizlərlə və mühüm ticarət mərkəzləri ilə əlaqələri güclü deyil. Bunu nəzərə alan Ermənistan tarix boyu daha yaxşı geosiyasi mövqeyə malik qonşularına qarşı ittihamlar irəli sürərək öz mövqeyini möhkəmləndirməyə çalışmış, qonşu dövlətlərin ərazi bütövlüyünü təhdid edərək və regionda sabitliyi pozaraq öz milli ideologiyalarının əsasını təşkil edən "Hay-Taxt" doktrinasını rəhbər doktrina səviyyəsinə qaldırmışlar. "Böyük Ermənistan" naminə ilk növbədə, Azərbaycanın ərazilərini işğal etmək üçün tarixi təhrif etmək, mifoloji təsəvvürlər formalaşdırmaq ermənilərin planlarının əsasını təşkil etmişdir. Çoxsaylı filosof və mütəfəkkirlərin araşdırmalarından görünür ki, tarixini ermənilər qədər mifik elementlərlə bəzəyən ikinci xalq, yəqin ki, yoxdur.

Onlar öz yaranış və dövlətçilik tarixlərini daha da irəli apararaq dünya sivilizasiyasını, yazısını, astrologiyasını, mis və dəmir mədənlərini kəşf etdiklərini, dünyada insan həyatının Göyçə gölü sahillərindən başladığını və həm də xristianlığı qəbul edən ilk icma olduqlarını iddia edirlər. "Hai-Taht" ideoloqlarından biri, millətçi baxışları ilə tanınan erməni yazıçı Zori Balayan "Ocaq" adlı kitabında daha da irəli gedərək Nuh peyğəmbərin erməni olduğunu və erməni dilində danışdığını iddia edir. (3; 141)

"Böyük Ermənistan" idealogiyasını həyata keçirmək istəyən Qarabağda yaşayan etnik ermənilər 1980-ci illərin sonlarında SSRİ-nin parçalanmaq ərəfəsi dövründə separatçı hərəkata başladılar. 1991-ci ildə Ermənistan və Azərbaycan müstəqilliklərini elan edəndə bu separatçı hərəkat Ermənistan və Rusiyanın dəstəyi ilə daha da gücləndi. Anti-Azərbaycan və anti-türk

xarakterli aksiyalar nəticəsində təkcə 1991-1994-cü illərdə regionda baş vermiş münaqişələrdə 1/3-dən çoxu mülki şəxslər olan 20 mindən çox insan həyatını itirmiş, ümumilikdə 1 milyondan çox insan öz yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı Ermənistanın hərbi təcavüzü nəticəsində beynəlxalq hüququn "jus cogens" prinsipləri pozulmuşdur ki, bu da öz növbəsində insan və beynəlxalq humanitar hüquq normalarının pozulması ilə müşayiət edilmişdir.

Münaqişələr nəticəsində yaşamaq, işgəncələrin, köləliyin qadağan olunması, azadlıq, mülkiyyət hüququ da daxil olmaqla ən vacib insan hüquqları pozulmuşdur.

Məlum olduğu kimi dövlətlərarası və beynəlxalq xarakterli problemlərin tənzimlənməsi və həlli beynəlxalq hüquq normaları və ədalət prinsipləri əsasında həyata keçirilməlidir. Lakin reallıqda bu norma və prinsiplər böyük dövlətlərin qarşıdurması, rəqabəti, xarici siyasəti nəticəsində arxa plana keçir. Nəticədə dövlətlər, xüsusilə də beynəlxalq münasibətlərdə söz sahibi olan böyük dövlətlər bir çox hallarda baş verən konkret hadisəyə öz dövlətçilik prizmasından baxaraq ona olduğu kimi yox, lazım gəldiyi kimi qiymət verirlər. Beləliklə, dövlətçilik maraqları fərqli olduğundan eyni hadisəyə baxışlar və yürüdülən siyasətlər də müxtəlif olur.

İkili standartlar siyasəti dedikdə də, beynəlxalq həyatda və dövlətlərarası münasibətlərdə oxşarlıq və eyniyyət təşkil edən hadisə və proseslərə fərqli, bəzən də tamamilə ziddiyyətli yanaşma tərzi, buna müvafiq olaraq siyasi-hüquqi qiymət verilməsi nəzərdə tutulur (5; 112).

Azərbaycanla Ermənistan arasında yaranmış Dağlıq Qarabağ problemi də elə uzun illər beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməmişdi. Bunun birinci səbəbi odur ki, beynəlxalq ictimaiyyət bu problemi SSRİ-nin dağılmasını sürətləndirən amil kimi görür və ona görə də problemin aradan qaldırılmasına ciddi yanaşmırdı. Bundan əlavə, hələ münaqişə başlamamış ermənilər beynəlxalq ictimaiyyətin dəstəyini almaq üçün ciddi kampaniya aparmışdılar. Bu çərçivədə erməni lobbisinin imkanlarından da geniş istifadə olunurdu. Məsələn, dünyada cərəyan edən sosial-iqtisadi və siyasi hadisələrə birbaşa nəzarət etmək imkanı olan ABŞ Konqresi ilə erməni lobbisi arasında çox "isti" münasibət var. Eyni sözləri Fransa Senatına da aid etmək olar. Belə seperatçı qüvvələrin təsiri səbəbdən də beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinə biganə qalırdı.

Yada salmaq yerinə düşər ki, Sovet İttifaqı dağılandan sonra ABŞ müstəqillik əldə etmiş respublikalarla əlaqələr qurmaq üçün beş şərt irəli sürmüşdü. Bu şərtlərdən birincisi o idi ki, həmin respublikalardan biri digərinə ərazi iddiası irəli sürərsə, o, ABŞ tərəfindən tanınmayacaq! Lakin nəinki torpaq iddiası irəli sürən, hətta Azərbaycan ərazisinin 20%-ni işğal edən Ermənistan ABŞ tərəfindən tanındı, eləcə də əhalisinə nisbətən İsraildən sonra ABŞ-dan ən çox yardım alan ölkə oldu. Bunun qarşılığında Azərbaycan isə Ermənistana embarqo qoyma və təcavüz məqsədli güc tətbiq etmək adı ilə günahlandırılaraq 24 oktyabr 1992-ci il tarixli Azadlığın dəstəklənməsi qanununa (Freedom Support Act) 907-ci düzəlişlə iqtisadi embarqoya məruz qalan ölkə kimi hər cür yardımdan məhrum edildi. Bununla da Azərbaycan bütün keçmiş sovet respublikaları arasında Amerika embarqosunun tətbiq olunduğu yeganə ölkə oldu. (3; 151)

Amerikanın Azərbaycanla bağlı siyasətinə ciddi əngəllər gətirən bu maddənin aradan qaldırılması üçün göstərilən səylər etnik qrupların təsirinə çox açıq olan Konqresin müqaviməti səbəbindən 2001-ci ilə qədər nəticəsiz qaldı. Konqresin Azərbaycana qarşı bu cür ədalətsiz mövqeyini onun erməni lobbisinin təsiri altında olması ilə izah etmək olar. Lakin 2001-ci il sentyabrın 11-də ABŞ-da baş vermiş böyük terror aktı Azərbaycanın terrorizmlə mübarizəyə töhfə verməsi üçün 907-ci maddənin ləğvini yenidən gündəmə gətirdi və Senat 2001-ci ilin oktyabrın 24-də həmin hissədə bəzi dəyişiklikləri qəbul etdi. 907-ci maddənin tətbiqinin

müvəqqəti dayandırılması Azərbaycana müəyyən faydalar gətirsə də, münaqişənin həllində heç bir rol oynamamışdır.

Rusiya Federasiyası da öz növbəsində Ermənistanın Moskvadan asılılığını azaldacağı və xüsusilə enerji resurslarına görə əhəmiyyəti artan Azərbaycanın Avropa və ABŞ ilə əlaqələrininn daha çox inkişaf edəcəyi məntiqi ilə Dağlıq Qarabağ probleminin davam etdirilməsinə həmişə üstünlük vermişdir. Bununla belə RF Qarabağ məsələsinin Ermənistanın xeyrinə həllində də maraqlı olmamışdır. Belə ki, məsələnin qeyd edilən kimi həllinin rusiyanın öz tərkibindəki milli azlıqlar üçün "torpaq payı təcrübəsi" presedenti yarada biləcəyindən çəkinmişdir.

Bu bir həqiqətdir ki, "erməni faktoru" Rusiyanın həm region dövlətlərinə, həm də əlaqəli dövlətlərə qarşı siyasi və iqtisadi təzyiq vasitəsidir. Rusiya Ermənistan sayəsində Qafqazda siyasi və hərbi mövcudluğunu qoruyur, yerləşdirdiyi bazalarla Azərbaycan və Gürcüstana nəzarəti həyata keçirirdi. Bu baxımdan Ermənistanın Azərbaycana qarşı Rusiya tərəfindən dəstəklənməsi başa düşüləndir. Lakin Ermənistan-Azərbaycan münaqişəsində Qərbin qətiyyətsizliyi və BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən çıxarılması ilə bağlı qərarlarına reaksiyaları onun anlaşılmaz siyasətini ortaya qoyurdu. (2; 39)

Məsələnin həlli təşəbbüslərinin qabaqcıllarından olan Rusiya tez-tez Azərbaycan və Ermənistan liderlərinin görüşlərini təşkil etməklə asanlaşdırıcı rol oynasa da, problemin həllinin onun Cənubi Qafqaz regionuna müdaxiləsini məhdudlaşdıracağı məntiqi ilə tərəflər arasında daimi sülhün əldə edilməsindən çəkinmişdir. Belə qeyri-sabitliyi qoruma siyasəti ilə Moskva keçmiş sovet coğrafiyasında öz gücünü bərpa etmək istəyirdi.

Rusiyanın məsələ ilə bağlı yürütdüyü ikili standartlar siyasəti onun oxşar digər məsələlərə verdiyi qiymətin təhlili zamanı da ortaya çıxır. Belə ki Rusiya Kosovo vilayətinin müsəlman əhalisinin Serbiya hakimiyyətinə qarşı mübarizəsini separatçı hərəkat kimi qiymətləndirdiyi, onun müstəqilliyini tanımaqdan qətiyyətlə boyun qaçırdığı halda onunla eyniyyət təşkil edən MDB məkanında baş verən hadisələrə tamamilə başqa mövqedən yanaşır. Həmin ərazilərdəki separatçı rejimlər Rusiya tərəfindən dəstəklənir, maliyyələşdirilir, silahlandırılır və beynəlxalq forumlarda müdafiə edilirdi. Halbuki Rusiyanın öz tərkibində olub müstəqillik fikrinə düşmüş çeçen xalqı fərqli münasibətlə üzləşmişdilər.

Xatırladaq ki, 2006-cı ildə osetinlər ikinci müstəqillik referendumu keçirdilər və bu referendumda 90% müstəqillik qərara alındı. Gürcüstan rəhbərliyində Qərb yönümlü liderin olması Rusiyanın maraqlarını təhdid etdiyindən, Rusiya da arxa planda osetinləri dəstəkləməkdən yayınmadı.

2008-ci il avqustun 8-də gürcü qoşunları müstəqillik elan edən Cənubi Osetiyada əməliyyat keçirdi, minlərlə dinc sakin həlak oldu, 2 Rusiya döyüş təyyarəsi vuruldu. Bundan sonra başlayan və 5 gün davam edən müharibə nəticəsində Avropa dövlətlərinin müdaxiləsi ilə Rusiya və Gürcüstan arasında atəşkəs imzalandı. Atəşkəsdən on gün sonra Rusiya avqustun 26-da Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini tanıyan ilk dövlət oldu.

Bəzi təhlilçilərə görə Rusiyanın Abxaziya və Cənubi Osetiyanı Gürcüstandan "qoparması" rəsmi Moskvanın Gürcüstana olan geostrateji maraqlarını azaltmışdır. Onların fikrincə, Rusiya Cənubi Osetiyanı və Abxaziyanı nəzarətə götürməklə və bu regionlarda öz hərbi bazalarını yerləşdirməklə Cənubi Qafqazda hərbi – siyasi iştirakını möhkəmləndirir, Gürcüstanın da Qərbin əsas strukturlarına tam inteqrasiyasını əngəlləyirdi. (4; 6)

Beləliklə, Rusiya bir tərəfdən dövlətlərin ərazi bütövlüyünü, sərhədlərin tozunulmazlığını bəyan edir, digər tərəfdən isə MDB məkanındakı separatçı rejimləri gizli və qeyri-rəsmi dəstəkləyir.

Münaqişə boyunca Rusiyanın Ermənistanı açıq şəkildə dəstəkləməsi və Qərbin də ermənipərəst mövqe tutması göz qabağındadır. Xüsusilə, 2008-ci il martın 14-də BMT Baş Assambleyasının 62-ci sessiyası çərçivəsində keçirilən iclasda qəbul edilən “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı qərara qərbli həmsədrlərin reaksiyası bunun ən bariz sübutudur. Qərbin ermənipərəst mövqeyi Türkiyəyə Ermənistanla münasibətlərin qurulması və sərhəd qapılarının açılması üçün təzyiqlərdə də özünü göstərdi.

İkili standartlar siyasətinin şərtləri altında hərəkət edən böyük dövlətlər başlıca olaraq öz üstün maraqlarını və mənafelərini əsas tutaraq hətta bir sıra hallarda eyni dövlətə qarşı müxtəlif məqamlarda fərqli münasibət sərgiləyir, yenə də ikili standartlara əl atmaqdadırlar. Məsələn, Qərbi Avropanın böyük dövlətlərindən olan Fransa və ABŞ özlərinin NATO üzrə müttəfiqi olan Türkiyəni antiterror əməliyyatları zamanı Qərb dövlətlərinin yanında yer aldıqda, İraqa, Əfqanıstana, Kosovaya hərbi qüvvələr göndərdikdə bir cür, Avropa Birliyinə daxil olmaq istədikdə, Ermənistanla sərhədlərini bağlı saxladıqda, Kipr məsələsinə münasibətlə bağlı fərqli yanaşdıqda başqa cür qiymətləndirirlər. İkili yanaşmanı sadə şəkildə belə ifadə etmək olar ki, Türkiyəsi Qərb dövlətlərinin maraqları üçün lazım gəldikdə türk əsgərlərini göndərməli, lakin xristian klubu olan Avropa Birliyinə daxil olma məsələsi gündəmə gəldikdə isə kənarda qalmalıdır.

Digər tərəfdən ABŞ BMT-nin Təhlükəsizlik Şurasının Qətnamələrini yerinə yetirməməkdə İranı təqsirləndirdiyi halda, Ermənistanın oxşar dörd qətnaməni yerinə yetirməməsinə göz yummuşdur (5; 115).

İkili standartlar siyasəti təkcə böyük dövlətlər deyil, eyni zamanda onların maliyyə dəstəyi ilə fəaliyyət göstərən əksər beynəlxalq qurumlar tərəfindən də həyata keçirilmişdir. Məsələn, ən nüfuzlu beynəlxalq təşkilat olan BMT-nin terrorçu Ermənistana və onun təqsirindən yaranan Qarabağ probleminə dair 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ona bitişik ərazilərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı faktı etiraf olunmuş, təcavüzkarlardan işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxması tələb olunmuşdur. Lakin BMT-nin əsas orqanlarında söz sahibi olan böyük dövlətlərin qərəzli siyasəti, təcavüzkarlara qarşı təsirli tədbirlər görmək istəməməsi və ermənilərə havadarlıq etmələri nəticəsində Ermənistan həmin qətnamələri icra etməmiş, hətta onlara məhəl də qoymamışdır.

2008-ci il martın də 14-də BMT Baş Məclisinin 6-ci sessiyasında Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət məsələsi müzakirə edilmişdir. Məsələ ilə bağlı hazırlanan 9 bənddən ibarət qətnamə layihəsində BMT Baş Məclisinin Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi ifadə edilmişdir. Qətnamədə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bötüvlüyü dəstəklənmiş, işğal edilmiş bütün ərazilərdən Ermənistan silahlı qüvvələrinin çıxarılması və məcburi köçkünlərin öz yurdlarına qayıtması üçün müvafiq şəraitin yaradılması fikri əks olunmuşdur. Qətnamə üzrə keçirilən səsvermə zamanı BMT-yə üzv olan 192 dövlətin iclasda iştirak edənlərindən 100-ü bitərəf qalmış, 39-u qətnamənin lehinə, 7-si əleyhinə səs vermişdir. (6; 42)

Müxtəlif əsassız bəhanələrlə qətnamənin əleyhinə çıxan, həmin münaqişənin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupuna sədrlik edən ABŞ, Rusiya və Fransa dövlətlərinin mövqesizlik nümayiş etdirməsi onu göstərmişdirki, bu dövlətləri hər hansı bir münaqişənin həll edilməsi deyil, əvvəllər olduğu kimi regionda öz strateji maraqlarının təmin edilməsi daha çox maraqlandırır!

**Nəticə.** Birinci Qarabağ müharibəsi nəticəsində imzalanmış Bişkek protokolu Dağlıq Qarabağ problemini həll edə bilməmiş, xüsusilə ATƏT-in Minsk Qrupu həmsədrlərinin köməyi ilə

mövcud status-kvonun davam etdirilməsini təmin edən sənəd olaraq qalmış və 1 milyondan çox köçkün azərbaycanlının öz yurd-yuvasına qayıtmasını təmin edə bilməmişdir.

ATƏT-in Minsk Qrupu həmsədrlərinin tərəfli mövqelərinə baxmayaraq, Azərbaycan son illərə qədər diplomatik həll gözləntilərini qoruyub saxlamışdır. Lakin öz əməlləri ilə işğalçılıq siyasətindən əl çəkməyəcəyini sübut edən Ermənistanın son illər müxtəlif ölkələrdən, xüsusilə Suriya və Livandan olan qaçqınların işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi təşəbbüsünü irəli sürməsi, Azərbaycana qarşı terror təşkilatları üçün düşərgələr qurması, atəşkəsi pozaraq mülki yaşayış məntəqələrinə hücumlar təşkil etməsi və dünya dövlətlərinin münaqişənin həllində maraqlı olmaması münaqişənin hərbi yolla həll edilməsini Azərbaycan üçün alternativsiz varianta çevirmişdir!

## ƏDƏBİYYAT

1. E.Əhmədov. Ermənistanın Azərbaycana təcavüzü təhlili xronika. Bakı. 2012
2.E.Şıxəliyev. Ermənistan-Azərbaycan münaqişəsi: həlli yollarında əsas problemlər və gələcək ssenarilər. Müdrik strategiya, 7-ci cild, 13-cü buraxılış, 2015
3. E.Şıxəliyev. Beynəlxalq münasibətlərin baxımından Ermənistan-Azərbaycan münaqişəsi. Çankırı Karatekin Universiteti Sosial Elmlər İnstitutu Jurnal 3(1): 139-160
4. M.Məmmədli. Kiçik dövlətlərin müdafiə strategiyasinin müqayisəli təhlili: Gürcüstan və Ermənistanın nümunəsində. Bakı 2020
5. Ş.Məmmədov. Erməni terroru və böyük dövlətlərin ikili standartlar siyasəti. Bakı. 2010
6. "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 14.03.2008-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş qətnamə.
https://files.preslib.az/projects/azdiplomacy/a2_4.pdf

# AZƏRBAYCANA QARŞI ERMƏNİSTANIN HƏRBİ TƏCAVÜZÜ İLƏ BAĞLI BÖYÜK DÖVLƏTLƏRİN İKİLİ STANDARTLAR SİYASƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***İbadova Ülviyyə***

## XÜLASƏ

Məqalədə böyük dövlətlərin Ermənistan-Azərbaycan münaqişəsinə yanaşması və münaqişə müddətində yeritdikləri siyasət təhlil edilmişdir. Dünyanın bu aparıcı dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanısalar da, işğalçı Ermənistanın təcavüzkar hərəkətlərinə qarşı heç bir reaksiya verilməmişdir. Azərbaycan və Ermənistan öz geosiyasi mövqelərinə görə qiymətləndirilərsə, Azərbaycanın nefti və təbii sərvətləri ona strateji əhəmiyyət verir. Bəs nefti və dənizə çıxışı olmayan Ermənistanın Rusiya, ABŞ və Avropa dövlətləri üçün əhəmiyyəti nə idi? Məqalədə bu və ya digər məsələlərə aydınlıq gətirməyə çalışmışıq.

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ПОЛИТИКИ ДВОЙНЫХ СТАНДАРТОВ ВЕЛИКИХ ДЕРЖАН В ОТНОШЕНИИ ВОЕННОЙ АГРЕССИИ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА

***Ибадова Ульвия***

## АННОТАЦИЯ

В статье проанализированы подход великих держав к армяно-азербайджанскому конфликту и проводимая ими политика. Все эти государства признают территориальную целостность Азербайджана, но, несмотря на это, никакой реакции и предупреждений в адрес Армении-оккупанта не поступало. Если обратить внимание на геополитическое положение Азербайджана и Армении, азербайджанская нефть, природные ресурсы придают ей стратегическое значение. Но какое значение имела не имеющая выхода к морю Армения для России, США и Европы? В статье мы постарались внести ясность в тот или иной вопрос.

# COMPARATIVE ANALYSIS OF THE DOUBLE STANDARDS POLICY OF THE GREAT POWERS ABOUT ARMENIA'S MILITARY AGGRESSION AGAINST AZERBAIJAN

***Ibadova Ulviya***

## SUMMARY

Approach of the Great Powers to Armenian-Azerbaijan conflict and policies followed by them were analysed in this article. All of these states accept the territorial integrity of Azerbaijan, but in spite of this it hasn’t been given any reaction and warning to the occupier Armenia. If paid attention to geopolitical position of Azerbaijan and Armenia, Azerbaijan’s oil, natural resources give it a strategic importance. But what was the significance of landlocked Armenia for Russia, the United States and Europe? In the article we have tried to clarify this or that issue.

# BANK FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ VƏ NƏZARƏT SİSTEMİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ

***Xudaverdiyev Sənan***
***BDU-nun II kurs magistrantı***
***senan.xudaverdiyev750@mail.ru***
***i.ü.f.d.Xasiyeva Leyla Qabil,***
***İqtisadiyyat və idarəetmə kafedrasının dosenti***

***Açar sözlər***: dövlət tənzimləməsi, bank sistemi, inkişaf, iqtisadi system.
***Keywords***: government regulation, banking system, development, economic system.
***Ключевые слова***: государственное регулирование, банковская система, развитие, экономическая система.

**Giriş.** Bazar münasibətlərinin hazırkı səviyyəsi hökumətin iqtisadiyyatda birbaşa iştirakı və maliyyə - kredit alətlərindən fəal istifadə imkanlarının məhdud olması ilə xarakterizə olunur. Onların dialektik birliyinə nail olmaq üçün ümumi və yaradıcı yanaşmaların istifadəsi də daxil olmaqla düzəlişlər sistemi təkmilləşdirilmişdir [1, s.45].

Ənənəvi, müasir riyazi vasitələrdən və informasiya texnologiyalarından istifadə etməyi tələb edən təhlillər etibarlı monitorinq məlumat bazasının formalaşdırılmasına xidmət etməlidir.

Bank fəaliyyətinin tənzimlənməsi və nəzarəti sisteminin təhlili mexanizmində maliyyə yanaşmasının əsas istiqaməti qəbul edilmişdir. Bununla birlikdə, ümumi iqtisadi fəaliyyət mühitini qiymətləndirmək üçün bir sıra statistik və riyazi metodlardan da istifadə edilir.

İqtisadi təhlükəsizlik tələblərinə cavab verən dayanıqlı bir bank sisteminin fəaliyyətini standartlaşdırmaq üçün iqtisadi və inzibati metodların üzvi inteqrasiyası üçün bir mühit yaratmaq lazımdır. Bu və digər səbəblərə görə bankın fəaliyyətini standartlaşdırmaq və nəzarət sisteminin səmərəliliyini artırmaq və onların həyata keçirilmə istiqamətini müəyyən etmək üçün yeni imkanlar tapmaq lazımdır.

**Əsas hissə**. Bank fəaliyyətinin dayanıqlılıq və iqtisadi təhlükəsizlik baxımından standartlaşdırılması ümumi, tipik olmayan, balanslaşdırılmış, məqsədli proqramları və standartlaşdırma metodlarını əhatə edir.

İqtisadiyyatın müxtəlif sektorlarının balanslaşdırılması onların balanslı inkişafı üçün zəruri şərtdir və ümumi tarazlığın vəziyyətini qiymətləndirdiyi üçün bankın davamlılığı və iqtisadi təhlükəsizlik baxımından tənzimlənməsində balanslaşdırılmış yanaşma tətbiq olunur.

Dolayı tənzimləmə üsulları hərəkət azadlığını genişləndirdikcə ölkənin iqtisadi siyasətinin, maliyyə, kredit və pul siyasətinin əsasını təşkil edir . Bank fəaliyyəti üçün reallığın və davamlı inkişafın prioritetlərinə uyğun tənzimləmə mexanizmləri, islahatın müxtəlif mərhələlərində fərqli yanaşmalar təmin edir.

Beləliklə, Azərbaycanda bank islahatının ilkin mərhələlərində bank sisteminin idarə edilməsi təcrübəsi özəl bank sisteminin institusional qurulmasını təmin etmək üçün dövlət banklarının yenidən qurulması və sağlamlaşdırılması üçün tədbirlər görülmüşdür.

Bu mərhələdə kapitala aşağı tələblər qoyulmuş, sistemə daxil olmaq üçün çox sərbəst şərait yaradılmış və bank fəaliyyətini standartlaşdırmaq üçün monitorinq vasitələrindən istifadə edilmişdir. Bu yanaşma bank sisteminin sistemli şəkildə genişlənməsinə və özəl bankların sürətli böyüməsinə imkan verir.

Araşdırmalar göstərir ki, bank idarəçiliyinin makro elementlərinin gücləndirilməsinə ehtiyac yaradan amillər arasında dayanıqsız maliyyə şəraiti yüksək xərclərlə müşayiət olunur. Qeyd

etmək lazımdır ki, bazar və dövlət tənzimlənməsi arasındakı tarazlıqda böyük iqtisadi fayda verəcəyini vəd edən makro-prudensial yanaşma, hətta dayanıqsız maliyyə vəziyyətində belə, ciddi mikro üsulların belə sistemin etibarlılığına zəmanət verə bilməməsidir.

Bank, mayeləri tənzimləyərkən, kreditorların, əmanətçilərin və digər müştərilərin öhdəliklərini vaxtında və zərərsiz yerinə yetirmək qabiliyyəti kimi, real və gözlənilməz öhdəliklər arasında fərq qoyma ehtiyacını nəzərə almalıdır.

Aktivlərin dövriyyə səviyyəsini təsvir etmək üçün ən sadə nisbətlərdən biri, likvid aktivlərin məcmu aktivlərlə məcmu aktivlərə nisbətidir. Bankın öhdəliklərini vaxtında və zərərsiz yerinə yetirmək qabiliyyəti daxili fəaliyyət faktorlarından (bank aktivləri, kreditin keyfiyyəti, sağlam idarəçilik və s.) və fəaliyyətinin davamlılığını müəyyən edən xarici amillərdən asılıdır.

İnnovativ inkişaf perspektivlərinin müəyyən edilməsi, kredit ayırma strukturunu təkmilləşdirməklə yanaşı, tənzimləyici vasitələr tələb edir: milli bank sisteminin modernləşdirilməsi, resurs bazasının möhkəmləndirilməsi, investisiyaların artırılması, yeni uzunmüddətli resursların kəşf edilməsi və investisiya tətbiqinin gücləndirilməsi.

Azərbaycan hökuməti ilə Mərkəzi Bankın əlaqələndirilmiş fəaliyyəti dünya iqtisadi sisteminə fəal şəkildə inteqrasiya olunan milli iqtisadiyyata qlobal iqtisadi böhranın təsirini minimuma endirmək məqsədi daşıyır.

Həyata keçirilən tənzimləmə siyasəti sabit valyuta məzənnələrini, aşağı inflyasiyanı və dollarlaşma gözləntilərini təmin edir ki, bu da idxal olunan malların qiymətinin sürətli artımının və depozitlərin dəyərdən düşməsinin qarşısını almışdır.

Milli valyutanın sabit məzənnəsinin saxlanması da xarici valyuta borcunun borc yükünü artırmağa imkan vermədi [2, s.22].

Bank sisteminin dayanıqlılığını təmin etmək üçün mərkəzi bankın həyata keçirdiyi tənzimləyici tədbirlər real iqtisadiyyatın əsas sahələrində investisiya fəaliyyətinin dəstəklənməsi üçün əlverişli mühit yaratmışdır.

Bu tədbirlər arasında daxili mənbələrdən tələb olunan ehtiyat nisbətinin azalması, kommersiya banklarına xüsusi kreditlərin verilməsi və yenidən maliyyələşdirmə faizlərinin aşağı salınması, yuxarıda qeyd edildiyi kimi, milli sığorta ehtiyatlarının miqdarını artırmalıdır.

Bank tənzimləmə sistemi qlobal maliyyə - iqtisadi böhranın nəticələrini nəzərə almalı və dünya iqtisadiyyatının mərkəzi bank siyasətinin əsas istiqamətlərindən birinə inteqrasiyasını dəstəkləməlidir.

Kredit təşkilatlarının yenidən təşkili - daha az büdcə xərcləri tələb edən böhrandan çıxmaq üçün tədbirlər nəzərə alınmaqla - görüləcək tədbirlərin dəyərinin bölgüsünün hərtərəfli təsdiqlənməsi tələblərinə cavab verməlidir.

İlk növbədə, tənəzzüldən sonrakı dövrdə banklar iqtisadi artımı təşviq edərkən sistemin etibarlı göstəricilərinə, xüsusilə risklərin idarə edilməsinə diqqət yetirməlidirlər. Bu baxımdan, mərkəzi bankın yürütdüyü siyasət dinamik və davamlı inkişafın ən yaxşı birləşməsini təmin etməli və makroiqtisadi risk səviyyəsini daha dolğun əks etdirməlidir [3, s.56].

Qlobal böhran pul siyasətini və makroiqtisadi nəzarət mexanizmlərini yeni şərtlərə uyğunlaşdırmaq və inflyasiyanın təsirini daha ətraflı nəzərdən keçirmək üçün düşünülmüş layihələrə ehtiyac olduğunu göstərir.

Bank sisteminin sabitliyinə xarici amillərin təsirinin qiymətləndirilməsi klassik və yeni, əsasən müasir iqtisadi və riyazi analiz üsulları ilə aparılır. Bu, müvafiq mənbələrdə kifayət qədər müzakirə olunduğundan, bank fəaliyyətinin tənzimlənməsinin dayanıqlılığını müəyyən edəcək və nəzarət sisteminin səmərəliliyini artıracaq daxili fəaliyyətə əsaslanan və əsasən makro səviyyəli tənzimləmə məsələlərini qeyd etməyəcəyik.

Bankın dayanıqlılığı, borc vəsaitlərinin keyfiyyəti, idarəetmə səviyyəsi, resursların digər banklara cəlb edilməsinin üstünlüyü, depozit bazasının sabitliyi və xarici tərəfdaşlarla əlaqələrin davamlı inkişafını təmin edən aktivlərin əsasıdır [4].

Daxili faktorlara gəldikdə, qeyd etmək vacibdir ki, bir bankın aktivlərinin keyfiyyəti axın, risk və gəlirlilik kimi göstəricilərlə xarakterizə olunur. Bu səbəbdən aktivlərin dövriyyə nisbətinə görə qruplaşdırılması bank aktivlərinin keyfiyyətini idarə etmək qabiliyyətinin qiymətləndirilməsi və bu imkanların həyata keçirilməsi baxımından xüsusilə əhəmiyyətlidir.

Borclunun satış və ya ödəniş yolu ilə nağdsız pulu nağdsız aktivə çevirmək qabiliyyətindən asılı olaraq əksər tədqiqatçılar tərəfindən qəbul edilən kateqoriyalar əsasən aşağıdakı qruplara bölünür:

**Şəkil 1: Borclunun satış və ya ödəniş yolu ilə nağdsız pulu nağdsız aktivə çevirmək üzrə kateqoriyalar**




**Mənbə:** https://arastirmax.com/en/system/files/dergiler/25825/makaleler/4/arastirmax-bank-faliyytinin-tnzimlnmsi-v-nzart-sisteminin-smrliliyinin-yuksldilmsi.pdf - bank fəaliyyətinin tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsi.

Bank təcrübəsi göstərir ki, aktivlərin aşağı hərəkətliliyi onların riskini artırır, başqa sözlə aktivlərin nağd pula çevrilməsi prosesində itki ehtimalını yüksəldir [3, s.111].

Buna görə də, yuxarıda qeyd etdiyimiz əsas qruplar arası hərəkətlər vasitəsilə yuxarıda göstərilən təsnifat xüsusiyyətlərinin və hərəkətliliyin tənzimlənməsi sisteminin effektivliyini əhəmiyyətli dərəcədə artırma ehtimalını həyata keçirməyə kömək edə bilər.

Kredit təşkilatlarının yenidən təşkili daha az büdcə xərcləri tələb edən böhranların azaldılması tədbirlərinə diqqət yetirməklə - sistemin etibarlı performans göstəricilərinə, xüsusilə risklərin idarə edilməsinə əsaslanaraq, tədbirlərin xərc bölgüsünün hərtərəfli təsdiqlənməsi tələblərinə cavab verməlidir.

Bankın cəlb olunan kapital, başqa sözlə, borc dövriyyəsi, xarici borcdan asılılığın azalması, əmanətlərin sabitliyi və s. şəklində ifadə olunan dinamikası dövlət tənzimləmələri kimi xüsusi diqqətə layiqdir. Bu səbəbdən, milli bank sisteminin xarici borcdan asılılığının azalması, iqtisadi təhlükəsizlik standartlarına uyğun olaraq davamlı fəaliyyət göstərməsinin vacib amilidir.

Məlum olduğu kimi, bankın dövriyyə mövqeyi müəyyən miqdarda pul və borc nisbətini əks etdirir. Bu məlumatlar, əmlakın və kreditin şərtlərinə görə təsnif edilən yenidən qurulan gəlir hesabatında əks olunur.

Nəzarət zamanı bankın mövqeyinin xarici və daxili amillərə təsirinin qiymətləndirilməsi aktiv və öhdəliklərində dövri ziddiyyətləri, habelə bu uyğunsuzluğun ümumi borca təsirini və dinamikasını əhatə etməlidir [6].

İdarəçiliyin səmərəliliyi bank siyasətinin məzmunu, cari və strateji problemləri həll edə bilən effektiv təşkilati quruluş, bankın fəaliyyətinin dayanıqlılığının müəyyən edilməsində mühüm amil olaraq bankın aktiv və öhdəliklərin idarə edilməsi mexanizminin mahiyyəti və düzgünlüyü ilə müəyyən edilir.

**Nəticə.** Kredit təşkilatlarının yenidən təşkili daha az büdcə xərcləri tələb edən böhranların azaldılması tədbirlərinə diqqət yetirməklə - sistemin etibarlı performans göstəricilərinə, xüsusilə risklərin idarə edilməsinə əsaslanaraq, tədbirlərin xərc bölgüsünün hərtərəfli təsdiqlənməsi tələblərinə cavab verməlidir.

Milli bank sisteminin xarici borcdan asılılığının azalması, iqtisadi təhlükəsizlik standartlarına uyğun olaraq davamlı fəaliyyət göstərməsinin vacib amilidir.

Problemli banklarda kreditorların qanuni tələblərinin yerinə yetirilməsinə nəzarəti gücləndirmək, müasir ekspert texnologiyasına əsaslanan restrukturizasiya planlarının qiymətləndirilməsi və monitorinqi sisteminin təkmilləşdirilməsi və maliyyə vəziyyəti nəzərə alınmaqla bank sisteminin gücləndirilməsi üçün hüquqi bazanın gücləndirilməsidir.

## ƏDƏBİYYAT

6. Həsənov A.S. Azərbaycanda bank sisteminin dövlət tərəfindən tənzimlənməsi, Qanun, Bakı, 2019, 389 səh.
7. Muradov A.S. Bank sektorunda mövcud problemlər, Azərnəşr, Bakı, 2017, 399 səh.
8. Orley U.L. Banking sector, London, London publishing, 2017, 455 p.
9. http://www.e-qanun.az/framework/43056 - bank sektorunun idarəedilməsi 2021.
10. https://dejure.az/en/node/698 - bankın dövlət tənzimlənməsi 2021.
11. https://arastirmax.com/en/system/files/dergiler/25825/makaleler/4/arastirmax-bank-faliyytinin-tnzimlnmsi-v-nzart-sisteminin-smrliliyinin-yuksldilmsi.pdf - bank fəaliyyətinin tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsi.

# BANK FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ VƏ NƏZARƏT SİSTEMİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ

***Xudaverdiyev Sənan, Xasiyeva Leyla***

## XÜLASƏ

Dövlət tənzimləməsinin prioritetləri maliyyə institutlarının və ümumiyyətlə maliyyə sisteminin etibarlılığını təmin etmək və bankların iqtisadi təhlükəsizlik standartlarına uyğun fəaliyyət göstərməsidir. Dünyanın əksər inkişaf etmiş ölkələrində banklar iqtisadi cəhətdən tənzimlənmiş bir mühitdə fəaliyyət göstərir və banklar da daxil olmaqla inkişaf və maliyyə qurumlarını gəlirli fəaliyyət göstərməyə təşviq edir. Tənzimləmə mexanizminin bazar iqtisadiyyatının dəyişən mühitinə uyğunluğu kommersiya banklarının yaranması və davamlı inkişafı üçün vacib şərtlərdən biridir. Odur ki, xarici və daxili amillər səbəbindən tənzimləmə işində bankın rolunun inkişafının təmin edilməsi, monitorinq sisteminin səmərəliliyinin artırılması kimi məsələləri təcili surətdə həll etmək lazımdır.

## РЕГУЛИРОВАНИЕ БАНКОВСКОЙ ДЕЯТЕЛЬНОСТИ И ПОВЫШЕНИЕ ЭФФЕКТИВНОСТИ СИСТЕМЫ КОНТРОЛЯ

***Худавердиев Санан, Хасиева Лейла***

## АННОТАЦИЯ

Приоритетами государственного регулирования являются обеспечение надежности финансовых институтов и финансовой системы в целом, а также функционирование банков в соответствии со стандартами экономической безопасности. В большинстве развитых стран банки работают в экономически регулируемой среде и поощряют развитие и финансовые институты, включая банки, к прибыльной деятельности. Совместимость механизма регулирования с изменяющимися условиями рыночной экономики является одним из важных условий создания и устойчивого развития коммерческих банков. Поэтому в силу внешних и внутренних факторов необходимо срочно обеспечить развитие роли банка в регулировании и повысить эффективность системы мониторинга.

## REGULATION OF BANKING AND INCREASING THE EFFICIENCY OF THE CONTROL SYSTEM

***Khudaverdiev Sanan, Khasieva Leyla***

## SUMMARY

The priorities of state regulation are to ensure the reliability of financial institutions and the financial system as a whole, as well as the functioning of banks in accordance with economic security standards. In most developed countries, banks operate in an economically regulated environment and encourage development and financial institutions, including banks, to profitable activities. The compatibility of the regulatory mechanism with the changing conditions of the market economy is one of the important conditions for the creation and sustainable development of commercial banks. Therefore, due to external and internal factors, it is urgent to ensure the development of the role of the bank in regulation and improve the efficiency of the monitoring system.

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ SİYASƏTİ. DÜNYA ÖLKƏLƏRİ İLƏ MÜQAYİSƏSİ

***i.ü.f.d. Şixəlizadə Səidə***
***BDU-nun dosenti***
***Amid Kazımov***
***BDU-nun II kurs magistrantı***
***azad.azerbaycanim.91@gmail.com***

Ölkənin iqtisadiyyatı onun yerləşdiyi coğrafi mövqeyindən də aslıdır. Azərbaycan iqtsadiyyatının formalaşmasına ön asiyada ( qafqaziyada ) və böyük ipək yolu üzərində yerləşməsi təsir göstərmişdir. Məhz buna görə də Azərbaycan tarixən yadelli işğalçıların hədəfinə çevrilmişdir. Günümüzdə də antiazərbaycan qüvvələrin əsas hədəfi ipək yolunu nəzarətə götürmək və minilliklərcə davam edən bu quruluşa nəzarət etməkdir. 18.10.1991-ci ildə müstəqillik qazanan Azərbaycan yeni iqtisadi dövrə qədəm qoydu.

Müstəqilliyin ilk illərində 1-ci Qarabağ müharibəsi ölkə iqtisadiyyatına mənfi təsir göstərdi. Qarabağ ( Xocalı, Ağdərə, Əsgəran, Xankəndi,Şuşa) və ətrafındakı 7 rayonun erməni işğalına düşməsi nəticəsində təxminən 50 mlrd ABŞ dolları dəyərində ziyan dəymişdir. 1994cü ildə Ermənistanın lehinə işləyən atəşkəs müqaviləsindən sonra ölkə iqtisadiyyatı öz çətin dövrünü yaşayırdı. Lakin həmin ilin 12 dekabırında ümumilli lider Heydər Əliyevin başçılığı ilə Azərbaycan üçün tarixi bir müqavilə "Əsrin Müqaviləsi" imzalandı. Bu müqavilə dönüş nöqtəsi oldu.

Azərbaycanın xarici ticarət siyasəti - Xarici ticarət siyasəti dövlət tədbirləri sistemi olub, xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə yönəlməklə, maddi istehsalın strukturunda, iqtisadiyyatın idarə edilməsində baş verən real prosesləri əks etdirir. Müstəqilliyin əldə edildiyi illərin ardından 1994-1999-cu illər arasında Azərbaycanın xarici ticarət balansında kəsirlər müşahidə olunmuşdur. Lakin, neft məhsulları ixracının artması bu kəsrin azalmasına səbəb olmuşdur. Neft ixracının artmağa başladığı 2000-ci ildən etibarən ixracın ÜDM-də əhəmiyyətli yerə sahib olmağa başladığını müşahidə edirik. Neft və neft məhsullarının üstünlük təşkil etməsi neft hasilatı və bunun nəticəsində də ixracının artmasıyla daha da artacaqdır. Neft sektorundan bu cür aslılıq ölkə üçün böyük bir problem ola bilər. Çıxış yolu kimi ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi lazımdır. Xarici investorların Azərbaycanda qeyri-neft sektoruna cəlb olunması, texnologiya bazarına çıxış və digər sahələrin genişləndirilməsi buna nümunə ola bilər.

Bu gün İstehsal edilmiş mal və xidmətlərin əsas hissəsi xarici ticarət vasitəsilə bazara çıxarılır, ya da həmin məhsulların istehsalında xarici komponentlərdən İstifadə olunur. Azərbaycan Respublikasının ticarət tərəfdaşları ilə münasibəti. Noyabr-2020-Noyabr-2021 ci il. Toplam ixrac 16.1 mlrd ABŞ dolları, Toplam idxal 10.2 mlrd ABŞ dolları təşkil edir. Statistikaya əsasən ən çox idxal Rusiyaya və ən çox ixrac İtaliyaya olmuşdur. (4)

| Ölkə | İdxal | İxrac |
|---|---|---|
| **Türkiyə** | 1.60 mlrd $ | 2.22 mlrd $ |
| **Rusiya** | 1.77 mlrd $ | 758 mln $ |
| **İtaliya** | 383 mln $ | 5.94 mlrd $ |
| **Ukrayna** | 399 mln $ | 359 mln $ |

| | | |
|---|---|---|
| **İran** | 333 mln $ | 25 mln $ |
| **Böyük Britaniya** | 268 mln $ | 394 mln $ |
| **ABŞ** | 405 mln $ | 62.1 mln $ |
| **Fransa** | 247 mln $ | 74.4 mln $ |
| **Çin** | 1.43 mlrd $ | 146 mln $ |
| **Almaniya** | 600 mln $ | 234 mln $ |
| **Koreya** | 31.5 mln $ | 35 mln $ |
| **Yaponiya** | 229 mln $ | 13.4 mln $ |
| **Qazaxıstan** | 87.3 mln $ | 30.2 mln $ |
| **Gürcüstan** | 88.6 mln $ | 567 mln $ |
| **Özbəkistan** | 60.8 mln $ | 31.2 mln $ |
| **Pakistan** | 8.49 mln $ | 728 mln $ |
| **Hindistan** | 129 mln $ | 547 mln $ |
| **İsrail** | 31.5 mln $ | 543 mln $ |

Azərbaycanın Xarici İnvestisiya siyasəti - İqtisadiyyatı və ixracı şaxələndirməklə (diversifikasiya etməklə) neft-qaz gəlirlərindən asılılıq səviyyəsinin azaldılmasına qısa müddətdə nail olmaq istəyən Azərbaycan üçün qeyri-neft sektoru sahələrinə, xüsusilə emal sənayesinə birbaşa xarici investisiyaların (BXİ) cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində 2025-ci ilədək hökumətin nail olmağı qarşısına qoyduğu 4 hədəf indikatorunun birincisi "qeyri-neft sektoruna yönəldilmiş BXİ- ın qeyri-neft ÜDM - dəki payının 4 faizə çatdırılması" (2015-ci ildə 2.6 faiz olub) kimi müəyyən edilib

Qeyri-neft sektoruna BXİ-nin cəlb edilməsinin artımına nail olmaq üçün xarici investorları çəkindirən amillərin aşkara çıxarılması və bunların aradan qaldırılması üçün tədbirlərin həyata keçirilməsi vacibdir.

Rusiya Fedarasiyasının xarici iqtisadi əlaqələri - Fedarativ dövlətdə xarici iqtisadi fəaliyyətin inkişafına eyni zamanda iki amil təsir edir.

− İstənilən milli dövlətin və onun ərazilərinin iqtisadi inkişafında xarici iqtisadi fəaliyyətinəhəmiyyətinin artması;

− Regionların fedarativ dövlətin subyektləri kimi konstitusiya-hüquqi statusu.

Rusiya Fedarasiyasının Konustitusiyasınındakı müvafiq qanuna əsasən regionların beynəlxalq və xarici ticarət əlaqələri sahəsi Rusiya Fedarasiyasının və RF-nın regionlarının birgə idarəsinə aiddir.

RF subyektlərinin xarici iqtisadi fəaliyyət sahəsindəəsas funksiyaları aşağıdakılardır.

− Region iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi.

− Region əhəmiyyətli ixrac sövdələrinin sığortalanması və kreditlənməsi.

− Qarşılıqlı maraq olduqda xarici dövlətlərlə və onların regionları ilə iqtisadi iəməkdaşlığın qurulması.

− Xarici iqtisadi fəaliyyətin satış və informasiya strukturunun təşkili. Regionun ümumi xarici iqtisadi potensialının ayrılmaz tərkib hissəsi ixrac və idxal potensialıdır. Rusiya ixracında enerji-xammal tərkib hissəsinin üstünlük təşkil etdiyi bir məqamda ölkənin milli iqtisadiyyatının ixrac bazasının faktiki olaraq əsas ehtiyyatları dünya xammal bazarında "

ləğvlikli” xammalın ərazisndə yerləşdiyi regionların və yalnız konyuktura baxımından deyil, lazım gəldikdə çox aşağı qiymətə satıla bilən yarımfabrikatlar və ilkin emal edilmiş digər məhsullar buraxan müəssələrin potensialı səviyyəsinə qədər daralması gedir.

Yapon iqtisadiyyatı - Dünya ölkələri arasında özünəməxsusluğu ilə seçilən Yapon iqtisadiyyatı Dünya iqtisadiyyatında mühüm rol oynayır. Əhalisi dünya əhalisinin 0.5% -ni təşkil etməməsinə baxmayaraq dünya ÜDM-nın 7%-ə qədərini istehsal edir.

Yapon iqtisadi inkişafında bir sıra əlamətdar cəhətlər var ki, ondan bütün dünya iqtisadçıları maraqla izləyirlər. Yaponiya dünyada yeganə ölkədirki burada balanslaşdırılmış inkişaf modeli praktikada reallaşıb.

Hamıya məlium olduğu kimi xarici iqtisadi siyasət iki funksiyanı yerinə yetirir

- Müdafiyə
- Təcavüzkar

ABŞ və Çin kimi belə ölkələrin təcavüzkar siyasətinin sırasına nüfuz sferasının təmini üzrə eksponsiyonis mearlar daxildir. Digər ölkələrə münasibətdə “ təcavüzkar siyasət” sülh və mehriban qonşuluq prinsiplərinin həyata keçirilməsi təbirləri sırasına əməkdaşlıq formalarının artırılması deməkdir.

Strategiyanın birinci variantı ABŞ, Qərbi Avropa və Yaponiyanın beynəlxalq rəqabət mərkəzləri üçün xarakterikdir. Bütövlükdə hər 3 mərkəzə liberal sənaye iqtisadiyyatı xasdır.

Qeud etmək lazımdır ki, Amerika tərəfdaşlığı daha zəif ölkələrlə əməkdaşlıq təcrübəsinə əsaslanır.

Strategiyanın ikinci variantı 2 ali dövlətin qarşılıqlı fəaliyyəti çərçivəsində hansısa qüvvələr balansının pozulması ilə müəyyən edilir.

Xarici iqtisadi əlaqələrdə də görünür ki. Inkişaf etməkdə olan Azərbaycan öz iqtisadiyyatını gücləndirməli və moderinləşdirilməlidir.

Modernləşmə çox mürəkkəb mərhələ olaraq, cəmiyyətin ayrılıqda götürülmüş hansısa bir sahəni əhatə etmir, onun hüdudları son dərəcə genişdir. Dar mənada desək modernləşdirmə müasirləşdirmə və yenilik dəməkdir.

Azərbaycan Respublikasının prezdenti İlham Əliyev modernləşdirmə siyasətini davam etdirir. Belə bir siyasət Azərbaycanı inkişaf etmiş ölkələr sırasına sürətlə daxil olmasına təmin etmək məqsədinə hesablanmışdır.

Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi dörd məqsədi nəzərdə tutur.

1. Müasir Azərbaycan iqtisadiyyatının formalaşdırılması.
2. Ölkə iqtisadiyyatının texniki-mənəvi cəhətdən köhnəlmiş bütün aspektlərin yeniləşdirilməsi, istehsalın maddi bazasının inkişaf etdirilməsi.
3. Ölkə iqtisadiyyatının bəzi sektorlarının və sahələrinin ixtisaslaşdırılması.
4. Öljkənin ümimi iqtisadi inkişafının katalizatorları olan sahələrin daha güclü inkişafı üçün müvafiq tədbirlərin görülməsi.

**Nəticə.**

Xarici iqqtisadi siyasətin həyata keçirilməsinin öyrənilməsinin dünya təcrübəsi göstərdiki qəti xarici determinasiya gücündə iqtisadiyyatın yüksək inkişaf tempinə malik dünya ölkələrinin mühüm hissəsi vasitə və tənzimlənmə metodlarının “kompleks” seçiminin ümumiliyi ilə xarakterizə olunur.

Ötən əsrin 90-cı illərində hələ gənc formalaşmayan bir ölkənin müharibənində təsiri ilə iqtisadiyyatı ciddi zərər gördü. Bu cür çətin vəziyyətdən indiki dönəmə gəlinən 30 ildə milli iqtisadiyyatın necə inkişaf etdiyi, dünya ölkələri ilə ayaqlaşa bilən ölkəyə çevrildiyi əzimkarlığın bariz bir nümunəsidir.

ABŞ və Azərbaycanın xarici iqtisadi siyasətini müqayisə etdikdə, ABŞ-nın təcavüzkar Azərbaycanın isə müdafiyəkar siyasət yürütdüyünü görərik.

Azərbaycan İqtisadiyyatını və onun xarici iqtisadi siyasətini dünya ölkələri ilə müqayisə etdikdə hələ də çatışmayan cəhətləri sezmək olar. Bu isə təbiidir. Çünki Azərbaycan hələ inkişaf etməkdə olan bir ölkədir.

## ƏDƏBİYYAT


1. Səmədova.O.M. İqtisadiyyata Giriş. Mingəçevir: 2018
2. M.C. Atakişiyev, H.M.Abbasov, N.H.Abbasova. Mikro və Makroiqtisadiyyat. Bakı: 2010
3. Dünyamalı Vəliyev, Aqil Əsədov. Beynəlxalq İqtisadiyyat. Bakı: 2012
4. . www.stat.gov.az
5. İqtisadi Nəzəriyyə. (Makroiqtisadiyyat-1, 2, Metaiqtisadiyyat, Transformasiya iqtisadiyyatı) “Daşkov və K” nəşriyyat-ticarət korporasiyası. Moskva: 2008
6. https://az.wikipedia.org
7. . Arif Şəkərəli oğlu Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər”, monoqrafiya, Bakı 2009
8. Aqil Əliyev, Arif Şəkərəliyev, İdris Dadaşov. Dünya İqtisadiyyatı: Müasir Dövrün Problemləri. Bakı : 2003


# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ SİYASƏTİ DÜNYA ÖLKƏLƏRİ İLƏ MÜQAYİSƏSİ

***Səidə Şixəlizadə, Amid Kazımov***

## XÜLASƏ


Xarici iqtisadi siyasət - ölkələrin ixrac və idxal, tariflər, xarici kapitalın cəlb olunması, məhdudiyyətlər, xarici istiqrazlar, digər ölkələrə iqtisadi yardımın edilməsi və s. sahəsində dövlətin həyata kezirilməsi deməkdir.

Azərbaycan iqtisadiyyatını müstəqillikdən əvvəl və sonra olmaqla 2 hissəyə ayırmaq olar. Sovet rejiminin çöküşündən sonra müstəqillik qazanan Azərbaycan ilk 3 ili ərzində Ermənistanın Azərbaycan torpaqlarının 20%-ni işğal etməsi ölkə iqtisadiyyatını tənəzzülə uğratmışdır. 1994-cü ildə imzalanan "Əsrin Müqviləsi" ölkə iqtisadiyyatını yenidən canlandırmışdır.

Dünya iqtisadiyyatı güclü ölkələr arasında qeyri-bərabər şəkildə formalaşmışdır. Məsələn

Almaniya, ABŞ, Yaponiya kimi ölkədə yer kürəsi əhalisinin 9%- cəmlənməsinə baxmayaraq , ölkələr dünya miqyasında qazanılan gəlirlərin yarısını mənimsəməyə qadirdilər. Bu ölkələr bütün ölkələrin alıcılıq qabiliyyətinin 1/3 hissəsinə nəzarət edirlər. Həmçinin bu ölkələrin öznə məxsus iqtisadi modelləri mövcuddur.

Rusiya xarici iqtisadi siyasətinin özünəməxsus qanunları vardır. Rusiyanın müasir xarici iqtisadi əlaqələrinin vəziyyəti və strukturu hər şeydən əvvəl , iqtisadiyyatın cari vəziyyəti və ölkənin düşdüyü geosiyasi realıqlarla müəyyənləşir.

Dünya iqtisadiyyatında Qərbi Avropanında xüsusi yeri vardır. Qərbi Avropa regionunun özünəməxsusluğunun başlıca amillərindən biridə 25 ölkə ilə təmsil olunmasına baxmayaraq beynəlxalq iqtisadiyyatda çox vaxt vahid bir struktur kimi göstərilir.

# ВНЕШНЕЭКОНОМИЧЕСКАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ. СРАВНЕНИЕ СО СТРАНАМИ МИРА

***Саида Шихализаде, Амид Кязимов***

## АННОТАЦИЯ

Внешнеэкономическая политика - экспорт и импорт стран, тарифы, привлечение иностранного капитала, ограничения, иностранные облигации, экономическая помощь другим странам и т. Д. означает реализацию состояния в поле. Экономику Азербайджана можно разделить на две части: до и после обретения независимости. В течение первых трех лет независимости Азербайджана после падения советского режима оккупация Арменией 20% азербайджанских земель привела к спаду экономики страны. Подписанный в 1994 году «Контракт века» оживил экономику страны. Мировая экономика сформирована неравномерно среди сильных стран. Например, несмотря на то, что на такие страны, как Германия, США и Япония приходится 9% населения мира, страны смогли поглотить половину мирового дохода. Эти страны контролируют 1/3 покупательной способности всех стран. У этих стран тоже есть свои экономические модели. У России свои законы внешнеэкономической политики. Состояние и структура современных внешнеэкономических связей России определяются, прежде всего, нынешним состоянием экономики и геополитическими реалиями страны. Западная Европа занимает особое место в мировой экономике. Хотя одним из ключевых факторов уникальности западноевропейского региона является то, что он представлен 25 странами, его часто изображают как единую структуру в международной экономике.

# FOREIGN ECONOMIC POLICY OF THE REPUBLIC OF AZERBAIJAN. COMPARISON WITH WORLD COUNTRIES

***Saida Shikhalizade, Amid Kazimov***

## SUMMARY

Foreign economic policy - export and import of countries, tariffs, attraction of foreign capital, restrictions, foreign bonds, economic assistance to other countries, etc. means the implementation of the state in the field. The Azerbaijani economy can be divided into two parts, before and after independence. During the first three years of Azerbaijan's independence after the collapse of the Soviet regime, Armenia's occupation of 20 percent of Azerbaijani lands has plunged the country's economy into recession. The "Contract of the Century" signed in 1994 revived the country's economy.

The world economy is unequally formed among powerful countries. for example

Despite the fact that countries such as Germany, the United States and Japan account for 9% of the world's population, countries have been able to absorb half of the world's income. These countries control 1/3 of the purchasing power of all countries. These countries also have their own economic models.

Russia has its own laws of foreign economic policy. The state and structure of Russia's modern foreign economic relations are determined, above all, by the current state of the economy and the geopolitical realities of the country.

Western Europe has a special place in the world economy. Despite being represented by 25 countries in one of the key factors in the uniqueness of the Western European region, it is often portrayed as a single structure in the international economy.

# AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN ZƏRURİLİYİ VƏ ONU ŞƏRTLƏNDİRƏN AMİLLƏR

***Məmmədova Təranə Şəmistan qızı***
***BDU-nun II kurs magistrantı***
***taranamammadova0518@gmail.com***

***Açar sözlər:*** milli iqtisadiyyat, iqtisadi inteqarsiya, qloballaşma, xarici iqtisadi əlaqələr, xarici iqtisadi siyasət, beynəlxalq əməkdaşlıq
***Ключевые слова:*** национальная экономика, интеграция, глобализация, зарубежные экономические отношения, зарубежная экономическая политика, международные отношения.
***Keywords:*** national economy, economic integration, globalization, foreign economic relations, foreign economic policy, international cooperation.

1991-ci ildə müstəqillik bərpa edilməsi yeni bir mərhələnin başlağıcı oldu. Yeni mərhələ milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, dünya iqtisadi sistemlərinə səmərəli inteqrasiya və ölkədə uzunmüddətli dinamik sosial-iqtisadi inkişafın təmin edilməsini təşkil edirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadi siyasət fərmanlarında bu məqsədə nail olmaq üçün vacib olan vəzifələri müəyyən etmişdir. Bunlar xüsusilə Azərbaycanın iqtisadi potensialının gücləndirilməsi və səmərəli istifadəsi, o cümlədən qeyri-neft sektorunun inkişafı (Azərbaycanda neftdən müstəqil milli iqtisadiyyatın formalaşması), Azərbaycanın hər bir regionunun potensialından tam və səmərəli istifadə olunması, çoxsaylı iş yerlərinin açılması üçün əlverişli şəraitin yaradılması, özəl biznesin inkişafı, əhatə dairəsinin, keyfiyyətinin və hədəf qruplarının artırılması, yoxsulluğun azaldılması və s. daxildir.

İnteqrasiya prosesində Azərbaycan kimi keçid ölkələri beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq etməli və bununla da bazar iqtisadiyyatının inkişafı ilə əlaqədar yardım almalıdırlar.

Azərbaycan demokratik inkişafı və iqtisadiyyatın daha balanslı, diversifikasiyalı və rəqabətli olmasını təmin etmək üçün bir sıra bazar əsaslı islahatlara başlamış və bununla da regional və daha geniş beynəlxalq iqtisadiyyata inteqrasiyasını artırmışdır. TACIS proqramı vasitəsilə müvafiq texniki yardım və təcrübə təmin etməklə Azərbaycanda iqtisadi islahatları dəstəkləyir. Azərbaycan üçün TACIS proqramı çərçivəsində əməkdaşlığın üç əsas istiqaməti - infrastruktur, özəl sektor və insan resurslarının inkişafı prioritetindən ibarətdir.

Azərbaycan çətin və mürəkkəb daxili və xarici vəziyyətlərin mövcudluğuna baxmayaraq, bazar yönümlü islahatların aparılması yolunda əhəmiyyətli irəliləyiş göstərmişdir. Yüksək səviyyəli xarici birbaşa investisiyaların cəlb edilməsinə xidmət edən karbohidrogen ehtiyatlarının istismarı ilə bağlı böyük uğurlar əldə edilmişdir. Eyni zamanda, beynəlxalq maliyyə institutlarının iştirakı və ciddi maliyyə tədbirlərinin həyata keçirilməsi yolu ilə makroiqtisadi sabitliyə nail olunmuşdur.

Neft ilə zəngin olan Azərbaycan təbii ehtiyatları ilə dünya miqyasında tanınır. Ən böyük enerji şirkətlərlə istehsal və mübadilə müqavilələrinin imzalanması, eyni zamanda ölkənin Avropa və ABŞ-a ixrac prosesinin həyata keçirilməsinə başlanılması yeni bir mərhələyə keçidin əsasını qoydu. Neft və qaz yataqlarının kəşf edilməsi və istismarı qeyri-neft sektorunun yaranmasına və dünya iqtisadiyyatına inteqrasiyaya səbəb olmuşdur. Bununla yanaşı, 2004-cü ildən 2010-cu ilədək Azərbaycanın qeyri-neft ixracının həcmi 510 milyon ABŞ dollarından 1,37 milyard ABŞ dollarına qədər artmışdır.

1992-ci ildə Azərbaycan ATƏT üzvlüyünə qəbul oldu, bu təşkilatın üzvlərinin əsas məqsədi sülh, demokratiya və vətəndaş hüquqlarını təmin etmək və qarşılıqlı əməkdaşlığı inkişaf etdirməkdən ibarətdir. Beləliklə, Azərbaycan və digər üzv dövlətlər beynəlxalq bazarlarda daha çox birləşməyə nail olmaq üçün fürsət qazandılar. Bundan əlavə, ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağın və yeddi ətraf ərazinin erməni işğalı ilə bağlı yaranmış münaqişəni həll etmək üçün yaradılmışdır.

Dünya iqtisadiyyatında daha da güclənərək arealı genişlənən qloballaşma prosesi xarici iqtisadi əlaqələr sistemini də əhatə etmişdir.Bu nəhəng və obyektiv prosesin tələblərini xarici iqtisadi əlaqələrdə,onun aparıcı sahəsi olan əmtəə dövriyyəsində nəzərə almaq, idxal-ixrac əməliyyatlarını köklü olaraq səmərəli qurmağa kömək edir.

Xarici iqtisadi əlaqələrin mühüm istiqamətlərindən birini də investisiya qoyuluşu təşkil edir. Respublikamız Avropadan Orta Asiyaya qapı, Transqafqaz dəhlizinin, Böyük İpək Yolunun keçdiyi strateji bölgədir. Bununla əlaqədar Cənubi Qafqaz ABŞ-ın milli maraq zonasına daxil olmuşdur. Ulu Öndər Heydər Əliyevin siyasətinin nəticəsində ölkəmiz regionda lider dövlətlərdən birinə çevrilmişdir. Bunun nəticəsində, Azərbaycana investisiya qoyuluşu üçün böyük imkanlar yaranmağa başlandı.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin təhlili bizə aşağıdakı şərtləri deməyə imkan verir:

- Xarici iqtisadi əlaqələrin idxal-ixrac quruluşunu təkmilləşdirmək;
- İxracda yüksək texnoloji sənaye məhsulu istehsalını genişləndirmək;
- Kənd təsərrüfatında il ərzində eyni torpaq sahəsindən 2 məhsul almaq üçün digər sahələrdə də mövcud imkanlardan istifadə etmək;
- Bir sıra sənaye kənd təsərrüfatı məhsullarının istehsalını respublikada bərpa etmək;
- Əsas kapitala yönəldilmiş vəsaitlərin artımının bir hissəsinin qeyri-neft sektoruna yönəldilməsini təşkil etmək [1, s.43].

İnkişaf etmiş ölkələrin təcrübəsinə arxalanaraq demək olar ki, qloballaşma şəraitində beynəlxalq iqtisadi əlaqələrin inkişaf etdirilməsi 3 əsas istiqamət üzrə həyata keçirilir. Onlara aşağıdakılar aiddir:

- ✓ Xaricdən gətirilən keyfiyyətli məhsullarla rəqabətə davam gətirmək üçün ölkə iqtisadiyyatında rəqabətqabiliyyətli məhsulların istehsalının dövlət tərəfindən dəstəklənməsi;
- ✓ Ölkə üzrə milli sahibkarlığın inkişaf etdirilməsi və onların məhsullarının dünya bazarlarına çıxarılmasının təmin etdirilməsi;
- ✓ Rəqabətə davamlı məhsulların istehsal olunub dünya bazarlarına çıxışı üçün bir sıra təşkili, hüquqi və maliyyə dəstəklərinin formalaşdırılması.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkələrin inkişaf yollarının seçilməsi son dərəcə mühüm məsələlərdən biridir. Ümumiyyətlə, milli iqtisadiyyatın xarici amillərlə sıx əlaqəliliyi və qarşılıqlı asılılığı baxımından 3 inkişaf modelini fərqləndirmək olar:

1) İqtisadiyyatın ixrac yönümünün yüksəldilməsini nəzərdə tutan inkişaf modeli; 2) İdxalı əvəz edəcək istehsal sahələrinin inkişaf modeli; 3) İqtisadi inteqrasiya modeli.

Bu modellərdən hər hansı birinin seçilməsi öz mahiyyəti etibarı ilə xarici ticarət konsepsiyasının formalaşdırılması deməkdir. Buna görə də Azərbaycanın mövcud potensialı baxımından bunların hansının daha mütərəqqi və məqsədəuyğun olduğunu araşdırmaq zəruridir. Beləliklə, ixrac yönümlü inkişaf müasir beynəlxalq iqtisadi münasibətlər sistemində mühüm yer tutan modellərdən biridir və milli iqtisadiyyatın göstərilən istiqamətdə inkişafını tələb edir.

Ölkənin xarici ticarət konsepsiyasının ağırlıq mərkəzi kimi idxalı əvəz edəcək istehsal sahələrinin təşkili modelinin də bir sıra nöqsanları var. Əlbəttə, İqtisadi təhlükəsizliyi baxımından bir sıra mal və mal qrupları üzrə idxal asılılığına son qoyulması mühüm problemlərdən biridir. Lakin bütün məhsul və xidmətlər üzrə idxalı əvəz edəcək istehsal

sahələrini inkişaf etdirmək həm mövcud potensial, həm də sosial-iqtisadi səmərəlilik baxımından qeyri-mümkündür.İdxalı əvəz edəcək istehsal sahələrinin təşkili iri həcmli investisiya qoyuluşları tələb edir, digər tərəfdən, ölkənin müxtəlif istehsal amilləri ilə təchizi dərəcələri arasındakı fərq öz-özlüyündə xarici ticarətin strukturunu müəyyənləşdirmək imkanı verir ki, bunun da heç bir əsas olmadan dəyişdirilməsi xarici ticarət sferasında böyük itkilərlə nəticələnə bilər.

Ölkənin xarici ticarət konsepsiyasının əsas istinad bazası regional iqtisadi inteqrasiya çərçivəsi daxilində yaradılan azad ticarət blokları ola bilər. Avropa Azad Ticarət Assosiasiyası tipli ticarət zonalarının təşkili həm keçid dövrü ərzində, həm də perspektivdə daxili və xarici iqtisadi fəaliyyətin optimal uyğunluğuna əsaslanan xarici ticarət konsepsiyasını formalaşdırmağa və tətbiq etməyə imkan verərdi.

Aydındır ki, Azərbaycan keçid dövrünün spesifik xüsusiyyətləri baxımından regional iqtisadi inteqrasiyaya funksional qoşulması qeyri-mümkündür. Məhz buna görə də, azad ticarət bloklarına daxil olmaq birbaşa müasir gerçəklikdən doğan nəticədir. Hal-hazırda Azərbaycan Avrasiya məkanında yeganə ölkədir ki, eyni zamanda 5 regional qruplaşmada iştirak edir.

Azərbaycanın xarici ticarət konsepsiyası bütövlükdə ölkənin iqtisadi təhlükəsizlik sisteminə, ilk növbədə milli rəqabət üstünlüklərinin formalaşdırılması və inkişafına əsaslanmalıdır [2, s.42].

Azərbaycan ticarət və iqtisadi fəaliyyətlərin liberallaşdırılması, özəlləşdirmə, kənd təsərrüfatı və xidmət sektorlarında radikal islahatlar, eləcə də bank və maliyyə sahələrində iqtisadi bərpa işlərinə başlayıb. Bir çox postsovet ölkələri kimi, Azərbaycan dövlət müəssisələrinin, fabriklərin və digər istehsal və xidmət obyektlərinin özəlləşdirilməsinə başlamışdır. Ən mühüm təşəbbüslər arasında elektrik kabelləri, ağır avadanlıqlar, plastik borular, günəş enerjisi, mis əriməsi və digər sistemlər üzrə ixtisaslaşan Sumqayıt Texnologiya Parkına (STP) investisiya qoyulması daxildir. STP-yə sərmayə yerli bazarda yüksək keyfiyyətli məhsullar təqdim edəcək və Azərbaycanın beynəlxalq bazarlarda təmsil olunmasını təmin edəcəkdir.

Özəl sektor indi yeni iqtisadi strukturların gələcəyini müəyyənləşdirməkdə əsas rol oynayır. İqtisadiyyatın digər sahələri, kənd təsərrüfatı kimi, Azərbaycanın digər bölgələrində inkişaf mərhələsindədir. Artıq bu təşəbbüslərdən bəziləri məhsullarını regional bazarda təmin etməklə nəticələrə gətirib çıxardı.

Azərbaycanın xarici siyasətinin konkret əsasları milli müstəqillik və ərazi bütövlüyünün qorunub saxlanması və möhkəmləndirilməsinə, müxtəlif dünya ölkələri ilə qarşılıqlı münasibətlərin inkişafına yönəldilmişdir. İlk tendensiyalar arasında MDB ölkələri, sərhəd dövlətləri, ənənəvi Avropa ticarət tərəfdaşları, eləcə də aparıcı dünya dövlətləri, Təhlükəsizlik Şurasının üzvləri, İslam və Türk dünyası ölkələri daxil olmaqla, Avrasiya qonşuları ilə münasibətlər mövcuddur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük Britaniya, Fransa, Almaniya, Belçika, Rusiya, Türkiyə, Çin, Pakistan, İran, Misir və Səudiyyə Ərəbistana səfərləri Azərbaycanın xarici siyasətini həyata keçirmək məqsədi daşıyırdı. Heydər Əliyev NATO-nun qərargahı olan Brüsseldə "Sülh naminə tərəfdaşlıq" müqaviləsini imzalayarkən Azərbaycan diplomatiyasının konsepsiyasını aşağıdakı şəkildə izah etdi: "Müqaviləni imzalamaq qərarını alaraq, bu regionda sadəcə sülh və sabitlik qazanmaq deyil, həm də xalqımızı qərb demokratiyasının dəyərləri ilə əlaqələndirmək, dünyanın bütün ölkələri ilə aktiv əməkdaşlıq üçün yeni şərait yaratmağı nəzərdə tuturuq".

Respublika bir sıra beynəlxalq müqavilələr imzalamış, Uşaq hüquqları haqqında Konvensiya, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya kimi mühüm konvensiyalara qoşulmuşdur.

Azərbaycan xarici siyasəti onun coğrafiyası nəticəsində ortaya çıxan problemlər və imkanlar ilə güclü şəkildə təsirlənmiş və formalaşmışdır. Müstəqil xarici siyasət həmişə milli

təhlükəsizliyin əsas amili hesab olunan Azərbaycanın beynəlxalq əlaqələrinin əsas prinsipidir. Azərbaycan balanslaşdırılmış xarici siyasət aparır, xarici təsirlərin qarşısını alır və bütün regional və beynəlxalq iştirakçılar ilə əməkdaşlıq imkanlarını saxlayır. Bu strategiya milli marağın artırılmasına yönəlmişdir. Azərbaycanın xarici siyasəti də çox güclü regional mərkəzə malikdir: ölkə geosiyasi zərurət hesab edilən qonşu ölkələrlə (üçtərəfli tərəfdaşlıq əlaqələri) əlaqələrə böyük əhəmiyyət verir. Yuxarıda göstərilən əsas xüsusiyyətləri və prinsipləri ilə yanaşı, ərazi bütövlüyünün bərpası Azərbaycanın xarici siyasətində əsas prioritetlərdən biridir.

Heydər Əliyev Azərbaycanın xarici siyasət strategiyasının intellektual memarıdır və onun inkişaf etdirdiyi çərçivə Azərbaycanın yeni geosiyasi düşüncələrinin birləşməsində konstruktiv rol oynamışdır. Prezident İlham Əliyev isə qonşu ölkələrlə yaxşı münasibətlərin qorunmasına üstünlük verərək, bu ölkənin geosiyasi zəifliklərini dərk etməyə üstünlük vermiş ve qeyd etmişdir: "Qonşu dövlətlərlə əlaqələr bizim üçün bir prioritetdir. Qonşularımızın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir”[3].

Azərbaycanın özünü strateji tranzit ölkəyə çevirməsi, şərq-qərb və şimal-cənub arasındakı körpü olması iqtisadi artımın sürətində böyük rol oynamışdır. Buna görə, Azərbaycan üç regional və qlobal enerji və nəqliyyat layihələrinin mərkəzindədir: Avropa İttifaqının TRACECA, Çinin Böyük İpək Yolu layihəsi və Rusiya, Azərbaycan və İran arasında Şimal-Cənub dəhlizi. Şimal-Cənub dəhlizi Cənub-Şərqi Asiya və Qara dəniz bölgələrini birləşdirən ən qısa alternativ marşrutdur. Azərbaycan 2013-cü ildə Çinin "Bir kəmər və bir yol" (OBOR) təşəbbüsünü dəstəkləmək üçün ambisiyaları elan edəndə müsbət reaksiya ilə qarşılandı. 2015-ci ilin dekabrında Prezident İlham Əliyev Çinə səfər etmiş və İpək Yolu İqtisadi Belt üzrə anlaşma memorandumu imzalamışdır [4].

Azərbaycanın Türkiyə ilə münasibətlərində bərabər balanslı siyasət təqib edilir. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət idi. Bu şəxsiyyət və mədəniyyət deyil, həm də bu iki dövləti bağlayan milli maraqlarıdır. Hər iki tərəf ikitərəfli əlaqələri strateji olaraq müəyyən edir.BTC, BTƏ və TANAP kimi enerji boru kəmərləri artıq qurulub və hər iki ölkə Şərq-Qərb nəqliyyat dəhlizinin əsas komponenti olan Bakı-Tbilisi-Qars dəmir yolunu uğurla başa vurmağa həsr olunur. Türkiyə Azərbaycana Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından dəyərli dəstək vermişdir. 1992-ci ildən etibarən Azərbaycan və Türkiyə 100-dən çox hərbi protokol imzaladılar. Türkiyə də Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini qətiyyətlə dəstəkləyir və bu səbəbdən Ermənistanla sərhədlərini bağlamışdır. Bu səbəbdən, Azərbaycan çoxsaylı yerli və beynəlxalq hadisələr səbəbindən, o cümlədən 2016-cı ilin iyulunda baş verən zərbədən sonra Ankaraya dəstək vermişdir.

Bundan əlavə, Azərbaycan bir çox regional layihələr çərçivəsində Aİ ilə əməkdaşlıq edir. Xüsusilə TRACECA nəqliyyat layihəsi və INOGATE enerji təşəbbüsü ikitərəfli əlaqələrdə mühüm rol oynadı. 2017-ci ilin fevralında Prezident İlham Əliyevin Brüsselə səfəri zamanı Azərbaycan Aİ ilə yeni strateji tərəfdaşlıq müqaviləsi üzrə danışıqlara başlamışdır. Həmçinin viza rejimini sadələşdirmək üçün bir razılaşmanı müvəffəqiyyətlə həyata keçirdikdən sonra, Azərbaycan Avropa ilə vizasız rejim üçün bir hərəkət planı istədi. Hər iki tərəf də bu mövzuda danışıqlar başlatdı.

Azərbaycan-Gürcüstan-Türkiyə münasibətləri regionda yeganə qurulan üçtərəfli formatdır. Türkiyə və Azərbaycanın artan imkanları və qabiliyyətlərinə uyğun olaraq, birgə təcrübələrlə dəstəklənən üçtərəfli strateji ittifaqın inkişafı regional layihələrin həyata keçirilməsini və ümumi gələcəyin gözləntilərini stimullaşdırır [5, s.27-44].

Göründüyü kimi Azərbaycan müstəqilliyini əldə etdikdən sonra dünya iqtisadiyyatına inteqrasiya yolunu seçmişdir. Keçən dövr ərzində Azərbaycan əksər beynəlxalq və regional iqtisadi təşkilatlarla sıx əməkdaşlıq etmiş və Dünya Ticarət Təşkilatına üzvlük prosesinə start

vermişdir.Ümumilikdə, qeyd etmək olar ki, Azərbaycan xarici iqtisadi siyasətində həm beynəlxalq təşkilatlar, həm də ayrı-ayrı ölkələr baxımından ikitərəfli iqtisadi əlaqələrin inkişafına daha çox önəm verdiyi halda, çoxtərəfli iqtisadi əlaqələrə kifayət qədər ehtiyatla yanaşır.

Azərbaycan hazırda həm müxtəlif iqtisadi təşkilatlar, maliyyə institutları, ÜTT, Avropa İttifaqı, həm də dövlətlərarası iqtisadi əməkdaşlıq çərçivəsində xarici iqtisadi əlaqələrini inkişaf etdirir.

Azərbaycanın xarici ticarət əlaqələrinin inkişaf etdirilməsində ÜTT ilə əməkdaşlığı böyük əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının ÜTT-yə üzv olma niyyətini əks etdirən müraciət 23 iyun 1997-ci il tarixində ÜTT Katibliyinə təqdim edilmişdir. Azərbaycanın ÜTT-yə üzv olma prosesinin sürətləndirilməsində ən vacib məsələlərdən biri olan çoxtərəfli danışıqlar davam etdirilir. Azərbaycan Respublikası ÜTT-yə üzv olma prosesində 21 dövlət ilə (ABŞ, Avropa İttifaqı, Kanada, Yaponiya, Norveç, Rusiya Federasiyası, Braziliya, Cənubi Koreya, Ekvador, Çinin Tayvan əyaləti, Şri-Lanka, Hindistan, İsveçrə, Honduras, İndoneziya, Malayziya, Dominikan Respublikası, Səudiyyə Ərəbistanı, Çin, Paraqvay, Vyetnam) ikitərəfli danışıqlar aparır. Danışıqlar zamanı Azərbaycanın mal və xidmətlər bazarına çıxışa dair məsələlər müzakirə olunur, xüsusi əhəmiyyət kəsb edən sahələrin qorunması ilə bağlı zəruri tədbirlər görülür. Sonuncu dəfə ikitərəfli danışıqlar 24-28 iyul 2017-ci il tarixlərində Avropa İttifaqı, ABŞ, İsveçrə, Yaponiya, Hindistan, Rusiya Federasiyası və Tayland ilə mallar və xidmətlər üzrə keçirilmişdir. Danışıqlar zamanı Azərbaycanın üzv ölkələrə təqdim etdiyi son təkliflər müzakirə edilmişdir.

Danışıqlardan sonra ABŞ, Aİ, İsveçrə, Tailand, Ekvador, Rusiya Federasiyası tərəfindən mallar və xidmətlər üzrə müraciətlər daxil olmuş və hazırda aidiyyəti qurumlarla birgə baxılmaqdadır.

Müasir qloballaşmanın ən aydın göstəriciləri olan transmilli korporasiyalar, böyük sənayeləşmiş ölkələr və beynəlxalq təşkilatlar kimi böyük oyunçular qlobal iqtisadi inkişafda getdikcə müəyyən rol oynamağa başlamışdır. Azərbaycan kimi kiçik iqtisadiyyatlar xarici inkişaflar üçün olduqca həssasdır və belə dəyişikliklərə tez reaksiya vermək və uyğunlaşma qabiliyyətini inkişaf etdirməlidir. Bu, onların rəqabət qabiliyyətini müəyyənləşdirməyə xidmət edəcəkdir və bu çərçivədə idarəetmənin rolu və qarşılıqlı sərhəd ölkələri ilə əlaqələrin idarə olunması getdikcə daha vacib hal almağa başlayır. Ancaq Azərbaycan artıq digər ölkələrlə iqtisadi inteqrasiya arzusunu nümayiş etdirmişdir və bu məqsədə nail olmaq üçün effektiv strategiyaları həyata keçirmişdir.Makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici ölkələrlə ikitərəfli əlaqələrin inkişafı müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə xidmət edəcək, ölkəmizin dünyada nüfuzunu daha da artıracaqdır.

## ƏDƏBİYYAT

**1.** Azərbaycanın xarici-iqtisadi əlaqələri: Problemlər və perspektivlər. Бакы, «Avropa» nəşriyyatı, 2015, 332 səh.

**2.** Şəkərəliyev A.Ş. (2009) “Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər”. Bakı: «İqtisad Universiteti»

**3.** President.az (2016), Respublika Günü münasibətilə rəsmi qəbulda İlham Əliyevin nitqi, Avaliable at: http://www.president.az/articles/19986 (Accessed: 27 may 2017)

**4.** Xinhuanet (2015), China, Azerbaijan sign deals on silk road cooperation, Avaliable at: http://news.xinhuanet.com/english/2015-12/11/c_134904736.htm (Accessed: 11 april 2017)
**5.** Valiyev J. (2015), `Azerbaijan-Georgian-Turkey Triangle: The Main Features of Cooperation`, Caucasus International, Vol. 5, No: 3, Winter.
**6.** http://www.mfa.gov.az
**7.** http://www.russian-survey.com/our-nearest-neighbors/61-azerbaijans-integration-into-international-economy
**8.** https://www.economy.gov.az
**9.** http://azerbaijan.az/portal.

## AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRININ ZƏRURİLİYİ VƏ ONU ŞƏRTLƏNDİRƏN AMİLLƏR

***Məmmədova Təranə***

### XÜLASƏ

Bu məqalədə Azərbaycanın müstəqillik əldə etdikdən sonra qlobal iqtisadiyyata inteqrasiyasının istiqamətləri və onun xarici iqtisadi əlaqələrinin zəruriliyi əks etdirilib. Respublikamızın müxtəlif layihələr çərçivəsində əməkdaşlıqları qeyd olunub, xarici siyasət strategiyasının imkanları vurğulanıb və eyni zamanda, xarici ölkələrlə iqtisadi əlaqələrin inkişaf perspektivləri araşdırılıb.

## НЕОБХОДИМОСТЬ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНА И ФАКТОРЫ ЕЕ ОБУСЛОВЛЯЮЩИЕ

***Тарана Мамедова***

### АННОТАЦИЯ

В этой статъе рассмотрены направления интеграции в глобалъную экономику и еѐ необходимость в зарубежных экономических отнашениях после приобретения Азербайджана своей независимости. Отдельно отмечены возможности иностранной политической стратегии и одновременно раскрыты перспективы развития экономических отношений с зарубежными странами в рамках различных Республиканских проектов.

## NECESSARY AND ESSENTIALLY CONDITION FOR FOREIGN ECONOMIC RELATIONS OF AZERBAIJAN

***Tarana Mammadova***

### SUMMARY

This article outlines the integration trends in the world economy and the necessity of its foreign economic relations after Azerbaijan gained its independence. The opportunities of the foreign policy strategy were emphasized and at the same time, the prospects for the development of economic relations with foreign countries were investigated.

# MÜASİR SOSİAL FENOMEN OLARAQ TURİZMİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

***iqtisad elmləri doktoru Pəri Həsənova***
***BDU-nun iqtisadiyyat kafedrasının professoru,***
***Zeynallı Yusif Allahverdi oğlu***
***BDU-nun II kurs magistrantı***
*yusif.zeynalli@gmail.com*

***Açar sözlər:*** müasir, turizm, sosial fenomen, səmərəlilik.
***Ключевые слова:*** современный, туризм, социальное явление, эффективность.
***Key words:*** modern, tourism, social phenomenon, efficiency.

Hazırda turizm dünyanın bir çox ölkələrində iqtisadiyyatın dinamik inkişaf edən sahələrindən biridir və yüksək inkişaf tempinə görə, xüsusən də böhrandan sonrakı dövrdə milli iqtisadiyyatın digər sahələrinə stimullaşdırıcı təsir göstərir. Turizm milli iqtisadiyyatın ayrıca sahəsi kimi cəmiyyətin sosial-iqtisadi həyatına güclü təsir göstərir və buna görə də bir çox xarici və yerli alimlər onu "XXI əsrin fenomeni" adlandırırlar. Dünya Turizm Təşkilatının son məlumatlarına görə, dünyada ümumi milli məhsulda turizmin payı təxminən 11-12 %-dir. Bundan əlavə, turizmin payına aşağıdakılar düşür:

- dünya üzrə ümumi investisiyanın 8 %-i;
- son məhsulların istehlakına dünya xərclərinin 10,8 %-i;
- bütün vergi endirimlərinin 5-6 %-i
- dünya ixracından əldə edilən gəlirlərin 6,5-7 %-i [4, s.53].

Bu statistik göstəricilər yalnız iqtisadiyyatın neft və qaz hasilatı sahələrinin göstəriciləri ilə müqayisə edilə bilər. Bir çox inkişaf etmiş ölkələrdə turizm ölkə büdcəsinin 15-20 % doldurulmasını təmin edən iqtisadiyyat sahəsidir. Bunlara İtaliya, Fransa, İsveçrə, Türkiyə və hətta bəzi postsovet ölkələri Macarıstan, Çexiya daxildir. Bundan əlavə, məlumdur ki, turizm sənayesinin inkişafı ölkə iqtisadiyyatının qalan hissəsi ilə sıx bağlıdır. Məsələn, qurulmuş nəqliyyat sistemi, rabitə, kənd təsərrüfatı, istehlak məhsullarının istehsalı və s. olmadan turizmin səmərəli inkişafı mümkün deyil. Məhz bu əlaqə vasitəsilə turizm milli iqtisadiyyatın əlaqəli sahələrinin inkişafına stimullaşdırıcı təsir göstərir. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid dövründə turizm xidmətləri bazarının mürəkkəb strukturu inkişaf etmişdir. Bu problemlərin həlli və turizmin inkişafının səmərəliliyinin artırılması kimi turizm fəaliyyətinin inkişafının konseptual bazasına yenidən baxılmasını, turizmin inkişafı və rekreasiya fəaliyyətinin strateji məsələlərinə ciddi diqqət yetirməyi təklif edirik ki, bu da aşağıdakılarla ifadə olunmalıdır:

- dövlət və özəl sektorların, yerli icmaların səylərini birləşdirərək turist və istirahət qonaqpərvərliyinin davranış modelinin hazırlanması və həyata keçirilməsi;
- turizm biznesinin inkişafında aparıcı vahid milli brendinin inkişafı və təşviqi;
- qorunan ərazilərin fəaliyyətində vahid rekreasiya standartlarının işlənib hazırlanması və həyata keçirilməsi;
- Ümumdünya Turizm Təşkilatının statistik uçotunun qəbul edilmiş beynəlxalq standartlarının tətbiqi;
- turist xidmətləri bazarında tələb və təklifin müntəzəm marketinq tədqiqatlarının aparılması;
- turizm və istirahət sisteminin vahid informasiya və texniki bazasının formalaşdırılması;

- 2025-ci ilə qədər kurort-rekreasiya zonalarının inkişafı üzrə kompleks planın işlənib hazırlanması və həyata keçirilməsi;

- turizm məhsullarının çeşidinin genişləndirilməsi, onun əsasında ölkə və regionlar üzrə paket turların və xidmət zəncirlərinin formalaşdırılması;

- milli mədəniyyətin tədqiqi, turizm və rekreasiya bazarının tələblərinə uyğunlaşdırılması, həmçinin yeni "mif"lərin və hadisə faktlarının rekreasiyası;

- turizm xidmətləri bazarının şəffaflığının artırılması [1, s.23].

Bundan əlavə, hesab edirik ki, turizmin inkişafının səmərəliliyinin artırılması üzrə tədbirlər planının hazırlanması prosesində aşağıdakı məsələyə böyük diqqət yetirilməlidir: turizm sektorunun dövlət tənzimlənməsinin səmərəliliyi. Bildiyiniz kimi, turizmin nəzəriyyəsi və praktikasında "sosial turizm" və "iqtisadi turizm" anlayışları bir-birindən fərqlənir. Buna uyğun olaraq qlobal sosial-iqtisadi hadisə kimi turizmin səmərəliliyinin qiymətləndirilməsi meyarları da fərqlənir. Turizmin cari rolu son nəticədə insan həyatının keyfiyyətinə və müddətinə təsirin effektivliyi ilə müəyyən edilir. Buna görə də turizm araşdırmalarında turizmin tibbi-fizioloji, iqtisadi və sosial səmərəliliyi anlayışlarından istifadə olunur. Tibbi-fizioloji vasitələrin effektivliyi turizmin əhalinin xəstəliklərinin qarşısının alınmasına təsirinin qiymətləndirilməsi deməkdir. Əhalinin xəstələnmə hallarının artmasını və orta ömür uzunluğunun azalmasını izah edən əsas risk faktorlarından biri fiziki hərəkətsizlik və əhəmiyyətli emosional stressdir. Turizm yüksək intensivliyə, vaxt vahidinə maksimum rekreasiya ehtiyaclarını ödəmək qabiliyyətinə görə digər fəaliyyət növləri ilə müqayisədə daha yüksək profilaktik effektivliyə malikdir.

Turizm sənayesinin iqtisadi səmərəliliyi həm də iqtisadiyyatın digər sahələri ilə müqayisədə inkişafın yüksək muxtariyyət dərəcəsindədir. Öz növbəsində, turizm sənayesinin muxtariyyəti resursların yenilənməsi və turizmin iqtisadiyyatın digər sahələrindən nisbi müstəqilliyidir. Turizmin digər sektorlarla müqayisədə səmərəliliyi XXI əsrdə sənaye siyasətini müəyyən etmək üçün iqtisadi baxımdan çox vacibdir. Turizmin inkişafı uzunmüddətli, iqtisadi cəhətdən sərfəli perspektivdir. Meksika, Braziliya, Peru, Argentina, Keniya, Misir ən inkişaf etmiş ölkələr sırasında deyil. Bununla belə, buradakı hakimiyyət orqanları başa düşürlər ki, dövlətin köməyi ilə qurulan mükəmməl turizm xidməti bütün iqtisadiyyatın inkişafına kömək edir. Son illərə misal olaraq Çin, Tailand, İndoneziyada turizm sahəsində əldə olunan uğurları göstərmək olar. Keniyada turizm şəxsiyyətin, sənətkarlığın və təbiətin mühafizəsi üçün demək olar ki, yeganə maliyyə mənbəyinə çevrilib. Seyşel adalarında hətta Turizm Nazirliyi də var.

Müxtəlif analitiklərin fikrincə, beynəlxalq turizmin inkişafı aşağıdakı amillərə əsaslanır:

1. İqtisadi artım, sosial tərəqqi iş və təhsil səyahətlərinin artmasına səbəb olur;
2. Bütün nəqliyyat növlərinin təkmilləşdirilməsi səyahəti ucuzlaşır;
3. İnkişaf etmiş ölkələrdə muzdlu fəhlə və qulluqçuların sayı artmış, onların maddi-mədəni səviyyəsi yüksəlir;
5. Dövlətlərarası münasibətlərin və ölkələr arasında mədəni mübadilənin inkişafı regionlar arasında və onların daxilində şəxsiyyətlərarası əlaqələrin genişlənməsinə səbəb olur;
6. Xidmət sahəsinin inkişafı nəqliyyat sektorunun inkişafına və telekommunikasiya sahəsində texnoloji tərəqqiyə təkan verir;
7. Bir çox ölkələrdə valyutanın ixracına qoyulan məhdudiyyətlər yüngülləşdirilib və sərhəd rəsmiləşdirmələri sadələşir [3, s.17].

Turizmin müasir inkişafına təsir edən amillərin öyrənilməsi turizm sənayesinin mütəxəssisləri tərəfindən həyata keçirilir. Beynəlxalq turizm üzrə amerikalı mütəxəssislər Q.Harris və K.Katz beynəlxalq turizmin inkişafına təsir edən amillərə aşağıdakıları aid edirlər:

1. Marketinq fəaliyyətinin təkmilləşdirilməsi ("ağızdan ağıza" reklamın təsirini nəzərə almaqla, qəbul edən ölkələrin həmin regionlarının dünyada az tanınan və ya naməlum olan turizm və rekreasiya resursları haqqında reklam məlumatlarının yayılması);

2. Beynəlxalq turizm texnologiyasının təkmilləşdirilməsi (dünyada qəbul edilmiş əsas qonaqpərvərlik şərtlərinə riayət edilməsi, bu regionun görməli yerləri üçün cəlbedici obrazın yaradılması, ekskursiya obyektlərinin xarici dillərdə göstəricilərinin tərtib edilməsi və s.);

3. Sənayenin problemlərinin mahiyyətini dərk edən, turizm məhsullarının və xidmətlərinin istehsalı texnologiyasını planlaşdırmağı bacaran və turizm xərclərinin maliyyələşdirilməsinin yollarını səmərəli axtaran, bütövlükdə turizm sənayesinin idarə edilməsini idarə edən kadrların hazırlanması və turizm sənayesində işləmək üçün seçilməsi [5, s.97].

Yerli ekspertlər beynəlxalq turizmin inkişafının ümumi istiqamətlərini müəyyən edən amillərin iki qrupunu qeyd edirlər:

1. Ekzogen dəyişənlər, o cümlədən demoqrafik, sosial, siyasi, ekoloji, ticarət, texnologiya və nəqliyyat;

2. Turizmlə bilavasitə bağlı olan tələbi, təklifi və bölgüsünü xarakterizə edən amillər [2, s.84].

MDB ölkələrindən olan mütəxəssislər tərəfindən turizm təhsili və kadr hazırlığı sistemində aşağıdakı aspektlər qeyd olunur:

- turizm getdikcə texnoloji və təmas sahəsinə çevrildiyi üçün kadr təhsilinin rolunun gücləndirilməsi;
- müntəzəm qiymətləndirmə və effektiv kommunikasiya metodları kimi idarəetmə prioritetlərinin turizm sektoruna nüfuz etməsi [2, s.91].

İsveçrəli turizm ekspertləri hesab edirlər ki, "gələcəyin məktəbləri nəinki bilik verəcəyi, həm də inteqrasiya olunmuş təhsil, mədəniyyət və istirahət mərkəzlərinə çevrilməli olan qurumlara çevriləcəkdir". Beləliklə, ixtisaslı kadrların hazırlanması və seçilməsi beynəlxalq turizmin inkişafına təsir edən həlledici amildir. Turizm fəaliyyətinin səmərəliliyi turizm sahəsində müasir iqtisadiyyat, idarəetmə nəzəriyyəsi və praktikasının ən az işlənmiş və ən mübahisəli mövzularından biridir. Bəzi tədqiqatçılar hesab edirlər ki, "turizmin sosial-iqtisadi səmərəliliyi" anlayışı ya yoxdur, ya da onun yalnız bəzi elementləri işlənib hazırlanıb. Buna baxmayaraq, gizli formada turizm və rekreasiya sistemlərinin fəaliyyətinin effektivliyini başa düşmək üçün ümumi yanaşma mövcuddur ki, bu da onun tərkibində bir-biri ilə əlaqəli və bir-birindən asılı olan iki aspektin ayrılmasını nəzərdə tutur: iqtisadi və sosial [5, s.163].

Müasir iqtisadiyyatda, qonaqpərvərlik sənayesi, iaşə, sığorta, tibbi xidmətlər, nəqliyyat, geniş mənada animasiya fəaliyyəti, informasiya şəbəkələri və sistemləri və s. daxil olmaqla turizm fəaliyyətlərinin siyahısı nəzərəçarpacaq dərəcədə genişlənir. Bu strukturlar öz fəaliyyətlərini avtonom şəkildə deyil, bir-biri ilə qarşılıqlı əlaqədə həyata keçirdikləri üçün bu, turizm fəaliyyətinin ümumi nəticəsinin əldə edilməsi üçün sahənin formalaşmasından danışmağa imkan verir. Nəticə etibarilə, turizm fəaliyyətinin səmərəliliyinə turizm məhsulunun dəyərinin yaradılması və bölüşdürülməsi zəncirinin ümumi səmərəliliyi kimi baxmaq olar. Eyni zamanda, ən azı bir iştirakçının səmərəsizliyi bütövlükdə zəncirin səmərəsizliyinə səbəb ola bilər. Eyni zamanda, turizm fəaliyyətinin effektivliyini zəncirin bütün iştirakçılarının səmərəliliyinin məcmusu (cəmi) kimi başa düşmək yanlışdır. Turizm sektorunun inkişafının getdikcə daha mürəkkəb şəraitində, turizm məhsulunun dəyərinin yaradılması və paylanması zəncirində iştirakçıların qarşılıqlı əlaqəsi baxımından turizm fəaliyyətinin səmərəliliyini nəzərə almaq məsləhət görülür. Beləliklə, turizm fəaliyyətinin səmərəliliyinin üç komponent: iqtisadi, sosial və əlaqələrin effektivliyi vasitəsilə şərhini nəzərdə tutan yeni yanaşmanın istifadəsinin mümkünlüyü və zəruriliyindən danışmaq olar.

**Nəticə.** Turizm fəaliyyətinin səmərəliliyinin təklif olunan konseptual modeli aşağıdakı əsas müddəalarla xarakterizə olunur:

1) model turizm fəaliyyətinin səmərəliliyinin üç aspektini (sosial, iqtisadi və əlaqələrin effektivliyini) müəyyən edir, həmçinin bu tərəflərin mövcud əlaqələrini və qarşılıqlı asılılığını əks etdirir;

2) konseptual modeldə münasibətlərin səmərəliliyi iki aspektlə təmsil olunur: sosial və iqtisadi. Eyni zamanda, münasibətlərin sosial və iqtisadi komponentləri arasında sıx əlaqə olduğu üçün bu aspektlərin işıqlandırılmasının konvensionallığı göz qabağındadır;

3) model səmərəliliyin üç tərəfinin (əlaqələrin sosial, iqtisadi və səmərəliliyi) qarşılıqlı təsirinin mümkün kumulyativ təsirini əks etdirir və digər şeylərlə yanaşı, onların multiplikativ təsirini nəzərə almağı nəzərdə tutur;

4) tərəflərin qiymətləndirilməsi üçün göstəricilərin siyahısı və turizm fəaliyyətinin səmərəliliyinin aspektləri tədqiqatın məqsədlərindən asılıdır, müəyyən turizm və istirahət sisteminin fəaliyyət şərtlərinə və fəaliyyətinin xüsusiyyətlərinə uyğunlaşdırılmalıdır.

## ƏDƏBİYYAT

1. İldırımzadə V. Turizmin inkişafına investisiya qoyuluşlarının cəlbediciliyi və ondan istifadənin səmərəliliyinin artırılması: iqt. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı. Bakı: 2018. 26 s.
2. Mirzəyev A. Azərbaycanda turizm potensialından istifadənin səmərəliliyinin artırılması istiqamətləri: iqt. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dissertasiya. Bakı: 2016. 161 s.
3. Багиев Г.Л. Концептуальные основы формирования маркетинга взаимодействия в условиях развития рыночных сетей // Маркетинг взаимодействия. Концепция. Стратегии. Эффективность. СПб: Изд-во СПбГУЭФ, 2016. С.11-28.
4. Морозова Ю.Ю. Кластерное взаимодействие как фактор развития организаций туристского бизнеса // Вестник СГУТиКД. 2018. №2. С.51-55.
5. Темный Ю.В. Экономика туризма. М.: Инфра-М, 2010. 446 с.

## MÜASİR SOSİAL FENOMEN OLARAQ TURİZMİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

***Pəri Həsənova, Zeynallı Yusif***

## XÜLASƏ

Məqalədə müasir sosial fenomen olaraq turizmin səmərəliliyinin artırılması yolları araşdırılmışdır. Təklif olunan konseptual modelin gələcək inkişafı turizm fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün müvafiq metodologiyanın, maraqlı tərəflərin hər biri üçün onların seçilməsi üçün göstəricilərin və meyarların əsaslandırılması, habelə turizmin müxtəlif aspektləri üçün müvafiq metodologiyanın yaranması və işlənib hazırlanmasını nəzərdə tutur.

## СПОСОБЫ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ТУРИЗМА КАК СОВРЕМЕННОГО СОЦИАЛЬНОГО ЯВЛЕНИЯ

***Пари Гасанова, Зейналлы Юсиф***

### АННОТАЦИЯ

В статье рассматриваются пути повышения эффективности туризма как современного социального явления. Дальнейшее развитие предложенной концептуальной модели предполагает разработку соответствующей методологии оценки эффективности туристической деятельности, обоснование показателей и критериев их выбора для каждой заинтересованной стороны, а также соответствующей методологии для различных аспектов туризма.

## WAYS TO INCREASE THE EFFICIENCY OF TOURISM AS A MODERN SOCIAL PHENOMENON

***Pari Hasanova, Zeynalli Yusif***

### SUMMARY

The article examines ways to increase the efficiency of tourism as a modern social phenomenon. The further development of the proposed conceptual model involves the development of an appropriate methodology for assessing the effectiveness of tourism activities, substantiation of indicators and criteria for their selection for each stakeholder, as well as an appropriate methodology for various aspects of tourism.

# İNNOVASİYALARIN İNKİŞAF MEYİLLƏRİ VƏ AZƏRBAYCANDA TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

***Elmi rəhbər: dos.Mehriban Yadulla***
***Qazibahadır Fatimə Arif qızı***
***BDU-nun II kurs magistrantı***
***Allafata98@gmail.com***

***Açar sözlər:*** innovasiya, milli innovasiya sistemləri, innovasiya prosesi
***Ключевые слова:*** национальная инновационная система, инновация, инновационный процесс
***Keywords:*** innovation, national innovation system, innovation process.

Dövrümüz hərtərəfli və sürətli dəyişikliklərə bağlıdır. Hər gün daha da təkmilləşdirilmiş məhsul və xidmətlərdən istifadə edirik və ya buna tələb yarandığını görürük. İqtisadi inkişafa gətirib çıxaran bu innovasiyalardan istifadə ölkəmizin müasir və perspektiv inkişafında, davamlı sosial iqtisadi yüksəlişin təmin edilməsində, innovasiya fəaliyyəti və innovasiya proseslərinin idarə edilməsində önəmli rol oynamaqdadır. Həmçinin, qeyri-neft sektorunun inkişafına məqsədlənən iqtisadi modelə keçidlə bağlı innovasiyaların tətbiqi geniş zərurət xarakteri daşıyır. İctimai, iqtisadi və sosial həyatda innovasiya fəaliyyəti ölkənin perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsinə, eləcə də intellektual potensialın üzə çıxarılmasına, idarəetmə sisteminin təkmilləşdirilməsinə, innovasiyalı iqtisadiyyatın qurulması və rəqabət qabiliyyətli, elmtutumlu məhsul istehsalının təmin edilməsinə öz müsbət təsirini göstərir. İnnovasiyaların inkişaf meyillərindən və Azərbaycana tətbiqi xüsusiyyətlərindən danışarkən əvvəlcə innovasiya terminin, innovasiyaların önəminin, innovasiyanın tarixini, innovasiya sistemlərinin, innovasiya tiplərinin və innovasiyaya gedən yolun aydın başa düşülməsi vacibdir.

İnnovasiya dedikdə çox zaman yenilik, yeni texnologiyalardan istifadə başa düşülür. Veynberq innovasiyanı izah edərkən "dəyərinin alıcılar tərəfindən müəyyənləşdirildiyi yeni bir əmtəə" sözlərindən istifadə etmişdir. Əslində isə innovasiya daha geniş bir məna daşıyır. Belə ki, innovasiya qısaca olaraq yeni ideyaların məhsullara, istehsal prosesinə və ya istehsalçı firmanın bazar dəyərini artıracaq hər hansı bir fəaliyyətə tətbiqi kimi xarakterizə olunur. Yəni burada innovasiya dedikdə prosesin iştirakçıları olaraq yeni ideyalar, istehsal olunan məhsul, istehsal prosesi nəzərdə tutulur. Başqa sözlə, innovasiya üçün yeni ideyalar bir başlanğıcdır. Bu yeni ideyalar istehsal olunan məhsullara və ya istehsal prosesinə tətbiq olunduğu zaman innovasiya prosesi başa çatmış sayılır.

İnnovasiya sözünə nəzər salsaq, latın dilindən tərcümədə yaxşılaşma və yeniləşmə mənalarını ifadə etdiyini görərik. Yüksək səmərəlilik və tərəqqi məqsədilə yeniliyin tətbiqi, başqa sözlə insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsinin və ya təkmilləşdirilmiş halının cəmiyyətə təqdim edilməsidir. İnnovasiya anlayışının tarixi kökləri nisbətən fərqlənsə də, bu anlayışa müxtəlif baxışlar və ümumi konseptual yanaşmalar mövcud olmuşdur.

"Novation" anlayışı ilk dəfə Avropada 13-cü əsrdə hüquq sahəsində istifadə edilmişdir. "İnnovasiya" borc müqaviləsinin yenilənməsi mənasında istifadə edilmişdir. Konsepsiya 20-ci əsrə qədər texnologiya və sosial elmlərdə geniş istifadə edilməmişdir. 18-ci əsrin ortalarında İngiltərədə başlayan və daha sonra Kontinental Avropa və Şimali Amerikaya yayılan Sənaye İnqilabı ilə yenilik və dəyişiklik mənasını daşıyan anlayışlar müsbət qarşılanmağa başladı. Bu dövrdə "ixtira", xüsusən də "texnoloji ixtira" anlayışı geniş yayılmağa başladı. 19-cu əsrin Smit, Rikardo və Marks kimi klassik iqtisadçıları texnoloji və innovasiya anlayışlarını vurğulasalar da,

"yenilik" anlayışının müsbət məzmunlu qəbul edilməsində, şübhəsiz ki, Şumpeter ən mühüm rol oynamışdır. Şumpeter 1911-ci ildə alman və 1934-cü ildə ingilis dilində nəşr olunan "İqtisadi inkişaf nəzəriyyəsi" kitabında innovasiyaların iqtisadi inkişafın mühərriki olduğunu vurğulamışdır. Şumpeter innovasiya anlayışı üçün "yenilik" ifadəsi əvəzinə "yeni kombinasiyalar" ifadəsini işlətmiş və 5 yeni kombinasiyanın vacib olduğunu bildirmişdir.

- yeni məhsulların istehsalı
- yeni istehsal üsullarının tətbiqi
- yeni təşkilat formaları (inhisarçı firmaların yaranması və ya dağılması)
- yeni bazarların açılması
- yeni xammal mənbələrinin təchizatı

"İnnovasiya" anlayışı yalnız İkinci Dünya Müharibəsindən sonrakı dövrdə geniş yayılmışdır. 1950-1960-cı illərdə aparılan tədqiqatlarda texnoloji inkişaf prosesi xətti bir proses kimi qiymətləndirilmiş, elmi fəaliyyətlər nəticəsində ixtiralar ediləcək, elmi bilik və ixtiralar şirkətlər tərəfindən yeni məhsul və proseslərə çevriləcək, sonra isə bu yeniliklər başqa şirkətlər tərəfindən həyata keçiriləcək. Bu yanaşmaya görə texnoloji inkişaf prosesi ixtira, innovasiya və diffuziyadan ibarətdir. İxtiralar əsas tədqiqat fəaliyyətləri nəticəsində baş verirsə, yeniliklər tətbiqi tədqiqat və təkmilləşdirmə fəaliyyəti nəticəsində baş verir.

İnnovasiya anlayışı son illərdə iş dünyasında və elmdə ən geniş yayılmış anlayışlardan biridir. "İnnovasiya" indi modadan sənətə qədər bir çox fərqli sahədə, eləcə də iqtisadiyyat və biznes kimi iqtisadi siyasət və strategiyalarla bağlı sahələrdə əsas anlayışa çevrilib. Bu geniş istifadə nəticəsində konsepsiyanın əhatə dairəsi xeyli genişlənir və o, demək olar ki, bütün problemləri həll edə bilən sirli alətə çevrilir.

İnnovasiya sistemləri yanaşmasının inkişafına interaktiv təlim nəzəriyyəsi və təkamül nəzəriyyəsi kimi müxtəlif innovasiya nəzəriyyələri təsir etmişdir. Lundval innovasiya sistemləri yanaşmasını innovasiya nəzəriyyəsi ilə əlaqələndirməyə çalışdı. İnnovasiya nəzəriyyəsi öyrənmə və istifadəçi-istehsalçı qarşılıqlı əlaqəsini vurğulayır. Lundval qeyd edir ki, "Başlanğıc nöqtəmiz ondan ibarətdir ki, innovasiya müasir iqtisadiyyatın faktıdır.Əslində biz iqtisadiyyatın bütün sahələrində daim davam edən və yeni məhsullar, yeni texnikalar, yeni formalar kimi təzahür edən öyrənmə, axtarış və tədqiqat proseslərini tapmağı hədəfləyirik. Bu fəaliyyətlər yavaş və ya artan ola bilər".

1980-ci illərə qədər bir məhsul istehsal etmək üçün az sayda texnologiyaya sahib olmaq kifayət idisə, bu gün istehsal olunan bir çox məhsulda geniş çeşiddə texnologiyalardan istifadə etmək zərurəti yaranmışdır. Məsələn, paltaryuyan maşınların istehsalı üçün metal emalı texnologiyalarında səriştəli olmaq kifayət olsa da, bu gün elektron və proqram bacarıqları da məcburi hala gəldi. Məhsulların texnoloji mürəkkəbliyi artmaqla yanaşı, texnologiyaların istifadə sahələri də sürətlə şaxələnmişdir. İndi demək olar ki, hər bir məhsulda elektron texnologiyalardan istifadə olunur. Texnoloji dəyişiklik nəticəsində innovasiya fəaliyyətlərində sabit və batmış xərclər artır. İndi, hətta ən "sadə" texnologiya və məhsullar da uzun müddət davam edən və böyük investisiyalar tələb edən araşdırma və inkişaf nəticəsində hazırlanır. İnnovasiya fəaliyyətlərində qeyri-müəyyənlik və risklər artır. Bu qeyri-müəyyənliklər və risklər texnoloji, həmçinin istehlakçı seçimləri və ya rəqabət aparan şirkətlərin daha yaxşı məhsullar/texnologiyalar inkişaf etdirmə imkanları ilə əlaqədar ola bilər. İnnovasiya prosesinə gəldikdə, üç fərqli, lakin bir-birini tamamlayan sistem yanaşmalarından danışmaq olar.

Karılson və Stenkvic (1991) tərəfindən hazırlanmış yanaşmaya görə, texnologiyanın inkişafı və iqtisadi inkişaf proseslərini başa düşmək üçün zəruri olan təhlil vahidi texnoloji sistemlərdir. Texnoloji sistem müəyyən iqtisadi-sənaye sahəsində müəyyən institusional infrastrukturda fəaliyyət göstərən və texnologiyanın inkişafı, yayılması və istifadəsində iştirak edən bölmələrin

qarşılıqlı əlaqəsindən ibarət dinamik şəbəkədir. Texnoloji sistemlər firmalar arasında mal və xidmət axınları deyil, bilik, səriştə axınları əsasında müəyyən edilir. Şəbəkə müəyyən kritik ölçüyə və sahibkara malikdirsə, o, yeni imkanlar yaradan firma və texnologiyalar klasterinə çevrilir. Texnoloji sistem yanaşması vurğulayır ki, iqtisadi artımın mühərriki bir-biri ilə sinergetik qarşılıqlı əlaqədə olan firma və texnologiyalar klasterləridir. Bununla belə, firma və texnologiya klasteri müvafiq texnologiyanın potensialını qiymətləndirmək üçün kifayət deyil. Texnoloji sistemlər yanaşması bu klasterin effektiv olması üçün sahibkarın rolunun vacib olduğunu vurğulayır.

İnnovasiya prosesi ilə bağlı ən mühüm anlayışlardan biri, şübhəsiz ki, milli innovasiya sistemi konsepsiyasıdır. Bu konsepsiya təkamül iqtisadiyyatının aparıcı tədqiqatçılarından olan Frimen (1987 və 1988), Lundval (1988, 1992) və Nelson (1993) tərəfindən təklif edilmiş və beynəlxalq təşkilatlar tərəfindən texnologiya və innovasiya siyasətlərinin dizaynında geniş istifadə edilmişdir. Milli innovasiya sistemi innovasiya fəaliyyəti formalaşan iqtisadi mexanizimlər əsasında həyata keçirən dövlət və qeyri dövlət subyektlərinin qarşılıqlı təsirini inkişaf etdirən elementlər və ya obyektlər məcmusudur. İnnovasiya prosesi təkcə firmalararası qarşılıqlı əlaqə nəticəsində baş vermir. İxtisaslı işçi qüvvəsinin hazırlanmasından hüquqi və tənzimləyici infrastrukturun yaradılmasına, standartlardan akkreditasiyaya, araşdırma və inkişaf dəstəyindən əqli mülkiyyət hüquqlarına qədər müxtəlif sahələrdə intensiv özəl-dövlət qarşılıqlı əlaqəsi innovasiyaların baş verməsi üçün vacibdir. Milli innovasiya sistemi ölkədə innovasiya və texnoloji diffuziya sürətinə və istiqamətinə təsir göstərən bütün bazar və qeyri-bazar institut və təşkilatlarından ibarətdir. Milli innovasiya sisteminin qurulması, dövlət səviyyəsində bir-birini tamamlayan ən azı iki əlaqəli proseslə müşayət olunur ki, bu da son nəticədə siyasi sistemin özünə təsir edir. İqtisadi sahədə - innovasiyalı məhsul istehsalının artması; sosial sahədə - insan kapitalının keyfiyyətinin təmin edilməsi (səhiyyə, təhsil və s. sahələrinin yaxşılaşması); siyasi sferada - vətəndaşların siyasi həyatda aktiv iştirakı; ekoloji sahədə - ətraf mühitlə yeni qarşılıqlı əlaqə prinsiplərinin axtarışı; xarici siyasətdə - dünya innovasiya kompleksinə inteqrasiya olunma və s. MİS-in səmərəli fəaliyyəti üçün mühüm şərtlərdən biri onunla izah edilir ki, cəmiyyətin bütün üzvləri tərəfindən qəbul oluna bilən innovasiya dəyərləri yaradıla bilsin.

Milli innovasiya sisteminin fəaliyyət göstərməsində əsas rolu dövlət oynayır. İnnovasiyaların səmərəli yayılmasında isə müxtəlif hakimiyyət institutları, həmçinin biznes-strukturları və elmi cəmiyyətlər müstəsna rola malikdirlər. Hər bir halda MİS-in inkişaf strategiyası dövlət vasitəsilə aparılan makroiqtisadi siyasət, normativ hüquqi təminat, birbaşa və bilavasitə dövlət tənzimlənməsi, elmi texnoloji və sənaye potensialının, daxili əmtəə bazarı, əmək bazarı, həmçinin tarixi və mədəni ənənələri və xüsusiyyətləri ilə müəyyən edilir.

MİS-in yaradılması əsasında milli iqtisadiyyatın rəqabət qabiliyyətli inkişafı ilk növbədə bilik iqtisadiyyatına keçidi tələb edir. Onun başlıca xarakteristikası isə yüksək texnologiyalı sahələrin dinamik inkişafı, tədqiqat və işləmələrə investisiya qoyuluşunun sürətli artımı, məhsul və xidmətlərin elm tutumluluğunun, müəssisələrin innovasiya fəallığının yüksəldilməsi və iqtisadiyyatda innovasiya mənfəətinin artırılmasına nail olunmasıdır. MİS-in fəaliyyətində mühüm yeri elmi-texniki informasiya sistemi, informasiya kommunikasiya texnologiyaları (İKT) əsasında innovasiya fəaliyyətinin informasiya təminatı, biznesin və dövlətin fəaliyyəti üçün elektron mühitin yaradılması, internet şəbəkəsinin istifadəsi tutur. MİS-in bünövrəsini təşkil edən milli iqtisadiyyatın bazis sahələrinə gəlincə bunlara aşağıdakılar aid edilə bilər: biliyin generasiyası (elm və onun digər sahələrində olan seqmenti); biliyin yayılması və tətbiqi, elmi-texniki və innovasiya fəaliyyəti yeniliyin (tədqiqat və işləmə məhsulunun istehsalı və xidməti) kommersiyalaşması; təhsil və kadrların peşəkar hazırlıqları; innovasiya-maliyyə təminatlı

infrastrukturu; idarəetmə və tənzimlənmə (hüquqi baza, dövlət makroiqtisadi və innovasiya siyasəti, korporativ idarəetmə, bazar mexanizmi) və s.

Bu gün milli innovasiya sistemlərinin vahid tərifi və onun vahid formalaşma metodologiyası mövcud deyil. Hətta bir sıra alimlər belə nəticəyə gəlirlər ki, innovasiya sisteminin universal modelini ifadə etmək mümkün deyil. Lakin ümumi şəkildə MİS-ə tərif verməyə çalışsaq bunu belə ifadə edə bilərik; Milli innovasiya sistemi deyəndə, «milli sərhədlər çərçivəsində elmi bilik və texnologiyaların istehsalı və kommersiya satışı ilə məşğul olan bir-biri ilə əlaqəli təşkilatların (strukturların) məcmusu (iri və kiçik şirkətlər, universitetlər, dövlət laboratoriyaları, texnoparklar və inkubatorlar) başa düşülür». Deyilənlərdən bu qənaətə gələrək, Milli innovasiya sistemi (MİS) - innovasiya fəaliyyəti iqtisadi mexanizmlər əsasında formalaşan və onu həyata keçirən dövlət və qeyri-dövlət subyektlərinin qarşılıqlı təsirini inkişaf etdirən elementlər və ya obyektlərin məcmusudur.

İnnovasiyaların inkişaf meyillərindən danışarkən dünya təcrübəsinə nəzər salmaq labüddür. İnnovasiya iqtisadi inkişaf şəraitində sahələrarası əlaqələrin optimallşadırılmasında milli innovasiya sisteminin formalaşdırılması mühüm əhəmiyyətə malikdir. İEÖ-də Milli Innovasiya Sistemi (MİS) yeni texnologiyaların yaradılmasında və yayılmasında iştirak edən müxtəlif institutların (firma, elmi müəssisələr, ali məktəblər və s.) məcmusudur. Milli İnnovasiya Sistemi dövlətin innovasiya siyasətini həyata keçirən əsas mənbədir. Ayrı-ayrı ölkələrin timsalında dünya təcrübəsi göstərir ki, texnoloji zonalar iqtisadi inkişafda rol oynaya bilir. Lakin milli innovasiya sisteminin formalaşması daha effektli nəticələrə gətirə bilər. Texnoloji zonalar isə bu sistemin əsas elementi kimi özünü artıq təsdiqləmişdir.

Təhlillər göstərir ki, kiçik innovasiya müəssisələri vahid məkanda fəaliyyət zamanı daha effektli nəticələr əldə edirlər. Və belə fəaliyyət formasında iqtisadi inkişafa daha çox töhfələr verə bilirlər. Təcrübə göstərir ki, bu forma texnoparkdır və onun formalaşması üçün kompleks yanaşma prinsipi inkişafın əsas prinsiplərindən biridir. Bütün innovasiya strukturlarının yeni növləri arasında elmi texnoloji parklar özünün çoxfunksionallığı, həll etdiyi məsələlərin müxtəlifliyi ilə seçilir. Texnoparkların yaradılmasının əsas məqsədləri: ixtiraların texnologiyaya çevrilməsi və daha sonra həmin texnologiyaların da, kommersiya məhsuluna çevrilməsi, məşğulluq probleminin həlli, elmi-texniki nailiyyətlərin sürətli tətbiqidir. Dünya iqtisadiyyatında texnoparklar innovasiyalı iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi hesab edilir. Milli iqtisadiyyatın yeni sahələrinin formalaşmasında və rəqabətqabiliyyətli olmasında texnoparkların böyük rolu vardır. ABŞ-ın, Hindistanın, Çinin və s. ölkələrin İKT sahəsinin dünya səviyyəsində qabaqcıl olmasında texnoparklar əsas yerlərdən birini tutmuşdur. Hazırda dünyada inkişaf səviyyəsi müxtəlif olan ayrı-ayrı ölkələr də texnoparkların yaradılması və inkişaf etdirilməsi üçün yeni-yeni layihələr həyata keçirilir. Kornel Universiteti, INSEAD Biznes Məktəbi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) birgə nəşri olan və bu il 132 ölkəni əhatə edən Qlobal İnnovasiya İndeksinin (QİI) – 2021-ci ilin 14-cü nəşri yayımlanmışdır.

Reytinqlər innovasiya fəaliyyətinin potensialı, səmərəliliyi və çərçivə şərtlərini əhatə edən 81 göstərici əsasında tərtib edilmişdir. Təhlil edilən göstəricilər qanunvericilik, elm və təhsildən tutmuş bazar, biznes, infrastruktur və s. məsələlərinin inkişafına qədər geniş məlumatlar spektrini ehtiva edir. QİI-2021 reytinqi innovasiya fəaliyyətinin iki yekunlaşdırıcı - "innovasiya resursları" və "innovasiya nəticələri" adlanan alt indekslərə daxil olan 7 qrup göstəricisindən ibarətdir. "İnnovativ resurslar" alt indeksi beş qrupa: 1 - qurumlar; 2 - insan kapitalı və elm; 3 - infrastruktur; 4 - daxili bazarın inkişafı və 5 - biznesin inkişafı – bölünməklə innovasiya prosesləri baş verən milli iqtisadiyyatın elementlərini qiymətləndirməyə imkan verir. "İnnovativ nəticələr" alt indeksi iki qrupa: 6 - bilik və texnologiyaların yayılması və 7 - kreativ fəaliyyətin nəticələri – bölünməklə, innovasiya fəaliyyətinin faktiki nəticələrini əks etdirir. QİI–2021-in

lideri İsveçrədir, onun ardınca İsveç, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Cənubi Koreya gəlir. Ən innovativ ölkələrin ilk onluğuna Niderland, Finlandiya, Sinqapur, Danimarka və Almaniyadaxildir. Çin reytinqdə 12 -ci yeri alaraq, ikinci onluq ölkələr sırasına daxil olub. Postsovet məkanı ölkələri arasında ən yaxşı göstəricilər Estoniyada - 21-ci yer, Latviyada - 38-ci yer və Litvadadır - 49-cu yer. Rusiya 45-ci yeri, Azərbaycan isə ötən ilə nisbətən (82 -ci yer) reytinqini daha da yaxşılaşdırmışdır və 80-ci yerdə qərarlaşmışdır.

Son dövrlərdə innovasiya proseslərinin inkişafı və tətbiqi sahəsində Yaponiya dövləti ABŞ-dan xeyli irəli getmişdir və həmin proses 60-70-ci illərdən başlayaraq, burada geniş vüsət almışdır.Hal-hazırda Yapon «möcüzəsinin», yəni 60-70-ci illərdən başlayaraq bu ölkənin sürətli iqtisadi sıçrayışının əsl səbəbləri haqqında müxtəlif mülahizələr söylənilir.Bu fikirlərdən ən geniş yayılanlarından biri, həmin möcüzənin səbəbini məhz elmi-texniki tərəqqi və innovasiya sahəsindəki köklü dəyişikliklərlə bağlayır.Konkret olaraq, bu özünü həmin dövrlərdən başlayaraq elektron hesablama texnikasının, informatik idarəetmə sistemlərinin, texnoloji proseslərin və layihələşdirmənin avtomatlaşdırılmasının geniş vüsət almasında göstərir. Yaponiyada innovasiya mühitinin digər xüsusiyyətlərindən biri, iqtisadi fəaliyyətdə xarici kəşflərdən, ideyalardan, layihələrdən və s. geniş istifadə edilməsidir. Belə ki, son 30 ildə bu ölkə xarici texnologiyaların alınmasına 10 milyard dollardan çox vəsait sərf etmişdir.Bu dövrdə Yapon firmaları tərəfindən təqribən 42 min lisenziya əldə edilmişdir ki, bunların da təqribən yarısı ABŞ-ın payına düşür. Bu ölkədə innovasiya proseslərinin ən fərqli cəhətlərinin birini ölkənin texnoloji məqsədlərinin dövlət miqyasında müəyyən edilməsi, bu məqsədə çatmaq üçün iqtisadiyyatın bütün imkanlarının səfərbərliyə alınması, xüsusi sahibkarlığın bu sahədə geniş həvəsləndirilməsi və s. təşkil edir.

Qərb ölkələrində innovasiya mühiti və onunla bağlı olan proseslər elmi-texniki tərəqqi şəraitində gələcək inkişafın və iqtisadi sistemin transformasiyasının əsası, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinin, iqtisadi artımın təmin edilməsinin vacib şərti kimi qəbul edilir.

ABŞ dövləti dünya böhranından dayanıqlı iqtisadi inkişafda çıxış yolunu innovasiya sahəsinə, əsasən elmin inkişafına ən çox investisiya ayırmaqda görür. Burada elmin inkişafına ayrılmış investisiya daha perspektivli və vacib hesab edilir, Rusiyada isə əksinə, bu bir problemli büdcədən asılı tam təminat tapmayan sahə olaraq qalır.

Azərbaycanda müasir innovasiya siyasətinin davam etdirilməsi ölkənin iqtisadi inkişafına müsbət təsir edir. Lakin, bu sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla iqtisadi siyasətin davam etdirilməsi zəruridir. Azərbaycanda innovasiyalı iqtisadiyyatın tam və mükəmməl şəkildə formalaşma tələbi köklü və əsaslı islahatların, tədbirlərin həyata keçirilməsini ön plana çəkir. Məhz belə iqtisadiyyatı yaratmaq ilk növbədə, bu sahədə konkret olaraq əsaslandırılmış, orta və uzun müddətə hədəflənmiş siyasətin, strategiyanın, hüquqi əsasların və tənzimləmə mexanizminin yaradılmasını tələb edir. Ölkədə innovasiya fəaliyyətinin və siyasətinin hüquqi əsaslarını təmin edəcək əsas və mühüm sənəd kimi President İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair” Milli Prioritetlər xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunur ki, “gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır. Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, vençur və kraudfandinq institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir.

Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılmalıdır. Bu məqsədlə emal sənayesinin inkişafı dərinləşdirilməli, elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı təmin edilməlidir. Nəticəyönümlü elmi tədqiqatların təşviqi üçün rəqabətli maliyyələşdirmə mexanizmləri formalaşdırılmalıdır.” Sosial-iqtisadi inkişaf üçün artan rəqabətə hazır olmaqla yanaşı yüksək rəqabətli insan kapitalını formalaşdırmağın vacibliyi vurğulanmış, əsas şərtin müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı olduğu qeyd edilmişdir. Xarici ölkələrin təcrübəsinə nəzər salsaq görürük ki, ölkənin inkişafını, potensialını coğrafi mövqe, təbii ehtiyatlar deyil, elmin inkişafı, intellektual potensial müəyyən edir, ölkəni inkişaf etmiş ölkəyə çevirir. Azərbaycan QİÍ reytinqində "İnsan kapitalı və elm" blokunda "təhsil" inteqral göstəricisi üzrə 2020-ci ildə 84-cü yerdən 2021-ci ildə 76-cı yerə keçərək öz mövqeyini yaxşılaşdırmış, həmçinin “İnnovativ nəticələr” alt indeksi üzrə Tacikistanı (96-cı yer), Özbəkistanı (100-cü), Qazaxıstanı (101-ci), Qırğızıstanı (119-cu) qabaqlayaraq 91-ci yeri tutmuşdur.

İqtisad elmləri namizədi, dosent Əlövsət Əliyev “Elmi-tədqiqat aktivliyi üzrə bəzi dünya ölkələrinin reytinqlərinin müqayisəli təhlili və elmin maliyyələşməsi məsələləri” mövzusunda keçirilmiş seminarda bildirir ki, “indiki dövrdə iqtisadiyyatda əsas ağırlıq mərkəzi qeyri-neft sektorunun üzərinə düşməli, inkişafın əsas magistral xətti insan kapitalı, bilik iqtisadiyyatı olmalıdır. Aqrar sahəyə milyardlarla sərmayə yatırılsa da, onunla daha yüksək səviyyədə inkişaf etməyin qeyri-mümkünlüyü qəbul olunmalıdır. Həmin seqmentin ixracda məhsul və dəyər ekvivalenti kimi iştirakı zəif rəqəmlərlə ifadə olunur. Hazırda texnologiyaların inkişafının elə bir mərhələsidir ki, bir mikroçip, proqram məhsulu, hər hansı texnoloji innovasiya ölkəyə çoxlu miqdarda vəsait gətirə bilər. Elmə yaxşı biznesi nəzərdə tutan praqmatik və romantik baxış kimi müxtəlif yanaşmalar mövcuddur”. Həmçinin Ə. Əliyev elmin strateji əhəmiyyətli, prioritet fəaliyyət sahəsi olub-olmaması, ilk növbədə, hər bir ölkənin ümumi daxili məhsulunda elm sahəsinin payı, iştirakı və yaratdığı dəyərin həcmi ilə müəyyənləşdiyindən ölkədə elmin maliyyələşməsinə yanaşmanın təkmilləşdirilməsinə ciddi ehtiyac olduğunu da bildirir. Əgər 2005-ci ildə elmin inkişafı üçün dövlət büdcəsindən cəmi 28,8 milyon manat ayrılmışdısa, 2015-ci ildə bu rəqəm 113,2 milyon manata çatıb. Respublikanın 2019-ci il dövlət büdcəsinin xərc hissəsində elmə 122,3 milyon manat ayrılmışdı. Bu baxımdan həm dövlət büdcəsi vəsaitlərindən, həm də bütövlükdə innovasiya prosesinin maliyyələşdirilməsindən səmərəli istifadə etmək lazımdır ki, bu da həmişə müşahidə olunmur. Tətbiq olunan tədqiqatların həcmi təhlil olunan dövr ərzində 2,7 dəfə artmışdırsa, 2019-cu ildə 2000-ci ilə nisbətən fundamental tədqiqatlara vəsait xərclənmişdir. Respublikada innovativ iqtisadiyyatın formalaşdırılması siyasətinin həyata keçirilməsinin təsirli mexanizmlərindən biri hazırda dövlət proqramlarıdır.

Bütün bunları nəzərə aldıqda görürük ki, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair” Milli Prioritetlər – də qeyd edilən XXI əsrin tələblərinə uyğun təhsil, yaradıcı və innovativ cəmiyyət məqsədlərinin həyata keçirilməsi üçün respublikamızda potensial imkanlar mövcuddur. Azərbaycan inkişaf etmiş ölkələrdən elmi-texniki geriliyini aradan qaldırmaq və onun tam tərəfdaş kimi qlobal innovasiya mühitinə daxil olması milli innovasiya sisteminin formalaşması və inkişafından asılıdır.

## ƏDƏBİYYAT

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
2. Abbaszadə M.T. Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri Cild 22, № 4 (2020), 80-85

3. Aslanzadə İ.A "İnnovasiyanın idarə edilməsi", Bakı, 1997
4. M.Atakişiyev, Q.Süleymanov «Innovasiya menecmenti», Bakı-2004
5. F.H.Qasımov, Z.M.Nəcəfov innovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri, Bakı: "Elm", 2009, 416s
6. Qasımov F,H., Əliyev T,N., Nəcəfov Z.M, MiIli innovasiya sisteminin təşkili və idarəedilməsi: Dərs vəsaiti Bakı: Elm və təhsil,2013, 680 s.
7. Şükürov N.S "Milli innovasiya sisteminin formalaşmasının bəzi məsələləri" , Bakı, 2008
8. Arrow, K., "Economic Welfare and the Allocation of Resources for Invention", Princeton University Press 1962
9. Lee, K., Schumpeterian Analysis of Economic Catch-up Knowledge, Path-Creation, and the Middle-Income Trap, Cambridge University Press 2013

## İNNOVASİYALARIN İNKİŞAF MEYİLLƏRİ VƏ AZƏRBAYCANDA TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

***Mehriban Yadulla, Qazibahadır Fatimə***

### XÜLASƏ

Müasir dövrdə hər bir dövlətin qlobal əsasda inkişafının təmin edilməsində, innovasiyalar çox mühüm rol oynayır. Azərbaycan sosial-iqtisadi mövqeyinin beynəlxalq sferada güclənməsi üçün, xarici ölkələrin təcrübəsindən istifadə edərək milli innovasiya sistemi təkmilləşməlidir. Həmçinin elm tutumlu sahələrin inkişaf etdirilməsi biotexnologiya, nanotexnologiya mikroelektronika kimi sahələr üzrə yüksəkixtisaslı kadrların hazırlanması nailiyyətlərin maliyyələşdirilməsi və kommersiyalaşması ilə bağlı problemləri aradan qaldırmağa kömək ola bilər. Dövlət innovasiya siyasəti təkcə elmi-texniki tərəqqinin iqtisadi rolunun öyrənilməsi və bu əsasda tədbirlərin hazırlanması hüdudlarına sığmır, iqtisadiyyatın institusional elementlərinin yeni texnologiyalarla birgə müasir proseslər və məhsulların hazırlanması və tətbiqi də burada mühüm rol oynayır. Hal-hazırda digər sferalarda olduğu kimi elmi tədqiqat sferasında inkişaf meyllərinə baxmayaraq, bu sektor üzrə innovasiya inkişafının təmin etmək baxımından bir sıra problemlər mövcuddur. Bunlara misal olaraq, elmi istehsal sahələri arasında qarşılıqlı əlaqənin zəif olması, maliyyə çatışmazlığının mövcud olması, eləcə də elmi tədqiqat sferasının idarə edilməsinin tam təkmil olmamasını göstərmək olar.

## ТЕНДЕНЦИИ РАЗВИТИЯ ИННОВАЦИЙ И ОСОБЕННОСТИ ПРИМЕНЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

***Мехрибан Ядулла, Газибахадир Фатима***

### АННОТАЦИЯ

В современное время инновации играют очень важную роль в обеспечении развития каждого государства на глобальной основе. Для укрепления социально-экономических позиций Азербайджана на международной арене необходимо совершенствовать национальную инновационную систему с использованием опыта зарубежных стран. Также преодолению проблем, связанных с финансированием и коммерциализацией достижений, может помочь развитие наукоемких направлений, подготовка высококвалифициро-ванных кадров в таких областях, как биотехнологии, нанотехнологии

и микроэлектроника. Государственная инновационная политика – это не только изучение экономической роли научно-технического прогресса и разработка мероприятий на этой основе, но и разработка и применение современных процессов и продуктов институциональных элементов экономики наряду с новыми технологиями. В настоящее время, несмотря на тенденции развития в сфере научных исследований, как и в других сферах, существует ряд проблем в плане обеспечения развития инноваций в этой сфере. Примеры включают слабую взаимосвязь между научными отраслями, нехватку финансовых средств и неполное управление научными исследованиями.

## DEVELOPMENT TENDENCIES OF INNOVATIONS AND APPLICATION FEATURES IN AZERBAIJAN

***Mehriban Yadulla, Gazibahadir Fatima***

### SUMMARY

In modern times, innovations play a very important role in ensuring the development of each state on a global basis. In order to strengthen Azerbaijan's socio-economic position in the international arena, the national innovation system must be improved using the experience of foreign countries. Also, the development of science-intensive fields, the training of highly qualified personnel in areas such as biotechnology, nanotechnology and microelectronics can help to overcome the problems associated with the financing and commercialization of achievements. The state innovation policy is not only the study of the economic role of scientific and technological progress and the development of measures on this basis, but also the development and application of modern processes and products of the institutional elements of the economy along with new technologies. Currently, despite the development trends in the field of scientific research, as in other areas, there are a number of challenges in terms of ensuring the development of innovation in this sector. Examples include weak interrelationships between scientific industries, financial shortages, and incomplete management of scientific research.

# KƏND TƏSƏRRÜFATININ STRATEJİK ƏHƏMİYYƏTİ VƏ TƏMİNATININ TƏHLÜKƏSİZLİYINDƏ DÖVLƏTIN ROLU

***İbrahimli Xəzər Kamran oğlu***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: i.ü.f.d., dos. Vahid Abbasov***
***ibrahimxezer@gmail.com***

***Açar sözlər:*** Aqrar sektor, startejik əhəmiyyət, kənd təsərrüfatı təminatı, dövlət müdaxiləsi.
***Ключевые слова:*** аграрный сектор, стратегическое значение, обеспечение сельского хозяйства, государственное вмешательство.
***Keywords:*** Agrarian sector, strategic importance, agricultural provision, government intervention.

Kənd təsərrüfatı sektorunun strateji əhəmiyyətə və yerə malik olması ilə bağlı geniş fikir var. Son zamanlar dünyada kənd təsərrüfatının strateji əhəmiyyətinə birbaşa və ya dolayısı ilə təsir edən hadisələr baş verir və bu, kənd təsərrüfatı ilə bağlı müzakirələrin artmasına səbəb olur. Bir çox ölkələrdə kənd təsərrüfatının milli gəlir və məşğulluqdakı payı azalsa da, kənd təsərrüfatı fəaliyyətinin iqtisadiyyatdan başqa sosial və ekoloji təsirlərə malik olması bu müzakirələrdə dövlətin rolunu gündəmə gətirir. Kənd təsərrüfatı insanların ən əsas ehtiyacı olan qidalanma üçün zəruri olan ərzaq məhsulları ilə təmin edən bir sahə olduğundan, dövlət cəmiyyətin ərzaq təhlükəsizliyini, bununla yanaşı isə kənd təsərrüfatının təminat təhlükəsizliyini təmin etməlidir. Lakin kənd təsərrüfatı fəaliyyətinin təbiət və iqlim şəraitindən asılılığını, dünyada artan ekoloji problemləri və iqlim dəyişikliyi ilə əlaqədar təbii ehtiyatlardan istifadə ilə bağlı məhdudiyyətləri nəzərə alsaq, kənd təsərrüfatı istehsalının davamlılığı mühüm problem kimi qarşıya çıxır. Ona görə də artan əhalinin ərzaq tələbatının ödənilməsinin çətinliyi dövlətlər üçün daha başa düşülən olur. Qloballaşmanın təsiri ilə dəyişikliklərə məruz qalan kənd təsərrüfatı sektoru bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da dövlət müdaxiləsinin məhdud olduğu bazar iqtisadiyyatının dinamikasına daha açıq bir fəaliyyət sahəsi kimi çevrilməkdədir bu sektor. Aqrar sektorla əlaqəli müzakirələr kənd təsərrüfatının təminatının qarşılanması məsələsindən daha çox kənd təsərrüfatında məhsuldarlığın aşağı olması, kənd təsərrüfatında xaricə asılılığın artması və özünü təmin edən ölkə olma xüsusiyyətinin itirilməsi kimi məsələlər ətrafında aparılır. Əslində bütün bu məsələlərin təminatın təhlükəsizliyi mövzusu ilə sıx bağlılığı vardır. Bunun əsasında dövlətin kənd təsərrüfatı siyasətini müəyyən etməsinə ehtiyac var. Bu məqalə Azərbaycanda aqrar sektorun təminatının qarşılanması üçün strateji funksiyasının yerinə yetirilməsində dövlətin rolunu araşdırır.

Kənd təsərrüfatı torpaq və toxumdan istifadə edərək bitki və heyvan mənşəli məhsullar istehsal etmək və bu məhsullardan daha qiymətli məhsullar əldə etmək üçün edilən iqtisadi fəaliyyətədir. Kənd təsərrüfatının iqtisadiyyatdakı əhəmiyyəti və rolu bəşər tarixi qədər qədimdir. Torpağa əsaslanan əkin, becərmə və məhsul yığımı səylərini ifadə edən kənd təsərrüfatı istehsalı və fəaliyyəti köçəri həyat tərzindən oturaq yaşayışa keçiddə mühüm rol oynamış və sənaye inqilabına qədər on min ilə yaxın bir müddətdə bəşəriyyətin taleyini müəyyən etmişdir. Kənd təsərrüfatı bazar iqtisadiyyatı şərtlərinə tam buraxıla bilməyən və demək olar ki, hər bir ölkədə dövlətin müdaxiləsini tələb edən strateji əhəmiyyətli sahə kimi qiymətləndirilir. Kənd təsərrüfatının strateji sahə hesab edilməsində əhalinin qidalanması, ərzaq təhlükəsizliyi, resursların sənayeyə transferi və gəlirlərin bölüşdürülməsi amilləri ön plana çıxır. Bu amillərlə yanaşı, dövlətin kənd təsərrüfatına müdaxiləsini tələb edən başqa səbəblər də var.

İnsanda təməl tələbat olan aclıq hissini ödəmək və ya qida ehtiyacını ödəmək bilavasitə yaşamaq mübarizəsi ilə bağlı olduğu üçün bir cəmiyyətin ən prioritet problemi əhalinin qidalanmasıdır. Təhlükəsizlik, sağlamlıq, təhsil, mədəniyyət və əyləncə kimi ehtiyaclar ancaq qidalanma məsələsi həll edildikdən sonra gündəmə gəlir. Ona görə də hər bir cəmiyyətin məcburi istehlak maddəsi olan ərzaq istehsalı ilə məşğul olması qaçılmazdır. Hər bir ölkə öz sosial quruluşuna və iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq kənd təsərrüfatı ilə məşğul olmalıdır. Qidalanma zərurəti bu yöndəki tələbatı mümkün edən kənd təsərrüfatı məhsullarını istehsal edən aqrar sektoru strateji mövqeyə qoyur və bu məqsədlə zərurət yarandıqda aqrar sektor dövlət tərəfindən külli miqdarda vəsait köçürülərək dəstəklənir.

Əslində əhalinin qidalanması problemini yerli istehsal əvəzinə xaricdən ərzaq məhsulları gətirməklə həll etmək olar. Lakin insan toplumları və ya ölkələr arasında münasibətlərin korlanması və aralarındakı gərginliyin zaman-zaman müharibəyə çevrilə bilməsi qarşısında ölkələr ümumiyyətlə kənd təsərrüfatı baxımından xarici dövlətlərdən asılı olmaq istəmirlər. Bu səbəbdən aclıq, təbii fəlakət, müharibə kimi fövqəladə vəziyyətlərdə ehtiyac duya biləcəkləri ərzaq ehtiyatlarını hazır saxlamaq istəyirlər. Bu, artıq məhsul istehsalı zərurətinə gətirib çıxarır, ona görə də kənd təsərrüfatı baxımından özünü təmin etmək və ərzaq təhlükəsizliyini qarşılanması zərurəti dövlətin aqrar sektoru dəstəkləməsinə səbəb olur. Qida təhlükəsizliyi anlayışı iki şəkildə idarə oluna bilər. Birincisi, yeməli qidaların təhlükəsizliyi, ikincisi təməl ərzaq məhsulları ilə bağlı xarici ölkələrdən asılı olmadan ölkələrin bu məhsulları nə dərəcədə özləri istehsal etməsidir. Bir ölkənin kənd təsərrüfatında özünü təmin etməsi və onun ərzaq təhlükəsizliyi "kənd təsərrüfatının təminat təhlükəsizliyi" anlayışı ilə ifadə oluna bilər. Aqrar sektorun təminatı kənd təsərrüfatı istehsalçılarına ədalətli və adekvat həyat səviyyəsinin qarşılanması, eləcə də istehlakçılara münasib qiymətlərlə uyğun məhsul təminatının qarantiyasıdır. Başqa sözlə, fövqəladə vəziyyətlərdə çətinlik çəkməmək üçün kənd təsərrüfatı istehsalı və ərzaq təhlükəsizliyi baxımından özünü təmin etməkdir. İstehlakçılara münasib qiymətə kifayət qədər məhsul tədarükünün təmin edilməsi və onun davamlılığının təmin edilməsi məqsədi hökuməti aqrar sektora müdaxilə etməyə sövq edir. Bundan əlavə, artan əhalinin tələbatını ödəmək üçün kənd təsərrüfatı məhsuldarlığının artırılması qaçılmaz olduğundan, bu məqsədlə dövlətin aqrar sektora informasiya və texnologiya dəstəyi verməsi zəruridir.

Kənd təsərrüfatı məhsullarının istehsalı mövsümi xarakter daşıdığından və təbii-iqlim şəraitindən asılı olduğundan, kənd təsərrüfatı məhsullarının qiymətlərindəki qeyri-sabitlik, kənd təsərrüfatı gəlirlərindəki dalğalanmalar kənd təsərrüfatı məhsulları istehsalçılarının ədalətli və kifayət qədər həyat səviyyəsini təmin etməyi çətinləşdirir. Kənd təsərrüfatı xüsusilə sadə texnologiyanın tətbiq olunduğu, pis hava şəraiti və kənd təsərrüfatı zərərvericilərinə qarşı çox həssas olan və kənd təsərrüfatı infrastrukturunun qeyri-kafi olduğu inkişaf etməkdə olan ölkələrdə riskli fəaliyyət sahəsi kimi görülür. Buna görə də potensial qazanclarla yanaşı, yüksək risklər də var. Kənd təsərrüfatı ilə məşğul olan əhali riskdən çəkinən toplum hesab olunur. Qeyri-sabit sənayeni bazar iqtisadiyyatı şərtlərinə buraxmaq əksər istehsalçıları və yarı torpaqsız işçiləri daimi etibarsızlıq və qeyri-müəyyənlik mühitində yaşamağa məcbur edə bilər. Buna görə də hökumət kənd təsərrüfatı məhsullarının qiymətlərindəki qeyri-sabitliyi azaltmaq və kənd təsərrüfatının aşağı gəlirlərini yaxşılaşdırmaq üçün dəstəkləyici fəaliyyətlər və siyasətlər həyata keçirməlidir.

Kənd təsərrüfatının başqa bir funksiyası da ölkələrin sənayeləşməsinə və bununla da inkişaf prosesinə töhfə verməkdir. Sənayeləşmə prosesində kənd təsərrüfatının milli gəlirdə payının azalmasına baxmayaraq, kənd təsərrüfatı digər sektorlarla əlaqələri və bazar əlaqələri sayəsində öz strateji əhəmiyyətini qoruyub saxlamaqda davam edir. Kənd təsərrüfatının bazar iqtisadiyyatı ilə əlaqələri; O, artan gəlirlə artan əhali üçün ərzaq istehsalı, sənaye investisiyalarına əmanət

axınının təmin edilməsi, sənaye məhsullarının bazarlarının genişləndirilməsi, idxal kapital mallarını almaq üçün ixracdan qazanc əldə etmək və emal sənayesində istifadə üçün əsas kənd təsərrüfatı məhsullarının istehsalı kimi müxtəlif formalarda özünü göstərir. Sənaye ilə kənd təsərrüfatı arasında digər əlaqə işçi qüvvəsinin hərəkətliliyi ilə qurulur. ÜDM-də kənd təsərrüfatının payının azalması ilə örtülü işsizliyin üstünlük təşkil etdiyi kənd təsərrüfatından sənaye sektoruna əmək miqrasiyası, sənaye üçün isə ucuz işçi mənbəyi təşkil edir. Bu nəticə aqrar sektorda aşağı məhsuldarlığa malik işçi qüvvəsinin sənayedə daha səmərəli işləməsinə şərait yaratmaqla inkişafın mühüm problemi olan məhsuldarlıq ehtiyacına cavab verir.

Sənayeləşmə kənd təsərrüfatından dəstək almaqla yanaşı, həm də kənd təsərrüfatı sektorunda əhəmiyyətli dəyişikliklərə səbəb olur, eyni zamanda kənd təsərrüfatının iqtisadiyyatda dominant roluna son qoyur; Digər tərəfdən, kənd təsərrüfatında mexanikləşdirmə, süni gübrə və pestisidlərin tətbiqinə və onların geniş yayılmasına şərait yaratmaqla kənd təsərrüfatında məhsuldarlığın əhəmiyyətli dərəcədə artmasına səbəb olur. Digər tərəfdən, sənayeləşmə və urbanizasiya ilə artan ekoloji problemlərin kənd təsərrüfatı fəaliyyətlərinə mənfi təsirlərini aradan qaldırmaq üçün dövlət müdaxiləsi zəruridir.

Dövlətin aqrar sektora müdaxiləsinin digər mühüm səbəbi bazar sistemindən yaranan gəlir bölgüsüdür. Bu mənada aqrar sektorda aşağı gəlirli qrupda əhaliyə qarşı baş verən qeyri-bərabər/ədalətsiz bölgüsünü düzəltmək üçün dövlət müdaxilə qaçılmazdır. Kənd yerlərində yaşayan və kənd təsərrüfatı ilə məşğul olan əhali ilə şəhər yerlərində yaşayan və sənaye və xidmətlər kimi daha yüksək əlavə dəyəri olan sektorlarda çalışan əhali arasında gəlir bərabərsizliyinin düzəldilməsi ilə bağlı narahatlıqlar dövlətin aqrar sektora müdaxiləsinin mühüm səbəbini təşkil edir. Məlum faktdır ki, kənd təsərrüfatı sektorunda məhsuldarlıq və əlavə dəyər yaratmaq imkanları sənaye və xidmət sektorları ilə müqayisədə kifayət qədər aşağıdır. Əgər dövlət yenidən bölüşdürmə rolunu oynayaraq gəlirlərin bölgüsünə müdaxilə etməsə, kənd təsərrüfatı ilə məşğul olan insanlar milli gəlirdən daha az pay ala bilərlər. Gəlir bölgüsünün pisləşməsi sosial rifaqı və əmin-amanlığı pozmaq, qeyri-sabitliyə yol açmaq, siyasi və iqtisadi böhranlara səbəb olmaq riskini daşımaqdadır. Belə hallarla üzləşməmək üçün dövlətlər cəmiyyətin müxtəlif təbəqələrinin milli gəlirdən daha balanslı pay almasını təmin etmək üçün aqrar sektora ciddi dəstək göstərir. Keçmiş təcrübə göstərir ki, kənd təsərrüfatının yüksək artım templəri kənd yerlərində yoxsulluğu azaldır. Güclü kənd təsərrüfatı artımı ərzaq qiymətlərinin aşağı salınması, ərzaq istehsalçıları və kənd işçiləri üçün gəlir imkanlarının artırılması, miqrasiyanın azaldılması və məhsuldarlığın artırılması kimi müsbət sektorlararası təsirlərə gətirib çıxarır. Dünya Bankının 1996-cı il Hesabatında bildirilirdi ki, kənd təsərrüfatı sektorunda 3% artım yoxsulluğun 1% azalmasına səbəb olub.

Bazar uğursuzluğu dediyimiz bəzi sahələrin mövcudluğuna görə aqrar sektora dövlət müdaxilələri də zəruridir. Birincisi, kənd təsərrüfatı istehsalının tələb etdiyi suvarma xidmətlərinin ictimai xarakter daşımasıdır. Bir çox ölkələrdə dövlətin suvarma layihələrinə vəsait ayırması və kənd təsərrüfatı istehsalçılarına bu xidməti ödənişsiz göstərməsi mümkündür. İkincisi, natamam məlumat və/yaxud asimmetrik məlumat problemidir. Aqrar sektor ilə bağlı ictimaiyyətin verdiyi məlumatları ictimai sərvət kimi qiymətləndirmək olar. Kənd təsərrüfatı istehsalçısın əldə etdiyi və istifadə etməyə başladığı biliyin ənənəvi formalarda yaşayan cəmiyyətdə qonşuları tərəfindən də istifadə olunması qaçılmazdır. Bu müsbət kənar təsir xüsusilə yeni texnologiyaların mənimsənilməsində və istehsalçılara verilən dəstəyin rasionallığının təmin edilməsində istifadə olunur. Sığorta və kredit sahələrində zəif rəqabət bazarı şəraiti də dövlətin kənd təsərrüfatına müdaxiləsini tələb edən digər səbəb kimi göstərilə bilər. İnkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sektorunda çalışanlar üzləşdikləri istehsal və qiymət risklərindən tam sığortalanmırlar.

Dövlət kənd təsərrüfatı məhsullarının təhlükəsizliyini təmin etmək üçün müxtəlif tənzimləyici, maliyyə və pul tədbirlərinə müraciət edə bilər: Tənzimləmə tədbirləri; tədarükün planlaşdırılması üçün məlumat axınının təmin edilməsi, kənd təsərrüfatı mülkiyyətinin strukturunun tənzimlənməsi, kənd təsərrüfatı məhsullarının qiymət siyasəti, kənd təsərrüfatı istehsalına kvota və qadağalar kimi məsələləri əhatə edir. Maliyyə və pul tədbirlərinə tədbirlər dəstək siyasəti kontekstinə isə verilən subsidiyalardır, ictimai infrastruktur investisiyaları, vergi güzəştləri, kənd təsərrüfatı krediti və sığorta siyasəti aid ola bilər.

Belə qənaətə gəlmək olar ki, postsovet ölkələrindən ilk dəfə olaraq Azərbaycanda müvəffəqiyyətli kənd təsərrüfatı islahatlarına başlanmış və ilkin mərhələsi başa çatdırılaraq müxtəlif mülkiyyət mənsubiyyətli kənd təsərrüfatı əmtəə istehsalçıları formalaşdırılmışdır. Kənd təsərrüfatı sektorundaçoxukladlı təsərrüfatçılıq sisteminin yaradılması ilə bağlı çoxsaylı normativ hüquqiaktlar qəbul edilmiş, kənd təsərrüfatı iqtisadiyyatında, həmçinində onun aparıcı sahələrindən olan kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin hüquqi rejimi formalaşdırılmışdır. Benəlxalq praktikada kənd təsərrüfatı sektorunun dövlət tənzimlənməsi, hər şeydən əvvəl, burada çoxukladlı təsərrüfatçılıq sistemi və azad rəqabət mühütini yaratmaq məqsədilə uğurlu antiinhisar tədbirlərinin aparılmasını özündə birləşdirir. Qeyd etmək lazımdır ki, son illərdə ölkə iqtisadiyyatın azadlaşdırılması və inzibati-amirlik sistemindən imtina edilməsi nəticəsində əmtəə istehsalçılarından məhsulların tədarükünün dövlət inhisarı aradan qaldırılmış, kənd təsərrüfatıməhsulları bazarının təşkili, eləcə də kənd təsərrüfatı məhsullarının tədarük edilməsində antiinhisar və azad rəqabət mühitinin formalaşdırılması istiqamətində əsaslı tədbirlər həyata keçirilmişdir. Hal-hazırda kənd təsərrüfatı sektoruna dövlət dəstəyinin göstərilməsinin əsas istiqamətlərindən biri də kənd təsərrüfatı məhsulu istehsalçılarına texniki dəstəyin verilməsi yeni şəraitə uyğun ixtisaslı kadrların hazırlanmasından ibarətdir.

## ƏDƏBİYYAT

1. Qasımov Ə. “Aqrar sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi” Bakı 2005
2. Salahov S.V. “Aqrar sahənin dövlət tənzimlənməsi problemləri” Bakı 2004
3. ACAR, M., (2003), “Fiyat Desteğinden Doğrudan Desteğe: Dünyada Tarımsal Destekleme Politikalarında Yeni Yönelimler”, Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi. 101-116.
4. ACAR, M, (2008), “Tarım ve Kalkınma”, Kalkınma Ekonomisi, Editörler: Sami Taban, Muhsin Kar; 2. Baskı, Ekin Yayınevi, Bursa, 159-184.
5. BERNSTEIN, H., (2010), Tarımsal Değişimin Sınıfsal Dinamikleri, Yordam Kitap, İstanbul.

# KƏND TƏSƏRRÜFATININ STRATEJİK ƏHƏMİYYƏTİ VƏ TƏMİNATINININ TƏHLÜKƏSİZLİYINDƏ DÖVLƏTIN ROLU

***İbrahimli Xəzər***

**Xülasə**

Aqrar sektorun stratejik bir önəmə sahib olduğu yayğın olaraq qəbul edilməkdədir. Artan əhalinin qida ehtiyacının qarşılanması, qida təhlükəzliyinin təmin edilməsi və təbii sərvətlərin qorunması kimi məsələlər bu sektorun vacibliyini artırmaqdadır. Aqrar sektorun bu özəlliyi kənd təsərrüfatı təminatın təhlükəsizliyinin qarantiya alınması məsələsini mühüm edir. Buna görə də, aqrar sektorun dövlət tərəfindən öncəllikli sektor elan edilib, müvafiq siyasətlərlə dəstəklənməlidir.

Məqalənin məqasədi kənd təsərrüfatının startejik əhəmiyyətinə, təminatın təmin edilməsinə, dövlət müdaxiləsinə və Azərbaycanda bu yöndə görülən işlər barəsində nüanslara diqqət çəkməkdədir. Bu səbəbdən kənd təsərrüfatının təminatı qarşılanmasına yönəlmiş siyasət dəyişikliklərinin strateji şəkildə həll edilməsi və praktikada tətbiq edilməsi qaçılmazdır.

## СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА И РОЛЬ ГОСУДАРСТВА В БЕЗОПАСНОСТИ ПОСТАВОК

***Ибрагимли Хазар***

### АННОТАЦИЯ

Общепризнанно, что сельскохозяйственный сектор имеет стратегическое значение. Такие вопросы, как удовлетворение потребностей растущего населения в продуктах питания, обеспечение продовольственной безопасности и защита природных ресурсов, повышают важность этого сектора. Эта особенность сельскохозяйственного сектора делает важным обеспечение безопасности поставок сельскохозяйственной продукции. Поэтому аграрный сектор объявлен государством приоритетным сектором и должен поддерживаться соответствующей политикой.

Цель статьи - привлечь внимание к стратегическому значению сельского хозяйства, обеспечению безопасности, государственному вмешательству и нюансам работы, проводимой в этом направлении в Азербайджане. По этой причине изменения политики, направленные на удовлетворение потребностей сельского хозяйства, неизбежно будут стратегически рассмотрены и реализованы на практике.

## THE STRATEGIC IMPORTANCE OF AGRICULTURE AND THE ROLE OF THE STATE IN SECURITY OF SUPPLY

***Ibrahimli Khazar***

### SUMMARY

It is widely accepted that the agricultural sector is of strategic importance. Issues such as meeting the food needs of the growing population, ensuring food security and protecting natural resources are increasing the importance of this sector. This peculiarity of the agricultural sector makes it important to guarantee the security of agricultural supply. Therefore, the agricultural sector has been declared a priority sector by the state and should be supported by appropriate policies.

The purpose of the article is to draw attention to the strategic importance of agriculture, ensuring security, government intervention and the nuances of the work done in this direction in Azerbaijan. For this reason, it is inevitable that policy changes aimed at meeting the needs of agriculture will be strategically addressed and put into practice.

## QISA XƏBƏRLƏR

## DÜNYAYLA İNSAN

İnsanlar biganə olduğu zaman .
Ürəklər viranə olurmuş demə.
Xoş sözə, söhbətə möhtac olanda.
İnsan da yarpaqtək solurmuş demə.

Sən demə insan da çay kimi çağlar.
Sel kimi kükrəyib dağlar aşarmış.
Yorulub bezəndə bir günəş kimi.
Bir qürub yaşayıb vidalaşarmış.

Dünyanı nuruyla dolduran günəş.
Özü işıq verib cahana hər gün.
Qəlbləri sevinclə dolduran günəş.
Nə yazıq hər axşam gedişə sürgün.

Bəzək şimşək kimi çaxarmış insan.
Ürəyi dərdlərdən dolub daşanda.
Kiminsə qəlbini yaxarmış insan .
Fərqinə varmazmış o an coşanda.

Sən demə ləpəli bir dəniz imiş
Sözlər firtinalar yaradar, demə.
Tanımaq olmazmış, çox qəliz imiş.
Dünyanı məhvərdən qoparar onda.

Dərdlərin önündə dağ kimi məğrur.
Qayatək sərt qalıb dözüb durarmış.
Ən yüksək zirvəsi əyilməz qürur.
Dağ əzəmətiylə yadda qalarmış.

Nə qədər dünyaya bənzəyir insan.
Ruhu da dünyatək qarma-qarışıq.
Ekizmi yarandı dünyayla insan?
Bir sirli dünyadır insan qarışıq.

AYGÜN XƏLİLQIZI

# MÜNDƏRİCAT

## FƏLSƏFƏ

***Zeynəddin Hacıyev.*** Müasir Azərbaycan dövlətinin sosial siyasətinin nəzəri əsasları...................3
***Məmiyeva Elza.*** Əl Fərabi fəlsəfəsində dövlət anlayışı......................................................9
***İsazadə Leyla.*** Əli Bəy Hüseynzadənin dünyagörüşünün formalaşmasının müqəddəm şərtləri.....................................................................................................................................13
***Əhmədov Əhməd.*** Hərəkət-imic və zaman-imic...........................................................17
***Hüseynli Yetər.*** Informasiya cəmiyyətinin tərəqqi meyarları............................................21
***Ağayeva Arzu.*** Rene Dekart fəlsəfəsində tanrı -varlıq əlaqəsi............................................27
***İsazadə Leyla.*** Əli Bəy Hüseynzadənin Qərb mədəniyyətinə münasibəti...........................32
***İbadov Orxanpaşa.*** Azərbaycanda hüquqi dövlət ideyasinin reallaşmasının sosial əsasları........36
***Həsənzadə Gülay.*** Fizioloji, sosial və psixoloji yaşlanmanin təbiəti.................................41
***Nəsibova Gültac.*** Fəlsəfədə insan problemini dair müxtəlif konsepsiyalar.........................46
***Zeynəddin Hacıyev.*** İctimai psixologiyanın mahiyyətinə dair...........................................51
***Nəsibova Gültac.*** Türk fəlsəfəsində insan konsepsiyası....................................................57
***Quliyeva Simarə.*** Kapitalizmdə mənəvi özgələşmənin təzahürü.......................................61
***Тагиев Ариф, Фикрет Эфендиев.*** К вопросу о нераскрытых научных, космических тайн низами гянджеви…………………………………………………………………....................67
***Məmiyeva Elza.*** Türk hakimiyət anlayişina görə qədim türk hüququ və özəllikləri……......75
***Фикрет Эфендиев, Ислам Исламов.*** К вопросу о самоорганизации материи и развитии систем.....................................................................................................................79
***Ağayeva Arzu.*** R.Dekart fəlsəfəsində bilgi anlayışı və onun dəqiqliyi problemi.................84

## SOSİAL İŞ

***Zeynalova Səma.*** Gənclər üçün layiqli əməyin dəstəklənməsi..........................................90
***Дадашов Нагы.*** Качество жизни населения...............................................................94
***Məmmədov Həbib.*** Nəsirəddin Tusinin «Əxlaqi nasiri» əsərində ailəyə olan ehtiyacın səbəbləri.............................................................................................................................98
***Quliyeva Əzizə.*** Gürcüstan və Azərbaycanın sosial müdafiə sisteminin müqayisəli təhlili........103
***Дадашов Нагы.***Covid 19 влияние пандемии на уровень доходов населения.................108
***Mahmudova Nərmin.*** Silahlı qüvvələrdə sosial xidmətin tarixi və inkişafı.......................112

## İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

***Алиева Фарида.*** Таможенные формы обеспечения национальной экономической безопасности………………………………………………………………………..............115
***İskəndərli Aişə.*** Xarici ticarət əlaqələrinin tarif tənzimlənməsi metodları........................120
***Aslanov Habil, Məmmədli Ləman.*** Beynəlxalq valyuta münasibətlərinin tənzimlənməsi........125
***Yadulla Mehriban, İsayev Əmrah.*** Azərbaycanda açıq iqtisadiyyata keçidin yüksək forması kimi azad ticarət razilaşmalarının imkanları və ilkin şərtləri..........................................131
***İbrahimzadə Zenfira.*** Sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi.........................................135
***Həsənova Pəri, Quliyev Əhəd.*** Fordizm prinsipi və onun müasir iqtisadiyyat üzərindəki

təsiri.........................................................................................................................139
***Yadulla Mehriban, İsayev Əmrah.*** Xarici ticarətin dövlət tənzimlənməsinin əsas xüsusiyyətləri və istiqamətləri..........................................................................................................143
***Xudaverdiyev Sənan, Xasiyeva Leyla.*** İqtisadi inkişaf baxımından bank sisteminin hüquqi tənzimlənməsi məsələləri.......................................................................................151
***Məmmədov Nicat.*** Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafının obyektiv zəruriliyi.........................................................................................................155
***Həsənova Pəri, Zeynallı Yusif.*** Turizm – iqtisadi fəaliyyət forması kimi ..........................162
***Babayev Fərid, Aytən Şərifova.*** Xarici iqtisadi fəaliyyətin valyuta tənzimlənməsinin konseptual əsasları.........................................................................................................166
***Məmmədov Nicat.*** İnformasiya və telekomunikasiya sferasindakı normativ-hüquqi münasibətlərin təsnifatı..............................................................................................174
***Səidə Şixəlizadə, Amid Kazımov.*** Dövlətin xarici iqtisadi siyasətinin mahiyyəti.....................180
***İbadova Ülviyyə.*** Azərbaycana qarşı Ermənistanın hərbi təcavüzü ilə bağlı böyük dövlətlərin ikili standartlar siyasətinin müqayisəli təhlili.........................................................................185
***Xudaverdiyev Sənan, Xasiyeva Leyla.*** Bank fəaliyyətinin tənzimlənməsi və nəzarət sisteminin səmərəliliyinin yüksəldilməsi…………………………………………………….............191
***Səidə Şixəlizadə, Amid Kazımov.*** Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti dünya ölkələri ilə müqayisəsi.............................................................................................196
***Məmmədova Təranə.*** Azərbaycanın xarici iqtisadi əlaqələrinin zəruriliyi və onu şərtləndirən amillər.........................................................................................................................201
***Həsənova Pəri, Zeynallı Yusif.*** Müasir sosial fenomen olaraq turizmin səmərəliliyinin artırılması yolları.........................................................................................................................207
***Mehriban Yadulla, Qazibahadır Fatimə.*** İnnovasiyaların inkişaf meyilləri və Azərbaycanda tətbiqi xüsusiyyətləri...............................................................................................212
***İbrahimli Xəzər.*** Kənd təsərrüfatinin stratejik əhəmiyyəti və təminatınının təhlükəsizliyində dövlətin rolu.......................................................................................................................220

## QISA XƏBƏRLƏR

**Aygün Xəlilqızı.** Dünyayla insan.........................................................................225

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR
PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 29
(III HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 25.11.2020

Çapa imzalanmışdır: 25.11.2020
Format: 60 ×84 1/8
Şərti çap vərəqi – 38
Sifariş № 45
Tiraj – 100 nüsxə
---------------------------------------------